28 MAY MÜSTƏQİLLİK GÜNÜDÜR

RƏSMİ DÖVLƏT QƏZETİ

AZƏRBAYCAN

№ 111 (9566) 28 may 2024-cü il ÇƏRŞƏNBƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

Azərbaycan ilk dəfə bu milli bayramı suverenliyini tam təmin etmiş ölkə kimi qeyd edir

Bu gün müsəlman Şərqində ilk demokratik və parlamentli respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 106-cı ili tamam olur. 1918-ci il may ayının 28-də cümhuriyyətin elan edilməsi imperiya əsarətində ağır məşəqqətlərə məruz qalmış xalqımızın milli-azadlıq mübarizəsinin qanunauyğun nəticəsi, dərin tarixi kökləri olan milli dövlətçilik ənənələrimizin davamı idi.

Birinci Dünya müharibəsinin sona çatması, Rusiyada oktyabr inqilabı və çarizmin süqutundan yaranmış gərgin vəziyyət, Rusiyanın keçmiş ərazisinin hamısına lazımi qədər nəzarət edə bilməməsi Azərbaycan Xalq Cümhuriyyətinin yaranması üçün əlverişli şərait yaratmışdı. Xüsusilə qeyd olunmalıdır ki, belə bir şəraitdə müstəqil cümhuriyyəti qura biləcək qabaqcıl ziyalılar təbəqəsinin yetişməsi də Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasında müstəsna rol oynamışdı. Müstəqil dövlətçilik ideyasını gerçəkləşdirmək arzusu ilə alışıb-yanan, yazdıqları məqalələrdə, ictimai və siyasi fəaliyyətlərində bu hisslərini fəxarətlə büruzə verən vətənpərvər insanların yorulmaz səyləri nəticəsində müstəqilliyə aparan yollardakı maneələr dəf edildi. Məhz o insanların müstəqil dövlətçiliyin bərpa olunmasına xidmət edən əqidə və məslək birliyi son nəticədə öz sözünü dedi və 1918-ci il may ayının 28-də Azərbaycanın müstəqilliyini bəyan edən İstiqlal Bəyannaməsi qəbul edildi.

Qarşısına müstəqil, azad və demokratik respublika qurmaq kimi şərəfli vəzifə qoymuş ilk milli hökumətimiz cəmi 23 aylıq fəaliyyəti dövründə xalqımızın milli mənlik şüurunu özünə qaytardı, onun öz müqəddəratını təyin etməyə qadir olduğunu əyani şəkildə bütün dünyaya nümayiş etdirdi.

Təəssüf ki, 1920-ci ilin aprelində yaranmış tarixi şərait xalqımıza istiqlal mücadiləsini sonadək davam etdirməyə imkan verməmişdir. Azərbaycan Xalq Cümhuriyyəti süqut etsə də, onun şüurlara aşılamış olduğu müstəqillik ideyaları bütün məhrumiyyətlərə baxmayaraq, xalqımızın yaddaşından heç vaxt silinmədi. Azərbaycanın dövlətçilik tarixində bu varislik ənənəsini xalqımız cümhuriyyətin süqutundan sonrakı 70 illik sovet hakimiyyəti dövründə qəlbində və şüurunda yaşatdı.

Xüsusən Ümummilli Lider Heydər Əliyevin respublikamızda uğurla gerçəkləşdirdiyi siyasət xalqımızın tarixi-mədəni yaddaşını özünə qaytararaq milli mənlik şüurunu inkişaf etdirdi, azərbaycançılıq məfkurəsi işığında müstəqillik arzularının güclənməsinə və yaxın gələcəkdə yenidən həqiqətə çevrilməsinə zəmin yaratdı.

→ 14

Prezident İlham Əliyev Müstəqillik Günü münasibətilə paylaşım edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sosial media hesablarında 28 May - Müstəqillik Günü münasibətilə paylaşım edib.

AZƏRTAC xəbər verir ki, paylaşımdakı fotonun üzərində bu sözlər yer alıb: "28 May - Müstəqillik Günü".

Bakının memarlığı və müasirliyi ilə harmoniya təşkil edən ticarət mərkəzi



Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "Crescent Bay" layihəsinin təqdimatında və "Crescent Mall"un açılışında iştirak ediblər

"Crescent Mall" ticarət mərkəzi ənənənin innovasiyalarla qovuşduğu bir məkan kimi Bakının müasir və dinamik inkişafını əks etdirir. 115 min kvadratmetr sahədə alış-veriş, əyləncə və istirahətin təklif edildiyi məkanda 5 mərtəbəli müasir texnologiyalarla inşa edilən bina, 3 mərtəbəli 1193 parkinq yeri, açıq havada yerləşən terras və restoran, həmçinin Azərbaycanda ticarət mərkəzində ilk dəfə fəaliyyət göstərəcək musiqili fəvvarə yer alıb.

Ticarət mərkəzində 107 geyim, qastronomiya, sağlamlıq, uşaq əyləncə mərkəzləri və digər mağazalar var. Bura gələn qonaqlar vaxtlarını səmərəli keçirə biləcəklər. "Crescent Mall"da alıcılara böyüklər və uşaqlar üçün geniş çeşiddə geyimlər, ev avadanlıqları və digər məhsullar təklif olunur.

Mərkəzdə 2400-ə yaxın işçi fəaliyyət göstərəcək.

→ 2

"Bütün ölkələri planetimizi xilas etmək naminə həmrəylik nümayiş etdirməyə çağırıram"

İnkişaf etməkdə olan kiçik ada dövlətlərinin "Dayanıqlı firavanlıq üçün istiqamətin müəyyən olunması" mövzusunda 4-cü Beynəlxalq Konfransının iştirakçılarına

Xanımlar və cənablar,

Azərbaycan həmişə İnkişaf etməkdə olan kiçik ada dövlətləri ilə həmrəy olub, onların legitim maraqlarını və narahatlıqlarını müdafiə edib.

Azərbaycanın Qoşulmama Hərəkatına 4 illik sədrliyi dövründə biz hərəkatın gündəliyini irəli aparmaq üçün səylərimizi əsirgəmədik. Qoşulmama Hərəkatının institusional inkişafına, hərəkatın birliyinin möhkəmləndirilməsinə və nüfuzunun artırılmasına xüsusi diqqət yetirildi.

Qoşulmama Hərəkatına sədrlik Azərbaycana təşkilatın bütün üzv dövlətlərinin, o cümlədən İnkişaf etməkdə olan kiçik ada dövlətlərinin ehtiyaclarını və narahatlıqlarını daha yaxşı anlamaq üçün imkan yaratdı.

Qoşulmama Hərəkatının sədri kimi Azərbaycan COVID-19 pandemiyasına qarşı mübarizə üzrə qlobal səylərin önündə gedib və bu məsələ ilə bağlı BMT-nin xüsusi sessiyasının keçirilməsi təşəbbüsü ilə çıxış edib. Azərbaycan peyvənd millətçiliyinə qarşı çıxış edərək bütün ölkələr üçün vaksinlərə ədalətli və universal əlçatanlığı təşviq edib.

Pandemiya zamanı Azərbaycan, həmçinin 80-dən çox ölkəyə, o cümlədən 20-yə yaxın İnkişaf etməkdə olan kiçik ada dövlətinə maliyyə və humanitar yardım göstərib.

Keçən ilin mart ayında Qoşulmama Hərəkatının sədri kimi mən İnkişaf etməkdə olan kiçik ada dövlətlərində pandemiyadan sonrakı bərpanı dəstəkləmək üçün fəaliyyətə qlobal çağırış elan etdim. Bu çağırışla mən beynəlxalq ictimaiyyəti pandemiyanın sosial-iqtisadi nəticələrinin aradan qaldırılması üçün İnkişaf etməkdə olan kiçik ada dövlətlərinə maliyyə yardımı və birbaşa iqtisadi dəstək göstərməyə dəvət etdim. Azərbaycan bu çağırışa vəsait ayıran ilk ölkə olub.

Xanımlar və cənablar,

Azərbaycan bu il COP29-a evsahibliyi etmək şərəfinə nail olub. Azərbaycanın COP29-a evsahibliyi ilə bağlı namizədliyinin yekdilliklə dəstəklənməsi beynəlxalq ictimaiyyətin Azərbaycana olan hörmət və etimadını əks etdirir.

İqlim dəyişikliyi bütün qitələrdəki hər bir ölkəyə təsir edir. İqlim dəyişikliyinin Azərbaycana da mənfi təsiri vardır. Çaylarımızın suyu azalır, Xəzər dənizinin səviyyəsi aşağı düşür.

Bununla belə, İnkişaf etməkdə olan kiçik ada dövlətləri iqlim dəyişikliyinin təsirlərinə daha həssasdır. İqlim dəyişikliyinə heç bir təsiri olmayan bu ölkələr onun ən pis fəsadlarına məruz qalır, hətta ekzistensial təhlükə ilə üzləşirlər. İqlim dəyişikliyi onların Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq istiqamətində irəliləyişinə də mane olur.

COP29-a sədrliyimiz zamanı iqlim dəyişikliyinin İnkişaf etməkdə olan kiçik ada dövlətləri üçün yaratdığı problemlərin həlli prioritetlərimiz arasında olacaq. Biz Bakıda keçiriləcək COP zamanı İnkişaf etməkdə olan kiçik ada dövlətlərinin Zirvə toplantısını keçirməyi planlaşdırırıq.

İnkişaf etməkdə olan kiçik ada dövlətlərinin səslərinin yüksək və aydın eşidilməsini təmin etmək üçün əlimizdən gələni edəcəyik.

Mən COP29 zamanı bütün ölkələri İnkişaf etməkdə olan kiçik ada dövlətlərinin ehtiyaclarına və prioritetlərinə cavab verən razılaşma əldə etmək üçün maksimum səy göstərməyə çağırıram.

Azərbaycan öz növbəsində artıq bir sıra İnkişaf etməkdə olan kiçik ada dövlətlərində qasırğaların, zəlzələlərin, daşqınların və digər təbii fəlakətlərin törətdiyi fəsadların aradan qaldırılmasına öz dəstəyini göstərməkdədir. Biz bu ölkələrə yardım etmək üçün əməli addımlar atmağa davam edəcəyik. Azərbaycan 33 İnkişaf etməkdə olan kiçik ada dövlətinin təmsil olunduğu Millətlər Birliyi, o cümlədən digər beynəlxalq qurumlar vasitəsilə texniki yardım proqramları üçün vəsait ayıracaq.

Biz həmçinin İnkişaf etməkdə olan kiçik ada dövlətlərinin vətəndaşlarına Azərbaycan universitetlərində təhsil almaq üçün təqaüd imkanlarını genişləndirəcəyik. İndiyədək 10-dan çox İnkişaf etməkdə olan kiçik ada dövləti Azərbaycanın İslam Əməkdaşlıq Təşkilatı və Qoşulmama Hərəkatının Üzv Dövlətləri üçün təqdim etdiyi Təhsil Qrant Proqramlarından faydalanıb.

Azərbaycan həmçinin COP29-da İnkişaf etməkdə olan kiçik ada dövlətlərinin iştirakına dəstək verəcək.

Xanımlar və cənablar,

Bakıdakı COP üçün seçdiyimiz "Yaşıl dünya naminə həmrəy olaq" şüarı bizim COP29 missiyamızın ruhunu əks etdirir. Hamımız birlikdə bu vəziyyətlə üzləşdiyimiz üçün bütün ölkələri planetimizi xilas etmək naminə həmrəylik nümayiş etdirməyə çağırıram. Bu məqsədə çatmaq üçün bizə siyasi iradə və Azərbaycanın daim müdafiə etdiyi çoxtərəflilik lazımdır.

Mən bu ilin noyabrında Bakıda keçiriləcək COP29-da İnkişaf etməkdə olan kiçik ada dövlətlərinin dövlət və hökumət başçılarının dəyərli iştirakını arzulayır və İnkişaf etməkdə olan kiçik ada dövlətləri üzrə 4-cü Beynəlxalq Konfransa uğurlar arzulayıram.

Sağ olun.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı, 21 may 2024-cü il

Bakının memarlığı və müasirliyi ilə harmoniya təşkil edən ticarət mərkəzi

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "Crescent Bay" layihəsinin təqdimatında və "Crescent Mall"un açılışında iştirak ediblər

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 27-də Bakıda "Crescent Bay" layihəsinin təqdimatı və "Crescent Mall" ticarət mərkəzinin açılışında iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, "Pasha Property Management" şirkətinin baş icraçı direktoru Elçin Qədimov Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya "Crescent Bay" layihəsi barədə məlumat verdi.

Sonra dövlətimizin başçısı və birinci xanım "Crescent Mall" ticarət mərkəzinin açılışında iştirak etdilər. "Pasha Malls Group" şirkətinin baş icraçı direktoru Yaman Şahin ticarət mərkəzində yaradılan şərait barədə məlumat verdi.

"Crescent Mall" ticarət mərkəzi ənənənin innovasiyalarla qovuşduğu bir məkan kimi Bakının müasir və dinamik inkişafını əks etdirir. 115 min kvadratmetr sahədə alış-veriş, əyləncə və istirahətin təklif edildiyi məkanda 5 mərtəbəli müasir texnologiyalarla inşa edilən bina, 3 mərtəbəli 1193 parkinq yeri, açıq havada yerləşən terras və restoran, həmçinin Azərbaycanda ticarət mərkəzində ilk dəfə fəaliyyət göstərəcək musiqili fəvvarə yer alıb.

Ticarət mərkəzində 107 geyim, qastronomiya, sağlamlıq, uşaq əyləncə mərkəzləri və digər mağazalar var. Bura gələn qonaqlar vaxtlarını səmərəli keçirə biləcəklər. "Crescent Mall"da alıcılara böyüklər və uşaqlar üçün geniş çeşiddə geyimlər, ev avadanlıqları və digər məhsullar təklif olunur.

Mərkəzdə 2400-ə yaxın işçi fəaliyyət göstərəcək.

Ticarət mərkəzinin açıq restoranlara qalxan hissəsində çoxmərtəbəli sütunda ölkəmizin mədəni irsinə istinad edən milli elementlərdən ibarət incəsənət nümunəsi həkk edilib. Rəsm əsərində təsvir edilən və sanki orta əsrlərin milli xalçalarından birbaşa sütuna köçmüş nar rəsmləri dünya, həyat və birlik simvoludur. Açan güllər və quşlar ilə zaman dinamikasında bir araya gələn "Həyat Ağacı" isə sürətlə inkişaf edən, ənənələrimizə sadiq qalaraq gələcəyə doğru inamla hərəkət edən, birlik və azadlıq rəmzini özündə təcəssüm etdirən Azərbaycan xalqını ifadə edir.

Bundan başqa "Crescent Mall"da SPA, gözəllik və fitnes mərkəzləri də qonaqların xidmətində olacaq.

Qeyd olundu ki, ən müasir texnologiyalarla inşa edilən ticarət mərkəzində rəqəmsallaşan dünyanın yeni trendlərinə uyğun olaraq süni intellektlə fəaliyyət göstərən məlumat bələdçisi xidməti də var. Burada fəaliyyət göstərən brendlər haqqında ətraflı məlumat verəcək bələdçi, həmçinin istiqamət göstərəcək və xidmətlərlə bağlı sorğuları cavablandıracaq. Bununla da qonaqların ticarət mərkəzi daxilində hərəkəti asanlaşacaq. Məlumat bələdçisi 140 dildə yazılı, Azərbaycan, ingilis və rus dillərində isə şifahi məlumatlar verə bilir.

Süni intellektin tətbiqi ilə ticarət mərkəzində müasir və dünyəvi trendlər tarixi və mədəni dəyərlərimizlə də əlaqələndirilib. Bu məqsədlə girişdə qonaqları qarşılayan süni intellektli robot "Leyli" adlandırılıb. Süni intellekt məlumat bələdçisi Leyli dahi Azərbaycan şairi Nizami Gəncəvinin "Leyli və Məcnun" poemasından müdriklik və gözəllik rəmzi olan Leylini simvolizə edir.

"Crescent Mall" ticarət mərkəzi kimi obyektlərin istifadəyə verilməsi ölkəmizin iqtisadi potensialını və vətəndaşlara xidmətin yüksək səviyyədə təşkilini nümayiş etdirir. Bundan başqa, ticarət mərkəzi dünyanın ən gözəl və müasir şəhərlərindən biri olan Bakının memarlığı, müasirliyi ilə harmoniya təşkil edərək paytaxtımızı daha da gözəlləşdirir.

Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Cənab Prezident.

Sizə və Azərbaycan xalqına 28 May - Müstəqillik Günü münasibətilə səmimi təbriklərimi göndərirəm.

İndiki dövr həll olunmamış münaqişələr və hamımıza təsir edən iqlim dəyişikliyinin nəticələrinin təhdidi baxımından bizi sınayır. Bizdən indi həmişəkindən daha çox tələb olunur ki, qarşılıqlı etimad və anlayış əsasında sülh içində gələcək üçün zəmin və planetimizdə harmoniya və firavanlıq dolu bir həyat üçün mühit yaradaq.

Sizin ölkənizlə qonşunuz Ermənistan arasında münaqişənin həlli üçün birgə səylər göstərmək istəyi bizim ölkələrimizin hökumət və xalqlarını birləşdirir. Əmin olun ki, bu münaqişənin regionun gələcəyinə artıq kölgə salmaması üçün Almaniya əlindən gələni əsirgəməyəcəkdir.

Builki COP29 iqlim konfransına evsahibliyi edən Azərbaycan öz üzərinə xüsusi məsuliyyət götürmüşdür. Mən buna görə Sizə və Sizin həmvətənlərinizə təşəkkür etmək və Sizi iddialı iqlim siyasətinə mühüm təkan verməyə təşviq etmək istərdim.

Sizə və həmvətənlərinizə qarşımızdakı dövrdə sülh, əmin-amanlıq və hər şeydən əvvəl cansağlığı arzulayıram.

Frank-Valter ŞTAYNMAYER,
Almaniya Federativ Respublikasının Prezidenti

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

Ölkənizin milli bayramı münasibətilə səmimi təbriklərimi, Azərbaycan xalqına sülh və firavanlıq arzularımı qəbul etməyinizi xahiş edirəm.

İcazə verin, ölkələrimiz və xalqlarımız arasında səmərəli qarşılıqlı fəaliyyət və əməkdaşlıqdan məmnun olduğumu bildirim. Bir daha təsdiq etmək istəyirəm ki, Bolqarıstan Respublikası Azərbaycan Respublikası ilə gözəl dostluq və strateji tərəfdaşlıq münasibətlərini yüksək qiymətləndirir.

Əminəm ki, son danışıqlarımızdan və bu il mayın 8-də Bakıda Bolqarıstan Respublikası ilə Azərbaycan Respublikası arasında strateji tərəfdaşlığın gücləndirilməsinə dair Birgə Bəyannamənin imzalanmasından sonra son illərdəki intensiv ikitərəfli siyasi dialoq yeni məzmun kəsb edəcəkdir. İnanıram ki, ikitərəfli münasibətlərimizdə tətbiq etdiyimiz praqmatik yanaşma gələcəkdə də müsbət dinamikasını davam etdirəcək.

Hörmətli cənab Prezident, Sizə möhkəm cansağlığı və ali dövləti fəaliyyətinizdə uğurlar arzulayır, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

Hörmətlə,

Rumen RADEV,
Bolqarıstan Respublikasının Prezidenti

❖ ❖ ❖

Cənab Prezident.

Azərbaycan Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə təbriklərimi çatdırır, xalqınıza firavanlıq və əmin-amanlıq arzulayıram.

Ölkələrimiz arasında sıx əlaqələr möhkəm prinsiplərə və ümumi strateji maraqlara əsaslanır. Rumıniya ilə Azərbaycan Respublikası arasında ikitərəfli və ya regional səviyyədə həyata keçirilən çoxsaylı layihələr münasibətlərimizin mükəmməl səviyyəsini əyani şəkildə nümayiş etdirir.

Azərbaycan Rumıniya üçün Cənubi Qafqaz regionunda yaxın və etibarlı strateji tərəfdaşdır. Sizi əmin edirəm ki, Rumıniya strateji tərəfdaşlığımızı gücləndirmək üçün ciddi səylər göstərir. Mən tam inanıram ki, bizim birgə səylərimizlə ikitərəfli əməkdaşlıq enerji, nəqliyyat, təhsil, ticarət və investisiya kimi böyük əhəmiyyət kəsb edən sahələrdə bundan sonra da inkişaf edəcəkdir.

Eyni zamanda Rumıniya Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasında dialoqu dəstəkləmək üçün qətiyyətlə fəaliyyət göstərməyə davam edəcəkdir.

Cənab Prezident, xahiş edirəm mənim xüsusi ehtiramımı qəbul edəsiniz.

Hörmətlə,

Klaus Verner İOHANNİS,
Rumıniyanın Prezidenti

❖ ❖ ❖

Möhtərəm cənab Prezident.

Sizi Serbiya Respublikası xalqı adından və öz adımdan Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə səmimi-qəlbdən təbrik edir, ölkənizə tərəqqi, xalqınıza yüksək rifah arzu edirəm.

Serbiya Respublikası Azərbaycan Respublikası ilə qarşılıqlı etimada, təqdir və hörmətə, eyni zamanda beynəlxalq hüqqun fundamental prinsiplərinə ardıcıl riayət olunmasına sadiqliyə əsaslanan münasibətlərin inkişafına xüsusi önəm verir.

İcazə verin, BMT Baş Assambleyasında yaxın zamanda keçirilmiş səsvermədə Azərbaycan Respublikasının göstərdiyi anlayış və mövqeyə, bununla da Serbiya Respublikasına, regionda sülh və sabitliyə dəstək verdiyinə görə minnətdarlığımı bildirim.

İstər ikitərəfli, istərsə də çoxtərəfli müstəvidə Serbiya Respublikası üçün mühüm əhəmiyyət kəsb edən məsələlərdə ölkənizin göstərdiyi kömək və dəstəyə görə dərin minnətdarlığımı bildirirəm. Böyük fəxr hissi ilə qeyd etmək istərdim ki, Azərbaycan Respublikası həyati mənafelərin müdafiəsində dəfələrlə səmimi tərəfdaşımız olduğunu nümayiş etdirib və biz Serbiya Respublikasında bunu unutmayacağıq.

Ölkələrimiz arasında əməkdaşlığın daha da möhkəmləndirilməsi istiqamətində iştirakınızı yüksək qiymətləndirirəm. Əminəm ki, Serbiya Respublikası ilə Azərbaycan Respublikası arasında strateji tərəfdaşlıq qarşıdakı dövrdə də qarşılıqlı maraq doğuran bütün sahələrdə, xüsusilə də iqtisadi sahədə möhkəmlənməyə və zənginləşməyə davam edəcək və Sizinlə birlikdə bu işə öz şəxsi töhfəmi verməyə hazır olduğumu bildirirəm.

Bizim üçün ən mühüm milli və dövlət əhəmiyyəti daşıyan Kosovo və Metohiya məsələsi ilə bağlı göstərdiyiniz diqqət və dəstəyə görə də təşəkkür edirəm. Serbiya Respublikasının suverenliyi və ərazi bütövlüyünün qorunmasında Azərbaycan Respublikasının göstərdiyi prinsipial və qəti dəstək ölkənizin beynəlxalq hüqqun əsas prinsiplərinin qorunmasına sadiqliyinin göstəricisidir. Əmin olun ki, Serbiya Respublikası da Azərbaycan Respublikasının suverenliyini və ərazi bütövlüyünü dəstəkləməyə davam edəcəkdir.

Hörmətli cənab Prezident, Sizə bir daha dərin ehtiramımı ifadə edirəm.

Aleksandar VUÇİÇ,
Serbiya Respublikasının Prezidenti

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

İcazə verin, ölkənizin Müstəqillik Günü münasibətilə Sizə və dost Azərbaycan xalqına ən səmimi təbriklərimi çatdırım.

Mən Albaniya və Azərbaycanın dostluğun, əməkdaşlığın inkişaf etdirilməsi istiqamətində əldə etdiyi böyük nailiyyəti xüsusi olaraq məmnunluqla qeyd edirəm. Biz dostluq münasibətlərinin və ikitərəfli əməkdaşlığın möhkəmləndirilməsində çox maraqlıyıq. Əlaqələrimizin hər iki ölkənin mənafeyinə uyğun olaraq yeni səviyyələrə yüksəldilməsinin əhəmiyyətini vurğulayıram.

Fürsətdən istifadə edərək bu ilin martında Azərbaycana səfərim zamanı mənə göstərilən qonaqpərvərliyə görə Sizə səmimi-qəlbdən təşəkkürümü bildirirəm.

Zati-alinizə və Azərbaycan xalqına davamlı uğurlar, inkişaf, firavanlıq və xoşbəxtlik arzulayıram.

Hörmətlə,

Bayram BEQAY,
Albaniya Respublikasının Prezidenti

❖ ❖ ❖

Zati-aliləri.

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizə böyük məmnuniyyətlə ən səmimi təbriklərimi çatdırıram.

Zati-alinizə xoşbəxtlik, xalqınıza firavanlıq arzu edirəm.

Əlahəzrət NARUHİTO,
Yaponiyanın İmperatoru

❖ ❖ ❖

Möhtərəm İlham Heydər oğlu.

Əziz Qardaşım.

Ölkənizin milli bayramı - Müstəqillik Günü münasibətilə Sizi və Sizin şəxsinizdə qardaş Azərbaycan xalqını səmimi-qəlbdən təbrik etməkdən məmnunluq duyuram.

Sizin kimi müdrik, vətənpərvər və fədakar liderin, görkəmli siyasətçi və dövlət xadiminin rəhbərliyi ilə Azərbaycanın ərazi bütövlüyü tam bərpa olunmuş, tarixi ədalət bərqərar edilmişdir.

Ölkənizdə həyata keçirilən genişmiqyaslı daxili və xarici siyasət, iqtisadi və sosial islahatlar bu gün öz bəhrəsini verir, Azərbaycanın beynəlxalq aləmdə etibarı və nüfuzu durmadan yüksəlir.

Xüsusilə vurğulamaq istərdim ki, biz Azərbaycan və Özbəkistan arasında yaranmış, qardaş xalqlarımızın ümumi məqsəd və istəklərinə tam uyğun gələn sıx əlaqələri xüsusi qiymətləndiririk.

Sizinlə fəallaşan açıq və səmərəli dialoqlarımız, eləcə də danışıqlarımız zamanı əldə edilmiş mühüm sazişlər və irimiqyaslı layihələr, təsdiq edilmiş "yol xəritələri"nin tam həyata keçirilməsi, şübhəsiz ki, strateji tərəfdaşlığımızı tamamilə yeni səviyyəyə qaldıracaqdır.

Hörmətli İlham Heydər oğlu, əminəm ki, yaxın gələcəkdə çoxtərəfli formatlar çərçivəsində bənzərsiz Azərbaycan torpağına yüksəksəviyyəli səfərlərimiz hərtərəfli tərəfdaşlığımızın daha da dərinləşməsinə xidmət edəcəkdir.

Daha əvvəl Sizinlə razılaşdığımız kimi, kimya, neft-qaz, mədənçilik, energetika, elektrotexnika, zərgərlik, maşınqayırma, əczaçılıq, tikinti materialları və bankmaliyyə sahələri daxil olmaqla 10 yeni istiqamətdə tərəfdaşlığın gücləndirilməsinə yönələn böyük planlarımızın tam şəkildə reallaşacağına əminəm.

Bizim möhkəm siyasi iradəmiz və birgə səylərimiz sayəsində qarşılıqlı faydalı və uzunmüddətli tərəfdaşlığımız qardaş xalqlarımızın ümumi inkişafı naminə bundan sonra da davamlı şəkildə inkişaf edəcəkdir.

Fürsətdən istifadə edərək, zati-alinizə cansağlığı, ailə səadəti, Vətəninizin inkişafı naminə fəaliyyətinizdə böyük müvəffəqiyyətlər, qardaş Azərbaycan xalqına isə sülh, əmin-amanlıq, davamlı tərəqqi və firavanlıq arzulayıram.

Səmimi ehtiramla,

Şavkat MİRZİYOYEV,
Özbəkistan Respublikasının Prezidenti

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu.

Tacik xalqının adından və şəxsən öz adımdan böyük məmnuniyyətlə Sizə və bütün dost Azərbaycan xalqına ölkənin milli bayramı münasibətilə səmimi təbriklərimizi çatdırıram.

Azərbaycan Respublikasının ölkənin sosial-iqtisadi və mənəvi həyatında böyük nəticələr əldə edərək öz inkişafında durmadan irəlilədiyini qeyd etmək sevindiricidir. Həmçinin Azərbaycanın beynəlxalq arenada nüfuzu artır.

Ölkələrimizin qarşılıqlı münasibətlərinin əsaslarının hərtərəfli möhkəmlənməsi Tacikistanın xarici siyasət prioritetlərində mühüm yer tutur.

Birgə səylər sayəsində dövlətlərarası tərəfdaşlıq və dialoq bütün səviyyələrdə uğurla inkişaf edir ki, bu da dostluq münasibətlərimizin məhsuldar şəkildə genişlənməsinə kömək edir. Bunun əyani nümunəsi əlaqələrimizin strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsidir.

Mənim bu yaxınlarda Azərbaycana dövlət səfərim zamanı keçirdiyimiz görüşləri səmimiyyətlə xatırlayıram. Əminəm ki, bu səfər çərçivəsində əldə olunmuş razılaşmaların praktik reallaşması uzunmüddətli perspektivə hesablanmış Tacikistan-Azərbaycan məhsuldar əməkdaşlığına yeni təkan verəcəkdir.

İnanıram ki, biz gələcəkdə də strateji tərəfdaşlığımızın möhkəmləndirilməsi üçün zəruri birgə səyləri davam etdirəcəyik, ikitərəfli münasibətlərimizdə mövcud olan böyük potensialdan tam istifadə edəcəyik.

Əziz İlham Heydər oğlu, Sizə səmimi-qəlbdən möhkəm cansağlığı və bütün təşəbbüslərinizdə yeni-yeni uğurlar, qardaş Azərbaycan xalqına isə hər zaman aydın səma, əmin-amanlıq və dinamik tərəqqi arzulayıram.

Hörmətlə,

Emoməli RƏHMON,
Tacikistan Respublikasının Prezidenti

❖ ❖ ❖

Zati-aliləri.

Ölkəniz və xalqınız üçün əlamətdar gün olan Müstəqillik Günü münasibətilə İsrail Dövləti və xalqı adından Sizə və Azərbaycan vətəndaşlarına səmimi təbriklərimi qəbul etməyinizi xahiş edirəm.

Xalqlarımız arasında uzun illərdir davam edən dostluq ildən-ilə dərinləşmiş və mühüm əhəmiyyət kəsb edən strateji tərəfdaşlığa çevrilmişdir. Ölkələrimiz arasındakı əlaqələr Azərbaycan xalqı ilə yəhudi xalqı arasında əsrlər boyu davam edən möhkəm təməl üzərində qurulan dostluq münasibətlərinə əsaslanır. Bizim tarixi əlaqələrimiz bu gün qarşılıqlı hörmət, etimad və səmimi münasibətlərə əsaslanan tərəfdaşlığa çevrilib və bu, genişlənməkdə, möhkəmlənməkdə davam edir.

İqtisadi, siyasi, təhlükəsizlik sahələrində ikitərəfli dialoqumuz və əməkdaşlığımız yeni zirvələrə yüksəlib və əminəm ki, bu əlaqələrimiz gələcəkdə də inkişaf edəcəkdir. İsraildə xeyli sayda Azərbaycan yəhudiləri yaşayır və bizim cəmiyyətimizin bu şərəfli üzvləri xalqlarımızı birləşdirən canlı körpü rolunu oynayır.

Keçən il bir sıra səmərəli müzakirələr aparmaq üçün gözəl ölkənizə səfər etmək Mixal və mənim üçün xüsusi şərəf oldu. Mən Sizin və birinci xanımın bizim nümayəndə heyətimizə göstərdiyiniz səmimi qonaqpərvərliyə görə dərin minnətdarlığımı bildirirəm.

Biz xalqlarımız arasında möhkəm dostluq münasibətlərini yüksək qiymətləndiririk. Mən vəzifədə olduğum müddətdə əlaqələrimizi daha da genişləndirməyə sadiqliyimi bildirirəm. İmkanlar genişdir və ikitərəfli əlaqələrimizi möhkəmləndirməyə davam etmək üçün xalqlarımızın xoş niyyəti var.

Fürsətdən istifadə edərək, COP29-da iştirak etmək üçün dəvətə görə Sizə minnətdarlığımı bildirirəm. İqlim dəyişikliyi ilə bağlı məsələlərin həlli yollarının tapılmasına yönəlmiş bu mühüm beynəlxalq toplantıya evsahibliyi etməyə hazırlaşdığınız vaxtda Sizə uğurlar arzulayıram. Mən şəxsən bu ilin sonunda bu mühüm tədbirdə iştirakı səbirsizliklə gözləyirəm.

Bir daha Sizə, birinci xanıma və bütün Azərbaycan xalqına sülh və rifah arzulamaqdan şərəf duyuram.

Hörmətlə və ən xoş arzularla,

İsxak HERSOQ,
İsrail Dövlətinin Prezidenti

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə zati-alinizə ən səmimi təbriklərimi və xoş arzularımı çatdırıram.

Sizə cansağlığı, xoşbəxtlik, Azərbaycan xalqına firavanlıq arzu edirəm.

Hörmətlə,

XVI Karl QUSTAV,
İsveçin Kralı

❖ ❖ ❖

Zati-aliləri.

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizə və həmvətənlərinizə İsveçrə Federal Şurası və İsveçrə vətəndaşları adından təbriklərimi çatdırmaqdan məmnunluq duyuram. Bu fürsətdən istifadə edərək ölkənizə və vətəndaşlarınıza xoşbəxt, uğurlu gələcək arzu edirəm.

Beynəlxalq hüquqa və BMT-nin Nizamnaməsində təsbit olunmuş ümumbəşəri prinsiplərə hörmət sülh və firavanlıq dünyasına doğru səylərimizdə bizim ən yaxşı bələdçimiz olaraq qalır. Məmnunam ki, ölkələrimiz arasında belə səmərəli əlaqələr davam edir.

Əminəm ki, biz gələcək illərdə həm ikitərəfli, həm də çoxtərəfli əməkdaşlığımızı inkişaf etdirə və dərinləşdirə biləcəyik.

Zati-aliləri, xahiş edirəm ən yüksək ehtiramımı qəbul edin.

Viola AMHERD,
İsveçrə Konfederasiyasının Prezidenti

❖ ❖ ❖

Zati-aliləri, əziz Qardaşım.

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə zati-alinizə şəxsən öz adımdan və Mərakeş xalqı adından ən səmimi təbriklərimizi, möhkəm cansağlığı və xoşbəxtlik arzularımızı çatdırmaqdan böyük məmnunluq duyuram. Həmçinin Sizin müdrik rəhbərliyinizlə Azərbaycan xalqına daha böyük inkişaf və tərəqqi arzulayıram.

Bu xoş fürsətdən istifadə edərək bildirirəm ki, ölkələrimiz arasındakı sıx dostluq əlaqələri əsasında mövcud olan xüsusi münasibətlərimizə böyük dəyər verirəm. Əminəm ki, xalqlarımızın qarşılıqlı rifahı naminə ölkələrimiz arasında bütün sahələrdə əlaqələri genişləndirməkdə və şaxələndirməkdə Siz də mənim qədər maraqlısınız.

Hörmətlə,

VI MƏHƏMMƏD,
Mərakeşin Kralı

❖ ❖ ❖

Zati-aliləri.

Azərbaycan Respublikasının Müstəqillik Gününün 106-cı ildönümü münasibətilə zati-alinizə böyük məmnuniyyətlə İndoneziya Respublikasının hökuməti və xalqı adından ən səmimi təbriklərimi çatdırıram.

Bu xüsusda icazə verin İndoneziya ilə Azərbaycan arasındakı dostluq münasibətlərinə görə Sizə səmimi təşəkkürümü bildirim. Əldə edilən nailiyyətlər dövlətinizin uğurlu siyasətinin təsdiqidir. İnanıram ki, xalqlarımızın qarşılıqlı olaraq bir-birinə təklif edəcəyi çox məsələlər var və əməkdaşlığımızın ölkələrimiz üçün əhəmiyyətli faydalar hasil edəcəyinə əminəm.

Bu xoş fürsətdən istifadə edərək, zati-alinizə bir daha dərin ehtiramımı ifadə edirəm.

Coko VİDODO,
İndoneziya Respublikasının Prezidenti

❖ ❖ ❖

Zati-aliləri.

Ölkənizin milli bayramı - Müstəqillik Günü münasibətilə İordaniya Haşimilər Krallığının xalqı və hökuməti adından zati-alinizə və böyük Azərbaycan xalqına səmimi təbriklərimizi çatdırıram.

Bu xoş fürsətdən istifadə edərək, zati-alinizə cansağlığı və xoşbəxtlik, qardaş Azərbaycan xalqına isə davamlı inkişaf və rifah arzulayıram.

Hörmətlə,

II Abdullah ibn Al HÜSEYN,
İordaniyanın Kralı

❖ ❖ ❖

Zati-aliləri, cənab Prezident.

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizə və Sizin simanızda dost Azərbaycan xalqına səmimi təbriklərimi çatdırıram.

Monqolustan ilə Azərbaycan arasında ənənəvi dostluq münasibətlərinin və əməkdaşlığın davamlı şəkildə genişlənməsindən məmnunluğumu bildirirəm.

Bu xoş fürsətdən istifadə edərək, bu il Bakının BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) evsahibliyi etməsi münasibətilə səmimi təbriklərimizi çatdırır və tədbirin uğurlu olmasını arzulayıram.

Zati-aliləri, Monqolustanın COP29-a töhfə verəcəyinə əmin ola bilərsiniz.

Cənab Prezident, Sizə və ailənizə möhkəm cansağlığı, firavanlıq, dost Azərbaycan xalqına isə rifah diləyirəm.

Hörmətlə,

Uxnaaqiyn XURELSUX,
Monqolustanın Prezidenti

❖ ❖ ❖

Zati-aliləri.

Müstəqillik Günü münasibətilə Hindistan hökuməti və xalqı adından, şəxsən öz adımdan zati-alinizə, Azərbaycan Respublikasının hökumətinə və dost xalqına ən səmimi salamlarımı və təbriklərimi çatdırıram.

Hindistan ilə Azərbaycan ortaq tarixi və mədəni əlaqələrə malikdir. Bizim həmrəyliyimiz bütün sahələrdə çoxtərəfli qarşılıqlı əməkdaşlığımıza yol açmışdır. Əminəm ki, həssas məqamlara və ortaq maraqlara qarşılıqlı hörmət nümayiş etdirərək bizim münasibətlərimiz əməkdaşlığın yeni sahələrini əhatə etməklə genişlənəcəkdir.

Bu xoş fürsətdən istifadə edərək zati-alinizə cansağlığı və xoşbəxtlik, Azərbaycan Respublikasının dost xalqına isə davamlı sülh, tərəqqi və inkişaf arzu edirəm.

Zati-aliləri, xahiş edirəm ən yüksək ehtiramımı qəbul edin.

Draupadi MURMU,
Hindistan Respublikasının Prezidenti

❖ ❖ ❖

Zati-aliləri.

Əlamətdar bayram - Azərbaycan Respublikasının müstəqilliyinin 106-cı ildönümü münasibətilə Kraliça Raca Zarit Sofia ilə birlikdə zati-alinizə səmimi təbriklərimizi və ən xoş arzularımızı çatdırırıq.

Əminik ki, Malayziya ilə Azərbaycan arasında mövcud olan möhkəm dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın rifahı naminə daha da inkişaf edəcəkdir.

Uca Allahdan zati-alinizə cansağlığı, Azərbaycan Respublikasına və onun xalqına davamlı sülh, rifah və tərəqqi arzulayırıq.

Hörmətlə,

Əlahəzrət Sultan İBRAHİM,
Malayziyanın Kralı

❖ ❖ ❖

Zati-aliləri.

Əlamətdar tarix, 28 May - Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Cənubi Afrika Respublikasının hökuməti və xalqı adından Sizə, Azərbaycan hökumətinə və xalqına ən səmimi təbriklərimi və xoş arzularımı çatdırıram.

Bu xoş fürsətdən istifadə edərək, zati-alinizə möhkəm cansağlığı arzulayır, ölkələrimiz arasında mövcud olan gözəl dostluq münasibətlərini daha da möhkəmləndirmək niyyətimizi bir daha bəyan edirəm.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

Dərin hörmətlə,

Matamela Siril RAMAFOZA,
Cənubi Afrika Respublikasının Prezidenti

Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident.

Azərbaycan Respublikasının Müstəqillik Gününün 106-cı ildönümü münasibətilə Sizə və xalqınıza ən səmimi təbriklərimi çatdırıram.

Bu xoş fürsətdən istifadə edərək, ölkələrimiz arasındakı tarixi dostluq əlaqələrinin və əməkdaşlığın möhkəmləndirilməsi istiqamətində fəaliyyətimizi davam etdirmək istəyimizi bir daha ifadə edirəm.

Zati-aliləri, ən yüksək hörmət və ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

Migel Dias-Kanel BERMUDES,
Kuba Respublikasının Prezidenti

❖ ❖ ❖

Zati-aliləri, əziz Qardaşım.

Ölkənizin Müstəqillik Günü münasibətilə zati-alinizə ən səmimi təbriklərimi çatdırmaqdan məmnunluq duyur, dost Azərbaycan xalqına daha çox inkişaf və firavanlıq diləyirəm.

Mən həmçinin ölkələrimiz arasında mövcud olan əməkdaşlıq münasibətlərinin dost xalqlarımızın maraqları naminə möhkəmləndirilməsi və inkişafı istiqamətində səyləri davam etdirmək niyyətimizi bir daha bildirirəm.

Zati-aliləri, əziz Qardaşım, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

Qardaşınız,

Məhəmməd uld Şeyx əl-QAZUANİ,
Mavritaniya İslam Respublikasının Prezidenti

❖ ❖ ❖

Zati-aliləri.

28 May - Müstəqillik Günü münasibətilə Sizə ən xoş arzularımı çatdırıram.

Bu tarix 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasında mühüm mərhələni təcəssüm etdirməklə yanaşı, Azərbaycan xalqının müstəqil, demokratik və dünyəvi dövlət qurmaq uğrunda əzmkar mübarizəsinin rəmzidir.

Bu bayram günündə illər boyu Azərbaycanda rəhbər tutulan azadlıq, demokratiya və öz müqəddəratını təyinetmə kimi ali dəyərləri böyük iftixar hissi ilə alqışlayıram. Bu günün qeyd edilməsi milli kimliyin, suverenliyə olan sadiqliyin bir daha təsdiqlənməsi və bütün Azərbaycan vətəndaşları arasında birlik bağlarının möhkəmləndirilməsi üçün bir imkandır.

Azərbaycan Respublikası ilə Timor-Leste Demokratik Respublikası arasında diplomatik əlaqələrin 20-ci ildönümünü qeyd etdiyimiz bu ildə ölkələrimiz arasında mövcud olan qardaşlıq və dostluq münasibətlərini daha da dərinləşdirə və genişləndirə biləcəyimizə ümidvar olduğumu vurğulayıram.

Əminəm ki, xalqlarımızın rifahı və ölkələrimizin davamlı inkişafı naminə Timor-Lestenin Cənub-Şərqi Asiya Dövlətləri Assosiasiyasına (ASEAN) tamhüquqlu üzvlük prosesinə aid imkanları araşdırmağa davam edə, habelə ölkəmizin bu yaxınlarda Ümumdünya Ticarət Təşkilatına 166-cı üzv dövlət kimi qəbul olunmasından birlikdə faydalana bilərik.

Qoy, Azərbaycanın Müstəqillik Günü sevinc və qürur hissi ilə qeyd olunsun! Azərbaycan Sizin uzaqgörən və müdrik rəhbərliyinizlə inkişafını davam etdirsin!

Cənab Prezident, Sizə yüksək hörmət və ehtiramımı bildirərək, zati-alinizə möhkəm cansağlığı, yeni-yeni uğurlar və rifah arzulayıram.

Hörmətlə,

Jose Ramos HORTA,
Timor-Leste Demokratik Respublikasının Prezidenti

❖ ❖ ❖

Zati-aliləri.

Ölkənizin Müstəqillik Günü münasibətilə Sizə və dost Azərbaycan xalqına San-Marino xalqı adından və öz adımızdan təbriklərimizi, ən xoş arzularımızı çatdırırıq.

Bu əlamətdar gündə zati-alinizə ən yüksək ehtiramımızı bildirir, uğurlar diləyir, Azərbaycan xalqına firavanlıq və rifah dolu gələcək arzu edirik.

Hörmətlə,

Alessandro ROSSİ və
Milena QASPERONİ,
San-Marino Respublikasının Kapitan-Regentləri

❖ ❖ ❖

Zati-aliləri.

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Malta xalqı adından və şəxsən öz adımdan Sizi və xalqınızı səmimi-qəlbdən təbrik edirəm.

Diplomatik əlaqələrin qurulduğu 1995-ci ildən bəri ölkələrimiz arasında qarşılıqlı hörmət və anlaşmaya əsaslanan davamlı dostluq münasibətləri daha da möhkəmlənib. Ölkələrimiz arasında çox böyük coğrafi məsafənin olmasına baxmayaraq, əminəm ki, Malta Respublikası və Azərbaycan Respublikası bundan sonra da ikitərəfli əməkdaşlığın möhkəmlənməsini dəstəkləyəcək. Bu, ölkələrimiz arasında münasibətlərin 30-cu ildönümünə doğru irəlilədiyimiz bir zamanda daha böyük əhəmiyyət kəsb edir.

Malta Şərq Tərəfdaşlığı kimi regional dialoq çərçivələri vasitəsilə Azərbaycanla əməkdaşlığı davam etməyi səbirsizliklə gözləyir. Bu, Avropa İttifaqı və onun Şərq tərəfdaşları, o cümlədən Azərbaycan Respublikası arasında daha sıx konstruktiv əməkdaşlıq istiqamətində nadir struktur olaraq qalır.

Beynəlxalq ictimaiyyətin bütün dünyaya öz təsirini göstərən mühüm çağırışlarla üzləşdiyi bir vaxtda Malta Respublikası çoxtərəfli və qlobal həlləri qəti şəkildə dəstəkləyir. BMT Təhlükəsizlik Şurasının 2023-2024-cü illər üçün seçilmiş üzvü kimi Malta çoxtərəflilik dəyərlərini qoruyub saxlamaq məqsədilə beynəlxalq sülhün və təhlükəsizliyin təmin olunmasına sadiq qalır. Buna görə də ortaq maraq doğuran məsələlərin həlli məqsədilə ölkələr arasında siyasi etimadın və iradənin həyata keçirilməsi üçün fəal şəkildə səylərimizi davam etdirməyimiz vacibdir. Belə bir dönəmdə Malta qlobal çağırışların qlobal həllərə ehtiyacı olduğuna inanır.

Bu xoş fürsətdən istifadə edərək Sizə möhkəm cansağlığı və əmin-amanlıq, ölkənizə isə davamlı sülh, tərəqqi və firavanlıq arzulayıram.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

Hörmətlə,

Miriam Spiteri DEBONO,
Malta Respublikasının Prezidenti

❖ ❖ ❖

Zati-aliləri.

Ölkənizin Müstəqillik Günü münasibətilə Sizə, Azərbaycan hökumətinə və xalqına Maldiv Respublikasının hökuməti və xalqı adından, şəxsən öz adımdan səmimi təbriklərimi və xoş arzularımı çatdırıram.

Zati-aliləri, icazə verin, Sizə möhkəm cansağlığı və xoşbəxtlik, həmçinin Azərbaycan xalqına davamlı tərəqqi və firavanlıq arzularımı çatdırım.

Hörmətlə,

Məhəmməd MUİZZU,
Maldiv Respublikasının Prezidenti

❖ ❖ ❖

Zati-aliləri.

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizə səmimi təbriklərimi, möhkəm cansağlığı, xoşbəxtlik arzularımı çatdırır, ölkənizə, xalqınıza sülh, inkişaf və rifah diləyirəm.

Tailand ilə Azərbaycan arasında müxtəlif sahələrdə birgə fəaliyyətə əsaslanan, sürətlə inkişaf edən münasibətlər mövcuddur. İnanıram ki, ölkələrimizin və xalqlarımızın rifahı naminə ortaq qətiyyətimizlə və qarşılıqlı dəstəyimizlə ticarət, turizm, təhsil və təmiz enerji sahələrində əməkdaşlığımızın möhkəmlənməsi və genişlənməsi üçün sıx surətdə birgə işləməyə davam edəcəyik.

Hörmətlə,

Maha VAÇİRALONQKORN,
Tailandın Kralı

❖ ❖ ❖

Zati-aliləri.

Uqanda Respublikasının hökuməti və xalqı adından, şəxsən öz adımdan Sizə, Azərbaycan Respublikasının hökumətinə və xalqına 28 May - Müstəqillik Günü münasibətilə təbriklərimi və ən xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Ölkələrimiz ortaq məqsədlər naminə birgə çalışır və biz əməkdaşlıq üçün yeni imkanların yaranmasına, həmçinin xalqlarımız arasındakı əlaqələrin daha da möhkəmləndirilməsinə ümid edirik. Əminəm ki, xalqlarımızın ənənəvi yaxın münasibətləri qarşıdakı illərdə genişlənməkdə və inkişaf etməkdə davam edəcəkdir.

Ölkənizin tarixindəki bu önəmli günü qeyd edərkən Sizə cansağlığı və xoşbəxtlik, Azərbaycan xalqına isə davamlı inkişaf və rifah arzulayıram.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

Yoveri Kaquta MUSEVENİ,
Uqanda Respublikasının Prezidenti

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

28 May - Müstəqillik Günü münasibətilə zati-alinizə Paraqvay Respublikasının xalqı, hökuməti adından və şəxsən öz adımdan səmimi qardaşlıq salamlarımı çatdırmaqdan məmnunluq duyuram.

Bu xoş fürsətdən istifadə edərək, qardaş Azərbaycan xalqına sülh, xoşbəxtlik və firavanlıq, Paraqvay Respublikası ilə Azərbaycan Respublikasını birləşdirən dostluq və əməkdaşlıq əlaqələrinin daim möhkəmlənməsini arzulayıram.

Zati-alinizə ən yüksək hörmət və ehtiramımı bir daha bəyan edirəm.

Santyaqo PENYA,
Paraqvay Respublikasının Prezidenti

❖ ❖ ❖

Zati-aliləri, hörmətli cənab Prezident.

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizə Serb Respublikasının xalqı və qurumları adından, şəxsən öz adımdan səmimi təbriklərimi və xoş arzularımı çatdırmaqdan şərəf duyuram.

Sizin rəhbərliyiniz sayəsində Azərbaycan Respublikası sürətlə inkişaf edərək regional liderə və iqtisadi gücə çevrilib. Fəxrlə demək istəyirəm ki, Serb Respublikası ilə Azərbaycan Respublikası arasında anlaşma və qarşılıqlı hörmətə əsaslanan sıx dostluq münasibətləri mövcuddur. Böyük tektonik geosiyasi dəyişikliklər, həm siyasi, həm də iqtisadi arenada çağırışlar zamanı hər bir ölkənin daxili işlərinə, eləcə də xarici siyasətinə anlayış və hörmət son dərəcə vacibdir.

Məmnuniyyətlə vurğulayıram ki, bir çox sahələrdə və seqmentlərdə ikitərəfli əməkdaşlığımız inkişaf edəcək və yüksələn xətlə davam edəcək. Mən səmimiyyətlə inanıram ki, əlaqələrimiz gələcək illərdə də hər iki xalqa xeyirli və faydalı olacaq şəkildə inkişaf edəcəkdir. Mənim qəti niyyətim dostluğumuzu və dəstəyimizi hörmət əsasında qoruyub saxlamaq və daha da inkişaf etdirməkdir.

Hörmətli Prezident, zati-aliləri, icazə verin, Sizə cansağlığı, dost Azərbaycan Respublikasının firavanlığı və inkişafı naminə fəaliyyətinizdə uğurlar arzulayım.

Hörmətlə,

Milorad DODİK,
Bosniya və Herseqovinanın Serb Respublikasının Prezidenti

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

Ölkənizin milli bayramı - Müstəqillik Günü münasibətilə zati-alinizə, Sizin şəxsinizdə hökumətinizə və qardaş Azərbaycan xalqına ən səmimi təbriklərimi çatdırıram. Sizə cansağlığı, xoşbəxtlik və müvəffəqiyyətlər, xalqınıza xeyir-bərəkət və tərəqqi arzu edirəm.

Fürsətdən istifadə edərək, ölkələrimizi və xalqlarımızı birləşdirən həmrəylik əlaqələrini təqdir edir, bundan fəxarət hissi duyduğumuzu bildirirəm. Xalqımızın azadlıq və müstəqillik hüquqlarına dəstək verən mövqeyinizi yüksək qiymətləndirirəm.

Xahiş edirəm, ən xoş arzularımı qəbul edəsiniz.

Hörmətlə,

Mahmud ABBAS,
Fələstin Dövlətinin Prezidenti,
Fələstin Azadlıq Təşkilatı İcraiyyə Komitəsinin sədri

❖ ❖ ❖

Zati-aliləri.

Gürcüstan hökuməti adından və şəxsən öz adımdan Sizi və xalqınızı Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə səmimi-qəlbdən təbrik edirəm. İcazə verin Sizə və Azərbaycan xalqına dərin ehtiramımı ifadə edim, sülh, rifah və uğurlar arzulayım.

Gürcüstan və Azərbaycan Respublikası arasında strateji tərəfdaşlıq dərin, uzunəsrlik dostluq ənənəsinə əsaslanır ki, bu da ölkələrimizin səmərəli əməkdaşlığının inkişafı üçün mühüm amildir.

Xüsusilə vurğulamaq istərdim ki, Azərbaycanla ikitərəfli və mehriban qonşuluq münasibətlərinin dərinləşməsi bizim hökumətimizin ən əsas prioritetidir. Gürcüstan ilə Azərbaycan arasında qarşılıqlı etimad və dəstək prinsiplərinə əsaslanan strateji tərəfdaşlıq ölkələrimizin əlaqələrinin dinamikasının güclənməsinə müsbət təsir göstərmişdir. Əminəm ki, əməkdaşlığımız daha da möhkəmlənəcək və regionda rifahın, sabitliyin təmin olunmasına öz töhfəsini verəcəkdir.

Zati-aliləri, fürsətdən istifadə edərək Sizə bir daha dərin ehtiramımı ifadə edir, qardaş Azərbaycan xalqına firavanlıq, əmin-amanlıq və nailiyyətlər diləyirəm.

Hörmətlə,

İrakli KOBAXİDZE,
Gürcüstanın Baş naziri

❖ ❖ ❖

Möhtərəm cənab Prezident.

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Müstəqillik, suverenlik, bərabərlik, ərazi bütövlüyü və dövlətlərin beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı qardaşlıq və dostluq zəmnində yaradılmış Türk Dövlətləri Təşkilatının sadiq olduğu təməl prinsiplərdəndir. Azərbaycan Respublikasının təşkilat çərçivəsində tərəfdaşlıq və inteqrasiya proseslərinin inkişafına verdiyi töhfə nəinki üzv dövlətlərimizdə, həmçinin bütövlükdə regionumuzda sülh, sabitlik, təhlükəsizlik və rifahın möhkəmləndirilməsinə xidmət edir.

Əminəm ki, Sizin təşəbbüsünüz əsasında bu ilin iyul ayında Şuşa şəhərində Türk Dövlətləri Təşkilatının qeyri-rəsmi Zirvə görüşünün keçirilməsi əməkdaşlığımızı daha da gücləndirəcəkdir.

Zati-aliləri, fürsətdən istifadə edərək Sizə bir daha dərin ehtiramımı bildirir, Azərbaycan xalqının rifahı naminə işlərinizdə yeni uğurlar diləyirəm.

Hörmətlə,

Kubanıçbek ÖMÜRALIYEV,
Türk Dövlətləri Təşkilatının Baş katibi

❖ ❖ ❖

Möhtərəm İlham Heydər oğlu.

İcazə verin Sizə öz ehtiramımı bildirim və zati-alinizi Müstəqillik Günü münasibətilə təbrik edim.

Bu əlamətdar gündə Sizə və Azərbaycan Respublikasının bütün vətəndaşlarına möhkəm cansağlığı, xoşbəxtlik, əmin-amanlıq və doğma ölkənizin inkişafı naminə səmərəli fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayıram.

Həştərxan vilayəti ilə Azərbaycan Respublikası arasında uzun illər ərzində davamlı strateji tərəfdaşlıq xarakteri almış çoxplanlı qarşılıqlı fəaliyyətin inkişafına göstərdiyiniz hərtərəfli dəstəyə və şəxsi töhfənizə görə Sizə təşəkkürümü bildirirəm. Əminəm ki, gələcəkdə də birgə səylərlə qarşılıqlı hörmətə və etibarlı əməkdaşlığa əsaslanan ənənələri fəal şəkildə möhkəmləndirəcəyik.

Dərin hörmətlə,

İqor BABUŞKİN,
Rusiya Federasiyasının Həştərxan vilayətinin qubernatoru

❖ ❖ ❖

Cənab Prezident.

Müstəqillik Günü münasibətilə zati-alinizi, dost və qardaş Azərbaycan xalqını ürəkdən təbrik edirəm.

Sizin rəhbərliyinizlə dost və qardaş Azərbaycan inkişaf edən iqtisadiyyatı, artan nüfuzu və güclü ordusu ilə regionun qüdrətli dövlətinə çevrilmişdir. Azərbaycanın bu uğurlu və şanlı nailiyyətləri təkcə Azərbaycan xalqı üçün deyil, bütün türk xalqı üçün də qürur və xoşbəxtlik mənbəyidir.

Hər çətinlikdə bir-birinə dəstək olan Türkiyə ilə Azərbaycan arasındakı dostluq və qardaşlıq bağlarının qarşıdakı dövrdə "Bir millət, iki dövlət" prinsipi ilə daha da möhkəmlənəcəyinə, qardaş Azərbaycanın Bayrağının qədim torpaqlarında əbədi olaraq dalğalanacağına inamım qətidir.

Müstəqillik uğrunda canlarını fəda etmiş əziz şəhidlərimizin xatirəsini minnətdarlıq hissi ilə yad edirəm.

Fürsətdən istifadə edərək, zati-alinizə ən xoş arzularımı çatdırır, cansağlığı və firavanlıq diləyirəm.

Hörmətlə,

Fuat OKTAY,
Türkiyə Böyük Millət Məclisinin Xarici əlaqələr komitəsinin sədri

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu.

Sizi milli bayram - Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə təbrik edirəm. Müstəqillik Günü Azərbaycan vətəndaşları üçün mühüm bayramdır və onların Vətənin suverenliyi uğrunda fədakar mübarizəsinin gələcək nəsillər üçün böyük əhəmiyyətini əks etdirir. Bu günü 1918-ci il hadisələrindən ayıran zaman kəsiyinə baxmayaraq, Azərbaycan vətəndaşları bir əsrdən çox əvvəl öz əcdadlarının yeni qurduqları müstəqil dövlət ideallarına və prinsiplərinə eyni hörmətlə yanaşırlar.

Azərbaycan xalqının milli qüruru, vətənpərvərliyi və öz gücünə sonsuz inamı ölkə rəhbərliyinin müdrik siyasəti ilə birlikdə respublikaya iqtisadi və sosial sahələrdə uğurlar qazanmağa, ölkənin beynəlxalq aləmdə nüfuzunu möhkəmləndirməyə imkan yaradır.

Hörmətli İlham Heydər oğlu, Sizə möhkəm cansağlığı, xoşbəxtlik, Azərbaycan vətəndaşlarının rifahı naminə səmimi-qəlbdən bütün səylərinizin həyata keçməsini arzu edirəm.

Hörmətlə,

Mixail QUTSERİYEV,
Rusiyanın "SAFMAR Qrupu" Səhmdar Cəmiyyətinin prezidenti

❖ ❖ ❖

Möhtərəm cənab Prezident.

Müstəqillik Günü münasibətilə Zati-alinizə ən səmimi təbriklərimizi çatdırmaqdan, Sizə möhkəm cansağlığı arzulamaqdan böyük məmnunluq duyuruq. Doğma Azərbaycan Respublikasına və onun xalqına Allah-Taaladan daha böyük tərəqqi və rifah diləyirik.

Misir-Azərbaycan Dostluq Cəmiyyəti Misir və Azərbaycan xalqları arasında müxtəlif sahələrdə əlaqələrin möhkəmləndirilməsi və əməkdaşlığın inkişaf etdirilməsi üçün maksimum səy göstərir.

Qoy Azərbaycan Respublikası Sizin müdrik və uzaqgörən rəhbərliyinizlə daim inkişaf etsin və daha da firavanlaşsın!

Xahiş edirik, ən xoş arzularımızı və yüksək ehtiramımızı qəbul edin.

Dərin hörmətlə,

Misir-Azərbaycan Dostluq Cəmiyyəti İdarə Heyətinin üzvləri:

Əli CÜMƏ,
Misir Ərəb Respublikası parlamentinin Dini işlər və vəqflər komitəsinin sədri, professor

Usamə əl-ƏBD,
Misir parlamentinin Dini işlər və vəqflər komitəsi sədrinin müavini, professor

Əl-Seyyid Mahmud əl-ŞƏRİF,
Seyyidlər Həmkarlar İttifaqının sədri, Misir parlamenti sədrinin sabiq birinci müavini

Yusif əl-ŞƏRQAVİ,
Misir Ərəb Respublikasının Azərbaycan Respublikasındakı sabiq səfiri

Adil DƏRVİŞ,
Misir Helvan Universitetinin professoru, Misir Mədəniyyət Mərkəzinin Azərbaycan Respublikasındakı keçmiş direktoru

Bağdadi İMAM,
Misir Ərəb Respublikası Ali Təhsil Nazirliyinin baş direktoru

Tövhid MƏHƏMMƏD,
Müşavir, vəkil, Misir əl-Xeyir Fondunun Hüquqi İşlər üzrə direktoru

Midhət CAMAL,
general, Misir əl-Xeyir Fondunda "İbn əs-Səbil" layihəsinin rəhbəri

Sabir HƏSƏN,
Ali Mədəniyyət Şurasının üzvü

Mona ZİDAN,
Helvan Universitetinin professoru

Əhməd Əbdu TARABEK,
Orta Asiya və Qafqaz məsələləri üzrə tədqiqatçı və jurnalist

Mustafa HİCAZİ,
"Orange" şirkətinin baş direktoru

Seymur NƏSİROV,
Misir-Azərbaycan Dostluq Cəmiyyətinin İdarə Heyətinin və Misirdəki Azərbaycan diasporunun sədri

"İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin 134-cü kitabı çapdan çıxıb

"İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin 134-cü kitabı çapdan çıxıb.

AZƏRTAC xəbər verir ki, çoxcildliyin yeni kitabında toplanmış materiallar 2024-cü ilin fevral-mart aylarını əhatə edir.

Azərbaycanda fevral ayının ən mühüm hadisəsi müstəqillik dövründə ilk dəfə respublikanın bütün ərazisində prezident seçkilərinin keçirilməsi və xalqın İlham Əliyevi yekdilliklə yenidən prezident seçməsi olub. Kitabda Prezident İlham Əliyevin seçkilərdə qazandığı qələbə münasibətilə bir çox dövlət və hökumət rəhbərlərinin, beynəlxalq təşkilatların və ayrı-ayrı nüfuzlu şəxslərin ona göndərdiyi təbrik məktubları toplanıb. Fevralın 14-də Azərbaycan Respublikası Prezidentinin Milli Məclisdə andiçmə mərasimi keçirilib. Mərasimdə nitq söyləyən Prezident İlham Əliyev Azərbaycanın həyatında yeni dövrün başlandığını bildirərək deyib: "İndi isə yeni dövr başlayır. Biz bu dövrə alnımız açıq, üzümüz ağ, başımız dik daxil oluruq. Bu dövrün böyük nailiyyətləri olacaq, mən buna şübhə etmirəm. Çünki son illərin tarixi onu göstərdi ki, qarşıya qoyduğumuz bütün vəzifələr icra edildi. Əlbəttə, bütöv Azərbaycan bu dövrə qədəm qoymuş, bütövləşmiş birlik nümayiş etdirmiş, o cümlədən bu seçkilərdə böyük birlik nümayiş etdirmiş xalq böyük uğurlara imza atacaq. Mənim buna şübhəm yoxdur. Azərbaycan cəmiyyətində hökm sürən çox müsbət ab-hava bizi daha da gücləndirir. Güclü Azərbaycan bizim həmişə hədəfimiz olub. Əgər güclü Azərbaycan qurmasaydıq, əgər kimdənsə istər siyasi, istər iqtisadi sahədə asılı olmuş olsaydıq, heç vaxt biz ərazi bütövlüyümüzü bərpa edə bilməzdik".

Oxucular dövlətimizin başçısının nitqinin tam mətni ilə bu kitabda tanış ola bilərlər.

Çoxcildliyin yeni kitabında Azərbaycan Prezidentinin 60-cı Münxen Təhlükəsizlik Konfransında iştirak etmək üçün Almaniya Federativ Respublikasına işgüzar səfəri, prezident seçkilərindən sonra qardaş Türkiyə Respublikasına ilk rəsmi səfəri zamanı keçirdiyi görüşlərə dair materiallar da yer alıb.

Prezident İlham Əliyev fevral ayında Xocalıya səfər edib, Xocalı Soyqırımı Memorialının təməlini qoyub, rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb. Bütün bunlar haqqında informasiya və dövlətimizin başçısının Xocalı sakinləri qarşısındakı çıxışının mətni yeni kitaba daxil edilib.

Mart ayında isə ölkəmizin iqtisadi həyatında mühüm tədbir - Bakıda Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 10-cu və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 2-ci iclası keçirilib. Tədbirdə çıxış edən Prezident İlham Əliyev şaxələndirmə haqqında Azərbaycanın mövqeyinin dəyişməz olduğunu, eyni zamanda Avrasiyadakı geosiyasi vəziyyətin dövlətimizin gördüyü işlərin nə dərəcədə düzgün olduğunu sübut etdiyini bildirib.

Sitat: *Məşvərət Şurasının ötən illərdəki toplantıları zamanı biz həmişə enerji təhlükəsizliyi məsələlərini müzakirə etmişik. Azərbaycanın burada mövqeyi hər zaman ardıcıl olub - biz bunu hər bir ölkənin milli təhlükəsizlik məsələsi hesab edirik. Biz şaxələndirmə haqqında danışarkən mövqeyimiz hər zaman dəyişməz olub və bu gün də belədir - şaxələndirmə yalnız marşrutlara deyil, həm də mənbələrə şamil edilməlidir.*

Bu gün Avrasiyadakı geosiyasi vəziyyət məhz bizim gördüyümüz işlərin nə dərəcədə düzgün olduğunu sübut edir. Azərbaycana gəldikdə, "Cənub qaz dəhlizi" tamamilə yeni marşrutdur. Bu gün ona artıq bir çox marşrutlar - interkonnektorlar əlavə edilib. Azərbaycan qazı yeni mənbədir. Yəni biz burada, bu formatda, təşəbbüskarı olduğumuz bu layihədə enerjinin şaxələndirilməsi məsələlərinin tam şəkildə əhatə edildiyini görürük.

Dövlətimizin başçısının nitqinin tam mətni ilə 134-cü kitabda tanış olmaq mümkündür.

Yeni nəşrdə Azərbaycan Prezidentinin XXVII Avrasiya İqtisadi Zirvə toplantısının iştirakçılarına müraciət məktubları, habelə müxtəlif ölkələrin dövlət və hökumət başçılarına məktublarının mətnləri də verilib.

"Azərnəşr" tərəfindən buraxılan 134-cü kitabın hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

Gürcüstanın Baş naziri zati-aliləri cənab İrakli Kobaxidzeyə

Hörmətli cənab Baş nazir.

Dost Gürcüstanın milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə və bütün xalqınıza şəxsən öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi çatdırıram.

Azərbaycan-Gürcüstan əlaqələri əsrlər boyu mehriban qonşuluq və qarşılıqlı anlaşma şəraitində yaşamış dost xalqlarımızın sarsılmaz iradəsindən və məramından qaynaqlanır. Dövlətlərarası münasibətlərimizin bu gün yeni vüsət alması, qarşılıqlı inam və dəstəyə əsaslanan tərəfdaşlığımızın müvəffəqiyyətlə inkişaf etməsi və yeni məzmunla zənginləşməsi məmnunluq doğurur.

Strateji əhəmiyyət daşıyan və birgə həyata keçirdiyimiz nəqliyyat, enerji və digər infrastruktur layihələri xalqlarımızın mənafelərinə xidmət etməklə yanaşı, daha geniş regionda - Avrasiya məkanında önəmli amil rolunu oynayır və əvəzolunmaz imkanlar açır.

Əminəm ki, xalqlarımızın rifahı, bölgəmizin sabitliyi və təhlükəsizliyi naminə Azərbaycan-Gürcüstan əlaqələrinin bütün sahələrdə genişləndirilməsi, birgə təşəbbüslərimizin reallaşdırılması, qarşılıqlı faydalı əməkdaşlığımızın və strateji tərəfdaşlığımızın daha da dərinləşdirilməsi istiqamətində birgə səylərimizi bundan sonra da uğurla davam etdirəcəyik.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Gürcüstan xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

Hörmətlə,

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 23 may 2024-cü il

"Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiya haqqında Əsasnamənin təsdiq edilməsi və Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiyanın tərkibi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 9 dekabr tarixli 224 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 27 dekabr tarixli 2435 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiya haqqında Əsasnamənin təsdiq edilməsi və Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiyanın tərkibi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 9 dekabr tarixli 224 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 27 dekabr tarixli 2435 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

1. "Dövlət sirri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 17 yanvar tarixli 539 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 4, maddə 268 (Cild I) 1-ci hissəsinin üçüncü və dördüncü abzaslarından "Azərbaycan Respublikasının Prezidenti yanında" sözləri çıxarılsın.

2. "Milli arxiv fondu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 27 iyul tarixli 168 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 7, maddə 430 (Cild I) 2.4-cü bəndindən "Azərbaycan Respublikasının Prezidenti yanında" sözləri çıxarılsın.

3. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 29 dekabr tarixli 435 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 1, maddə 28 (Cild I) 3.6.2-ci yarımbəndindən (ikinci halda) və 3.22-4-cü bəndindən (ikinci halda) "Azərbaycan Respublikasının Prezidenti yanında" sözləri çıxarılsın.

4. Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 4 avqust tarixli 911 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 8, maddə 440 (Cild I) ilə təsdiq edilmiş "İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusu"nun 2.3-1-ci bəndindən ikinci halda "Azərbaycan Respublikasının Prezidenti yanında" sözləri çıxarılsın.

5. "Dövlət sirrini əks etdirən normativ hüquqi aktların yayılması və qüvvəyə minməsi qaydası haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 27 sentyabr tarixli 932 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 9, maddə 483 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

5.1. 3-cü hissədən "Azərbaycan Respublikasının Prezidenti yanında" sözləri çıxarılsın;

5.2. həmin Fərmanla təsdiq edilmiş "Dövlət sirrini əks etdirən normativ hüquqi aktların yayılması və qüvvəyə minməsi qaydası haqqında Əsasnamə" üzrə:

5.2.1. 6-cı hissənin ikinci abzasından "Azərbaycan Respublikası Prezidentinin yanında" sözləri çıxarılsın;

5.2.2. 18-ci hissənin beşinci abzasından "Azərbaycan Respublikasının Prezidenti yanında" sözləri çıxarılsın.

6. "Dövlət sirri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 5 noyabr tarixli 139 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 11, maddə 903 (Cild I) 2.2-ci, 2.3-cü və 3.3-cü bəndlərindən "Azərbaycan Respublikasının Prezidenti yanında" sözləri çıxarılsın.

7. Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 3 iyun tarixli 249 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 6, maddə 486 (Cild I) ilə təsdiq edilmiş "Məlumatların dövlət sirrinə aid edilməsi Qaydaları"nın 4-cü hissəsinin birinci abzasının ikinci cümləsindən "Azərbaycan Respublikasının Prezidenti yanında" sözləri çıxarılsın.

8. "Dövlət sirri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına əlavələr və dəyişikliklər edilməsi və bəzi qanunvericilik aktlarının qüvvədən düşmüş hesab edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 13 fevral tarixli 370 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 2, maddə 87 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

9. "Milli arxiv fondu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 1 fevral tarixli 1480-VQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 13 mart tarixli 589 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 3, maddə 429 (Cild I) 3-cü hissəsi ləğv edilsin.

10. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 aprel tarixli 622 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 4, maddə 622 (Cild I); 2024, №3, maddə 262; Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 30 aprel tarixli 50 nömrəli Fərmanı) ilə təsdiq edilmiş Əlavə 2 - "Xüsusi dövlət rabitəsi ilə təmin olunan vəzifəli şəxslərin siyahısı"nın 48-ci hissəsindən "Azərbaycan Respublikasının Prezidenti yanında" sözləri çıxarılsın.

11. "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli 1028-VIQ nömrəli Qanununun tətbiqi ilə bağlı bir sıra məsələlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 26 dekabr tarixli 2424 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 12 (I kitab), maddə 1685 (Cild I); Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 1 aprel tarixli 26 nömrəli Fərmanı) 1.3.2.11-ci yarımbəndindən "Azərbaycan Respublikasının Prezidenti yanında" sözləri çıxarılsın.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 27 may 2024-cü il

"Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 9 iyun tarixli 900-VIKQD nömrəli Konstitusiya Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci, 17-ci, 18-ci və 21-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 9 iyun tarixli 900-VIKQD nömrəli Konstitusiya Qanununun icrası ilə əlaqədar **qərara alır:**

Maddə 1. Azərbaycan Respublikası Cəzaların İcrası Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 586 (Cild I); Azərbaycan Respublikasının 2024-cü il 5 mart tarixli 1108-VIQD nömrəli Qanunu) 22.1-1-ci maddəsində "onların həmin yerlərdə" sözləri "saxlanılan və ya əvvəllər saxlanılmış şəxslərin həmin cəzaçəkmə müəssisələrində" sözləri ilə əvəz edilsin və həmin maddəyə "protokollaşdırmaq," sözündən sonra "texniki vasitələrdən istifadə etməklə foto, audio və video qeydiyyatını aparmaq," sözləri əlavə edilsin.

Maddə 2. Azərbaycan Respublikası Miqrasiya Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 7, maddə 797 (Cild I); 2024, № 1, maddə 7; Azərbaycan Respublikasının 2024-cü il 5 mart tarixli 1108-VIQD nömrəli Qanunu) 94.2-ci maddəsində "onların həmin yerlərdə" sözləri "saxlanılan və ya əvvəllər saxlanılmış şəxslərin Mərkəzdə" sözləri ilə əvəz edilsin və həmin maddəyə "protokollaşdırmaq," sözündən sonra "texniki vasitələrdən istifadə etməklə foto, audio və video qeydiyyatını aparmaq," sözləri əlavə edilsin.

Maddə 3. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202 (Cild I); 2024, № 1, maddə 18, № 2, maddə 135; Azərbaycan Respublikasının 2024-cü il 23 fevral tarixli 1099-VIQD nömrəli və 19 aprel tarixli 1134-VIQD nömrəli qanunları) 554-cü maddəsinin adına və dispozisiyasına "(ombudsmanın)" sözündən sonra ", Milli preventiv qrupun və müstəqil monitorinq qruplarının" sözləri əlavə edilsin.

Maddə 4. Azərbaycan Respublikasının 1994-cü il 23 sentyabr tarixli 886 nömrəli Qanunu (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1995, № 22, maddə 347; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri Nizamnaməsi"nin "Hauptvaxt haqqında" 4 saylı əlavəsinin 5-1-ci maddəsində "onların həmin yerlərdə" sözləri "saxlanılan və ya əvvəllər saxlanılmış şəxslərin həmin qarnizon hauptvaxtlarında" sözləri ilə əvəz edilsin və həmin maddəyə "protokollaşdırmaq," sözündən sonra "texniki vasitələrdən istifadə etməklə foto, audio və video qeydiyyatını aparmaq," sözləri əlavə edilsin.

Maddə 5. "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 8, maddə 484 (Cild I) 4-cü maddəsinin ikinci hissəsinə aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:

"Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) həmçinin "Uşaq hüquqları haqqında" Konvensiyanın həyata keçirilməsinin monitorinqi və təşviqi üzrə müstəqil monitorinq mexanizminin funksiyalarını həyata keçirir.".

Maddə 6. "Psixiatriya yardımı haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 9, maddə 569 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

6.1. 23.1.3-cü maddəyə "(Ombudsman)," sözündən sonra "Milli preventiv qrup üzvləri," sözləri əlavə edilsin;

6.2. 42.1-ci maddədə "onların həmin yerlərdə" sözləri "saxlanılan və ya əvvəllər saxlanılmış şəxslərin həmin psixiatriya müəssisələrində" sözləri ilə əvəz edilsin və həmin maddəyə "protokollaşdırmaq," sözündən sonra "texniki vasitələrdən istifadə etməklə foto, audio və video qeydiyyatını aparmaq," sözləri əlavə edilsin.

Maddə 7. "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 7, maddə 641 (Cild I); Azərbaycan Respublikasının 2024-cü il 5 mart tarixli 1108-VIQD nömrəli Qanunu) 49.2-ci maddəsində "onların həmin yerlərdə" sözləri "saxlanılan və ya əvvəllər saxlanılmış şəxslərin həmin həbs yerlərində" sözləri ilə əvəz edilsin və həmin maddəyə "protokollaşdırmaq," sözündən sonra "texniki vasitələrdən istifadə etməklə foto, audio və video qeydiyyatını aparmaq," sözləri əlavə edilsin.

Maddə 8. "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 7 (I kitab), maddə 1386 (Cild I) 38-ci maddəsində aşağıdakı dəyişikliklər edilsin:

8.1. adında "dövlət monitorinqi" sözləri "monitorinq" sözü ilə əvəz edilsin;

8.2. aşağıdakı məzmunda 38.4-cü maddə əlavə edilsin:

"38.4. Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyanın həyata keçirilməsinin monitorinqi və təşviqi üzrə müstəqil monitorinq mexanizminin funksiyalarını həyata keçirir.".

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 7 may 2024-cü il

2024-cü il üçün Azərbaycan Respublikasının texnika və mədəniyyət sahələrində Dövlət Mükafatlarının verilməsi haqqında

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının Elm, texnika, memarlıq, mədəniyyət və ədəbiyyat üzrə Dövlət Mükafatları Komissiyasının təklifinə əsasən **qərara alıram:**

2024-cü il üçün texnika və mədəniyyət sahələrində Azərbaycan Respublikasının Dövlət Mükafatları aşağıdakı şəxslərə verilsin:

Texnika sahəsi üzrə

Vaqif Məcid oğlu Fərzəliyev
Həqiqət Əliəşrəf qızı Cavadova
Əfsun Rəzzaq oğlu Sucayev
- "Xüsusi təyinatlı sürtkü yağlarının yaradılması və istehsalının təşkili" kompleks elmi-texniki işinə görə

Mədəniyyət sahəsi üzrə

Mehriban Zaur qızı Ələkbərzadə - Teatr rejissorluğu sahəsində fəaliyyətinə görə.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 27 may 2024-cü il

Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 279 **QƏRAR** Bakı şəhəri, 24 may 2024-cü il

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 27 yanvar tarixli 10 nömrəli Qərarı ilə təsdiq edilmiş "Təhlükəli yüklərin avtomobil nəqliyyatı ilə daşınması Qaydaları"nda dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 27 yanvar tarixli 10 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 80 (Cild I) ilə təsdiq edilmiş "Təhlükəli yüklərin avtomobil nəqliyyatı ilə daşınması Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 1.2-ci bəndin ikinci abzasının ikinci cümləsində "quru yollar" sözləri "avtomobil yolları" sözləri ilə, "(DOPOQ)" akronimi "(ADR) (bundan sonra - Avropa Sazişi)" sözləri ilə əvəz edilsin və həmin abzasın qeyd hissəsinin birinci cümləsindən "(DOPOQ) barədə" sözləri çıxarılsın.

2. 1.4-cü bəndin birinci abzasında "Təhlükəli yüklərin quru yollar ilə beynəlxalq daşımaları haqqında" Avropa Sazişinin (DOPOQ) müddəaları", eləcə də" sözləri "Avropa Sazişinin müddəaları, eləcə də" sözləri ilə əvəz edilsin.

3. Həmin Qaydalara 5 nömrəli əlavə - "Nəqliyyat vasitəsinin təhlükəli yüklərin daşınmasına buraxılması haqqında şəhadətnamə" aşağıdakı redaksiyada verilsin:

NƏQLİYYAT VASİTƏSİNİN TƏHLÜKƏLİ YÜKLƏRİN DAŞINMASINA BURAXILMASI HAQQINDA ŞƏHADƏTNAMƏ

CERTIFICATE OF APPROVAL FOR VEHICLES CARRYING CERTAIN DANGEROUS GOODS

Bu Şəhadətnamə təsdiq edir ki, aşağıda qeyd olunmuş nəqliyyat vasitəsi "Təhlükəli yüklərin avtomobil yolları ilə beynəlxalq daşımaları haqqında" Avropa Sazişində (ADR) qeyd olunmuş şərtlərə cavab verir.

This certificate testifies that the vehicle specified below fulfils the conditions prescribed by the European Agreement concerning the International Carriage of Dangerous Goods by Road (ADR).

1. Şəhadətnamənin №-si / Certificate No.:	2. Nəqliyyat vasitəsinin istehsalçısı / Vehicle manufacturer:	3. Nəqliyyat vasitəsinin şassi və ban №-si / Vehicle Identification №.:	4. Dövlət qeydiyyat nişanı (əgər vardırsa) / Registration number (if any):

5. Daşıyıcının, operatorun və ya mülkiyyətçinin adı və onun ünvanı / Name and business address of carrier, operator or owner:

6. Nəqliyyat vasitəsinin təsviri[1] / Description of vehicle[1]:

7. ADR-in 9.1.1.2-ci yarımbəndinə əsasən nəqliyyat vasitəsinin təyinatı (təyinatları)[2] /Vehicle designation(s) according to 9.1.1.2 of ADR[2]:

EX/II EX/III FL AT MEMU

8. Aşınmaya davamlı tormoz sistemi[3] / Endurance braking system:[3]

☐ Tətbiq olunmur / Not applicable

☐ Nəqliyyat vasitəsinin ümumi kütləsi üçün kifayət edən, ADR-in 9.2.3.1.2-ci yarımbəndinə uyğun effektivlik_____t[4] / The effectiveness according to 9.2.3.1.2 of ADR is sufficient for a total mass of the transport unit of_____ t[4]

9. Quraşdırılmış sisternin (sisternlərin) /nəqliyyat vasitəsi-batareyanın (əgər vardırsa) təsviri / Description of the fixed tank(s)/battery-vehicle (if any):

9.1. Çənin istehsalçısı / Manufacturer of the tank:

9.2. Çənin/nəqliyyat vasitəsi-batareyanın təsdiqetmə nömrəsi / Approval number of the tank/battery-vehicle:

9.3. Çənin istehsalçısı tərəfindən verilmiş seriya nömrəsi/ nəqliyyat vasitəsi-batareyanın elementlərinin təyinatı / Tank manufacturer's serial number/ Identification of elements of battery-vehicle:

9.4. İstehsal ili / Year of manufacture:

9.5. ADR-in 4.3.3.1-ci və ya 4.3.4.1-ci yarımbəndlərinə uyğun olaraq sisternin kodu / Tank code according to 4.3.3.1 or 4.3.4.1 of ADR:

9.6. ADR-in 6.8.4-cü yarımbəninə uyğun olaraq TC və TE üzrə xüsusi müddəalar (tətbiq olunursa)[6] / Special provisions TC and TE according to 6.8.4 of ADR (if applicable)[6]:

10. Daşınmasına icazə verilən təhlükəli yüklər / Dangerous goods authorised for carriage:

Nəqliyyat vasitəsi 7-ci qrafada qeyd edilmiş təyinatına (təyinatlarına) aid edilmiş təhlükəli yüklərin daşınması üçün şərtlərə cavab verir / The vehicle fulfils the conditions required for the carriage of dangerous goods assigned to the vehicle designation(s) in No.7.

10.1. Nəqliyyat vasitəsi EX/II və ya EX/III təyinatı olduqda[3] / In the case of an EX/II or EX/III vehicle[3]

☐ 1-ci sinif yüklər, uyğunluq qrupu J daxil olmaqla / goods of Class 1 including compatibility group J

☐ 1-ci sinif yüklər, uyğunluq qrupu J istisna olmaqla / goods of Class 1 excluding compatibility group J

10.2. Avtosisternlər/nəqliyyat vasitəsi-batareyalar olduqda[3] / In the case of a tank-vehicle/battery-vehicle[3]

☐ yalnız 9-cu qrafada qeyd edilən istənilən xüsusi müddəalara və sisternin koduna uyğun olaraq icazə verilmiş maddələr daşına bilər[5] və ya /
only the substances permitted under the tank code and any special provisions specified in No.9 may be carried[5]
or

☐ yalnız aşağıdakı maddələr (yükün sinfi, BMT nömrəsi, zərurət olduqda qablaşdırmanın qrupu və yükgöndərmə üzrə adlar qeyd olunmaqla) daşına bilər /
only the following substances (Class, UN number, and if necessary packing group and proper shipping name) may be carried

Gövdənin, altlığın, avadanlığın materialları ilə və daxili qoruyucu üzlüklə (tətbiq olunursa) təhlükəli reaksiyaya girə bilməyən maddələr /
Only substances which are not liable to react dangerously with the materials of the shell, gaskets, equipment and protective linings (if applicable) may be carried

11. Qeydlər / Remarks:

12. Etibarlıdır / Valid until: Şəhadətnaməni verən təşkilatın möhürü / Stamp of issuing service

Yer, tarix, imza / Place, Date, Signature

1. Nəqliyyat vasitələrinin konstruksiyaları haqqında Birgə Qətnamə (R.E.3) və ya Avropa Şurasının 2007/46/EC Direktivi ilə müəyyən edilmiş mexaniki nəqliyyat vasitələrinin və qoşqularının N və O kateqoriyalarına əsasən.

According to the definitions for power-driven vehicles and for trailers of categories N and O as defined in the Consolidated Resolution on the Construction of Vehicles (R.E.3) or in Directive 2007/46/EC.

2. Lazım olmayanın üstündən xətt çəkməli. Strike out what is not appropriate.

3. Lazım olanı işarələməli. Mark the appropriate.

4. Müvafiq kəmiyyəti göstərməli. 44 t-na bərabər kəmiyyət qeydiyyat sənədində göstərilən "qeydiyyat / istismar üçün icazə verilən maksimum kütləni" məhdudlaşdırmır.

Enter appropriate value. A value of 44 t will not limit the "registration / in-service maximum permissible mass" indicated in the registration document(s).

5. Xüsusi müddəalar (əgər nəzərdə tutulmuşdursa) daxil olmaqla 4.3.3.1.2-ci və ya 4.3.4.1.2-ci yarımbəndlərində nəzərə alınmış ardıcıllığa uyğun olaraq 9-cu qrafada qeyd olunmuş sistern koduna və ya sisternlərin digər kodlarına aid edilən maddələr.

Substances assigned to the tank code specified in No.9 or to another tank code permitted under the hierarchy in 4.3.3.1.2 or 4.3.4.1.2. taking account of the special provision(s), if any.

6. Daşınmasına icazə verilən maddələr 10.2-ci qrafada qeyd edildikdə tələb olunmur.

Not required when the authorized substances are listed in No. 10.2.

13. Qüvvədəolma müddətinin uzadılması / Extensions of validity	
Qüvvədəolma müddəti ____qədər uzadılmışdır / Validity extended until_____	Şəhadətnaməni verən təşkilatın möhürü, yer, tarix, imza / Stamp of issuing service, place, date, signature:
Qüvvədəolma müddəti ____qədər uzadılmışdır / Validity extended until_____	Şəhadətnaməni verən təşkilatın möhürü, yer, tarix, imza / Stamp of issuing service, place, date, signature:

Qeydlər:

1. Şəhadətnamənin ölçüləri 210 mmx297 mm olmalıdır.

2. Şəhadətnamə çəhrayı diaqonal zolaqlı ağ rəngdə olmalıdır.

3. Tullantılar üçün vakuum sisterninə malik nəqliyyat vasitəsinin daşınmaya buraxılması haqqında şəhadətnamədə "tullantılar üçün vakuum sisternli nəqliyyat vasitəsi" (həmçinin ingilis dilində "vacum-operated waste tank-vehicle") qeydi olmalıdır.

4. Aşağıdakı hallarda Şəhadətnamə onu verən təşkilata qaytarılmalıdır:

4.1. nəqliyyat vasitəsinin istismarı başa çatdıqdan sonra;

4.2. nəqliyyat vasitəsi 5-ci qrafada qeyd olunan digər daşıyıcıya, operatora və ya mülkiyyətçiyə verildikdə;

4.3. şəhadətnamənin qüvvədəolma müddəti bitdikdən sonra;

4.4. nəqliyyat vasitəsinin əsas xüsusiyyətlərindən biri və ya bir neçəsi əhəmiyyətli dərəcədə dəyişdikdə.".

Əli ƏSƏDOV,
Azərbaycan Respublikasının Baş naziri

Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 280 **QƏRAR** Bakı şəhəri, 24 may 2024-cü il

"Əlilliyi olan şəxslərin dərman preparatları, tibbi xidmət və ölkə hüdudları daxilində sanatoriya-kurort müalicəsi ilə təmin olunması Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 23 dekabr tarixli 406 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 23 dekabr tarixli 406 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 12, maddə 1530 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 12 mart tarixli 137 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Əlilliyi olan şəxslərin dərman preparatları, tibbi xidmət və ölkə hüdudları daxilində sanatoriya-kurort müalicəsi ilə təmin olunması Qaydası"na 2 nömrəli əlavə - "Əlilliyi olan şəxslər üçün ambulator şəraitdə istifadə olunan ən vacib dərman preparatlarının siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

1. "Allergiya əleyhinə dərman vasitələri" hissəsinə aşağıdakı məzmunda 8-1-ci abzas əlavə edilsin:

8-1.	Loratadin	tablet

2. "Ürək damar sistemi üçün dərman vasitələri" hissəsinə aşağıdakı məzmunda 24-1-ci və 24-2-ci abzaslar əlavə edilsin:

24-1.	Amlodipin+İndapamid+Perindopril	tablet
24-2.	Ramipril	tablet

3. "Beyin və periferik qan dövranını yaxşılaşdıran dərman vasitələri" hissəsinə aşağıdakı məzmunda 32-1-ci və 32-2-ci abzaslar əlavə edilsin:

32-1.	Betahistin dihidroxlorid	tablet
32-2.	Neostiqmin metilsulfat	inyeksiya üçün məhlul

4. "Həzm sisteminə təsir edən dərman vasitələri" hissəsinə aşağıdakı məzmunda 44-1-ci abzas əlavə edilsin:

44-1.	Bisakodil	tablet

5. "Tənəffüs sisteminə təsir edən dərman vasitələri" hissəsinə aşağıdakı məzmunda 48-1-48-3-cü abzaslar əlavə edilsin:

48-1.	Montelukast	tablet
48-2.	Dornase alfa	inhalyasiya üçün məhlul
48-3.	Hipertonik natrium xlorid məhlulu+natrium hialuronat	inhalyasiya üçün məhlul

6. "Vitamin və minerallar" hissəsinə aşağıdakı məzmunda 57-1-ci abzas əlavə edilsin:

57-1.	Maqnezium + Piridoksin HCl	tablet

7. "Antimikrob dərman vasitələri" hissəsinə aşağıdakı məz-munda 60-1-60-5-ci abzaslar əlavə edilsin:

60-1.	Metronidazol	tablet
60-2.	Ofloksasin	tablet
60-3.	Ko-trimoksazol	tablet
60-4.	Tobramicin	inhalyasiya üçün məhlul
60-5.	Siprofloksasin	tablet

8. "Epilepsiya əleyhinə dərman vasitələri" hissəsinə aşağıdakı məzmunda 78-1-ci abzas əlavə edilsin:

78-1.	Preqabalin	kapsul

9. "Bazis iltihab əleyhinə (immunosupressiv) dərman vasitələri" hissəsinə aşağıdakı məzmunda 85-1-ci abzas əlavə edilsin:

85-1.	Mikofenolat turşusu	tablet

10. "Antipsixotik dərman vasitələri" hissəsinə aşağıdakı məzmunda 107-1-ci abzas əlavə edilsin:

107-1.	Olanzapin	tablet

11. "Trankvilizəedici dərman vasitələri" hissəsinə aşağıdakı məzmunda 113-1-ci abzas əlavə edilsin:

113-1.	Tetrametiltetraazabisiklooktandion	tablet

12. Aşağıdakı məzmunda yeni hissə əlavə edilsin:

Metobolik proseslərə təsir edən dərman vasitələri		
119.	L-karnitin (levokarnitin)	məhlul

Əli ƏSƏDOV,
Azərbaycan Respublikasının Baş naziri

Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 283 **QƏRAR** Bakı şəhəri, 24 may 2024-cü il

"Standartlaşdırma sahəsində normativ sənədlərin yoxlanılması Qaydası"nın təsdiq edilməsi haqqında

"Standartlaşdırma haqqında" Azərbaycan Respublikasının 2019-cu il 17 may tarixli 1587-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 12 iyul tarixli 780 nömrəli Fərmanının 1.1.5-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Standartlaşdırma sahəsində normativ sənədlərin yoxlanılması Qaydası" təsdiq edilsin (əlavə olunur).

Əli ƏSƏDOV,
Azərbaycan Respublikasının Baş naziri

Azərbaycanın ən iri yükgötürmə gəmisi istismara verilib

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) donanmasına "Handysize" ölçü tipli ilk gəmi qəbul edilib.

ASCO-dan AZƏRTAC-a bildirilib ki, bununla da QSC quru yüklərin daşınmasında yeni seqmentə daxil olub. Prezident İlham Əliyevin tapşırığına əsasən, gəmiyə tarixi torpağımız Xocalının adı verilib.

Çində Dövlət himnimizin sədaları altında gəmidə Azərbaycanın üçrəngli dövlət bayrağı qaldırılıb və "Xocalı" istismara qəbul olunub.

"Xocalı" gəmisi Prezident İlham Əliyevin tapşırıq və tövsiyələri rəhbər tutularaq hazırlanan və ASCO-nun Müşahidə Şurasının qəbul etdiyi gəmiçiliyin strateji inkişaf proqramı çərçivəsində alınıb. Sözügedən proqramda milli gəmiçiliyin Xəzərdənkənar fəaliyyət coğrafiyasının genişləndirilməsi, beynəlxalq hövzələrdə yükdaşıma potensialının daha da artırılması, eləcə də xarici sularda yükdaşımalar üçün yeni tipli daha böyük gəmilərin alınması ilə bağlı investisiya fəaliyyətinin maliyyələşdirilməsi məsələləri xüsusi yer tutur.

Bu istiqamətdə icra olunan işlərin davamı kimi, ASCO "Handysize" ölçü tipli quru yük gəmisinin alınması layihəsinin maliyyələşdirilməsi məqsədilə Avropa Yenidənqurma və İnkişaf Bankı ilə

əməkdaşlıq edib. Bank, ASCO-da beynəlxalq prinsiplərə uyğun qurulmuş korporativ idarəetmə və hesabatlılıq sistemlərinin mövcudluğunu, əməliyyatlarda şəffaflığın və sağlam maliyyə vəziyyətinin təmin edilməsini nəzərə alaraq, dövlət zəmanəti olmadan sözügedən layihənin maliyyələşməsi barədə qərar verib. Bununla da, gəminin alınması üzrə maliyyələşmənin 70 faizi Avropa Yenidənqurma və İnkişaf Bankının ayırdığı kredit vəsaiti, 30 faizi isə ASCO-nun daxili imkanları hesabına həyata keçirilib.

"Xocalı" gəmisi 38 min 593 ton yükgötürmə imkanına malikdir. Bu da ASCO-nun mövcud quru yük gəmilərinin yükgötürmə qabiliyyətindən təxminən 8 dəfə çoxdur. Gəminin uzunluğu 180 metr, eni 30 metr, bortunun hündürlüyü 15 metr, suya oturumu 10,47 metr, maksimum sürəti 15,7 uzeldir. Suya oturumu maksimum yük götürməklə, onun bir çox dayaz limanlara belə rahatlıqla daxil olmasına şərait yaradır.

Qeyd edək ki, "Xocalı" gəmisinin yükləndikdən sonra ilk səfəri Cənubi Koreyanın "Bukpyung" limanından ABŞ-nin "Portland" limanınadır. Bununla da, "Xocalı" müstəqil Azərbaycan bayrağı altında Amerika sularında üzəcək ilk gəmi olacaq.

Milli Məclisin Sədri Sahibə Qafarova Antiqua və Barbudaya işgüzar səfərə gedib

Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılığı ilə parlament nümayəndə heyəti mayın 27-də Antiqua və Barbudaya işgüzar səfərə gedib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Seynt Cons Hava Limanında Milli Məclisin Sədrini Antiqua və Barbuda Xarici İşlər Nazirliyinin katibi Entoni Liverpul, Azərbaycanın Kubadakı səfiri Ruslan Rzayev və digər rəsmi şəxslər qarşılayıblar.

Səfər çərçivəsində Milli Məclisin spikeri Kiçik Adalar üzrə İnkişaf etməkdə olan Dövlətlərin 4-cü Beynəlxalq Konfransının açılış mərasimində və konfransın 1-ci Plenar İclasında iştirak edəcək. Sahibə Qafarovanın plenar iclasda çıxışı və tədbirdə iştirak edən nümayəndə heyətlərinin rəhbərləri ilə bir sıra görüşləri nəzərdə tutulub.

"Azərbaycan"

Su ehtiyatlarından səmərəli istifadə üzrə Komissiyanın Mingəçevirdə iclası keçirilib

Məlum olduğu kimi, su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi və bu sahədə fəaliyyətin əlaqələndirilməsi məqsədilə dövlətimizin başçısının 2020-ci il 15 aprel tarixli sərəncamı ilə aidiyyəti dövlət qurumlarının nümayəndələrindən ibarət Komissiya yaradılıb.

Su ehtiyatlarından səmərəli istifadə üzrə Komissiyanın Katibliyindən AZƏRTAC-a bildiriblər ki, mayın 27-də komissiyanın sədri Şahin Mustafayevin rəhbərliyi ilə müvafiq dövlət qurumlarının nümayəndələrindən ibarət heyət Mingəçevir su anbarında cari vəziyyətlə yerində tanış olub, daha sonra komissiyanın iclası keçirilib.

Qeyd edək ki, su ehtiyatlarından səmərəli istifadə üzrə komissiyanın fəaliyyəti çərçivəsində ölkədə əsas su anbarlarının iş rejimlərinə ciddi nəzarət olunmaqla, su ehtiyatlarından içməli su təchizatı, suvarma, energetika və digər məqsədlər baxımından planlı, koordinasiyalı və optimal istifadə istiqamətində mütəmadi zəruri tədbirlər həyata keçirilir.

Bu baxımdan diqqət yetirilən əsas istiqamətlərdən birini də Kür çayı üzərində yerləşən kaskad tipli Şəmkir-Yenikənd-Mingəçevir-Varvara su anbarları kompleksi təşkil edir.

Son vaxtlar Kür çayında su ehtiyatlarının artması ilə bağlı qeyd edilməlidir ki, illər üzrə çoxsulu və azsulu fazalar, habelə gursulu dövrlər nəzərə alınmaqla çoxillik tənzimləmə prinsipi çərçivəsində sözügedən su anbarlarında suyun həcmi gündəlik nəzarətdə saxlanılmaqla operativ qaydada və optimal səviyyədə tənzimlənir.

Dövlət büdcəsinin gəlir və xərcləri artırılır

Mayın 27-də Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclası keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, iclasda "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə, "Dövlət sosial müdafiə fondunun 2024-cü il büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə və "İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihələri birinci oxunuşda müzakirəyə çıxarılıb.

Komitə sədri Tahir Mirkişili bildirib ki, qanun layihəsinə dair izahata əsasən, işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında 2024-cü il ərzində həyata keçirilən tikinti, bərpa və yenidənqurma işlərinin sürətləndirilməsi, ölkənin müdafiə qabiliyyətinin və təhlükəsizliyinin daha da artırılması, bir sıra infrastruktur təyinatlı layihələrin maliyyə təminatı ilə bağlı əsaslı xərclər, beynəlxalq fəaliyyət, habelə ölkəmizdə keçirilən beynəlxalq tədbirlər üzrə dövlət vəzifələrinin icrası dövlət büdcəsi qarşısında əlavə maliyyə tələbatını formalaşdırıb. Həmin tələbatın dövlət büdcəsinin əlavə daxilolmaları və kəsirin genişləndirilməsi hesabına maliyyələşdirilməsi üçün "Büdcə sistemi haqqında" Qanunun 23-cü maddəsinə uyğun olaraq, dövlət büdcəsinə yenidən baxılması ehtiyacının yarandığı qeyd edilib.

Komitə sədri cari ilin yanvar-aprel aylarında Azərbaycan iqtisadiyyatında yaranmış əlavə dəyərin 38,2 milyard manat, iqtisadi artım tempinin 4,3 faiz təşkil etdiyini söyləyib. Qeyd olunub ki, artım tamamilə qeyri-neft-qaz sektoru hesabına təmin edilib və bu dövrdə iqtisadiyyatın qeyri-neft-qaz sektorunda 24,2 milyard manatlıq məhsul istehsal olunub ki, bu, 7,7 faiz artım deməkdir. Neft-qaz sektorunda isə 14,2 milyard manatlıq məhsul istehsal olunub. Bu ilin 4 ayı ərzində "Azeri Light" xam neftin 1 barelinin qiyməti 87,3 dollar olub. 2024-cü ilin dürüstləşdirilmiş layihəsində neftin 1 barelinin qiyməti 60 dollardan 75 dollara çatdırılıb. Bu müddətdə ölkədə orta illik inflyasiya 0,7 faiz təşkil edib. Dövlət büdcəsinin gəlirləri proqnozdan əlavə 1 milyard 115,1 milyon manat olub. Dövlət büdcəsinin xərcləri isə 123,6 faiz icra edilib. İxracın miqdarı idxala nisbətən 2,5 milyard dollar çoxdur.

Bildirilib ki, yenilənmiş makroiqtisadi proqnoz, dünya neft bazarlarında münbit qiymət dinamikası, cari ilin ötən dövründə dövlət büdcəsinin gəlirlərinin faktiki icra vəziyyəti və dövlət büdcəsində əlavə fiskal məkandan istifadə imkanları 2024-cü il üzrə gəlir proqnozuna yenidən baxılması üçün şərait yaradır.

Sonra maliyyə naziri Samir Şərifov çıxış edərək bildirib ki, 2023-cü ildə ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpası dövlətimiz qarşısında yeni çağırışlar qoyub. İşğaldan azad edilmiş ərazilərdə aparılan tikinti, bərpa və yenidənqurma işlərinin sürətləndirilməsi, ölkənin müdafiə qabiliyyətinin və təhlükəsizliyinin daha da artırılması, bir sıra infrastruktur təyinatlı layihələrin həyata keçirilməsi, beynəlxalq münasibətlər və beynəlxalq fəaliyyətlə bağlı, digər dövlət vəzifələrinin yerinə yetirilməsi üçün müvafiq maliyyə təminatının yaradılması əsas vəzifələr kimi göstərilib. Cari ilin yanvar-aprel ayları üzrə makroiqtisadi və fiskal göstəricilər və dünya enerji bazarında münbit qiymət konyunkturası, habelə cari ilin aprel ayında İqtisadiyyat Nazirliyinin makroiqtisadi proqnozunun baza ssenarisinə edilmiş dəyişikliklərə əsasən, dövlət büdcəsinə gözlənilən əlavə daxilolmalar müəyyən edilmiş prioritet istiqamətlər üzrə zəruri olan bir sıra əlavə tədbir və layihələrin maliyyələşdirilməsinə imkan yaratmaqla 2024-cü ilin dövlət büdcəsinə yenidən baxılmasını şərtləndirib.

Diqqətə çatdırılıb ki, 2024-cü ilin yanvar-aprel aylarında ölkədə 38,2 milyard manatlıq, o cümlədən qeyri-neft/qaz sektorunda 24,2 milyard manatlıq ÜDM istehsal olunub. Əvvəlki ilin eyni dövrü ilə müqayisədə ÜDM real ifadədə 4,3 faiz, qeyri-neft sektoru üzrə isə 7,7 faiz artıb. 2024-cü ilin ilk dörd ayında dövlət büdcəsinin gəlirləri 12 milyard 144 milyon manat proqnoza qarşı 13 milyard 259 milyon manat təşkil edib, yəni nəzərdə tutulduğundan 1 milyard 115 milyon manat çox olub. Proqnozla müqayisədə artımın 68 faizini, yəni 750 milyon manatını qeyri-neft/qaz sektoru, 32 faizini isə və ya 358 milyon manatını neft-qaz sektoru üzrə əlavə gəlirlər təşkil edib. Beləliklə, ötən müddət ərzində dövlət büdcəsinin gəlirlərinin 6 milyard 867 milyon manatı qeyri-neft sektorunun payına düşüb ki, bu da əvvəlki ilin eyni dövrü ilə müqayisədə 434 milyon manat və ya 6,8 faiz çoxdur. 2024-cü ilin 4 ayı ərzində dövlət büdcəsinin gəlirlərinin tərkibində qeyri-neft sektoru üzrə daxilolmaların xüsusi çəkisi 51,8 faiz təşkil edib. Dövlət Vergi Xidmətinin xətti ilə qeyri-neft gəlirləri üzrə proqnoza nisbətən 594 milyon manat və ya 15,1 faiz, Dövlət Gömrük Komitəsinin xətti ilə 131 milyon manat və ya 7,1 faiz çox daxilolmalar qeydə alınıb.

Samir Şərifov vurğulayıb ki, dünya neft və qaz bazarlarında mövcud tendensiyalar, cari ilin əvvəlinə müşahidə olunan vergi-gömrük daxilolmalarının, habelə icmal və dövlət büdcələri xərclərinin artması nəzərə alınaraq, 2024-cü ilin aprel ayında cari il üzrə makroiqtisadi proqnozlar yenilənib. Belə ki, neftin bir barelinin orta illik ixrac qiyməti 60 ABŞ dollarından 75 ABŞ dollarına yüksəldilib. 2024-cü ildə ÜDM-in 121,3 milyard manat və yaxud dövlət büdcəsi layihəsinin tərtibi zamanı təqdim edilmiş proqnoza nəzərən 3 milyard manat çox olması gözlənilir. Qeyri-neft ÜDM-in 84,7 milyard manatadək artması və yaxud proqnoza nəzərən 0,6 milyard manat çox olması proqnozlaşdırılır. Yenilənmiş makroiqtisadi proqnoz, dünya neft bazarlarında münbit qiymət dinamikası, cari ilin ötən dövründə dövlət büdcəsinin gəlirlərinin faktiki icra vəziyyəti və dövlət büdcəsində əlavə fiskal məkandan istifadə imkanları 2024-cü il üzrə gəlir proqnozuna yenidən baxılması üçün şərait yaradır.

Bildirilib ki, yenilənmiş makroiqtisadi proqnozlara əsasən 2024-cü ilin dövlət və icmal büdcələrinin göstəriciləri təhlil edilib və həmin büdcələrə müvafiq qanunvericiliyə uyğun olaraq dəyişikliklər hazırlanıb. Dəyişikliklərdə 3 milyard 796 milyon manat məbləğində yeni xərclərin həyata keçirilməsi nəzərdə tutulub. Həmin xərclərin bir sıra prioritet istiqamətlərə, o cümlədən işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən tikinti, bərpa və yenidənqurma işlərinə 1 milyard 160 milyon manat, ölkənin müdafiə qabiliyyətinin və təhlükəsizliyinin daha da artırılması üçün 807 milyon manat, infrastruktur və digər layihələrin maliyyə təminatı üçün 1 milyard 184 milyon manat, beynəlxalq fəaliyyət üzrə tədbirlərin maliyyələşdirilməsi və digər zəruri xərclər üzrə 499 milyon manat, zəruri əsaslı xərclər, təmir və sair üçün 146 milyon manat yönəldilməsi nəzərdə tutulur.

Qeyd olunub ki, müəyyən edilmiş prioritet xərclərin maliyyələşdirilməsi üçün müvafiq maliyyə təminatının yaradılması proqnozlaşdırılır. Belə ki, Dövlət Vergi Xidmətinin xətti ilə qeyri-neft gəlirlərinin 800 milyon manat, neft sektoru üzrə gəlirlərin isə 605 milyon manat, ümumilikdə 1 milyard 405 milyon manat, Dövlət Gömrük Komitəsinin xətti ilə 500 milyon manat əlavə daxilolamalar, Mərkəzi Bankın reallaşdırılmış mənfəətinin sərbəst qalığından 250 milyon manatın dövlət büdcəsinin gəlirlərinə yönəldilməsi, habelə Nəqliyyat vasitələrinin utilizasiyası Fonduna 25 milyon manat daxilolma proqnozlaşdırılır.

Nəzərə çatdırılıb ki, yenidən baxılma ilə 2024-cü ilin dövlət büdcəsinin xərcləri 39 milyard 707 milyon manat məbləğində, dövlət büdcəsinin gəlirləri isə 36 milyard 353 milyon manat həcmində proqnozlaşdırılır. 2024-cü ilin dövlət büdcəsinin kəsiri 764 milyon manat artaraq, 3 milyard 354 milyon manata çatdırılır.

2024-cü il icmal büdcənin əsas parametrlərinə dair bildirilib ki, icmal büdcənin gəlirləri 43 milyard 480 milyon manat, xərcləri isə 45 milyard 592 milyon manat proqnozlaşdırılır. İcmal büdcənin 2 milyard 112 milyon manat kəsirlə proqnozlaşdırıldığı qeyd olunub.

Sonra əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Kərimov "Dövlət sosial müdafiə fondunun 2024-cü il büdcəsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinə dair məlumat verib. Sənədə əsasən, 2024-cü ilin ötən dövrü üzrə ölkə iqtisadiyyatının artım templəri nəzərə alınmaqla əhalinin sosial rifah halının yüksəldilməsi istiqamətində aparılan ardıcıl tədbirlər icmal büdcənin mühüm tərkib hissəsi kimi "Dövlət sosial müdafiə fondunun 2024-cü il büdcəsi haqqında" Qanuna əlavə və dəyişikliklərin edilməsini zəruri edib. Fondun xərcləri 30,0 milyon manat və ya 0,4 faiz artırılaraq 6949,9 milyon manata çatdırılıb. Fondun büdcəsinin balanslaşdırılması məqsədilə dövlət büdcəsinin öhdəliklərinin maliyyələşdirilməsi üçün dövlət büdcəsindən ayrılan vəsaitin (transfert) məbləği 160,0 milyon manat azaldılaraq 1232,0 milyon manat təşkil edəcək.

Nazir müavini həmçinin "İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə" qanun layihəsi ilə bağlı məlumat verib. Layihədə işsizlikdən sığorta haqları üzrə daxilolmaların 4 700 000,00 manat artırılaraq 179 976 800,0 manatdan 184 676 800,0 manata çatdırılması təklif olunur.

Sonra Hesablama Palatasının sədri Vüqar Gülməmmədov "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikası Qanununda dəyişiklik edilməsi barədə" qanun layihəsinə Hesablama palatasının rəyini təqdim edib. Rəydə palatanın qanun layihəsinin, layihə ilə birlikdə hazırlanan və təqdim olunan aidiyyəti sənədlərin mövcud qanunvericilik aktlarına uyğunluğu, dövlət büdcəsinin gəlirləri və xərcləri, büdcə kəsirinin proqnoz göstəricilərinin düzgünlüyü və tamlığı barədə mövqeyi ifadə edilib.

Layihələrin müzakirəsində İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili, komitənin sədr müavini Əli Məsimli, üzvləri Vüqar Bayramov, Vahid Əhmədov, Məzahir Əfəndiyev, Mahir Abbaszadə, Rüfət Quliyev, Aydın Hüseynov çıxış ediblər. Deputatlar 2024-cü ilin ötən dövrü üzrə Azərbaycan iqtisadiyyatındakı müsbət dinamikanı, xüsusən də qeyri-neft sektorundakı artım templərini yüksək dəyərləndiriblər.

Büdcəyə dəyişikliklərin edilməsini Azərbaycanın fiskal gücünün göstəricisi kimi qiymətləndirən millət vəkilləri yenidən baxılan büdcənin milli prioritetlərə uyğun olduğunu bildiriblər. Onlar büdcə proqnozlaşdırılmasının metodologiyasının təkmilləşdirilməsi, risklərin nəzərə alınması, regionların iqtisadi potensialından səmərəli istifadə olunması, yerli istehsalın təşviq edilməsi, sosial təminat xərclərinin artırılması və digər məsələlərlə bağlı rəylərini və suallarını səsləndiriblər.

Deputatların qaldırdıqları məsələlərə münasibət bildirilib, suallar cavablandırılıb.

Hər üç qanun layihəsi birinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə olunub.

Rəşad CƏFƏRLİ,
"Azərbaycan"

TÜRKPA-nın komissiya iclası keçirilib

Mayın 27-də Türk Dövlətləri Parlament Assambleyasının (TÜRKPA) Ətraf mühit, təbii ehtiyatlar və sağlamlığın qorunması komissiyasının "TÜRKPA üzv ölkələrində tibbi tullantıların idarə edilməsi" mövzusuna həsr edilmiş videokonfrans formatında 9-cu iclası keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclası açan Milli Məclisin Səhiyyə komitəsinin sədri, TÜRKPA-nın Ətraf mühit, təbii ehtiyatlar və sağlamlığın qorunması komissiyasının sədri Əhliman Əmiraslanov bildirib ki, ölkə Prezidenti tərəfindən Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi ətraf mühitə və ekoloji problemlərin həllinə verilən önəmin daha bir göstəricisidir. Komitə sədri qeyd edib ki, BMT-nin İqlim Dəyişmələri üzrə 29-cu sessiyası - COP29 kimi mötəbər bir tədbirin ölkəmizdə keçirilməsi ilə əlaqədar qərar verilməsi beynəlxalq ictimaiyyətin Azərbaycana göstərdiyi böyük etimadın təzahürü ilə yanaşı, ölkəmizin qlobal problemlərin həllində göstərdiyi fəal səylərə verilən dəyərdir.

O, TÜRKPA-ya üzv olan ölkələrin qarşısında duran qanunvericiliklərin yaxınlaşdırılması, ətraf mühit və sağlamlığın qorunması kimi aktual məsələlərə toxunub, TÜRKPA-nın komissiya iclasının ölkələrimiz arasında bu istiqamətdə əməkdaşlığa öz töhfəsini verəcəyinə inamını bildirib.

Sonra tədbirin moderatoru və komissiyanın sədri Əhliman Əmiraslanov 9-cu iclasın mövzusu və gündəliyi ilə bağlı fikirlərini bölüşüb.

TÜRKPA-nın Ətraf mühit, təbii ehtiyatlar və sağlamlığın qorunması Komissiyasının sədr müavini Ahmed Zenbilci, TÜRKPA-nın Baş katibi Mehmet Süreyya Er və komissiya üzvləri çıxış edərək iclasın mövzusu ilə bağlı fikirlərini bölüşüblər.

İclasda TÜRKPA-nın Ətraf mühit, təbii ehtiyatlar və sağlamlığın qorunması komissiyasının sədri Əhliman Əmiraslanov "TÜRKPA üzv dövlətlərində tibbi tullantıların idarə edilməsi"nə dair komissiyanın tövsiyə qərarının layihəsini təqdim edib.

İclasın gündəliyindəki "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" model qanun layihəsini Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev təqdim edib. O, model qanun layihəsində tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması məsələlərinin necə tənzimlənməsi, sənədin əsas məqsəd və hədəfləri barədə məlumat verib.

Sonra parlamentarilər komissiyanın 10-cu iclasının mövzusunu müəyyən ediblər.

"Azərbaycan"

Elm və təhsil komitəsinin iclası keçirilib

Mayın 27-də Milli Məclisin Elm və təhsil komitəsinin növbəti iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, iclasda "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi müzakirə edilib.

Komitənin sədri Bəxtiyar Əliyev diqqətə çatdırıb ki, "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 97-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il il 3 fevral tarixli 759 nömrəli Fərmanına uyğun olaraq xüsusi təhsil müəssisələrinin fəaliyyətinin ümumi təhsil müəssisələrinin nümunəvi nizamnaməsi çərçivəsində tənzimlənməsi nəzərdə tutulur. Bununla əlaqədar olaraq, "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" Qanunun 13.4-cü maddəsinin ləğv edilməsi zərurəti yaranmışdır.

Bundan başqa, bu qanunun 20.1-ci maddəsində dəqiqləşdirmə məqsədilə "fiziki çatışmazlığı, əqli və (və ya) psixi həngimələri olanlar" ifadəsinin "sağlamlıq imkanları məhdud olan şəxslər" ifadəsi ilə əvəz edilməsi təklif olunur və bu da imkan verir ki, bu qanun bütün sağlamlıq imkanları məhdud şəxslərə şamil edilsin.

İclasda çıxış edən komitə üzvləri Ceyhun Məmmədov, Musa Qasımlı, Aqiyə Naxçıvanlı, Etibar Əliyev, Rafael Hüseynov, Fatma Yıldırım, Kamilə Əliyeva, Müşfiq Məmmədli, Pərvin Kərimzadə, Tamam Cəfərova, Anar İsgəndərov, Afət Həsənova və Ülviyyə Ağayeva, Parlament Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev təklif olunan dəyişikliklərin əhəmiyyətindən bəhs ediblər, habelə ölkəmizdə təhsilin inkişafı ilə bağlı fikirlərini bölüşüblər.

İclasın sonunda qanun layihəsi Milli Məclisin plenar iclasında müzakirəyə tövsiyə olunub.

"Azərbaycan"

MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA

Cari ilin daimi seçicilər siyahısının tərtib edilməsi və dəqiqləşdirilməsi başa çatıb

Azərbaycan Respublikası Seçki Məcəlləsinin tələblərinə əsasən hər il yanvar ayının əvvəllərindən etibarən ölkə üzrə vahid seçicilər siyahısının tərtib edilərək dəqiqləşdirilməsinə başlanılır.

Seçici siyahıları qanunvericiliklə müəyyənləşdirilmiş qaydada, ilk növbədə, müvafiq icra hakimiyyəti orqanları və bələdiyyə qurumu başçılarının, hərbi hissə komandirlərinin aktiv seçki hüququna malik seçicilər barədə təqdim etdikləri məlumatlar əsasında məntəqə və dairə seçki komissiyaları tərəfindən tərtib olunur və Mərkəzi Seçki Komissiyasına (MSK) təqdim edilir. Bu istiqamətdə lazımi addımlar atıldıqdan və zəruri işlər görüldükdən sonra seçici siyahıları aidiyyəti üzrə aşağı seçki komissiyaları tərəfindən təsdiqlənir və dövlət avtomatlaşdırılmış informasiya sistemindən də istifadə olunmaqla ictimailəşdirilir. Sözügedən prosesə bütövlükdə may ayının 30-dək yekun vurulur.

AZƏRTAC xəbər verir ki, cari il seçicilər siyahısının dəqiqləşdirilməsinə başlanılması 2024-cü il fevralın 7-də keçirilən növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkiləri ərəfəsinə təsadüf etdiyindən, MSK vətəndaşların seçki hüquqlarının daha səmərəli təmin olunmasında mühüm əhəmiyyət daşıyan seçici siyahılarının dəqiqləşdirilməsini əsas prioritetlərdən biri kimi diqqətdə saxlayaraq prosesləri daha da intensivləşdirdi və qanunvericiliyin tələblərinə uyğun qaydada ardıcıl, sistemli tədbirlər həyata keçirdi. Belə ki seçici siyahılarının dəqiqləşdirilməsi müddətində fərqli üsullarla silsilə təşviqat kampaniyası gerçəkləşdirildi, MSK-nın hazırladığı video və audio çarxlar televiziya və radio yayımçıları, komissiyanın rəsmi internet səhifəsi, onlayn media portalları və sosial media platformaları vasitəsilə müntəzəm nümayiş etdirilərək geniş miqyasda ictimailəşdirildi. O cümlədən birgə layihə çərçivəsində ilk dəfə "ASAN xidmət" mərkəzlərində yerləşən smart monitorlara seçici siyahılarına dair xidmət əlavə olundu ki, bu effektiv vasitə seçicilərə öz məlumatlarını yoxlamaq, düzəlişlərə ehtiyac yarandıqda yerindəcə sadə üsulla operativ şəkildə MSK-ya müraciət ünvanlamaq, habelə səs verəcəkləri məntəqəyə dair informasiya əldə etməyə imkan yaratdı. Sadalanan məqsədyönlü layihələrlə yanaşı, dəqiqləşdirmə prosesində seçicilərin fəallığı, informasiya-kommunikasiya texnologiyalarının və media qurumlarının imkanlarından geniş istifadə olunması da görülən işlərin səmərəliliyinin yüksəldilməsində və siyahıların daha təkmil hazırlanmasında əhəmiyyətli rol oynadı. Onu da qeyd etmək lazımdır ki, aşağı seçki komissiyalarının otuz səkkiz mindən artıq üzvünün cəlb olunduğu dəqiqləşdirmə prosesi Daxili İşlər Nazirliyi və Ədliyyə Nazirliyinin müvafiq orqanları, yerli icra strukturları və bələdiyyə qurumları ilə sıx əməkdaşlıq şəraitində reallaşdırılırdı.

2024-cü il üzrə daimi seçicilər siyahısının tərtib edilməsi və dəqiqləşdirilməsinin başa çatması ilə əlaqədar MSK üzvləri media mənsublarının da iştirakı ilə mayın 27-də komissiyanın inzibati binasında vahid seçicilər siyahısının cari il üzrə yenidən tərtib edilmiş variantı və saxlanma şəraiti ilə yaxından tanış olublar. MSK-nın İnformasiya mərkəzinin zalında əyani şəkildə keçirilən təqdimat mərasimində komissiya üzvləri və media təmsilçiləri seçici siyahılarının tərtib edilərək dəqiqləşdirilməsində dövlət avtomatlaşdırılmış informasiya sisteminin yaratdığı imkanlar, daha da təkmilləşdirilən proqram təminatları barədə ətraflı məlumatlandırılıblar.

Təqdimat mərasimindən sonra Məzahir Pənahovun sədrliyi ilə MSK-nın iclası keçirilib və 2024-cü ilin daimi seçici siyahılarının yenidən tərtib edilməsi, təsdiq olunması və ictimailəşdirilməsi məsələsinə baxılıb. Komissiya sədri seçici siyahılarının dəqiqləşdirməsi istiqamətində reallaşdırılan məqsədyönlü fəaliyyətlə bağlı əsas məqamları iclas iştirakçılarının diqqətinə çatdırıb, eyni zamanda prosesə yaxından köməklik göstərən Daxili İşlər Nazirliyi, Ədliyyə Nazirliyi, yerli icra hakimiyyəti orqanları və digər aidiyyəti qurumlara təşəkkürünü bildirib.

İclasda 2024-cü ilin daimi seçici siyahılarının tərtib edilməsi və dəqiqləşdirilməsi işi başa çatmış hesab edilərək, siyahıların məntəqə və dairə seçki komissiyaları tərəfindən təsdiq olunması üçün müvafiq dairə seçki komissiyalarına göndərilməsi, Azərbaycan Respublikası üzrə seçicilərin daimi siyahısının dövlət avtomatlaşdırılmış informasiya sistemi vasitəsilə tərtib edilərək, Seçki Məcəlləsinin tələbləri nəzərə alınmaqla təsdiq olunduqdan sonra komissiyanın internet saytında yerləşdirilməklə ictimailəşdirilməsi qərara alınıb. Hazırda ölkə üzrə vahid seçicilər siyahısına 6 milyon 326 min 764 seçici daxil edilib ki, onların da 47,55 faizi kişi, 52,45 faizi isə qadınlardır.

MSK-nın iclasında digər məsələlərə də baxılıb və müvafiq qərarlar qəbul olunub. Belə ki komissiyanın 2024-cü il 2 may tarixli iclas protokolu təsdiq edilib, bir sıra yeni normativ-hüquqi aktların qəbul olunması və qanunvericilikdə edilən son dəyişikliklərlə əlaqədar olaraq "Siyasi partiyalar tərəfindən təqdim edilmiş illik maliyyə hesabatlarının qəbul olunması və nəzərdən keçirilərək ictimailəşdirilməsi qaydalarına dair Təlimat"ın təsdiq edilməsi barədə qərar ləğv olunub, həmçinin bəzi seçki dairələri dairə seçki komissiyalarının tərkibində dəyişikliklər edilib.

Mərkəzi Seçki Komissiyasında

QƏRAR № 13/43

Mərkəzi Seçki Komissiyasının 2024-cü il 2 may tarixli iclas protokolunun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci və 28.4-cü maddələrinə uyğun olaraq **qərara alır:**

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2024-cü il 2 may tarixli iclasının protokolu təsdiq edilsin.

Sədr ***Məzahir Pənahov***
Katib ***Arifə Muxtarova***
Katib ***Mikayıl Rəhimov***

27.05.2024

Mərkəzi Seçki Komissiyasında

QƏRAR № 13/44

Azərbaycan Respublikasında 2024-cü ilin daimi seçici siyahılarının yenidən tərtib edilməsi, təsdiq olunması və ictimailəşdirilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra - Seçki Məcəlləsi) 46-cı maddəsinin tələblərinə əsasən hər ilin əvvəlindən başlayaraq daimi seçici siyahıları müvafiq icra hakimiyyəti orqanları və bələdiyyə qurumu başçılarının, hərbi hissə komandirlərinin aktiv seçki hüququna malik olan seçicilər haqqında təqdim etdikləri məlumatlar əsasında məntəqə və dairə seçki komissiyaları tərəfindən tərtib edildikdən sonra Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) təqdim edilməli, bununla əlaqədar müvafiq iş aparıldıqdan sonra həmin siyahılar may ayının 30-dək müvafiq məntəqə və dairə seçki komissiyaları tərəfindən təsdiq olunmalı və dövlət avtomatlaşdırılmış informasiya sistemi vasitəsilə tərtib edilərək ictimailəşdirilməlidir.

Cari ilin seçici siyahılarının tərtib edilməsi işi Seçki Məcəlləsi ilə müəyyən edilmiş qaydada aparılaraq yekunlaşdırılmış, onların aşağı seçki komissiyaları tərəfindən təsdiq olunması və dövlət avtomatlaşdırılmış informasiya sistemi vasitəsilə tərtib edilməklə ictimailəşdirilməsi mərhələsi başlanmışdır.

Mərkəzi Seçki Komissiyası yuxarıda qeyd edilənləri əsas götürərək Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü, 46.1-ci və 46.12-ci maddələrinə uyğun olaraq **qərara alır:**

1. Azərbaycan Respublikasında 2024-cü ilin daimi seçici siyahılarının tərtib edilməsi və dəqiqləşdirilməsi işi başa çatmış hesab edilərək siyahılar məntəqə və dairə seçki komissiyaları tərəfindən təsdiq edilməsi üçün müvafiq dairə seçki komissiyalarına göndərilsin.

2. Tərtib edilmiş seçici siyahılarının qanunvericiliklə müəyyən edilmiş qaydada və müddətdə təsdiq edilməsi işinin təşkili müvafiq dairə seçki komissiyalarına həvalə edilsin.

3. Azərbaycan Respublikası üzrə seçicilərin daimi siyahısı dövlət avtomatlaşdırılmış informasiya sistemi vasitəsilə tərtib edilərək Seçki Məcəlləsinin tələbləri nəzərə alınmaqla təsdiq edildikdən sonra Mərkəzi Seçki Komissiyasının internet saytında yerləşdirilməklə ictimailəşdirilsin.

4. Qərarın icrası Mərkəzi Seçki Komissiyasının Katibliyinə və dairə seçki komissiyalarına həvalə edilsin.

5. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

Sədr ***Məzahir Pənahov***
Katib ***Arifə Muxtarova***
Katib ***Mikayıl Rəhimov***

27.05.2024

Mərkəzi Seçki Komissiyasında

QƏRAR № 13/45

"Siyasi partiyalar tərəfindən təqdim edilmiş illik maliyyə hesabatlarının qəbul olunması və nəzərdən keçirilərək ictimailəşdirilməsi qaydalarına dair Təlimat"ın təsdiq edilməsi barədə Mərkəzi Seçki Komissiyasının 2015-ci il 15 may tarixli 9/79 saylı Qərarının ləğv edilməsi haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

"Siyasi partiyalar haqqında" Azərbaycan Respublikasının 2022-ci il 16 dekabr tarixli 693-VIQ nömrəli Qanununun tətbiqi və "Siyasi partiyalar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2012-ci il 20 aprel tarixli 346-IVQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 8 may tarixli 625 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 11 yanvar tarixli 1960 nömrəli Fərmanının 2.2.1-ci və 2.2.2-ci yarımbəndlərini rəhbər tutaraq Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası (bundan sonra - Mərkəzi Seçki Komissiyası) "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununun 76.1-ci və Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci və 28.4-cü maddələrinə uyğun olaraq **qərara alır:**

1. "Siyasi partiyalar tərəfindən təqdim edilmiş illik maliyyə hesabatlarının qəbul olunması və nəzərdən keçirilərək ictimailəşdirilməsi qaydalarına dair Təlimat"ın təsdiq edilməsi barədə Mərkəzi Seçki Komissiyasının 2015-ci il 15 may tarixli 9/79 saylı Qərarı ("Siyasi partiyalar tərəfindən təqdim edilmiş illik maliyyə hesabatlarının qəbul olunması və nəzərdən keçirilərək ictimailəşdirilməsi qaydalarına dair Təlimat"a dəyişiklik edilməsi barədə Mərkəzi Seçki Komissiyasının 2016-cı il 13 may tarixli 5/18 saylı Qərarı) ləğv edilsin.

2. Mərkəzi Seçki Komissiyası öz səlahiyyətləri daxilində bu Qərarın rəsmi dərc edilməsi və qüvvəyə minməsi ilə bağlı qanunvericilikdə nəzərdə tutulmuş tədbirlərin görülməsini təmin etsin.

Sədr ***Məzahir Pənahov***
Katib ***Arifə Muxtarova***
Katib ***Mikayıl Rəhimov***

27.05.2024

Mərkəzi Seçki Komissiyasında

QƏRAR № 13/46

Mərkəzi Seçki Komissiyasının 2022-ci il 16 avqust tarixli 5/19 saylı Qərarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının (bundan sonra - Mərkəzi Seçki Komissiyası) 2024-cü il 2 may tarixli 12/41 saylı Qərarı ilə "Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Katibliyi haqqında Əsasnamə"də edilmiş dəyişikliklə əlaqədar Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü və 28.5-ci maddələrinə uyğun olaraq **qərara alır:**

1. Mərkəzi Seçki Komissiyasının 2022-ci il 16 avqust tarixli 5/19 saylı Qərarı ilə təsdiq edilmiş əlavədə "Ştat cədvəlindəki ştat vahidlərinin sayı" adlı hissəyə "nəzarətçi - 2, təsərrüfat işçisi - 1" sözləri əlavə edilsin.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

Sədr ***Məzahir Pənahov***
Katib ***Arifə Muxtarova***
Katib ***Mikayıl Rəhimov***

27.05.2024

Mərkəzi Seçki Komissiyasında

QƏRAR № 13/47

Bəzi dairə seçki komissiyalarının tərkibində dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 22.3.1-ci, 28.2-ci, 28.4-cü və 30-cu maddələrinə uyğun olaraq **qərara alır:**

1. Hicran Vaqif oğlu İbrahimov 80 saylı Lerik - Astara, Elmir Məhərrəm oğlu Həmidov 117 saylı Oğuz - Qəbələ - Şəki, Mədinə Fəxrəddin qızı Abbasova 122 saylı Xankəndi seçki dairəsi dairə seçki komissiyasının həlledici səs hüquqlu üzvü vəzifəsindən vaxtından əvvəl azad edilsinlər.

2. Aqşin Mirbala oğlu Salamov 117 saylı Oğuz - Qəbələ - Şəki, Ağalar Xasay oğlu Əliyev 122 saylı Xankəndi, Mədinə Fəxrəddin qızı Abbasova 124 saylı Şuşa - Ağdam - Xocalı - Xocavənd seçki dairəsi dairə seçki komissiyasının həlledici səs hüquqlu üzvü təyin edilsinlər.

Sədr ***Məzahir Pənahov***
Katib ***Arifə Muxtarova***
Katib ***Mikayıl Rəhimov***

27.05.2024

28 may yeni Ağdamın təməlinin qoyulduğu gündür

Allahın evi - Ağdam məscidi

Onu quranlar və dağıdanlar

Biz bütün dini məbədləri, o cümlədən məscidləri Allahın evi sayırıq!

Allahın özünün yaşamadığı, amma hər gün min dəfələrlə çağırıldığı, dua edildiyi, kömək istənildiyi ev!

Məscidlər həmişə təmiz saxlanılıb, gülab qoxuyub, insanlar ora paklanıb gedib, kobud danışığa, mübahisə və münaqişəyə yol verməyib, insanlar sülhə, mehribanlığa səslənib.

Allahın evinin sahibi xatirinə...

❖ ❖ ❖

Evlər kimi məscidlər də müxtəlif olur - böyük, kiçik, qoşa minarəli, dörd minarəli...

Amma həcmindən asılı olmayaraq hamısında bir əzəmət, qeyri-adilik duyulur.

Səbəbini aydınlaşdırmaqda çətinlik çəkirəm...

Bəlkə arxitekturasından, içərisinin quruluşundan, bəlkə də müqəddəsliyindən, hələ vaqif olmadığımız sirlərin dərkedilməzliyindən irəli gəlir.

Nə sirdir insanı Allah evində dəyişən, daha mehriban, səbirli, dözümlü və ürəyiyumşaq edən?!

Hər halda Allah evinə girəndə təkcə davranış və rəftarımızda yox, düşüncəmizdə bir dəyişiklik baş verir, özümüzü yığışdırır və cəmləyirik, danışığımıza fikir veririk.

❖ ❖ ❖

Mənim üçün ən böyük məscid Ağdam məscidi olub!

Bəlkə onadək başqa məscid görmədiyimə görə belə idi...

Hətta onunla ilk tanışlıqda minarələrinə, daxildən tavanına baxanda hündürlüyündən ehtiyatlanırdım, özümü həmin yüksəklikdən aşağı baxan vəziyyətdə təsəvvür edirdim...

Məscidin akustikası isə möcüzə idi. Mikrofonsuz, səsgücləndiricisiz minbərdə deyilənləri ən uzaq küncdə oturanlar belə eşidə bilirdilər.

❖ ❖ ❖

Ağdam məscidi şəhərin mərkəzində yerləşirdi.

Böyük həyəti vardı. Sovet dövründə dəmir cağlarla əhatəyə almışdılar, sonradan həmin hasar söküldü. Qarşısından qoşa, ikitərəfli mərkəzi yol keçirdi. Yolun o üzündə "Lenin bağı" yerləşirdi. Məscidin həyətində əsasən tut ağacları, "Lenin bağı"nda isə meyvəsiz çoxlu ağaclar vardı. Sıx kölgəliyi olardı. Məhərrəmlik, xüsusən Aşura günlərində Ağdamın kəndlərindən, hətta ətraf rayonlardan o qədər insan gələrdi ki, nəinki məscidin içərisində, hətta həyətində böyük sıxlıq yaranar, necə deyərlər, iynə atsan yerə düşməzdi.

Onda "Lenin bağı" da adamla dolar, burada dayananlar içəri girmək üçün həyətdə seyrəklik yaranmasını gözləyərdilər.

Məhərrəmlik başlayanda rayon partiya və komsomol komitələrinin də işi çoxalardı. İnsanların məscidə getməsinin qarşısını almaq üçün xüsusi tədbirlər keçirilər, maneələr yaradılardı.

Amma faydası olmazdı.

Çünki hamı ürəyində Allaha inanar, belə tapşırıqları candərdi icra edərdi. Sov. İKP üzvlərinə qarşı isə barışmaz mövqe vardı! Hətta məscidə getməyə görə onları partiyadan xaric edə bilərdilər.

Bəli, Sov.İKP zahirən Allaha inanmayanların, ateistlərin partiyası idi.

❖ ❖ ❖

Məscidlə ilk yaxın tanışlığım 4-5 yaşımda olmuşdu. Ağdam məscidi köhnə məhəlləmizdən bir kilometr, təzə köçdüyümüz binadan isə təqribən 4-5 yüz metr məsafədə idi. Bəyim nənəm namazqılan idi. İmkan tapan kimi məscidə gedərdi. Məscid həm də insanların görüşməsi, dərdləşməsi, ünsiyyət qurması yeri sayılırdı.

Burada qocaların və qarıların öz dostları, rəfiqələri vardı. Onlar bir yerə toplaşar, daim məscidin bəlli yerlərindən birində oturardılar. Hal-əhval tutar, dərdləşər, indiki terminlə desək, "informasiya mübadiləsi" aparardılar.

Birgə namaz qılınması (o vaxt "cümə namazı" termini işlədilməzdi), axundun moizəsinin dinlənilməsi xüsusi, mənim üçün isə sirli ayin idi.

"Qasım otağı" adlanan qara örtüklü bir yer də vardı. Üstünə şəkillər qoyulmuşdu, adi vaxtlarda oraya nəzir də qoyulardı. Məscidin içərisinə başdan-başa xalça döşənirdi. "Qasım otağı", məscidin daxili əzəməti məni sıxardı. Elə sanardım ki, içəri mələklərlə doludur və hamımıza göz qoyurlar.

50-60-cı illərdə Ağdam məscidinin axundu Mirheydər ağa idi. Nurlu siması, qeyri-adi səsi vardı (Qızı Məleykə müəllimə dördüncü sinifdə mənə dərs dedi). O, minbərdə danışanda hamı diqqətlə qulaq kəsilər, kimsə cınqırını belə, çəkməzdi. Moizəsini həmişə ağlaya-ağlaya başa vurardı. Məsciddəkilər də ona qoşulub sidqi-ürəkdən ağlayardılar. Söhbəti dərindən başa düşməsəm də, nənəmə qoşularaq mən də ağlayardım. Bəzən elə kövrəlirdim ki, sonra məni çətinliklə kiridirdilər.

Ürəyim sıxılırdı. Evə qayıdan kimi anama xəbər verərdim. Anam nənəmə məni məscidə aparmağı qadağan eləmişdi. Amma bağça və məktəb olmayanda nənəmin başqa çarəsi qalmırdı. Mənə bərk-bərk tapşırardı ki, anana demə. Söz verərdim. Amma hülqumsuz uşağın verdiyi söz necə olar?

Beşinci, altıncı sinifdə oxuyanda özümüzü böyük sayardıq. Marağa və həvəsə görə bir-birimizə qoşularaq xəlvətcə məscidə gedərdik. Bir sinifdə oxuduğumuz qızlar bizi məsciddə görəndə xəbərçilik etməzdilər. Etsəydilər, özlərinin də məscidə getdiklərini etiraf etmiş olardılar.

Məscidə həvəsimizi artıran bir amil də orada nəzir kimi paylanan şərbət idi. O vaxtlar mağazalarda konfet, peçenye çətin tapılardı. Şirin nə isə yemək isə uşaqların ən çox arzuladığı iş idi. Çaydanı şərbətlə doldurar, əllərində balaca dəmir parç məsciddə gəzər, qarşılarına çıxana təklif edərdilər. Şərbətə ədviyyat da qatıldığından dadından doymaq olmazdı. Hamı bir parçdan içərdi. Nənəmlə gedəndə şərbət içmək üçün özümüzlə ayrıca stəkan da apararadıq.

Ağdam məscidinə yazılan Quran ayələri:
"Həqiqətən, Biz sizə açıq-aşkar bir zəfər verdik".
("Fəth" surəsi, ayə 1)
"Rəbbinə and olsun ki, Biz onların hamısını sorğu-suala çəkəcəyik - etdikləri əməllər barəsində".
("Hicr" surəsi, ayələr 92-93)

Məhərrəmlik, Aşura günləri Ağdam məscidi, sözün həqiqi mənasında, şəhərin mərkəzinə çevrilərdi. Adam, maşın əlindən tərpənmək olmazdı. Dəstə bağlayıb "şaxsey-vaxsey" deyən, mərsiyə, növhə oxuyan, zəncir vuranlar... Kəsəsi, ayrı aləm olardı. Əvvəlcə gedib böyüklərin dəstəsinə qoşular, sinə vurardıq. Basabas düşəndə ayaq altda qalmayaq deyə kənara çəkilməli olardıq.

Sonralar sözləri əzbərlədiyimizdən özümüz ayrıca dəstə bağlamağa başladıq. Dəstəbaşı ucadan haray çəkər, biz də xorla onun səsinə səs verərdik. Qurşaqdan yuxarı soyunaraq əvvəlcə tək əllə, sonra qoşa əllə sinəmizə vurardıq. Çalışardıq bərk vuraq ki, sinəmiz möhkəm qızarsın. Belə hesab edirdik ki, nə qədər bərk sinə vursaq və sinəmiz nə qədər çox qızarsa, o qədər də savabı çox olacaqdır.

Sözlər dialoqsayağı belə deyilərdi:

– *Həsən vay!*
– *Hüseyn vay!*
– *Öldü Əli Əkbəri!*
– *Sındı belim, ya Hüseyn!*
– *Oxladılar Əsgəri!*
– *Sındı belim, ya Hüseyn!*
– *Ağamın atı gəldi!*
– *Qanlı xalatı gəldi!*
– *Necə qan ağlamasın daş bu gün,*
– *Kəsilib Kərbəlada 72 baş bu gün!*

Və səsimiz batana qədər qışqırardıq!

Səhərisi gün məktəbdə batmış səsimiz bizi ələ verərdi. Amma müəllimlərimiz yalnız danlayar, cəza verməz, məsələni böyütməzdilər!

Axı, onlar da gizlincə Allaha inanar, imkan tapanda məscidə gedərdilər!

❖ ❖ ❖

Anam Sov.İKP-nin üzvü idi. Amma hər il məhərrəmlikdə "şamü-qəriban" gecəsi hökmən məscidə gedərdi. Qara paltar geyinər, qara kəlağayı bağlayar, tanınmasın deyə üz-gözünü örtüb gizlədərdi. Qonşu arvadlarla sözləşər, hava qaralandan sonra məscidə üz tutardılar. Bizi də özləri ilə apararadılar ki, diqqəti çəkməsinlər.

"Şamü-qəriban" gecəsi Ağdam məscidi, əslində, ağdamlıların olardı. Çünki başqa rayonlardan və uzaq kəndlərdən gələnlər gecəyə qalmazdılar. Adətən, qadınlar gec gəldiklərindən məscidin içərisinə keçə bilməzdilər, həm də tez qayıtmağı nəzərdə tuturdular. Çox qalsaydılar, raykomun göndərdiyi adamlarla rastlaşa bilərdilər. Odur ki, bayır tərəfdən məscidin pəncərəsinin qabağına yığışardılar. Kişilər onları görən kimi kənara çəkilərək yerlərini güzəştə gedərdilər.

"Şamü-qəriban"da məscidin işıqları 3 dəfə söndürülüb yandırılardı. Bu, şəbehin ən yüksək nöqtəsi sayılardı. Qan çıxanacan zəncir vuran, xəncərlə başını yaran kim, sinə vuran, ucadan qışqıraraq ağlayan kim...

İşıqlar söndürüləndə bir vaynəvseyi-şivən qopardı ki, gəl görəsən. Uğultudan, gurultudan az qala qulaq batardı. Sirli bir vahimə hamımızı bürüyərdi.

Hamı üzünü göylərə - Allaha sarı tutar, mətləbini diləyər, kömək istəyər, dua edərdi...

Məscidi Allahın evi saydığımızdan buranı müqəddəs hesab edər, Allaha daha yaxın olduğumuzu sanardıq. Hesab edərdik ki, məsciddə Allahımız bizi, istəklərimizi, dualarımızı daha tez eşidir.

❖ ❖ ❖

Sovet dövründə Quranın nəşri qadağan idi, buna görə insanları cinayət məsuliyyətinə (gizli çapa görə) cəlb edirdilər.

Quranı evdə saxlamaq da qorxulu sayılırdı. Adətən, müqəddəs kitabımız məscidlərdə olardı. Başqa bir adətimiz də vardı: çətin səfərə gedəni (evdən gəlinlik paltarında çıxanı da), Quranın altından keçirər, beləliklə, ona ilahi xeyir-dua verilmiş olduğunu sanardıq!

Ali məktəbə qəbul imtahanına gələndə də məscidə gedər, Qurani-Kərimin altından keçərdik. Bu, imtahan vaxtı bizə inam və sakitlik gətirərdi. Həm də mətləbimizə yetirərdi...

❖ ❖ ❖

Ağdam məscidi ilə ən həssas, kövrək xatirələrim Birinci Qarabağ müharibəsi dövrünə təsadüf etdi.

Bu, həm də sonuncu görüş olacaqdı...

Amma Ağdamın işğal ediləcəyini, 27 il düşmən əsarətində qalacağını biz ağdamlılar ağlımıza belə gətirməzdik...

Amma ağlımıza sığışdıra bilmədiyimiz başımıza gəldi...

Özü də başımızın böyük bəlasına çevrildi.

❖ ❖ ❖

Qarabağ uğrunda müharibə başlayanda öz istəyimlə "Həyat", sonra "Azərbaycan" qəzetlərinin bölgə müxbiri oldum. Müdafiə Nazirliyində akkreditasiyadan keçdim, hərbi forma alıb geyindim. İçimizdə bir qəzəb, qisas, eyni zamanda qeyri-müəyyənlik vardı.

Hadisələr hara gedir, bunun axırı hara çıxacaq, bu anormallıq, özbaşınalıq nə vaxtadək davam edəcək?

Sovet hökuməti var idi, hələ yıxılmamışdı!

Amma onun prinsipləri - "xalqlar dostluğu və proletar beynəlmiləlçiliyi", "insan-insana dost, yoldaş və qardaşdır" və digərləri daha işləmirdi.

Qorbaçovun "perestroyka"sı nə idi, sonu nə ilə bitəcəkdi?

Moskva nə oyun oynayır, nəyə nail olmaq istəyir?

Erməni niyə bu qədər ürəklənib "miatsum" deyir, onu niyə susduran, yerində oturdan yoxdur?!

Ölkə rəhbərliyi nə düşünür, axı azərbaycanlılar evəşiklərindən qovulur, döyülüb-təhqir olunur, erməni isə Dağlıq Qarabağı Ermənistana birləşdirmək istəyir!

Kimdən kömək alasan, üzünü hara tutasan, başına haranın daşını salasan?!

Suallar çox, cavab verən və kömək göstərən isə yox!

Sonrası necə oldu, artıq bunu hamı bilir!

Odur ki, mətləbdən yayınmayaq...

❖ ❖ ❖

Müharibənin ilk günlərindən Ağdam "Qarabağın mərkəzi" funksiyasını yerinə yetirməyə başladı.

Respublikanın və ittifaqın ozamankı məsul işçiləri əvvəlcə Ağdama gəlir, vəziyyəti öyrənir, sonra Xankəndiyə yollanırdılar.

Əksərən gecələr Ağdama qayıdaraq buradakı "Qonaq evi"ndə qalırdılar.

Respublikanın hər tərəfindən göndərilən ərzaq yardımları Ağdama çatdırılır, buradan müşayiətlə erməni kəndlərinin əhatəsində yaşayan azərbaycanlılara aparılırdı.

Xocalıya, Şuşaya getmək istəyənlər əvvəlcə Ağdama toplaşır, burada mühafizə ayrılaraq yola salınırdılar və s...

O dövrdə mərkəz funksiyası daşıyan Ağdamın da 2 mərkəzi vardı: biri rayon icra hakimiyyəti (o zaman rayon soveti adlanırdı) qarşısında yerləşən mərkəzi meydan və Ağdam məscidi!

Ağdamın mərkəzi meydanı (o vaxtlar buraya həm də "Qaçqınlar meydanı" deyirdilər) daha çox "görüş yeri", "siyasi məkan" funksiyasını daşıyırdı. Ağdama gələnlər, rayon rəhbərliyi ilə görüşmək, yaxud kimdənsə nəyisə eşitmək və öyrənmək üçün bu meydana baş çəkər, kəndlərindən qovulanlar kömək axtarmaq üçün bura üz tutar, bütün günü meydan dolub-boşalardı.

Meydanda istənilən qədər qeyri-rəsmi informasiya olsa da, rəsmi nəsə öyrənmək, dəqiqləşdirmək müşkül sayılırdı. Çünki nəinki rayon rəhbərliyi, hətta ozamankı respublika rəhbərliyi belə hər şeydən xəbərsiz olmaqla hadisələrin önündə yox, arxasında gedirdilər.

Nəticəsi də acınacaqlı oldu...

❖ ❖ ❖

Ağdam məscidi isə taleyin üz döndərdiyi insanların pənah gətirdiyi ünvan sayılırdı.

İNSANLAR BURAYA:

- evindən qaçqın düşərkən itirdiyi qohum-əqrəbası, dost-tanışı ilə tapışmaq üçün üz tuturdu;
- naməlum şəhidi tanımaq üçün həyəcanla, ürək döyüntüsü ilə məscidə yaxınlaşırdı;
- isinmək, bir tikə çörək yeyə bilmək ümidi ilə gəlirdi;
- itmiş ümidini diriltmək üçün gəlirdi;
- həm də ümidi itdiyi üçün gəlirdi;
- hər yerdən əli üzüldüyündən Allahın ətəyindən yapışmaq üçün gəlirdi;
- Tanrıdan kömək almaq üçün gəlirdi;
- yerdəkilərdən əli üzüldüyündən göylərə sığınmaq üçün gəlirdi!
- müəyyən bir daldalanacaq tapmaq, isti paltar əldə etmək üçün gəlirdi...

Bəzən ümidi doğrular, itirdiyini tapar, ayrı düşdüklərinə qovuşar, bir stəkan isti çay, bir loğma çörək tapardı.

Bəzən isə yeri dolmayacaq itki ilə qarşılaşardı.

Ağdam məscidi həm də şəhidlərin "yuat yeri" idi.

Ölkənin hər yerindən ürəyinin hökmü ilə torpaqların müdafiəsi üçün Qarabağa gələn, burada şəhidlik zirvəsinə ucalanlar Ağdam məscidində yuyulub kəfənlənəndən sonra öz elinə, obasına yola salınardı...

Dinimizə, adət-ənənəmizə uyğun...

Ağdamlılar bu torpaq uğrunda şəhid olanları daim özününkü sayır, itkilərdən doğan dərdi-kədəri öz ağrısı hesab edirdi.

Elə vaxt olurdu ki, tabut düzəltməyə taxta, kəfən tikməyə bez belə tapılmırdı...

Amma insanlar özlərini oda-közə vuraraq tapır, şəhidləri haqq dünyasına hörmət-izzətlə yola salırdılar.

Ağdam məscidi belə məscid idi!

Amma, sən demə, onun da qismətində murdar əllərə düşmək varmış.

Erməni vandalları bu müqəddəs məkanı söküb dağıtdılar da, xaraba qoydular da, lakin izini itirə bilmədilər.

Yenə öz sahiblərinə qaytarmağa məcbur oldular!

Daha doğrusu, İlham Əliyev Ağdam məscidini də əsl yiyələrinə qaytardı!

❖ ❖ ❖

Müzəffər Ali Baş Komandan İlham Əliyevin düşmən işğalından azad etdiyi Ağdama səfəri, Birinci vitse-prezident Mehriban xanım Əliyeva ilə bərabər Ağdam məscidini ziyarət etməsi, əslində, həm də müqəddəs dini-tarixi abidələrimizin yeni dövrünün başlanması demək idi.

Cənab İlham Əliyev Məkkədən gətirdiyi Qurani-Kərimi məscidə bağışladı, dinimizə hörmət və ehtiramını bir daha izhar etdi.

Məscidin qarşısında dövlət bayrağını qaldırdı, erməni faşizminin murdar xislətini ifşa edən nitq söylədi, Ermənistanın köhnə və yeni rəhbərlərinə kəskin ismarışlarını göndərdi.

Ağdam məscidinin sahibi Ulu Tanrıdır!

O, məsciddə donuz saxlayanları donuzdan da betər günə qoydu!

Məscidi dağıdanları Azərbaycanın Baş Sərkərdəsinin əli ilə darmadağın etdi, diz üstə qoydu!

Allahın evini təhqir edənləri zəlil günə saldı!

Allahın sevdiyi, seçdiyi bəndəsi İlham Əliyev bütün Allah evlərini təmir edir, abadlaşdırır, insanların rahat və sərbəst ibadətinə şərait yaradır!

Budur, İlham Əliyevin tapşırığı əsasında Ağdam məscidi yenidən həyata qaytarıldı: bərpa və təmir edildi, paklaşdırıldı, Tanrı evinə layiq vəziyyətə gətirildi!

Məscidi əsirlikdən qurtaran, onu əvvəlkindən də gözəl hala gətirən İlham Əliyev bu cəfakeş insanların ümid və inam məkanı olan Allah evinin qapılarını yenidən əsl sahiblərinin üzünə açdı!

Nə qədər alicənab, qürurdoğurucu, Allahın da, bəndənin də xoşuna gələn gözəl bir əməl...

Allah həmişə əməlisaleh insanlara kömək edir, onlara arxa durur və xoşbəxt ömür bəxş edir!

Tanrının sevdiyi və seçdiyi İlham Əliyev kimi insanlara!

Bəxtiyar SADIQOV

Bağışlamaq qəlbin böyüklüyüdür

Əfv sərəncamı ölkəmizdə insan hüquq və azadlıqlarına göstərilən diqqətin təzahürüdür



Humanizm və insanpərvərlik prinsipləri Azərbaycan Respublikası Konstitusiyasının başlıca mahiyyətini təşkil edən əsas prinsiplərdir. İnsan hüquqlarına hörmət, insan azadlıqlarının qorunması müasir dünyada diqqət yetirilən əsas məsələdir.

Tanrı bağışlayanları sevir. Böyük şəxsiyyətlər bağışlamağı bacarırlar. Prezident İlham Əliyevin 2024-cü il 25 may tarixində imzaladığı "Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında" sərəncamı da bunun təsdiqidir. 5-i Əfqanıstan, 2-si Türkiyə, 1-i isə Rusiya vətəndaşı olmaqla ümumilikdə bu əfv sərəncamı 154 nəfərə şamil edilib.

Dövlətimizin başçısının imzaladığı əfv sərəncamı mayın 26-da Ədliyyə Nazirliyinin Penitensiar Xidməti tərəfindən tam icra olundu. Sərəncamın icrası zamanı cəzaçəkmə müəssisələrində keçirilən tədbirdə insan hüquqları üzrə müvəkkilli (ombudsman) Səbinə Əliyeva və Sosial Tədqiqatlar Mərkəzinin (STM) İdarə Heyətinin sədri, Milli Məclisin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc, Ədliyyə Nazirliyi Penitensiar Xidmətin rəis müavini, ədliyyə general-mayoru Oqtay Məmmədov, eləcə də Ədliyyə Nazirliyi yanında fəaliyyət göstərən ictimai komitənin, habelə kütləvi informasiya vasitələri nümayəndələrinin iştirakı ilə həyata keçirilib.

Prezident tərəfindən əfv olunmuş şəxslər Penitensiar Xidmətin tabeliyindəki 2, 4, 10, 16, 17 saylı və digər cəzaçəkmə müəssisələrindən azadlığa buraxıldılar. Bununla əlaqədar keçirilən tədbirlərdə çıxış edənlər əfv olunan şəxslərin bu humanist aktdan düzgün nəticə çıxaracaqlarına, Azərbaycan dövlətinin qanunlarına əməl edəcəklərinə və cəmiyyətimiz üçün bundan sonra faydalı vətəndaş olacaqlarına əminliklərini bildiriblər.

Sərəncamin icrası zamanı Ədliyyə Nazirliyi Penitensiar xidmətin 4 saylı cəzaçəkmə müəssisəsində ədliyyə general-mayoru Oqtay Məmmədov çıxış edərək qeyd etdi ki, Tanrı insanı Yer üzünün əşrəfi yaradıb. İnsan sevmək, sevilmək, qurub-yaratmaq, təhsil almaq, ailə qurmaq, övlad dünyaya gətirmək haqqına sahibdir. Cəzaçəkmə müəssisələrində də məhbusların cəmiyyətə adaptasiyası, gələcək azadlıq həyatlarını islah olunmuş şəkildə düzgün qurmaları üçün mütəmadi tədbirlər həyata keçirilir.

Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili Səbinə Əliyeva isə məhkumları əfv olunmaları münasibətilə təbrik edərək, 28 May - Müstəqillik Günü ərəfəsində belə bir sərəncamın imzalanmasının ölkəmizdə insan hüquq və azadlıqlarına göstərilən diqqətin təzahürü olduğunu vurğuladı. O, çıxışında qeyd etdi ki, Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən imzalanan əfv sərəncamları, Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə qəbul edilən amnistiya aktları dövlətimizin humanizm prinsiplərinə əsaslanan cəza-icra siyasətinin real göstəricisidir.

Daha sonra Səbinə Əliyeva əfv olunmuş qadınlara azadlığa çıxmaları haqqında sənədləri təqdim edib, onları və ailə üzvlərini təbrik edərək, penitensiar müəssisələrdən azad olunmuş şəxslərin hüquqlarının təmin edilməsi, onların cəmiyyətə inteqrasiyası və sosial adaptasiyası üçün ölkəmizdə yaradılmış imkanlardan istifadə etməyə, dövlətçiliyə sadiq qalmağa çağırdı.

Əfv olunan şəxslər davamlı olaraq yürüdülən humanist siyasətə görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya təşəkkürlərini bildiriblər.

Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin 4 saylı cəzaçəkmə müəssisəsində əfv olunaraq azadlığa qovuşan Gülüş Fətəliyeva sevincini göz yaşları içində ifadə edərək dedi: "Cinayət Məcəlləsinin 120.1-ci maddəsi ilə məhkum olunmuşdum. 9 il cəza almışdım, 6 ildir cəza çəkirdim. Prezident İlham Əliyevin əfv sərəncamı ilə üç il tez azad olundum. Bu, mənim üçün gözlənilməz oldu. Azadlığa çıxacağımı eşidəndə keçirdiyim hissləri ifadə etməkdə çətinlik çəkirəm. Humanist yanaşmaya görə, Prezident İlham Əliyev və Birinci xanım Mehriban Əliyevaya minnətdarlığımı bildirirəm. Üç balama və ailəmə qovuşdum. Övladlarımı 6 aydır görmürdüm. Buradan çıxan kimi ilk gedəcəyim yer övladlarımın yanıdır".

Azadlığa çıxan şəxslər və onları qarşılamağa gəlmiş ailə üzvləri, yaxınları göstərdiyi humanistliyə görə dövlətimizin başçısı İlham Əliyevə minnətdarlıqlarını bildirərək dualar edirdilər.

Elşən QƏNİYEV,
"Azərbaycan"

Humanizm siyasətinin növbəti nümunəsi

"Prezident İlham Əliyevin yürütdüyü siyasi kurs humanizm prinsiplərinə əsaslanır. Dövlətimizin başçısının rəhbərliyi dövründə minlərlə insanın əfv olunaraq məhkumluq cəzasından azad edilməsi, bir qisminin cəzasının azaldılması, cərimələrinin ləğv edilməsi, bir sözlə qanunları pozaraq məsuliyyətə cəlb olunmuş şəxslərin özlərini bir daha doğrultmaq üçün onlara yeni şansın verilməsi bunun bariz nümunəsidir".

Bu fikirləri qəzetimizə açıqlamasında Milli Məclisin deputatı Azər Badamov deyib. Deputat qeyd edib ki, Prezident İlham Əliyevin 28 may - Müstəqillik Günü ərəfəsində imzaladığı əfv sərəncamı 154 nəfərə şamil olunub: "Birbaşa həmin şəxslərin cəzasının yüngülləşməsinə və ya azadlığa çıxmasına xidmət edən bu sərəncam onların yüzlərlə doğmalarının və yaxınlarının sevincinə də səbəb olub. Məhkumluqdan azad olunmuş şəxslərin bayram günündə öz evlərində ailələri ilə birgə şadlanmaları xalqımızı da sevindirir".

Deputatın sözlərinə görə, dövlət başçımız belə sərəncamlarla ehtiyatsızlıqdan cinayət törətmiş və cəzaya məhkum olunmuş şəxsləri normal həyata qaytarır. Onlar da öz ailəsində ölkənin vətəndaşları kimi normal həyat sürür, yenidən qurub-yaratmaq imkanına malik olurlar. Ölkə lideri imzaladığı belə çoxsaylı sərəncamlarla hər bir Azərbaycan vətəndaşının Prezidenti olduğunu bir daha təsdiq edir.

"Prezidet İlham Əliyevin humanizm siyasətindən həbsxanalarda cəza çəkən əcnəbi vətəndaşlar da yaralanırlar. Bu əfv sərəncamı ilə 8 əcnəbi şəxs cəzasının çəkilməmiş hissəsindən azad olunub. Bu, həm də əcnəbi vətəndaşlarda Azərbaycan dövlətinin humanistliyi haqqında fikir formalaşdırır", - deyə müsahibimiz əlavə edib.

Azər Badamov vurğulayıb ki, Azərbaycanda hüquqi dövlət qurulub: "Hamı qanun qarşısında bərabərdir. Cinayət törətmiş şəxslər məhkum olunaraq cəzalarını çəkilər. Lakin cəzasının müəyyən hissəsini çəkəndən sonra cəmiyyət üçün təhlükəli olmayan və ağır cəzalar törətməmiş şəxslərin real həyata qayıtmasına imkan verilir. Bu, həm də həbsxanalarda məhkumluq həyatına davam edənlər üçün də bir əxlaq dərsidir. Həbsdə olanlar qarşıdan gələn əfv proseslərində iştirak etmək imkanı əldə etmək üçün məhkumluq həyatında nümunəvi olmağa çalışacaqlar. Yəni dövlət başçımızın əfv sərəncamı sanki yalnız azad olunanlara şamil edilmir, həm də məhbus həyatı yaşayanların da tərbiyə olunması üçün məktəb rolunu oynayır".

Nəzrin QAFARZADƏ,
"Azərbaycan"

70-ci əfv

Mayın 25-də Prezident İlham Əliyev "Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında" sərəncam imzalayıb.

Sərəncama əsasən, məhkum olunmuş bir sıra şəxslərin, onların ailə üzvlərinin, Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkilinin Azərbaycan Respublikasının Prezidentinə ünvanlanmış əfv haqqında müraciətlərinə baxılaraq, məhkumların şəxsiyyəti, səhhəti, ailə vəziyyəti, törətdikləri cinayətlərin xarakteri və ictimai təhlükəlilik dərəcəsi, cəza çəkdikləri müddət və həmin müddətdə davranışları nəzərə alınaraq, humanizm prinsipləri əsas götürülərək ümumilikdə 154 nəfər əfv edilib.

Humanizm siyasətinin təcəssümü

Bu əfv sərəncamı bir daha təsdiq etdi ki, respublikamızda humanizm prinsiplərinə xidmət edən xeyirxah tədbirlərin həyata keçirilməsi, cəzasının müəyyən bir hissəsini çəkən və törətdiyi əməldən peşmançılıq keçirən məhkum olunmuş şəxslərin əfv edilməsi, bağışlanması, onlara yeni şans verilməsi ənənəyə çevrilib. Bu ənənənin təməllərini yaradan Ulu Öndər Heydər Əliyev əfvetmə institutunu da yaradıb. Məhz Ulu Öndərin 1993-cü ildə xalqımızın istək və arzusu ilə siyasi hakimiyyətə gəlişindən sonra Azərbaycanda qanunçuluğun təmin olunması ilə yanaşı, humanizm siyasəti çərçivəsində çoxsaylı tədbirlər həyata keçirilib. Bu sırada əfv və amnistiya təsisatlarının yaradılması Heydər Əliyevin humanizm dəyərlərinə verdiyi önəmin göstəricisidir.

Xatırladaq ki, 1995-2003-cü illərdə Heydər Əliyev tərəfindən 33 əfv fərmanı imzalanıb və bu, 3 mindən artıq məhkuma şamil olunub. Ümummilli Liderin qanunvericilik təşəbbüsü əsasında Milli Məclis tərəfindən 1996-2003-cü illərdə 7 dəfə amnistiya elan edilib. Bu amnistiyalar 78 mindən artıq məhkuma şamil olunub, 21 mindən çox məhkum azadlığa buraxılıb. Belə humanist addımlar ciddi tərbiyəvi əhəmiyyət daşıyıb.

Azərbaycanda bərqərar olan humanizm siyasətinin nəticəsi olaraq ölkəmizdə ölüm hökmü də aradan qaldırılıb. Respublikamızın adı Şərqdə ilk olaraq bu cəzanı ləğv edən ölkə kimi tarixə düşüb. Əvvəlcə 1993-cü ildə ölüm hökmü üzərində moratorium qoyulub, 1998-ci ildə isə bu cəza tamamilə ləğv edilib.

Təbii ki, cinayət cəzasız qalmamalıdır. Hər bir cinayətin cəzası olmalıdır. Cəza hüququnun reallaşdırılmasında belə ədalətə söykənmək respublikamızda yürüdülən humanizm siyasətinin əsas qayələrindən biridir. Bu siyasəti uğurla həyata keçirən Prezident İlham Əliyev bayram və əlamədar günlərdə imzaladığı əfv sərəncamları ilə, törətdiyi cinayət əməlindən səmimi peşmançılıq keçirən, azad cəmiyyətə və normal həyata qovuşmaq istəyən məhkumların bir qismini cəzalarının çəkilməmiş hissəsindən tam azad edib. Azadlığın cəmiyyətin ən ümdə və zəruri şərti olduğunu dəfələrlə vurğulayan Prezident İlham Əliyev əfv sərəncamları ilə cəzadan azadetmənin tərbiyəvi əhəmiyyətinə xüsusi önəm verdiyini, şəxsi cəmiyyətdən təcrid etmədən islahın daha səmərəli olduğunu göstərib.

İlham Əliyevin 38-ci əfv sərəncamı

Məhkum olunmuş bir sıra şəxslərin, onların ailə üzvlərinin, insan hüquqları üzrə müvəkkilin, insan hüquqlarının müdafiəsi təşkilatlarının dövlət başçısına ünvanlanmış əfv haqqında müraciətlərinə baxılaraq və humanizm prinsiplərini əsas götürərək Prezident İlham Əliyev tərəfindən 2003-cü ilin dekabr ayından indiyədək 38 əfv sərəncamı imzalanıb. Onu da xatırladaq ki, Azərbaycanda ən böyük əfv sərəncamı ötən il olub. Belə ki, Heydər Əliyevin 100 illik yubileyi münasibətilə imzalanan bu əfv sərəncamı müstəqil Azərbaycan tarixinə ən böyük əfv aktı kimi düşüb və 801 məhkum əfv olunub.

Prezident tərəfindən əfv olunmuş şəxslər Penitensiar Xidmətin tabeliyindəki cəzaçəkmə müəssisələrindən azadlığa buraxılıblar. Qeyd etdiyimiz kimi, sərəncama əsasən 154 məhkum əfv olunub. Onlardan azadlıqdan məhrumetmə cəzasına məhkum olunmuş 63 nəfər cəzasının çəkilməmiş hissəsindən azad edilib, 52 nəfərin cəzasının çəkilməmiş hissəsi isə yarıyadək azaldılıb.

Azadlıqdan məhrumetmə cəzasına məhkum edilmiş və cəzasının çəkilməsi təxirə salınmış 1 nəfər cəzadan azad edilib. Həmçinin azadlığın məhdudlaşdırılması cəzasına məhkum edilmiş 28 nəfər cəzalarının çəkilməmiş hissəsindən azad olunub, 3 şəxsin cəzasının çəkilməmiş hissəsi yarıyadək azaldılıb. Eləcə də islah işləri cəzasına məhkum edilmiş 2 nəfər cəzanın çəkilməmiş hissəsindən, cərimə cəzasına məhkum edilmiş 4 nəfər isə cəzadan azad edilib. Həmçinin azadlıqdan məhrumetmə cəzasına məhkum edilmiş və cəzasını çəkmiş 1 şəxsin məhkumluğu götürülüb.

Əfv olunan şəxslər arasında xarici ölkə vətəndaşları və qadınlar da var. Belə ki, sərəncama əsasən, 8 əcnəbi vətəndaş əfv edilib. Onlardan 5-i Əfqanıstan, 2-si Türkiyə, 1-i Rusiya vətəndaşıdır.

Prezident İlham Əliyevin mayın 25-də imzaladığı əfv sərəncamı indiyədək respublikamızda verilmiş sayca 70-ci əfv qərarıdır. Müxtəlif səbəblərdən azadlıqdan məhrum edilərək həbsə alınan və artıq cəzalarının müəyyən bir hissəsini çəkən, eyni zamanda islaholunma istiqamətində müsbət nəticələr əldə edən məhkumların azad olunması onlara bundan sonra həyatda öz yollarını düzgün seçməklə bağlı verilmiş çox gözəl şansdır. Bu şansın verilməsi isə dövlətimizin humanizm siyasətinin mahiyyətindən və məzmunundan doğur.

Rəşad CƏFƏRLİ,
"Azərbaycan"

Əfqanıstan vətəndaşı:

Əfv sərəncamına görə Prezident İlham Əliyevə minnətdaram

Azərbaycan sərhədini qanunsuz keçdiyimə görə iki il iki ay müddətinə azadlıqdan məhrum olunmuşdum. Bir il dörd aydır ki, məhkum həyatı yaşayırdım. Əfv sərəncamı ilə cəzamın 8 ayından azad olundum.

AZƏRTAC xəbər verir ki, bunu Ədliyyə Nazirliyi Penitensiar Xidmətin 17 saylı cəzaçəkmə müəssisəsindən azadlığa buraxılan Mohammad Ayaz Raja deyib. O, əfv sərəncamına görə Prezident İlham Əliyevə minnətdarlığını bildirib.

Azadlığa buraxılan məhkum:

"Əfv sərəncamı bizim üçün böyük motivasiyadır"

Prezident İlham Əliyevə bu humanist addıma görə minnətdarlığımı bildirirəm. Əfv sərəncamı bizim üçün böyük motivasiyadır. Bağışlanmaq bizi gələcəkdə eyni səhvləri təkrarlamamağa sövq edir.

AZƏRTAC xəbər verir ki, bu sözləri Ədliyyə Nazirliyi Penitensiar Xidmətin 2 saylı cəzaçəkmə müəssisəsindən azadlığa buraxılan Emin Tağıyev deyib.

O, törətdiyi cinayət əməlinə görə 8 il həbs cəzası aldığını və əfv sərəncamı ilə qalan 1 il 8 ayından azad olunduğunu diqqətə çatdırıb.

1918 Azərbaycan Xalq Cümhuriyyəti 2024

Şanlı mübarizə tariximiz alman arxiv sənədlərində

Türk-müsəlman dünyasında 1918-ci il mayın 28-də yaradılmış ilk respublika - Azərbaycan Xalq Cümhuriyyəti xalqımızın tarixinə birinci respublika kimi daxil olmuşdur. Cəmi 23 ay fəaliyyət göstərən ilk Azərbaycan Respublikası xalqımıza XX əsrdə hüquqi dövlətçilik və sivil demokratiya ənənələrini bəxş etmişdir. Şimal torpağımızın adına "Azərbaycan" adı möhürünü vuran Xalq Cümhuriyyəti dövlət dilimizin və tarixi adlarımızın bərpası, təhsilin milliləşdirilməsi, ilk ali məktəbin yaradılması və digər sahələrdə mühüm islahatlar həyata keçirdi.

Almaniya Federativ Respublikasının Xarici İşlər Nazirliyinin Siyasi Arxivinin (Politisches Archiv des Auswartigen Amts der Bundesrepublik Deutschland) (bundan sonra - siyasi arxiv) müxtəlif fondlarında saxlanılan sənədlərin işığında AXC-nin yaranması ərəfəsində mövcud beynəlxalq vəziyyəti, Cənubi Qafqazın sərhədlərinin dəyişdirilməsi cəhdləri, böyük dövlətlərin Azərbaycanın ayrılmaz parçası olan Bakını ələ keçirmək siyasəti, yenicə yaranmış cümhuriyyətin Bakının azad edilməsi uğrunda şanlı mübarizəsini və eləcə də AXC-nin qonşu dövlətlərlə diplomatik münasibətləri tarixinin müəyyən mənzərəsini izləmək mümkündür.

Azərbaycan Xalq Cümhuriyyəti yarandığı vaxtdan etibarən şimal qonşusu olan Dağlılar Respublikası ilə müntəzəm əlaqələr yaratmağa, Şimali Qafqaz xalqlarına maddi-mənəvi və siyasi yardım göstərməyə çalışırdı. Bu baxımdan, 1918-ci il 4 iyul tarixli Tiflisdəki vəkil Korkovadan Almaniya Xarici İşlər Nazirliyinə göndərilən bir radioqramda Şimali Qafqaz və Azərbaycan arasında ordu, maliyyə, həmçinin xarici siyasətin də birgə olması barədə müqavilə bağlandığı qeyd olunur.

1918-ci il 4 dekabr tarixli sənəddə Tiflisdə olan alman nümayəndəliyinin Almaniya Xarici İşlər Nazirliyinə məlumatı Azərbaycan, Gürcüstan və Dağlılar Respublikası nümayəndələrinin birgə təşkil etdiyi konfransdan danışılır və onların öz aralarında razılığa gələrək mühüm qərarlar qəbul etdikləri qeyd olunur. *Bu qərarlar içərisində "Hər üç respublikanın bir-birinin müstəqilliyini hərtərəfli qəbul etməsi; hər üç respublikanın müstəqilliklərinin qorunması üçün bir-birilərinə hərtərəfli yardım etməsi; hər üç respublika sərhədlər məsələsində razılığa gəlməyibsə, onda onların sərhəd məsələlərini əvvəlcədən seçilmiş komissiyalar vasitəsi və sülh yolu ilə həll etmələri"* qeyd olunur. Həmçinin həmin respublikaların nümayəndələri *"onlara zərər verə biləcək dördüncü bir dövlətlə heç bir müqavilə imzalamayacaqlarına"* söz verirlər. Bundan əlavə, həmin dövlətlər *"iqtisadi münasibətləri tənzimləmək, gömrük və digər məsələlər üçün xüsusi komissiyalar təşkil etmək, ümumi pul sisteminin yaradılması, yol, teleqraf və poçt tariflərinin eyni olması* haqqında qərar qəbul etməsi haqqında maraqlı məlumatlar yer almaqdadır.

17 iyun 1919-cu il tarixli digər bir sənəddə Cənubi Qafqaz ölkələrində baş verən hadisələrdən bəhs olunur. Azərbaycanla Gürcüstan arasında yeni gömrük və pul müqavilələrinin imzalanması, Dağlılar Respublikasının Zaqatala və Abxaziya ilə çox maraqlanması, Azərbaycan, Gürcüstan və Dağlılar Respublikalarının nümayəndələrinin Yeni Qafqaz Konfederasiyası yaratmaq qərarına gəlməsi, Dağlılar Respublikasının nümayəndəsi Heydər Bammatın uzun müddət Parisə buraxılmaması, ermənilərin isə Rusiyada dayaq axtarması və digər məsələlər əks olunmuşdur.

Siyasi arxivin sənədləri həmçinin Azərbaycan torpaqlarında yaradılmış erməni dövlətinin öz sərhədlərini daha da genişləndirmək niyyətindən xəbər verir. 25 iyul 1918-ci il tarixli Almaniya Xarici İşlər nazirliyinə göndərilmiş bir teleqramda qeyd olunur ki, *erməni nümayəndələri Aharunyan və Xatisov onlar üçün qurulan respublikaya 600 min erməni qaçqınını qəbul edəcəklərini bildirir və onlar çalışırlar ki, Qafqazın hər bir rayonunda təki ermənilər yaşasın və bu yerlər ermənilərin yaşadığı yerlər kimi göstərilsin.*

Müstəqilliyinin böyük dövlətlər tərəfindən tanınmasına nail olmağa çalışan Azərbaycan Xalq Cümhuriyyəti xarici dövlətlərlə diplomatik münasibətlər yaratmağa can atırdı. Lakin dövlətlərin hərəsinin öz marağı var idi. Bu qəbildən Almaniya Xarici İşlər Nazirliyinin siyasi arxiv sənədləri içərisində 30 mart 1919-cu il tarixli bir sənəd daha maraqlıdır. Sənəddə qeyd olunur ki, *fansızlar və ingilislər Yaxın Şərqi öz maraq dairələrinə bölmək istəyirlər. Fransız baş komandanlığı Batuma qədər ərazilər, ingilislər isə Cənubi Qafqaz, Həmədan və İran ərazilərini ələ keçirməyə çalışırlar. Ona görə də onlar Cənubi Qafqazda yaranmış yeni respublikalar ilə xoş münasibətlər yaradaraq məsələni dinc yolla həll etmək istəyirlər.*

Bu qəbildən olan sənədlər bir daha Xalq Cümhuriyyətinin necə çətin şəraitdə mübarizə aparmasını sübut edir.

Siyasi arxivin sənədləri həmçinin digər mühüm məsələni - Azərbaycanın qədim paytaxt şəhərlərindən biri, eyniadlı quberniyanın mərkəzi, zəngin neft mənbələrinə malik, dövrün ən mühüm sənaye və ticarət mərkəzi olan Bakının böyük dövlətlər tərəfindən Azərbaycandan qoparılıb alınması siyasətini və hansı yolla olursa olsun Bakını daşnak-bolşevik işğalından azad etmək uğrunda Azərbaycan diplomatiyasının mübarizəsinin real mənzərəsini əks etdirir.

Almaniyanın arxiv sənədləri Bakının mühüm əhəmiyyətə malik bir mərkəz olduğunu bir daha təsdiq edir. Məhz bu səbəbdəndir ki, Bakı uğrunda mübarizədə hegemon dövlətlərin heç biri digərinə güzəştə getmək istəmirdi. Məhz bu səbəbdəndir ki, Sovet Rusiyası hansı yolla olursa olsun Bakını əldən vermək istəmirdi və bu məqsədlə də Almaniya ilə gizli sazişə girmişdi.

I Dünya müharibəsi zamanı çəkdiyi xərclərin mühüm bir hissəsinin Bakı nefti hesabına ödənilməsini nəzərdə tutan Kayzer Almaniyası isə Bakının dağıdılmasına qətiyyən yol vermək istəmirdi. O, buradakı dəmir yollarına, neft daşıyan kommunikasiya vasitələrinə və digər strateji obyektlərə zərər dəyməsin deyə "Bakı məsələsi"ni dinc yolla həll etmək niyyətində idi. Alman kəşfiyyatının əlində Rusiyanın Cənubi Qafqazı, o cümlədən Bakını ələ keçirmək planları barədə dəqiq məlumatlar vardı. 1918-ci il iyunun ortalarında tərtib olunmuş bir xəritədə Bakıda yerləşən 8 minlik bolşevik-erməni hərbi birləşməsi haqqında məlumat göstərilmişdir.

Tiflisdəki alman nümayəndəsinin Almaniya Xarici İşlər Nazirliyinə göndərdiyi 18 iyul 1918-ci il tarixli bir teleqramda *"Osmanlı ordusunun Bakıya girməsinin qarşısının alınması üçün İstanbulda bir konfrans çağırılmasının nəzərdə tutulduğu, hətta Bakıdakı sovet nümayəndəsi Stepan Şaumyanla danışıqlar aparılması, onu yerli əhaliyə - əsl türklərə (azərbaycanlılara - red.) qarşı düşmənçilik hərəkətlərinə son qoymağa inandırmaq üçün Bakıya nümayəndə göndərildiyi" haqda məlumat verilir.*

Bu qəbildən olan digər bir sənəddə - 13 avqust 1918-ci il tarixli teleqramda Almaniyanın Cənubi Qafqazdakı nümayəndəsi general fon Kressin Osmanlı nümayəndəsi Xəlil paşa ilə Yelizavetpolda (Gəncə - red.) danışıqlar aparması haqqında məlumat verilir. Danışıqlarda Böyük Britaniya qüvvələrinin Bakıya girməsinin qarşısını almaq üçün Almaniya hərbi hissələrinin Osmanlı qüvvələri ilə birləşməsinin vacib olduğu bildirilir.

Lakin Azərbaycan hökumətinin qətiyyətli mövqeyi, Osmanlı ordusunun köməyi və Azərbaycan vətənpərvərlərinin rəşadəti sayəsində Bakı düşmənlərdən azad olundu və xalqımız təbii paytaxtına qovuşdu. Bakının azad edilməsindən sonra Almaniya hökumətinin Azərbaycan Xalq Cümhuriyyəti hökumətinə münasibəti müsbət mənada dəyişildi. Artıq Almaniya hökuməti tərəfindən verilən göstərişlərdə Azərbaycan Xalq Cümhuriyyəti hökuməti ilə əlaqə yaradılması tapşırılırdı.

Bakı azad olunduqdan sonra, Almaniya Xarici İşlər Nazirliyinin 22.10.1918-ci il tarixli məlumatında Almaniyanın Cənubi Qafqazdakı nümayəndəsi general fon Kressə leytenant fon der Koltsuna Bakıda almanların maraqlarını qorumağı tapşırmışdı. Bu məqsədilə leytenant fon der Koltsun tabeliyinə 100 nəfərlik zabit heyəti və digər dəstələr verilir. Lakin onların gəldiyi qatar Şəmkir yaxınlığında tərk-silah edilir. Yalnız 5 gündən sonra Koltsun kiçik bir dəstə ilə Bakıya girməsinə imkan yaradılır.

1 oktyabr 1918-ci ildə general fon Kressin imzası ilə Almaniya Xarici İşlər Nazirliyinə göndərilən teleqramda Azərbaycan hökuməti tərəfindən silah, hərbi sursat və digər hərbi ləvazimatların əks olunduğu siyahının verildiyi və bunların qiymətlərinin neftlə ödəniləcəyi xəbəri verilirdi. Hərbi sursat və digər hərbi ləvazimatların qiymətinin neftlə ödəniləcəyi üçün general fon Kress bu məsələnin tezliklə həll olunmasını istəyirdi və Azərbaycan hökumətinin bu istəyini ən yaxın zamanda poçtla Xarici İşlər Nazirliyinə göndərəcəyini bildirmişdi.

Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin almanlardan almaq istədiyi silah və hərbi sursatın siyahısında: *144 ədəd (1902-ci il modeli) 2000 atış qranili səhra topu; 248 ədəd (1909-cu il modeli) 2000 atış qranili dag topu; 144 ədəd 2000 atış qranili qısalüləli dağ topu; 48 ədəd (1909-cu il modeli) 1500 atış qranili ağır səhra topu; 48 ədəd (1909 və ya 1910-cu il modeli) 1500 atış qranili qısalüləli yüngül səhra topu; 48 ədəd (1909 və ya 1910-cu il modeli) 1500 atış qranili qısalüləli ağır səhra topu; 10 ədəd 15 sm. ölçülü ("Canne" markalı) 1000 atış qranili top; 10 ədəd 120 mm. ölçülü ("Wikkers" markalı) 1000 atış qranili top; 10 ədəd 8,8 sm. ölçülü 2000 atış qranili alman topu; 4 ədəd 10,5 sm. ölçülü 1000 atış qranili alman topu; 4 ədəd 8,8 sm. ölçülü 1500 atış qranili alman topu; 4 ədəd 7,5 sm. ölçülü 2000 atış qranili alman topu; 48 ədəd 3000 atış qranili zenit havadan müdafiə qurğusu; 200 min ədəd 900 atış qranili piyada tüfəngi; 20 min ədəd 900 atış qranili kazak tüfəngi; 10 min ədəd 900 atış qranili karabiner (qısalüləli tüfəng); 800 ədəd 20 ministifadə "M.C.Maxim" sistemli tüfəng; 100 ədəd 10 min istifadə qaranili "M.C.Lewis" sistemli tüfəng; 100 ədəd 100 atış qranili zabit revolveri; 200 ədəd hərbi durbin; 400 ədəd at yəhəri; 1000 ədəd (fişəngləri ilə bərabər) işıqlı tapança; 200 ədəd səhra durbini; 2 ədəd sualtı qayıq; 6 ədəd zirehli motorlu qayıq; 50 ədəd zirehli mina; 10 ədəd təyyarə; 10 ədəd 120-lik prolektor; 25 ədəd 142 tonluq yük avtomobili; 200 ədəd səyyar mətbəx və s. nəzərdə tutulmuşdu.*

Təəssüf ki, oktyabrın 26-da Berlindən Almaniya Xarici İşlər Nazirliyinin baş məsləhətçisi Busşe tərəfindən göndərilən teleqramda nəzərdə tutulan hərbi sursatın yalnız Gürcüstana satıla biləcəyi bildirilirdi. Bunun səbəbi kimi, hərbi sursat Azərbaycana satılsa, almanları *"tatarları ermənilərə qarşı silahlandırmaqla günahlandıracaqları", "ermənilərə isə heç bir şəkildə silah verilməməsi"* bildirilirdi. Çünki *"ermənilərə verilən silahların böyük bir ehtimalla türk-müsəlman əhalisinə qarşı istifadə ediləcəyi"* ifadə edilmişdi.

Unutmamalıyıq ki, Azərbaycan Xalq Cümhuriyyəti ermənilər tərəfindən Azərbaycan xalqına qarşı ölkənin bütün ərazisində soyqırımı həyata keçirildiyi bir şəraitdə yaranmışdı. Siyasi arxivdən əldə edilən sənədlər bu mürəkkəb və son dərəcə ağır tarixi şəraitdə Xalq Cümhuriyyətinin daxili və xarici siyasətində Azərbaycan xalqı üçün faydalı olan bütün əlaqələrdən yararlanmağa çalışdığını bir daha təsdiq edir. Bu sənədlərdəki faktiki məlumatlar həmçinin Azərbaycan Xalq Cümhuriyyəti tarixinin bir çox mühüm problemlərinə, böyük dövlətlərin Azərbaycanla bağlı yeritdiyi siyasətinə yeni baxış tələb edir.

Güntəkin NƏCƏFLİ,
Nigar EYVAZOVA,
tarix üzrə fəlsəfə doktorları

Azərbaycanın müstəqilliyi əbədidir, dönməzdir, sarsılmazdır

1918-ci il mayın 28-də Azərbaycanın milli qayəli, milli təfəkkürlü övladları bütün Şərqdə ilk demokratik respublika üsul-idarəli dövlətin yaranmasını bütün dünyaya elan etdilər. Bu respublika parlamentli dövlət idi. Onun dövlət atributları - bayrağı, himni, gerbi qəbul edildi. Üçrəngli bayrağında türkçülük, islamçılıq və müasirlik bir vəhdətdə idi. Ancaq Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay yaşaya bildi. 1920-ci il aprelin 28-də bolşeviklərin 11-ci ordusu Azərbaycanı işğal etdi və respublika süquta uğradı.

1991-ci ildə sovet imperiyasının dağılması ilə Azərbaycan yenidən öz müstəqilliyini elan etdi. Müstəqilliyin ilk illərində respublikamız ziddiyyətli məqamlarla üzləşsə də, Ulu Öndər Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı ölkəni bütün təhlükələrdən qorudu. Azərbaycan sabit inkişaf yoluna qədəm qoydu. "Bu gün tam qətiyyətlə demək olar ki, Azərbaycan dövləti, müstəqil Azərbaycan Respublikası 1918-ci ildə yaranmış Xalq Cümhuriyyətinin varisidir", - deyən Ümummilli Lider Heydər Əliyevin qurub-yaratdığı müstəqil Azərbaycan Respublikası indi Prezident İlham Əliyevin rəhbərliyi ilə dinamik inkişaf edir, qarşıya qoyulan hədəflərə doğru inamla irəliləyir.

Müstəqil daxili və xarici siyasət həyata keçirən Azərbaycan yalnız regionda deyil, beynəlxalq miqyasda da söz sahibi olan ölkə kimi tanınmışdır. Prezident İlham Əliyevin rəhbərliyi ilə müəyyənləşdirilən və həyata keçirilən düşünülmüş müdrik siyasət, qazanılmış uğurlar əminliklə söyləməyə əsas verir ki, Azərbaycanın müstəqilliyi əbədidir, dönməzdir və sarsılmazdır. Bu gün xalqımız Azərbaycan dövlətinin müstəqilliyinin elan edilməsinin ildönümünü qeyd edir.

1918-ci il mayın 28-də Tiflisdə Azərbaycan Milli Şurası ölkənin dövlət müstəqilliyi haqqında "İstiqlal bəyannaməsi" qəbul etdi. Bu hüquqi və siyasi sənəddə müstəqil dövlətin yarandığı göstərilmiş, onun hakimiyyətinin şamil olduğu ərazinin hüdudları müəyyənləşdirilmiş, həmçinin dövlətin əsas prinsipləri öz əksini tapmışdır. Bəyannamədə demokratik dövlətə məxsus atributların - hakimiyyətin xalqa məxsus olması, vətəndaşların mülki və siyasi hüquqlarının təminatı, bütün xalqların və hər bir kəsin milli, dini, sinfi və cinsi mənsubiyyətindən asılı olmayaraq azad inkişafı üçün şərait yaradılması, ən nəhayət, hakimiyyətin bölünməsi prinsiplərinin dövlət fəaliyyətinin əsası kimi bəyan edilməsi xalqın suveren, demokratik, hüquqi dövlət yaratmaq əzmində olduğu əksini tapmışdır. Mayın 30-da Azərbaycanın öz müstəqilliyini elan etməsi barədə dünyanın əsas siyasi mərkəzlərinə radio-teleqrafla məlumat verilmişdi.

O zaman Milli Şura Azərbaycan hökumətinin təşkilini bitərəf Fətəli xan Xoyskiyə tapşırdı. İlk hökuməti "Müsavat", Müsəlman Sosialist Bloku, "Hümmət", "İttihad" və bitərəflərdən ibarət 9 nazir təmsil edirdi. Bu dövrdə Azərbaycan Milli Şurasının və hökumətin Gəncəyə köçməsi ilə əlaqədar iyunun 17-də Fətəli xanın rəhbərlik etdiyi II hökumət təşkil olundu. İyunun 19-da isə Azərbaycanda yaranmış gərginlik nəzərə alınaraq, bütün ölkə ərazisində hərbi vəziyyət elan edildi. İyunun 26-da Azərbaycan Milli Ordusunun yaradılması haqqında fərman verildi. Daha sonra isə Osmanlı dövlətinin 5-ci piyada diviziyası və general Ə.Şıxlinskinin başçılıq etdiyi müsəlman milli korpusu əsasında Qafqaz İslam Ordusu yaradıldı. Nuru Paşanın rəhbərlik etdiyi bu orduya türklərdən, azərbaycanlılardan ibarət 18 min əsgər və zabit daxil idi.

Nəhayət, Qafqaz İslam Ordusu vasitəsilə Azərbaycan hökuməti öz hakimiyyətini bütün ölkəyə şamil edə bildi, Bakı azad olundu. Çox təəssüf ki, bu respublika cəmi 23 ay fəaliyyət göstərdi. Amma həmin dövrdə vətən sevdalıları çox mühüm işlər görə bildilər. Beynəlxalq aləmə Azərbaycan Demokratik Respublikası haqqında məlumat verdilər, dövlətçiliyin əsasını qoydular, milli tariximizi bərpa etmək istiqamətində böyük addımlar atdılar. Qonşu dövlətlərlə münasibəti qaydaya salmaq istiqamətində müəyyən işlər gördülər. Sonradan uzun illər bu dövrün unudulmasına çalışılsa da, ancaq 1988-ci ildən başlayaraq, Azərbaycan cəmiyyəti cümhuriyyət dövrünə diqqət etməyə və həmin dövrü öyrənməyə başladı. 1993-cü ildə Ümummilli Lider Heydər Əliyev hakimiyyətə gəldikdən sonra isə Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyəti daha dərin araşdırıldı.

Respublikamız 1918-1920-ci illərdəki xalq cümhuriyyətinin varisi sayılır. Bu gün hər bir kəs şərəflə deyə bilər ki, mənim çox zəngin keçmişim var, indi də həmin keçmişin əsasları üzərində Azərbaycan xalqının layiq olduğu bir dövlət qurulub. 28 May Respublika Günü dövlətçilik tariximizin ən şanlı və parlaq səhifələrindəndir.

Azərbaycan Demokratik Respublikası dövründə həyata keçirilən tədbirlər müstəqil dövlətçiliyimizin əsaslarının yaradılması və gələcək inkişaf yolunun müəyyənləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb etdi. Ruhu azad olan bir milləti heç kəs köləlikdə saxlaya bilməz. 1991-ci ilin oktyabrında Azərbaycan xalqı XX əsrdə ikinci dəfə öz müstəqilliyini elan etdi. Azərbaycan Xalq Cümhuriyyəti dövrünün dövlət rəmzləri və himni bərpa olundu. "Müstəqilliyi qorumaq onu əldə etməkdən daha çətindir" deyən Ulu Öndər Heydər Əliyevin gərgin mübarizəsi sayəsində xalqın milli mənlik şüuru inkişaf etdirildi, azərbaycançılıq məfkurəsi işığında müstəqillik arzuları gerçəkləşdirildi.

Bu gün dövlət başçısı cənab İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın birgə gərgin fəaliyyəti nəticəsində sürətlə dəyişən çağdaş dünyada bütün beynəlxalq görüşlərdə və aparılan yüksəksəviyyəli danışıqlarda Azərbaycanın mənafeləri uğurla müdafiə edilir.

Sevindirici haldır ki, artıq müstəqil dövlətimiz bir çox mötəbər, beynəlxalq tədbirlərə evsahibliyi edir. Bu isə ölkəmizin dünyada artan nüfuzundan və ona olan dərin inamdan xəbər verir. Azərbaycan təkcə regionda deyil, beynəlxalq miqyasda söz sahibi olan ölkə və strateji tərəfdaş kimi tanınır. Fərəhli haldır ki, Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının növbəti ildönümünü xalqımız qürur və sevinc hissi ilə qeyd edir. Belə ki, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuzun cəmi 44 gün davam edən Vətən müharibəsində Ermənistan ordusu üzərində şanlı qələbəsi ilə dövlətimizin ərazi bütövlüyü və suverenliyi tam bərpa edilmişdir. Bu isə dövlət müstəqilliyimizin ildən-ilə möhkəmləndiyini, qüdrətinin daha da artdığını göstərir.

Səadət VEYSOVA,
Əməkdar müəllim

1918 Azərbaycan Xalq Cümhuriyyəti 2024

28 May istiqlalı və Türkiyə-Azərbaycan qardaşlığı

XX əsrin əvvəllərində Avrasiya dünyasında baş verən siyasi hadisələr Anadolu bölgəsində və Azərbaycanda da öz təsirini göstərməkdə idi. Bu dövrdə cəmiyyətin şüurunda baş verən milli özünüdərk prosesi millət, milli şüur, millət və ümmət münasibətlərini ortaya qoymuşdur.

Azərbaycanda və Anadoluda baş verən maarifçilik hərəkatı bu proseslərin elmi-siyasi və mənəvi əsaslarını formalaşdırmaqda idi. Onlarla türk ziyalısı və demokratik düşüncəli din xadimləri millimənəvi və dini dəyərlərin modernləşməsi uğrunda yorulmaz mübarizə aparırdılar. Xüsusilə də türk dünyasının siyasi müstəqilliyi, milli-mənəvi bütünlüyü, modernləşməsi uğrunda Azərbaycanda Əli bəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu, Məhəmməd Əmin Rəsulzadə, Əlimərdan bəy Topçubaşov, Mirzə Cəlil, Mirzə Ələkbər Sabir, Anadoluda Ziya Göyalp, Yusif bəy Akçura, Fuat Köprülü, Hamdullah Süphi, Abdullah Cevdət, Cəlal Nuri, Kılıçzadə Hakkı, Namık Kamal, Mehmed Akif Ərsoy kimi çoxlu ziyalılar, ictimai-siyasi xadimlər, maarifçilik hərəkatının nümayəndələri milli və dini kimlik, modernləşmə düşüncəsi vəhdətindən çıxış edərək bu dəyərləri qarşı-qarşıya deyil, vəhdət halında qiymətləndirmək mövqeyindən çıxış edirdilər.

XIX əsrdən başlayan Anadolu və Azərbaycan aydınlarının ədəbi-mədəni təmasları XX əsrin əvvəllərində yeni keyfiyyət mərhələsinə qədəm qoymuşdur. Bu dövrdə elmi-mədəni və ədəbi əlaqələrlə yanaşı, xeyriyyəçilik fəaliyyəti də geniş vüsət almışdır. Baş verən bu siyasi və ideoloji mübarizələr fonunda öz milli, siyasi və mənəvi maraqlarını qorumaq naminə, Azərbaycan və Anadolu toplumu mədəni, siyasi əlaqələrini genişləndirmiş, zərurət yarandığı təqdirdə birbirilərinə qardaşlıq yardımlarını əsirgəməmişdilər.

XIX əsr - XX əsrin əvvəllərində ümumtürk mədəniyyətinin, milli-mənəvi dəyərlərinin oyanışı və inkişafında milli burjuaziyanın mesenant və maarifçi nümayəndələrinin böyük rolu olmuşdur. Azərbaycanlı mesenantlardan Hacı Zeynalabdın Tağıyev, Ağa Musa Nağıyev, Murtuza Muxtarov, Şəmsi Əsədullayev kimi sahibkarlar böyük xeyriyyəçilik işləri ilə məşğul olmuş, xalqımızın mədəniyyətinin, elm və təhsilinin inkişafında böyük məbləğdə maddi vəsait xərcləmişdilər.

Azərbaycanlı milyonçuların xeyriyyəçilik fəaliyyəti Azərbaycanın hüdudlarını aşaraq digər ölkələri də əhatə etmişdir. Azərbaycanlı mesenantlar qardaş Osmanlı dövlətində də böyük xeyriyyəçilik fəaliyyəti ilə məşğul olmuşlar. Balkan savaşları (1912-1913) və Birinci Dünya savaşının (1914-1918) o sıxıntılı günlərində Bakıda Hacı Zeynalabdin Tağıyevin himayəsi altında fəaliyyət göstərən "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin Anadoluya çox önəmli yardımlar təşkil etdiyi məlumdur. Eyni zamanda xeyriyyəçilik fəaliyyəti Anadoluda erməni zülmləri nəticəsində yetim qalan uşaqları, qadınları, yaşlıları da öz himayəsinə almışdır. Xeyriyyəçilik fəaliyyətinə görə Hacı Zeynalabdın Tağıyevin həyat yoldaşı Sona xanımın Osmanlı hökmdarı Sultan Mehmed Rəşad tərəfindən 1914-cü ilin 17 mart tarixində verdiyi fərmanla "Şəfqət" ordeni ilə təltif olunmuşdur.

Azərbaycan türkləri Rusiya imperiyasının işğalında olmasına baxmayaraq, qeyd olunan dövrdə xeyriyyəçilik fəaliyyəti ilə yanaşı, hərbi baxımdan da Anadolu türk qardaşlarına öz yardımlarını göstərmiş, xüsusilə də Çanaqqala savaşında könüllü olaraq döyüşmüşlər.

Aparılan çoxsaylı tədqiqatlar nəticəsində məlum olmuşdur ki, Birinci Dünya müharibəsi dövründə, xüsusilə 1915-ci ildən başlayaraq Qafqaz müsəlmanlarından və Azərbaycan türklərindən olan könüllülərdən ibarət taburlar təşkil edilmiş, Qafqaz cəbhəsində, həmçinin Çanaqqala döyüşlərində iştirak etmişlər. Osmanlı arxiv sənədlərindən əldə olunan məlumatlardan aydın olur ki, Azərbaycan türkləri və Qafqaz müsəlmanlarından ibarət minlərlə könüllü döyüşçü Qafqaz cəbhəsində və Çanaqqala döyüşlərində böyük rəşadət göstərərək şəhid olmuşlar.

Türk tarixinin qanlı hərbi faciələrindən biri Sarıqamış faciəsidir. Bu dövrdə Azərbaycan çar Rusiyasının işğalı altında olmasına baxmayaraq, bacardığı qədər Anadolulu qardaşlarına kömək və mənəvi dəstək göstərmişdir. 1914-cü il dekabrın 22-dən - 1915-ci il yanvarın 15-dək olan dövrdə Osmanlı ordusunun acı məğlubiyyəti ilə bitən Sarıqamış döyüşündə 90 min türk əsgəri şəhid olmuş, təxminən 5000 döyüşçü ruslara əsir düşmüşdü. Türk əsirləri Bakıya Böyük Zirə (Nargin adası) adasına gətirilərək böyük işgəncələrə məruz qalmışdılar.

"Hümmət" qəzetinin 28 noyabr 1917-ci il sayında "Göz yaşı tökdürən cəzirə" məqaləsində Nəriman Nərimanov yazırdı: "Kaş bu cəzirəyə (Nargin) getməzdim, kaş bir dəri, bir sümük bədənləri, sifətsiz gözləri, ah-zar edən insanları görməzdim. Kaş "Əfəndim, su", "Əfəndim, yemək", "Əfəndim, paltar" sözlərini eşitməyəydim. Kaş çılpaq dodaqları soyuqdan titrəyən, üzləri bozarmış atasız-anasız balalarla sözləşməyəydim. Kaş xəstəxanada başları kərpic üstə can verən igidlərə rast gəlməyəydim".

Nargində yaşanan müsibətlərdən, ermənilərin burada türk əsirlərin başına gətirdikləri amansızlıqlardan xəbər tutan Azərbaycanın sayılıb-seçilən varlı şəxsləri və ziyalıları türklərin xilası üçün kömək etməyə çalışırdılar. Bu məsələdə Müsəlman Xeyriyyə Cəmiyyəti, Hacı Zeynalabdin Tağıyev, İsmayıl bəy Səfərəliyev, Murtuza Muxtarov və Əjdər bəy Aşurbəyov, Bakı Müsəlman Xeyriyyə Cəmiyyətinin Qadın bölməsinin sədri Sona xanım Hacıyevanın fəaliyyətini xüsusilə qeyd etmək lazımdır. Onlar əsirlərin bəzilərinin qaçışını təşkil edir, sağlam əsgərləri Türkiyəyə göndərir, uzun müddət xəstə olanları isə öz evlərində gizlədib, müalicə edirdilər.

Azərbaycan türklüyü ilə Anadolu türklüyünün qardaşlığının ən yüksək zirvəsinin bariz nümunəsini 1918-1920-ci illərdə də görmək olur. Bu dövrdə öz istiqlaliyyəti və dövlət müstəqilliyi uğrunda ölüm-dirim mübarizəsinə qalxmış Azərbaycanın türklüyünün yanında yenə də Anadolu türkləri, Osmanlı imperiyası var idi. İstər Cənubi Qafqazın gələcək siyasi taleyini həll edən Trabzon (1918, mart) və Batum (1918, may) danışıqlarında, istərsə də türk-müsəlman dünyasının ilk milli demokratik dövləti olan Azərbaycan Cümhuriyyətinin qurulmasında Osmanlı imperiyasının rolu danılmazdır.

1918-ci il mayın 28-də Azərbaycan Milli Şurasının sədri Məhəmməd Əmin Rəsulzadənin rəhbərliyi ilə Azərbaycan Cümhuriyyəti elan olundu. Azərbaycan Cümhuriyyəti türk-müsəlman dünyası üzərində doğan bir milli dövlətçilik günəşi idi.

Azərbaycan Cümhuriyyətinin yaranmasını professor Tadeuş Svyatoçovski bu şəkildə şərh edirdi: "İndiyə qədər coğrafi bir bölgənin adı olan Azərbaycan artıq iki milyonluq bir dövlətin adı idi. Tatarlar, Trans-Qafqaziya müsəlmanları və Qafqaziya türkləri kimi dəyişik isimlərlə anılan xalq artıq rəsmən azərbaycanlı olmuşdu".

Azərbaycanın görkəmli dövlət xadimi Məhəmməd Əmin Rəsulzadə 28 May istiqlalını mühüm hadisə adlandıraraq bu münasibətlə yazırdı: "O tarixdən əvvəl bir millət olaraq varlığını isbat edən Azərbaycan xalqı bu tarixdən etibarən millət olaraq dövlət qurmuş və bu dövlətin istiqlalı uğrunda bütün mövcudiyyəti ilə meydana atılmışdır".

Bu dövrdə Azərbaycan mill dövlətçilik günəşinin parlamasına sevinən yenə də Anadolu türkləri idi. Azərbaycan Cümhuriyyətini tanıyan ilk dövlət də məhz Osmanlı dövləti idi. 1918-ci ilin iyun ayının 4-də "Osmanlı imperatorluğu hökuməti ilə Azərbaycan Respublikası arasında dostluq müqaviləsi"nin imzalanması böyük bir tarixi hadisə idi. Bu, Azərbaycan Respublikasının xarici dövlətlərlə imzaladığı ilk dostluq müqaviləsi idi. Xüsusilə də, Azərbaycan üçün çox mühüm həyati əhəmiyyətə malik olan müqavilənin dördüncü maddəsində göstərildi ki, "dinclik və asayişi möhkəmləndirmək, ölkənin təhlükəsizliyini təmin etmək üçün əgər ehtiyac olarsa, Osmanlı hökuməti Azərbaycan Respublikasına hərbi yardım göstərməyi öz üzərinə götürür". Bu maddə yenicə müstəqilliyini elan etmiş Azərbaycan Respublikasının təhlükəsizliyinə və azərbaycanlı əhaliyə qarşı soyqırımı həyata keçirən bolşevik-daşnak qüvvələrinə qarşı Osmanlı dövlətinin hərbi yardım etməsinə hüquqi zəmin yaradırdı.

Azərbaycan Cümhuriyyəti öz müstəqilliyini elan etsə də, hələ də ölkənin süverenliyi xarici dövlətlər tərəfindən təhlükə altında, Bakı və ətrafı isə bolşevik-erməni işğalında idi. Belə bir mürəkkəb siyasi şəraitdə Azərbaycan Cümhuriyyəti "Osmanlı imperatorluğu hökuməti ilə Azərbaycan Respublikası arasında dostluq müqaviləsi"nin 4-cü maddəsinə uyğun olaraq Osmanlı dövlətindən hərbi yardım istədi. Bu müraciəti müsbət dəyərləndirən Osmanlı hakimiyyəti Azərbaycan türk qardaşlarına kömək üçün 1918-ci ilin iyun ayının əvvəllərində hərbi dəstələrini Gəncə istiqamətində Azərbaycana göndərdi. Mürsəl Paşanın başçılıq etdiyi Osmanlı ordusunun ən yaxşı diviziyalarından olan 5-ci Qafqaz piyada diviziyası iyun ayının əvvəllərində Gəncəyə daxil oldu. Türkiyənin Qafqazda olan hərbi hissələrinin yeni baş komandanı Ənvər Paşanın qardaşı Nuru Paşa öz qərargahı ilə birlikdə Gəncəyə gəldi, Gəncədə təntənəli qarşılama mərasimi təşkil olundu. Həmin dövrdə görkəmli dövlət xadimi Məhəmməd Əmin Rəsulzadə yazırdı ki, "Cənubi Qafqaz nümayəndələri ilə türk nümayəndələri Batumda müzakirələr apararkən Nuru Paşa ilə bərabərində olan bir çox zabitlər Gəncəyə daxil oldular. O zaman müdhiş bir anarxiyaya məruz qalan, digər tərəfdən də bolşevik təcavüzü ilə təhdid olunan Gəncə Nuru Paşanı göydən enmiş xilaskar bir mələk kimi qəbul etmişdi. Xalqın ona göstərdiyi istiqlal Gəncə tarixində görünməmişdir".

İstiqlal şairi Məhəmməd Hadi özünün bir bəndlik şeirində Nuru Paşanın Gəncəyə gəlişini belə vəsf edirdi:

O gün ki, Nuri paşa Gəncəyə mehman oldu,
Türkə əyri baxanın bağrı qızıl qan oldu.
Çəkdi dağlar başına hilallı al-bayrağını,
Qalxdı bu türk diyarı Azərbaycan oldu!

Azərbaycan müstəqillik qazansa da, hələ istər geosiyasi, istərsə də iqtisadi baxımdan böyük əhəmiyyət kəsb edən Bakı və ətrafı bolşevik-erməni işğalı altında idi. Bakının bolşevik-daşnak işğalı dövründə bu şəhərin Azərbaycan üçün nə qədər strateji əhəmiyyətə malik olduğunu və azad olunmasının vacibliyini bütün cümhuriyyət xadimləri öz əsərlərində xüsusi olaraq vurğulamışlar. M.Ə.Rəsulzadə yazırdı ki, "Bakı Azərbaycanın, Azərbaycan da Bakınındır. Bakını Azərbaycandan ayırmaq istəyən kim olursa, Azərbaycanın həyatına qəsd etmişdir. Bakısız Azərbaycan təsəvvür oluna bilməz. Bakı tarixən də, indi də bir türk şəhəri və müsəlman bölgəsidir. İstiqbalən də elə olaraq Azərbaycanın paytaxtını təşkil edəcəkdir. "Bakısız Azərbaycan - başsız bədəndir".

Bakının geosiyasi və strateji əhəmiyyətini dərindən dərk edən Osmanlı və Azərbaycan hökumətinin əmri ilə Nuru Paşanın komandanlığı altında Qafqaz İslam Ordusu sentyabr ayının 15-də Bakını işğaldan azad etdi.

5-ci Qafqaz piyada diviziyasının komandanı podpolkovnik (yarbay) Rüşdü bəy Bakının azad edilməsini öz xatirələrində belə təsvir edirdi: "Eyni irqə mənsub bu iki millət arasında əlaqə və münasibət, axıdılan qanlarla bir qat daha yaxınlıq peyda etmişdir. Anadolu türklərinin, Azərbaycanın istiqlalı uğrunda yapdıqları çətin və qanlı müharibələr əminəm ki, nəsildən-nəslə nəql ediləcək unudulmaz birgə dastan halında qalacaqdır".

Bakının bolşevik-daşnak birləşmələrindən azad olunması xəbəri Türkiyə mətbuatının da əsas aparıcı mövzularından biri olmuşdu. "Yeni gün" qəzeti bu barədə yazırdı: "Bakıda artıq Azərbaycan bayrağı dalğalanır. Azərbaycan hərbi hissələri Bakını azad etmişlər. Eyni dinə və eyni qana sahib olduğumuz qardaşlarımızı təbrik edirik..."

Bakının azad edilməsi münasibəti ilə noyabr ayının 10-da Bakıda Yay klubunun zalında Nuru Paşanın şərəfinə böyük bir ziyafət verildi. Ziyafət törənində çıxış edən Azərbaycanın dövlət rəsmiləri, ziyalılar öz sevgi və təşəkkürlərini ifadə etmişlər.

Ziyafət məclisində görkəmli ədəbiyyatşünas Salman Mümtaz Nuru Paşaya ithaf etdiyi "Öyün millət" şeirini oxumuş, tanınmış aktyor Abbas Mirzə Şərifzadə isə Osmanlı generallarına məxsus geyimdə zala daxil olaraq Ənvər Paşanın qiyafəsində monoloq söyləmişdir. Ziyafətdə baş nazir Fətəli Xan Xoyski "Ədirnənin fəthi" əsərinin müəllifi Cəfər Cabbarlını Nuru Paşaya təqdim etmişdir.

1918-ci il oktyabrın 30-da imzalanmış Mudros sazişinə əsasən, Osmanlı qoşunları məcburiyyət qarşısında Azərbaycanı tərk edir. Nuru Paşa İstanbula gələrkən oradakı ingilis qüvvələri tərəfindən həbs edilir və Batuma göndərilir. Paşa ermənilərin qətliamının iştirakçısı adı ilə edam hökmünə məruz qalır. Lakin Azərbaycan hökuməti təcili tədbir görür, baş nazir Nəsib bəy Yusifbəyli ilə Nağı Şeyxzamanlı xüsusi plan hazırlayırlar. Batum həbsxanasına hücum təşkil edilir və Nuru Paşa xilas olunur.

Qürur hissi ilə vurğulamaq lazımdır ki, Nuru Paşa tək Osmanlı dövlətinin deyil, Azərbaycanın Cümhuriyyət dövrü hərb tarixinin də əvəzolunmaz şəxsiyyətlərindən biridir. O, Qafqaz İslam Ordusunun qurucusu və komandanı, Bakının fatehi, ziyalıların dostu idi. Təkcə bu deyil... Nuru Paşa Güneyli, Quzeyli bütün Azərbaycanı canı qədər sevən böyük bir şəxsiyyət idi. Azərbaycan Cümhuriyyəti bolşeviklər tərəfindən işğal olunduqdan illər sonra Nuru Paşanın Azərbaycan haqqında ürək ağrısı ilə dediyi sözlər bunu bir daha təsdiq edir: "Qardaşımın şəhid olması qəlbimi nə qədər yandırdısa, Azərbaycanın istilası qəlbimi ondan da çox yandırdı. Qardaşım bir fani idi. Fəqət Azərbaycandakı türklük əbədi idi. Kaş öz həyatımı itirəydim, amma Azərbaycan türklüyün kənarında qalmayaydı".

(Ardı var)

Mübariz AĞALARLI,
tarix üzrə fəlsəfə doktoru,
dosent

Hacıbəyli qardaşları cümhuriyyət dövründə

1918-ci ilin mart qırğınından sonra Azərbaycan milli demokratiyası istiqlaliyyət uğrunda açıq mübarizənin və öz milli hökumətini yaratmağın qurtuluş üçün yeganə yol olduğunu dərk etdi. Azərbaycan nümayəndəliyinin təkidilə Zaqafqaziya Seymi aprel ayının 9-da Zaqafqaziyanın suverenliyini elan etdi.

Lakin daxili ziddiyyətlər nəticəsində Zaqafqaziya Demokratik Federativ Respublikası tezliklə dağıdıldı və 1918-ci il mayın 28-də Tiflisdə Azərbaycanın istiqlaliyyəti elan edildi. İstiqlal bəyannaməsində Azərbaycan Demokratik Respublikasında ali icraedici hakimiyyətin Müvəqqəti Hökumətə məxsus olduğu bildirildi. Müvəqqəti Hökumət isə Azərbaycan Milli Şurasına tabe edildi. Səs çoxluğu ilə Məhəmməd Əmin Rəsulzadə Milli Şuranın sədri seçildi.

Milli Şuranın 1918-ci il mayın 28-də Tiflisdə qəbul etdiyi "İstiqlal" bəyannaməsi ilə XIX əsrin əvvəllərində itirilmiş dövlətçiliyimiz Azərbaycan Xalq Cümhuriyyəti formasında bərpa olundu.

Cümhuriyyət hökuməti öz qısa varlığı dövründə mədəniyyətin inkişafına qayğı ilə yanaşdı, mədəni quruculuğa xüsusi diqqət yetirdi. Xalq Maarif Nazirliyi təsis edildi, məktəblər milliləşdirildi, təhsil ana dilində aparıldı, Bakı Universiteti, Milli muzey (İstiqlal muzeyi) və s. təsis edildi.

Bu illərdə bir sıra mütərəqqi ziyalılarımız Azərbaycan Demokratik Respublikasının ictimai-siyasi və mədəni həyatında yaxından iştirak etmişdilər. Onların arasında Üzeyir və Ceyhun Hacıbəyli qardaşları da var idi.

Üzeyir bəy 1919-cu ilin yanvarından 1920-ci ilin aprelinədək ADR-in 1918-ci ilin sentyabrından nəşr olunan rəsmi mətbu orqanı olan "Azərbaycan" qəzetinin redaktoru olmuşdu. M.Ə.Rəsulzadə ilə Ü.Hacıbəyli mehriban dostluq münasibətləri saxlamış, mətbuatda sıx yaradıcılıq əməkdaşlığı etmişlər. M.Ə.Rəsulzadə hələ 1907-ci ildə Ü.Hacıbəylinin tərtib etdiyi və maarifçilik sahəsində böyük rol oynamış "Siyasi, hüquq, hərbi və bir çox başqa terminlərin ruscatatarca və tatarca-rusca lüğətləri" kitabının redaktoru olmuş, 1908-ci ildə isə Üzeyir bəyin "Hesab məsələləri" kitabı haqqında "İrşad" qəzetində məqalə yazmışdı. Üzeyir bəy qəzetə rəhbərlik edərək onun ideya istiqamətini müəyyənləşdirmiş, Azərbaycanın müstəqilliyinin möhkəmlənməsinə kömək etmişdir. Qəzetdə Üzeyir bəyin "Partiyalarımıza", "Tarixi günümüz", "Andronikin məsələsi", "Vəzifəmiz nədir?", "Lənkəran faciəsi", "Kim nəyin fikrində imiş", "Qarabağ", "İçimizdəki denikinlər", "Ermənistan və Azərbaycan münasibəti", "Təəssürat" və s. kimi yazılar dərc edilmişdi. Üzeyir bəyin yazıları "Azərbaycan" qəzetində ya hər gün, ya da ki, günaşırı çap olunmuşdu. Bəzən isə həftə bir nömrədə iki yazısı da müxtəlif imzalarla çıxmışdı. Məqalələrlə tanışlıqdan görmək olar ki, həmin yazılar bugünkü günümüzlə də həmahəng səsləşir. Bu isə Üzeyir bəyin uzaqgörən bir siyasətçi, publisist olduğundan xəbər verir.

Azərbaycanın istiqlaliyyətini böyük ruh yüksəkliyi ilə qarşılayan bəstəkar, müstəqilliyin birinci ildönümü münasibətilə "Azərbaycan" qəzetinin 28 may 1919-cu il 190 saylı nömrəsində "Bir yaş" məqaləsində bildirirdi: *"Bu əziz bayram günü sidq dil ilə "Yaşasın müstəqil Azərbaycan" - deyənlər əmin olmalı, onu müstəqil yaşatmağa qadir olarlar".*

Nazirlər Şurasının 1918-ci il 27 iyun tarixli fərmanı ilə Azərbaycan (türk) dili dövlət dili elan olunmuşdu, üzərində ağ aypara və ağ səkkizguşəli ulduz əks edilmiş qırmızı parçadan hazırlanan Azərbaycanın dövlət bayrağı elan edilmişdi. Noyabrın 9-da həmin bayraq göy, qırmızı, yaşıl rəngdən ibarət, üzərində ağ aypara və ağ səkkizguşəli ulduz əksi olan üçrəngli bayraqla əvəz olunmuşdu.

ADR-in dövlət bayrağı qəbul olunarkən, Üzeyir bəy "Azərbaycan" qəzetinin 2 may 1919-cu il, 175-ci sayında "Bayrağımız sarsılmaz" məqaləsində yazırdı: *"...Bayrağımız haqq bayrağıdır. O, bir millətin bəşəri hüquqlarının parçasıdır. Bir millətin ki, onun insan kimi yaşamağa haqqı vardır. Bir millətin ki, daha əsir olmaq istəmir..."*

Müstəqillik dövründə Üzeyir bəy həm publisistika, həm də musiqi sahəsində var qüvvəsi ilə çalışmışdı. Belə ki, o, 1919-cu ildə Əhməd Cavadın sözlərinə "Azərbaycan" adlı marş bəstələmişdi. O zamanlar bu marş hər səhər hərbi məktəblərdə dərs başlanmazdan əvvəl oxunardı. Bu marş ADR-in (1918-1920) rəsmi dövlət himni olmuşdur. 1919-cu ildə isə o, Azərbaycan adlı xoreoqrafiq bir əsər də yaratmışdı. Quruluşca məhz səhnə üçün nəzərdə tutulmuş bu əsəri professional milli baletimizin ilk nümunəsi kimi qəbul etmək olar. "Azərbaycan" qəzetinin 1919-cu il 27 fevral tarixli 124-cü sayında göstərilirdi: *"...Üzeyir Hacıbəyov tərəfindən "Azərbaycan" adlı bir balet rəqsi yazılmışdır ki, bu balet səhnə üçün hazırlanmaqdadır..."*

ADR hökuməti tərəfindən 1919-cu ilin yanvarında Paris Sülh Konfransında iştirak etmək üçün nümayəndə heyətinin tərkibində xaricə yola düşənədək Ceyhun bəy "Azərbaycan" qəzetinin redaktoru olmuşdur. Ceyhun bəy xatirələrində bu səfərin nəticələrini belə şərh edirdi: *"...Əvvəllər idarə etdiyim milli "Azərbaycan" qəzetimizi istəkli qardaşım Üzeyirə həvalə edərək, yeni bir vəzifə ilə Avropaya gəldik. Yeni təşkil etdiyimiz Azərbaycan Dövlətinin başqa mədəni millətlər və sülh konqresinə toplanmış dövlətlərin ali məclisi tərəfindən rəsmən tanınmasına nail olduq..."*

"Azərbaycan" 1918-ci ildə kiçik formatda gündəlik 4 səhifədən ibarət çıxırdısa, 1919-cu ildən qəzetin formatı iki dəfə böyüdü və bayramla əlaqədar günlərdə isə altı səhifə buraxılırdı.

Sülh konfransının səmərəsi barədə Üzeyir bəy "Azərbaycan" qəzetinin 1918-ci il sayındakı *"İstiqlal və istiqbal ümidi" adlı məqaləsində yazırdı: "...Sülh konfransı cahan müharibəsinin intac etdiyi əzim bir məclis olacaqdır ki, böyük-böyük inqilabların hasil və məhsulunu üzə çıxaracaqdır... Biz Azərbaycanı və Azərbaycan türklərini Yevropaya və müttəfiq dövlətlərə tanıtmalıyıq, özümüzə məxsus tarixə, gözəl və xüsusi bir ədəbiyyata malik olduğumuzu, musiqimizin ümumqafqaz millətlərinə zövq və ləzzəti-ruhani verən bir musiqi olduğunu bildirməliyik..."*

Azərbaycan nümayəndə heyətinin konfrans ərəfəsində Fransanın paytaxtında çap etdirdiyi kitablar, bülletenlər və digər materiallar o dövrdə böyük əhəmiyyətə malik idi. Fransız və ingilis dillərində çap olunmuş "Qafqaz Azərbaycan Respublikası", "Qafqaz Azərbaycan Respublikasının sülh konfransına memorandumu" da çox maraqlıdır. Burada həmçinin Azərbaycan nümayəndəliyinin aylıq bülleteni də çap olunurdu.

Ceyhun bəyin Azərbaycan həyatının müxtəlif sahələrinə dair ayrı-ayrı mətbu orqanlarında dərc olunmuş yüzlərlə yazısı xalqın maarifləndirmə tərəqqisinə yardım etmişdir. Azərbaycan mətbuat tarixinə dair ilk mükəmməl sistemli, əhatəli tədqiqat işi də məhz Ceyhun Hacıbəyliyə məxsusdur.

Bundan başqa, konfrans dövründə Ceyhun bəy Parisdə nəşr olunmuş "Rövyü dü Monde müzülman" jurnalında "Birinci müsəlman respublikası - Azərbaycan" adlı məqalələr toplumunu dərc etdirmişdi. Sonra isə o, bu məqalələri kitab halında çap etdirmişdi. Avropa oxucularını mədəniyyətimizlə tanış edən Ceyhun bəy, Üzeyir bəyin "Arşın mal alan" operettasını fransız dilinə tərcümə etmiş və səhnəyə qoymuşdu.

O, tez-tez qəzet səhifələrində çıxış edərək, rus və ermənilərin Azərbaycandakı qeyri-normal hərəkətlərindən də yazmışdı. Bunlardan başqa, mühacirət illərində Ceyhun bəy digər qəzet və jurnallarla, radio ilə də əməkdaşlıq etmiş, Azərbaycanla bağlı çoxsaylı məqalələr yazmış, tədqiqatlar aparmışdır. O, bir çox fransız qəzetləri ilə əməkdaşlıq etmiş, orada fransız dilində çıxan "Qafqaz", Münxendə Azərbaycan dilində nəşr olunan "Azərbaycan" jurnalına redaktorluq etmiş, Azadlıq radiosunun yaradıcılarından olmuşdur.

Ceyhun Hacıbəyli 1920-ci il 28 aprel bolşevik çevrilişindən sonra vətənə qayıda bilməmiş, Fransada yaşayaraq 1962-ci il oktyabrın 22-də 71 yaşında Parisdə vəfat etmiş və orada da dəfn olunmuşdur.

1920-ci il aprelin 27-də ADR-in süquta uğraması Azərbaycanın siyasi və mədəni həyatına çox böyük zərbə vurmuşdur. Belə ki, cümhuriyyət dövründə əldə etdiyimiz bir çox uğurlar ləğv olunmuşdur. O cümlədən Üzeyir və Ceyhun Hacıbəyli qardaşları tərəfindən hələ 1914-cü ildə "Nicat" cəmiyyəti nəzdində yaradılan müstəqil opera-operetta artistləri truppası da 1920-ci il aprelin 28-də (ADR süqut edən gün) çağrılan iclas zamanı "mövqeyi etibarını itirdiyi" üçün ləğv edilmişdir.

ADR-in fəaliyyət dövrü 2 ilə yaxın bir zamanı əhatə etsə də, üstündən 71 il keçəndən sonra Azərbaycan dövləti mayın 28-ni Müstəqillik günü elan etdi. Beləliklə, xalqımız ikinci dəfə öz siyasi, etnoqrafik sərhədləri daxilində azad və müstəqil yaşamaq hüququ əldə etdi...

Təranə HƏSƏNOVA,
Üzeyir bəy Hacıbəylinin ev-muzeyinin kiçik elmi işçisi

Lənkəran qəzasının şuşalı general-qubernatoru

Onun Tuğda şölələnən ömür günəşini uzaq Kareliyada söndürdülər

XX əsrin ikinci onilliyində tarixi meydana qədəm qoyan Azərbaycan Demokratik Respublikası (ADR) cəmi 23 ay yaşasa da, öz dövrü üçün mütərəqqi əhəmiyyətli qanunlar qəbul edib. Haqqında danışmaq istədiyimiz Cavad bəy Məlik-Yeqanov 28 may 1918-ci ildə ADR-ın yaradılması haqqında tarixi bəyannaməni imzalayan dövlət xadimlərimizdən biridir.



Cavad bəy Rza bəy oğlu Məlik-Yeqanov 1878-ci ildə Şuşa mahalındakı Tuğ kəndində dünyaya göz açıb. İlk ibtidai təhsilini həmin dövrün görkəmli maarifçilərindən və Füzuli poeziyasının davamçılarından sayılan şair Mir Mehdi Xəzainin ev məktəbində alan Cavad bəy 1903-cü ildə Bakıya gəlib neft mədənlərində əmək fəaliyyətinə başlayır. O, gündəlik işdən savayı ölkədə baş verən ictimai-siyasi proseslərlə də maraqlanır və "Hümmət" təşkilatının sıralarına daxil olur. Cavad bəy tez-tez öz dostları, iş yoldaşları ilə birlikdə fəhlə mitinqlərində iştirak edir, zəhmətkeşlərin hüquqlarının müdafiəsi üçün əlindən gələni əsirgəmir. C.Məlik-Yeqanovun neftçilər arasında qısa müddətdə nüfuz qazanması çar məmurlarının nəzərindən qaçmır. 1909-cu ildə Bakının general-qubernatoru R.Martınovun əmri ilə ona bir il müddətinə həbs cəzası kəsilir. Həbsxanadan çıxdıqdan sonra Cavad bəy doğma Tuğ kəndinə qayıdaraq müxtəlif janrlı bədii və ictimai-siyasi ədəbiyyatın mütaliəsi ilə məşğul olur, həmçinin Şuşanın, Qaryaginin (indiki Füzuli rayonu), Gəncənin, Ağdamın və digər qonşu ərazilərin açıqfikirli, maarifpərvər şəxsləri ilə dostluq əlaqələri saxlayır.

Cavad bəy Tuğda yaşadığı müddətdə Baxşəli bəy Məlik-Aslanovun qızı Rəna xanımla ailə həyatı qurur. Bu izdivacdan onların Ənvər adlı oğlu, Tamara adında qızı dünyaya gəlir. Lakin tale Cavad bəydən bir müddət "üz çevirir". O ikiyaşlı oğlu Ənvəri, sonra isə gənc həyat yoldaşı Rəna xanımı itirir. Bu ayrılığa dözə bilməyən Cavad bəy yeganə qızını anası Mina xanımın yanında qoyaraq 1914-cü ildə yenidən Bakıya dönür və milyonçu Şibayevin mədənlərində tabelçi vəzifəsində işləməyə başlayır.

Həmin ildən o, Müsavat Partiyasının üzvü kimi mütəmadi olaraq bu siyasi təşkilatın tədbirlərində fəal iştirak edir və tezliklə məzmunlu, odlu-alovlu çıxışlar söyləyən natiqə çevrilir.

1917-ci il dekabrın 26-dan 31-dək Bakıda keçirilən Müsavat Partiyasının qurultayında iştirak edən Cavad bəy iki həftədən sonra Zaqafqaziya komissarlığının müsəlman fraksiyasının tərkibinə seçilir.

26 may 1918-ci ildə C.Məlik-Yeqanov Azərbaycan Milli Şurasının tərkibində yer alır. İki gün sonra isə o, Həsən bəy Ağayev, Fətəli xan Xoyski, Nəsib bəy Yusifbəyli, Rəhim bəy Vəkilov, Xəlil bəy Xasməmmədov, Şəfi bəy Rüstəmbəyov, Musa bəy Rəfiyevlə birlikdə Azərbaycan Demokratik Respublikasının yaradılması haqqında İstiqlal Bəyannaməsinnə imza atır.

C.Məlik-Yeqanov Azərbaycan parlamentinin üzvü kimi onun iclaslarında fəal iştirak edir. Bir müddət sonra isə o, Zaqafqaziya Seymində Azərbaycanı ləyaqətlə təmsil edir.

1919-cu ildə gənc demokratik respublikanın cənub regionunda həyəcanlı vəziyyət yaranır. Yayda polkovnik İlyaşeviçin komandanlığı ilə Lənkəranda hakimiyyəti ələ keçirən Denikinin quldur dəstələri bu bölgəni Rusiyanın tabeliyinə keçirməyə cəhd göstərirdilər. Belə vəziyyət ADR-in rəhbərliyini narahat etməyə bilməzdi. Respublika parlamentinin fövqəladə iclasında səs çoxluğu ilə Cavad bəy Məlik-Yeqanov Lənkəran mahalının səlahiyyətli nümayəndəsi seçilir. Milli hökumətin göstərişi və şəxsən Cavad bəyin təklifi ilə Azərbaycan Ordusunun dəstələri general-mayor Həbibulla Səlimovun komandanlığı altında Lənkərana göndərilir.

Milli Ordu qoşunlarının şücaəti sayəsində qondarma "Muğan radası"nın və Denikinin tör-töküntülərinin məhv edilməsindən sonra Cavad bəy Məlik-Yeqanov Lənkəran qəzasının general-qubernatoru təyin olunur. ADR-in proqramını Lənkəranda həyata keçirən Cavad bəy bütün güc-qüvvəsini bu diyarın iqtisadi-mədəni inkişafına sərf edir.

Cavad bəy 28 aprel 1920-ci ilədək - Azərbaycan Demokratik Respublikasının süqutuna kimi Lənkəran qəzasının general-qubernatoru vəzifəsində çalışır. XI Qızıl Ordu Bakını, daha sonra Lənkəranı ələ keçirəndən sonra o, həyatının təhlükədə olmasına baxmayaraq, Vətəni tərk etmək niyyətinə düşmür. Bir müddət o, əmək birjasında, neft təchizatı idarəsində, Bakı Sənaye Texnikumunda işləyir. Hansı sahədə çalışmasından asılı olmayaraq, Cavad bəy Məlik-Yeqanov özünü Vətənin layiqli övladı kimi göstərə bilir. Amma buna baxmayaraq o, qeyri-qanuni yollarla altı dəfə cinayət məsuliyyətinə cəlb olunur. 1933-cü ildə isə Cavad bəy Azərbaycan Fövqəladə Komissiyasının qərarı ilə yenidən həbs cəzasına məhkum edilir və ömürlük Kominin düşərgələrinə sürgünə göndərilir. Onu da qeyd edək ki, C.Məlik-Yeqanovun "vətən xaini" kimi tutulması haqqında orderi erməni millətçiləri Nersesov və Ayvazov imzalayıblar.

Respublika rəhbərliyinin qara fikirli bəzi məmurları üçün elə bil bunlar bəs etmirdi. 1937-ci ildə onlar Cavad bəyin həyat yoldaşı Məryəm xanım Bayraməlibəyovanı, daha sonra digər qohumlarını həbsxanaya salırlar. Onu da bildirək ki, Məryəm xanım Bayraməlibəyova görkəmli Azərbaycan maarifçisi Teymur bəy Bayraməlibəyovun doğma qızı və davamçısıdır. Lənkəran şəhərində qızlar üçün ilk məktəbin və xeyriyyə cəmiyyətinin yaradılması məhz bu cəfakeş qadının adı ilə bağlıdır.

Repressiya Məlik-Yeqanovlar ailəsinin bütün üzvlərini bir-birindən ayrı salıb. Cavad bəyin üç qızı - Azərə, Taliyə və Asimə nənələri Şirin xanımın himayəsində qalıb. Məlik-Yeqanovlar ailəsinin bir çox üzvləri "vətən xaini" damğasından qorxaraq ata-baba soyadlarını Yeqanlı, Yeqanov, Rzayev, Zeynalov, Behbudov və sairə ilə əvəz etməyə məcbur olublar.

Ömrünün çox hissəsini həbsxanalarda keçirən Cavad bəy Məlik-Yeqanov 1942-ci il mayın 18-də Kareliyada sürgündə vəfat edib. Ona yalnız ölümündən sonra - 1959-cu ilin fevralında Kareliya MSSR Ali Məhkəməsi tərəfindən bəraət verilib. Cavad bəyin ömür-gün yoldaşı Məryəm xanım isə 1956-cı ildə bəraət alıb və 1987-ci ildə 89 yaşında dünyasını dəyişib.

C.Məlik-Yeqanovun hər üç övladı ali təhsil alıb. Tanınmış həkim olmuş böyük qızı Azərə tibb elmləri namizədi alimlik dərəcəsinə layiq görülüb.

Cavad bəy Məlik-Yeqanov bütün ömrü boyu xalqına, Vətəninə sadiq olub. Onun sürgündən həyat yoldaşı Məryəm xanıma göndərdiyi məktubdan aşağıdakı sətirlər dediklərimizə əyani sübutdur: "...Axı sən yaxşı bilirsən ki, Vətənimi necə sevirəm! Mənim Azərbaycanım, mənim xalqım mənə çox əzizdir. Onlar üçün hətta həyatımdan keçməyə belə hazıram!.."

Ondan bu həyatı aldılar!

Sonda qeyd edək ki, məhz Azərbaycan Demokratik Respublikasının şərəfli tarixi üzərindəki yasaq götürüldükdən sonra bir sıra ictimai və siyasi xadimlər özlərinin layiqli qiymətlərini ala bildilər.

Ağaddin BABAYEV,
Lənkəran

Mərkəzi icra hakimiyyəti orqanlarının və digər idarəetmə qurumlarının rəhbərləri tərəfindən 2024-cü ilin iyun ayında şəhər və rayonlarda keçiriləcək vətəndaşların qəbulu cədvəli

S/n	Qəbulu keçirən mərkəzi icra hakimiyyəti orqanı və idarəetmə qurumunun rəhbəri	Qəbulun keçirildiyi şəhər, rayon	Əhatə olunan şəhər və rayonlar	Qəbulun keçirildiyi gün
1.	**Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri** Ramin Məmmədov	**Göyçay**	Göyçay, Ucar, Kürdəmir, Zərdab	**05**
2.	**Baş prokuror** Kamran Əliyev	**Ağsu**	Ağsu, Şamaxı, Qobustan	**07**
3.	**Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri** Bahar Muradova	**Oğuz**	Oğuz, Qəbələ	**07**
4.	**Gənclər və idman naziri** Fərid Qayıbov	**Astara**	Astara, Lənkəran, Lerik	**10**
5.	**Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri** Rövşən Rzayev	**Masallı**	Masallı, Lənkəran, Astara	**10**
6.	**Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri** Anar Quliyev	**Ağsu**	Ağsu, İsmayıllı, Şamaxı, Qobustan	**11**
7.	**"Azəriqaz" İstehsalat Birliyinin baş direktoru** Azər Məmmədov	**Şamaxı**	Şamaxı, Qobustan	**13**
8.	**Mədəniyyət naziri** Adil Kərimli	**Samux**	Samux, Gəncə, Naftalan, Goranboy, Göygöl, Daşkəsən	**14**
9.	**Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi** Mürsəl İbrahimov	**İsmayıllı**	İsmayıllı, Ağsu, Şamaxı, Qobustan	**14**
10.	**Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri** Zaur Mikayılov	**Salyan**	Salyan, Neftçala	**14**
11.	**Elm və təhsil naziri** Emin Əmrullayev	**Naxçıvan**	Naxçıvan, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz, Şərur	**21**
12.	**Ədliyyə naziri** Fərid Əhmədov	**Zaqatala**	Zaqatala, Şəki, Qax, Balakən	**21**
13.	**Əmək və əhalinin sosial müdafiəsi naziri** Sahil Babayev	**Xızı**	Xızı, Siyəzən	**21**
14.	**İqtisadiyyat naziri** Mikayıl Cabbarov	**Tovuz**	Tovuz, Qazax, Ağstafa	**21**
15.	**Kənd təsərrüfatı naziri** Məcnun Məmmədov	**Astara**	Astara, Lənkəran, Lerik	**21**
16.	**Dövlət Gömrük Komitəsinin sədri** Şahin Bağırov	**Xaçmaz**	Xaçmaz, Quba, Qusar, Şabran	**21**
17.	**Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin sədri** Saleh Məmmədov	**Qax**	Qax, Zaqatala, Balakən	**21**
18.	**İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin sədri** Zaur Əliyev	**Goranboy**	Goranboy, Naftalan	**21**
19.	**Daxili işlər naziri** Vilayət Eyvazov	**Oğuz**	Oğuz, Şəki, Qax, Zaqatala, Balakən, Qəbələ	**25**
20.	**Rəqəmsal inkişaf və nəqliyyat naziri** Rəşad Nəbiyev	**Siyəzən**	Siyəzən, Şabran, Xızı	**25**
21.	**Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri** Ramin Məmmədov	**Sabirabad**	Sabirabad, Saatlı, İmişli, Beyləqan, Xocavənd	**25**
22.	**Qida Təhlükəsizliyi Agentliyinin sədri** Qoşqar Təhməzli	**Göyçay**	Göyçay, Mingəçevir, Yevlax, Ağdaş	**27**
23.	**Baş prokuror** Kamran Əliyev	**Qazax**	Qazax, Ağstafa, Tovuz, Şəmkir, Gədəbəy	**28**
24.	**Energetika naziri** Pərviz Şahbazov	**Qax**	Qax, Şəki, Oğuz, Qəbələ, Zaqatala, Balakən	**28**
25.	**Fövqəladə hallar naziri** Kəmaləddin Heydərov	**Xaçmaz**	Xaçmaz, Şabran	**28**
26.	**"Azərişıq" ASC-nin sədri** Vüqar Əhmədov	**Ağcabədi**	Ağcabədi, Zərdab	**28**
27.	**"Azəristiliktəchizat" ASC-nin sədrinin vəzifəsini müvəqqəti icra edən** İlham Mirzəliyev	**Zaqatala**	Zaqatala, Şəki, Oğuz, Qax, Balakən	**28**

Vətəndaşların qəbulu müəyyən edilmiş günlərdə saat 10:00-da başlayır.

Milli Kitabxanada 28 May - Müstəqillik Günü ilə bağlı tədbir keçirilib

Milli Kitabxanada Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 106-cı ildönümü ilə əlaqədar tədbir keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən kitabxananın direktoru, professor Kərim Tahirov 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin Milli Şurası İstiqlal Bəyannaməsini imzalamaqla Azərbaycanın müstəqilliyini dünyaya bəyan etdiyini bildirib.

"Məhəmməd Əmin Rəsulzadənin əsasını qoyduğu Azərbaycan Xalq Cümhuriyyəti türk və islam dünyasında ilk parlamentli respublika və demokratik, hüquqi və dünyəvi dövlət nümunəsi idi. Cəmi 23 ay mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyəti müsəlman Şərqində demokratiya ənənələrinin formalaşmasına əhəmiyyətli təsir göstərib. Azərbaycan xalqı 1991-ci ildə öz dövlət müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan Xalq Cümhuriyyətinin ideallarını davam etdirərək bu tarixi varislik üzərində yeni müstəqil Azərbaycan dövlətini yaradıb. Bu gün Azərbaycanın dövlət müstəqilliyi haqqında Konstitusiya aktından danışarkən mütləq vurğulamaq lazımdır ki, həmin müstəqillik aktı Azərbaycanın 1918-ci ildə mövcud olmuş Xalq Cümhuriyyətinin bərpasıdır. Biz onların varisiyik, onların işinin davamçılarıyıq - ancaq yeni şəraitdə, yeni bir tarixi zamanda".

Kərim Tahirov vurğulayıb ki, Ümummilli Lider Heydər Əliyevin siyasi irsinin davamçısı, Prezident İlham Əliyev öz fəaliyyəti ilə Azərbaycanın müstəqillik dayaqlarını daha da möhkəmləndirib. Bu gün artıq ərazi bütövlüyümüz və suverenliyimiz bərpa olunub. Üçrəngli bayrağımız dövlətimizin gücünün və xalqımızın milli birliyinin nişanəsi kimi bütöv Azərbaycanda, dünyanın ən nüfuzlu beynəlxalq təşkilatlarında, mötəbər mərasimlərdə, ən yüksək zirvələrdə dalğalanır.

Tədbir çərçivəsində əlamətdar günlə bağlı eyniadlı virtual və ənənəvi kitab sərgisi də istifadəçilərə təqdim olunub.

Virtual sərgidə fotolar, mövzu ilə əlaqəli kitablar və dövri mətbuat səhifələrində dərc olunan məqalələr tam mətnləri ilə yer alıb.

Virtual sərgi ilə http://anl.az/el/vsb/Cumhuriyyet/index.html link vasitəsilə tanış olmaq mümkündür.

Ənənəvi sərgidə Azərbaycan Xalq Cümhuriyyətinin tarixi və fəaliyyəti, qurucuları, dövlət rəmzləri, müstəqilliyimizin bərpası, müstəqil, azad və bütöv Azərbaycan dövlətinin tarixi haqqında müxtəlif dillərdə ədəbiyyatlar nümayış edilib.

"Cənub qaz dəhlizi"nin açılışından 6 il keçir

İxracın şaxələndirilməsi zamanın tələbidir

"Cənub qaz dəhlizi"nin təməli 2014-cü il sentyabrın 20-də - "Əsrin müqaviləsi"nin 20 ili tamam olan gün Bakı yaxınlığındakı Səngəçal terminalında qoyulub. Dəhlizin açılış mərasimi də elə həmin məkanda 2018-ci il mayın 29-da keçirilib.

Belə qlobal bir layihənin qısa müddətdə - 4 ildə araya-ərsəyə gəlməsi böyük uğur idi. Çünki "Cənub qaz dəhlizi" Azərbaycan qazının Avropa qitəsinə nəqlini həyata keçirən nəhəng bir layihədir. Bu dəhliz dörd mühüm seqmentdən ibarətdir və bunların reallaşması "Şahdəniz" yatağının ikinci mərhələsinin işlənməsini, CQBK-nin (Cənubi Qafqaz Boru Kəməri) genişləndirilməsini, TANAP-ın (Trans-Anadolu Qaz Boru Kəməri) və TAP-ın (Trans-Adriatik Qaz Boru Kəməri) çəkilişini əhatə edirdi. İki ilk seqmentin - "Şahdəniz-2"dən qazın əldə olunması və CQBK-nin genişləndirilməsinin başa çatdırılması layihənin rəsmi açılışını etməyə imkan verdi.

"Cənub qaz dəhlizi"nin tikilib işə düşməsi Azərbaycanın bundan əvvəl həyata keçirdiyi qlobal neft-qaz və ixrac layihələrinin təcrübəsinə əsaslanırdı. Bundan əvvəl Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri də təxminən 4 ilə çəkilmişdi. Sonra bu kəmərlə yanaşı, "Şahdəniz-1" qazını Azərbaycanın 13 rayonundan keçməklə Gürcüstana və Türkiyəyə çatdıran Bakı-Tbilisi-Ərzurum boru xətti inşa edilmişdi. Əslində, Bakı-Tbilisi-Ərzurum kəməri "Cənub qaz dəhlizi"nin bünövrəsi, başlanğıcı rolunu oynamışdı.

"Cənub qaz dəhlizi"nin uzunluğu 3500 kilometrdir. Dəhliz boyu bir-birinə möhkəm "halqa" ilə bağlanan üç kəmər böyük ehtiyatlara malik "Şahdəniz" yatağından hasil olunan qazın Avropa bazarına ötürülməsini təmin edir. Avropanın enerji xəritəsini dəyişdirən nəhəng layihə 2020-ci ilin son günündə TAP-ın istismara daxil olması ilə tam sona çatdı. "Cənub qaz dəhlizi"nin "onurğa sütunu" adlandırılan TANAP-ın açılışı isə 2018-ci il iyunun 12-də olmuşdu.

Zaman indi bu kəmərlərin genişləndirilməsi məsələsini gündəmə gətirirb. Məlumdur ki, Azərbaycan qazına tələbat getdikcə artır. Bu gün Azərbaycan 8 ölkəyə - Gürcüstana, Türkiyəyə, Yunanıstana, Bolqarıstana, İtaliyaya, Rumıniyaya, Macarıstana və Serbiyaya qaz ixrac edir. Ölkəmizdən qaz idxal etmək istəyən daha neçə-neçə ölkədən müraciətlər alınır.

Yeni çağırışlar qarşısında qaza tələbatın artması və bu ehtiyacın ödənilməsi isə kompleks tədbirlərin görülməsini, o cümlədən ixrac infrastrukturunun şaxələndirilməsini zərurətə çevirir. 2022-ci il oktyabrın 1-də Bolqarıstanın paytaxtı Sofiya şəhərində Yunanıstan-Bolqarıstan Qaz İnterkonnektorunun istifadəyə verilməsi də bu tələbatın ödənilməsi məqsədindən irəli gəlmişdir. Keçən il dekabrın 10-da isə Serbiyanın Niş şəhərində Serbiya-Bolqarıstan Qaz İnterkonnektorunun açılış mərasimi keçirilmişdir. Azərbaycan qazının Balkan ölkələrinə nəql olunması üçün İon-Adriatik qaz kəmərinin də tikintisi nəzərdə tutulub. Bu, TAP-ın davamı olacaq, Albaniyadan keçərək Azərbaycan qazını Xorvatiya, Monteneqro, Bosniya və Herseqovinaya çatdıracaq.

2023-cü il aprelin 25-də Sofiyada "Bulgartransgaz" (Bolqarıstan), "Transgaz" (Rumıniya), FGSZ (Macarıstan) və "Eustream" (Slovakiya) və Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti (SOCAR) arasında əməkdaşlığın təşviqi ilə bağlı Anlaşma Memorandumu" imzalanmışdır. Anlaşma memorandumu Azərbaycandan Avropaya əlavə qazın tədarükü üçün bu 4 ötürücü sistem operatoru ilə SOCAR arasında əməkdaşlığın istiqamətlərini müəyyən edir. Əlavə qaz tədarükü "Həmrəylik halqası" adlandırılan Bolqarıstan, Rumıniya, Macarıstan və Slovakiyanın təkmilləşdirilmiş ötürücü şəbəkə sistemləri vasitəsilə həyata keçiriləcək.

Azərbaycan dünyada artıq etibarlı tərəfdaş kimi hörmət və nüfuz qazanıb. Prezident İlham Əliyev bu il aprelin 26-da Almaniyanın paytaxtı Berlində keçirilən "15-ci Petersberq İqlim Dialoqu"nun Yüksək Səviyyəli Seqmentində çıxış edərkən həmin məsələyə də toxunub: "Neft və qazımız, həmçinin Avropa bazarlarına hələ uzun illər ərzində lazım olacaq. 2022-ci ildə Avropa İttifaqı və Azərbaycan arasında enerji sahəsində Strateji Tərəfdaşlıq haqqında Anlaşma Memorandumu imzalanıb və bizim Avropa İttifaqına təbii qaz təchizatımız artmaqdadır. Bu, Avropa Komissiyasının xahişi idi. Biz buna müsbət cavab verdik. Hazırda təbii qaz ixracımızın yarısı, xüsusən də 12 milyard kubmetri Avropa İttifaqının bazarına gedir. Qeyd edilən memoranduma əsasən, 2027-ci ilə qədər Avropa İttifaqına ixracımız 20 milyard kubmetrə çatmalıdır. Hamımız anlayırıq ki, bu geosiyasi durumda həmin məsələ Azərbaycanın məsuliyyətli olmağının təzahürüdür, çünki biz qaz hasilatımızın artırılmasına böyük həcmdə sərmayə yatırırıq və Avropaya yeni mənbələrdən daha çox qaz lazımdır. Eyni zamanda "yaşıl gündəliyimiz" hələ COP29 qərarından əvvəl icra olunmağa başlanıb... 2027-ci ilin sonuna qədər ümid edirik və əslində, müqavilələr imzalandığına görə əminik ki, 2000 meqavat Günəş və "yaşıl enerji" imkanlarımız olacaq. Doqquz elektrik enerjisi stansiyası olacaq və 2030-cu ilə qədər əlavə 10 günəş və külək-enerjisi stansiyaları qurulacaq ki, onların gücü 5000 meqavat (5 qiqavat) təşkil edəcək. Bu potensialdan istifadə edərək, biz qaz istehlakımızı əksər hissədə elektrik enerjisi istehsalı ilə əvəzləyəcəyik. Həcmlərə gəldikdə isə düşünürəm ki, Avropaya ən azı əlavə 5 milyard kubmetr qaz ixrac olunacaq".

İxracın artırılması üçün ən vacib şərtlərdən biri hasilatın artırılmasıdır ki, ölkəmizin ehtiyatları buna da imkan verir. Hazırda "Cənub qaz dəhlizi"nin əsas bazası "Şahdəniz" olsa da, işlənən bir sıra digər yataqların da gələcəkdə ona qoşulacağı istisna deyil.

Flora SADIQLI,
"Azərbaycan"

GCM GLOBAL ENERGY AZERBAIJAN

"Global Energy Azerbaijan"
şirkəti və onun törəmə şirkətləri

Azərbaycan xalqını

"Absheron Operating Company"
"Binagadi Oil Company"
"Karasu Operating Company"
"Shirvan Operating Company"
"Neftechala Operating Company"

Müstəqillik Günü

münasibətilə təbrik edir,
hər bir ailəyə sevinc,
səadət dolu günlər
arzulayır

106 yaşlı müstəqillik

Azərbaycan ilk dəfə bu milli bayramı suverenliyini tam təmin etmiş ölkə kimi qeyd edir

Əvvəli 1-ci səh.

Bu dövrdə xalqımızın sosial-iqtisadi və mədəni həyatının bütün sahələrində baş verən yüksəliş, sürətli inkişaf milli dövlətçilik ideallarının bərpası və gələcək müstəqillik baxımından əhəmiyyəti misilsiz idi. Elə üçrəngli bayrağımızın da Heydər Əliyevin təşəbbüsü ilə hələ sovet hakimiyyətinin mövcud olduğu 1990-cı ilin noyabrında Naxçıvan MR-in dövlət bayrağı olması barədə qərarın qəbul edilməsi Ulu Öndərin müstəqillik ideallarına nə qədər bağlı olduğunu göstərirdi.

1991-ci il 18 oktyabr dövlət müstəqilliyinin elan olunması Azərbaycanın yeni intibahının bünövrəsi idi. Xalqımız cümhuriyyətin dövlətçilik ənənələrini davam etdirərək bu tarixi varislik üzərində öz dövlətini yaratdı. O dövrü şərh edən Ulu Öndər Heydər Əliyev bu tarixi prosesi belə qiymətləndirib: "Əsrin sonunda öz müstəqilliyini bərpa edən Azərbaycan Respublikası Xalq Cümhuriyyətinin varisi olaraq Üzeyir Hacıbəyovun və Əhməd Cavadın yaratdıqları Dövlət himnini, Xalq Cümhuriyyətinin üçrəngli bayrağını və gerbini bərpa elədi. Bu dövlətçilik atributları bu gün də hər bir Azərbaycan vətəndaşı üçün olduqca əzizdir… Bu dövlət, bu quruluş 1918-ci ildə yaranmış ilk xalq cümhuriyyətinin varisidir".

Fəqət, müstəqilliyin ilk illərində hakimiyyətdə olan qüvvələrin səriştəsizliyi az qala bu müstəqilliyin də əldən getməsinə gətirib çıxaracaqdı. Yalnız yenidən hakimiyyətə qayıdan Ulu Öndərin sayəsində müstəqilliyimizi qorumaq mümkün oldu. Heydər Əliyev ölkəni gözləyən bütün təhlükələri dəf etməklə Azərbaycanın müstəqilliyinin möhkəm təməlini qoydu, xalqımızın azadlıq intibahının banisi oldu.

Heydər Əliyev xalqımıza əbədi müstəqillik bəxş etdi. Onun siyasi məktəbinin ən layiqli məzunu Prezident İlham Əliyev isə tam müstəqil, qətiyyətli, prinsipial siyasəti ilə müstəqilliyimizi daha da möhkəmləndirdi, sarsılmaz etdi. Azərbaycanın regionun lider dövlətinə çevrilməsi, dünya birliyində söz sahibi kimi qəbul olunması məhz müstəqilliyimizin və müstəqil siyasətin bəhrəsidir.

Azərbaycanın bu gün əldə etdiyi möhtəşəm Zəfərin, suverenlik və ərazi bütövlüyünün tam təmin edilməsi uğurlarının fonunda müstəqilliyimizin möhkəm olması daha aydın görünür. Bu qüdrətin göstəriciləri Azərbaycanın kosmik klubun üzvünə çevrilməsi, BMT Təhlükəsizlik Şurasına, Qoşulmama Hərəkatına sədrlik etməsi, beynəlxalq enerji təhlükəsizliyi və digər qlobal məsələlərdə öz sözünü deməsi və sairə bu kimi digər məsələlərdir. Bütün bunlar həm də Azərbaycanın inamla addımladığı yoldan xəbər verir. Bu yol müstəqil Azərbaycan dövlətinin daha da qüdrətlənməsinə, xalqımızın daha yüksək rifahına aparır.

Prezident İlham Əliyevin ötən 21 illik fəaliyyətində diqqəti çəkən məqamlardan biri də dövlətçilik tariximizin öyrənilməsi, araşdırılması və gələcək nəsillərə çatdırılmasıdır. Bu sırada Azərbaycan Xalq Cümhuriyyəti ilə bağlı görülən işlər xüsusi qeyd edilməlidir.

Prezident İlham Əliyev tərəfindən 2018-ci ilin ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti ili" elan edilməsi Azərbaycanın dövlətçilik tarixində çox mühüm və şərəfli bir mərhələ olan Şərqdə ilk parlamentli respublikanın əhəmiyyətinin hər zaman uca tutulduğunun, eləcə də dövlətçilik ənənələrinə böyük dəyər verildiyinin sübutudur. Azərbaycan Respublikasının 2018-ci il 1 may tarixli qanunu ilə "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)" yubiley medalı" təsis olunub.

2021-ci il 15 oktyabr tarixdə "Müstəqillik günü haqqında" Azərbaycan Respublikasının qanunu qəbul olunub. Sözügedən qanunla 28 May Müstəqillik Günü, oktyabrın 18-i isə Müstəqilliyin Bərpası Günü elan edilib. 28 may tarixinin Müstəqillik Günü, 18 oktyabr tarixinin isə Müstəqilliyin Bərpası Günü kimi təsbit olunması Azərbaycanın dövlət suverenliyinin məhz 1918-ci ildə bərqərar olunması faktına əsaslanır. Bu, ərazi bütövlüyünü bərpa etmiş müasir Azərbaycanın 1918-ci ildə qurulmuş Azərbaycan Xalq Cümhuriyyətinin tamhüquqlu varisi olduğunu göstərir.

Bir sözlə, ötən illər ərzində atılmış hər bir addım və qəbul olunmuş hər bir qərar doğma Azərbaycan torpaqlarının işğaldan azad olunmasına xidmət edib. Prezident İlham Əliyevin Müzəffər Ali Baş Komandan kimi gərgin əməyinin nəticəsində Azərbaycan ərazi bütövlüyünə qovuşdu, xalqımız dünyada mübariz, döyüşkən və müzəffər xalq kimi tanındı. Bütün istiqamətlərdə qazanılan uğurların, əldə edilən nailiyyətlərin bir hədəfi var idi - işğal altında olan torpaqlarımızın düşməndən azad edilməsi və Azərbaycanın bütün sərhədləri boyunca bayrağımızın dalğalanması...

Bu gün tarixinin ən qüdrətli Azərbaycanı Müstəqillik Gününü ilk dəfə suverenliyini tam təmin etmiş ölkə kimi qeyd edir. İlham Əliyev elə bir Azərbaycan yaradıb ki, regiondakı yeni reallıqlarla hər kəs hesablaşır. Müstəqil siyasət yürüdən Azərbaycan artıq regionda deyil, beynəlxalq miqyasda söz sahibi olan ölkə və strateji tərəfdaş kimi tanınır. İlham Əliyevin dövlətimizin milli maraqlarını bütün sahələrdə inamla təmin etməsi Azərbaycanın müstəqilliyinin daha da möhkəmlənməsinə, əbədi və sarsılmaz dövlətçiliyimizin daha da qüdrətlənməsinə xidmət edir. Bu gün müstəqil Azərbaycanın üçrəngli bayrağı bütün ərazimizdə dalğalanır. Bu azadlığı və hürriyyəti heç bir qüvvə xalqımızdan ala bilməz...

Rəşad BAXŞƏLİYEV,
"Azərbaycan"

Yüksək dəyərin təcəssümü

Bütün qitələrdən göndərilən məktublar Azərbaycan Prezidentinə olan hörmət və ehtiramın ifadəsidir

"İlk dəfədir ki, Müstəqillik Gününü ərazi bütövlüyümüzün və suverenliyimizin tam və qəti şəkildə təmin edildiyi reallıqda qeyd edirik. Bundan qürur duyur, fəxarət hissi keçiririk. Təsadüfi deyil ki, bütün qitələrdən dövlət və hökumət başçıları Prezident İlham Əliyevə təbrik məktubları göndərirlər".

Bu sözləri qəzetimizə açıqlamasında Milli Məclisin deputatı Elman Nəsirov deyib. Deputat bildirib ki, ABŞ Prezidenti Cozef Bayden təbrik məktubunda Azərbaycanın enerji təhlükəsizliyi, regional təhlükəsizlik və terrorizmə verdiyi töhfəni yüksək qiymətləndirdiyini bildirib. Eyni zamanda o, Azərbaycanın iqlim dəyişiklikləri və "yaşıl enerji"yə keçid sahəsində qazandığı uğurlara toxunaraq, bu siyasəti dəstəklədiyini qeyd edib.

Eyni mövqeyi digər böyük dövlətlərin rəhbərlərindən də eşidirik. Çin rəhbərinin, Rusiya Prezidenti Vladimir Putinin məktublarında da Prezident İlham Əliyevin rəhbərliyi altında qazandığı tarixi uğurlar, zəfərdən bəhs olunub, Azərbaycanla əməkdaşlığın inkişafında maraqlı olduqlarını vurğulayıblar. "Türkiyə Prezidenti cənab Rəcəb Tayyib Ərdoğan Azərbaycan-Türkiyə qardaşlığının dünya üçün nümunə olduğunu bildirib, dostluğumuzun və qardaşlığımızın sarsılmazlığından bəhs edib. O, Azərbaycanın qazandığı tarixi uğurlardan məmnunluğunu ifadə edib. Amma bu reallıqlar fonunda Fransa prezidenti susur. Bu, əslində, diplomatik qaydaların pozulmasıdır", - deyə o əlavə edib.

E.Nəsirov qeyd edib ki, Makron beynəlxalq hüququ o qədər tapdalayıb ki, onun üçün diplomatik qaydaları pozmaq artıq adi bir davranışa çevrilib. Dənizaşırı ölkələrdə müstəmləkəçiliyə qarşı etirazları qan içində boğan bir liderdən başqa bir yanaşma gözləməyin də mənası yoxdur. Hətta o, Azərbaycan Prezidentini təbrik etsə belə, səmimiliyinə inanmaq olmaz. Çünki təpədən dırnağa qədər erməni maraqlarına və mənafeyinə xidmət edən bir şəxs heç bir halda səmimi ola bilməz.

Deputat vurğulayıb ki, dünyanın aparıcı dövlətlərinin liderləri tərəfindən və bütün qitələrdən Azərbaycanın dövlət başçısına göndərilən məktublar ölkəmizin rəhbərinə olan hörməti, diqqəti ifadə edir. Bütün bunlar Azərbaycan dövlətinə olan xoş münasibətin göstəricisidir.

Əsmər QARDAŞXANOVA,
"Azərbaycan"

Azərbaycan və Serbiyanın hərbi-mülki əməkdaşlıq üzrə ekspertlərinin görüşü keçirilib

Mayın 27-də Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində Azərbaycan və Serbiya Müdafiə nazirliklərinin hərbi-mülki əməkdaşlıq (CIMIC) üzrə ekspertlərinin görüşü keçirilib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, qonaqlara Azərbaycan Ordusunda hərbi-mülki əməkdaşlıq istiqamətində həyata keçirilən tədbirlər, həmçinin bu sahədə qazanılan beynəlxalq təcrübə barədə ətraflı məlumat verilib.

Serbiyalı nümayəndələr öz növbələrində CIMIC proqramının əhəmiyyətini qeyd edib və bu istiqamətdə görülən işlərdən danışıblar.

Görüşdə təqdim olunan brifinqlər ətrafında müzakirələr aparılıb və qarşılıqlı maraq doğuran suallar cavablandırılıb.

"Bakı Abadlıq Xidməti" MMC
Azərbaycan xalqını

28 May - Müstəqillik Günü
münasibətilə təbrik edir,
yüksək tərəqqi və xoş günlər arzulayır

Fransanın qəddar, amansız müstəmləkə tarixi

Yeni Kaledoniya iğtişaşları Emmanuel Makronun prezidentliyinin ən ağır böhranlarından biridir

Böyük Britaniyanın "The Sunday Times" qəzetində "Yeni Kaledoniya iğtişaşlarının arxasındakı qəddar, amansız müstəmləkə tarixi" başlıqlı məqalədə Fransanın müstəmləkəçilik tarixinə diqqət çəkilib. Yeni Kaledoniyada baş verənlərin dövlət başçısı Emmanuel Makronun prezidentliyi dövründə ən ciddi böhranlardan biri olduğu qeyd edilib.

Məqalədə bildirilir ki, 1998-ci ildə futbol üzrə dünya kubokunu qazanmış Fransa milli komandasının üzvü Kristian Karambö oyunlardan əvvəl ölkənin himni "Marselyeza"nı oxumaqdan imtina edib və bunu vətəni Yeni Kaledoniyada Parisin alçaldıcı müstəmləkəçilik hərəkətləri ilə əlaqələndirib.

1931-ci ildə Fransa öz imperiyasının müxtəlif guşələrini nümayiş etdirmək üçün bir sərgi təşkil edib. Oraya Sakit okeandakı Yeni Kaledoniyadan olan aborigenlər - 100 kanak gətirilib. Onların paltarını çıxarıblar və Parisdə Bulon meşəsindəki zooparkda təhlükəli adamyeyənlər kimi nümayiş etdiriblər. Kanakları çiy ət yeməyə, vəhşisayağı rəqslər etməyə məcbur ediblər və onların arasında futbolçunun ulu babası Villi Karambö də olub.

Yazının müəllifi Metyu Kempbellin fikrincə, Fransanın qəddar müstəmləkəçilik tarixi onun bugünkü siyasətinə güclü təsir göstərir və yeddi nəfərin ölümünə, yüzlərlə etirazçının yaralanmasına səbəb olan Yeni Kaledoniyadakı iğtişaşlar Makronun prezidentliyinin ən pis böhranlarından birinə çevrilib...

Jurnalist Yeni Kaledoniyanın Paris üçün xüsusi önəm daşıdığına diqqət çəkib: "Makron Fransadan 11 000 mil məsafədə yerləşən Cənubi Sakit okean arxipelaqına 24 saatlıq uçuş edib. O, istehkamlardan yayınmaq üçün Numeadakı hava limanından helikopterlə birbaşa polis qərargahına uçub".

Bildirilib ki, Makron Parisə qayıtmazdan öncə Fransaya loyal qüvvələr və müstəqillik tərəfdarları ilə görüşdə sonradan adaya gələn fransalılara səsvermə hüququ qazandıran islahatın ertələnməsinə razılıq verib. Xatırladaq ki, məhz bu dəyişikliyin gündəmə gəlməsi Yeni Kaledoniyada etiraz aksiyalarına və iğtişaşlara yol açıb.

Belə ki, 270 minlik əhalinin 40 faizini təşkil edən və Fransa, Avropa seçkilərində səsvermə hüququna malik olan yerli kanaklar gəlmələrə səsvermə hüququnun verilməsinin ərazinin ilkin sakinlərinin seçki səlahiyyətlərini azaldacağından və onların müstəqillik əldə etmək səylərini çətinləşdirəcəyindən narahatdırlar. Odur ki, gərginlik zəifləmir. Müstəqillik tərəfdarlarından biri olan Dominick Foçinin dediyi kimi, kanaklar heç vaxt müstəqillikdən əl çəkməyəcəklər.

Məlumdur ki, fransızlar Yeni Kaledoniyaya 1853-cü ildə, III Napoleon ərazini imperiyanın bir hissəsi elan etdikdən sonra yiyələniblər, daha sonra adanı cəzaçəkmə koloniyasına çeviriblər. On minlərlə məhbus nikel mədənlərində və plantasiyalarda işləməyə məcbur edilib. Yerli əhali kanaklar isə rezervasiyalara köçürülüb. Ardınca bir sıra üsyanlar baş verib. Üsyançıların rəhbəri, böyük sərkərdə Atainin başı 1878-ci ildə kəsilib və müxtəlif muzeylərdə nümayiş etdirilmək üçün "qənimət" kimi Fransaya aparılıb. Kəllənin ancaq 2014-cü ildə Numeaya qaytarılaraq dəfn edildiyi bildirilir.

1984-cü ildə "Sakit okeanın Çe Gevarası" Eloy Maçoro polis snayperi tərəfindən güllələnərək öldürülüb. "İnqilabçını öldürə bilərsiniz, amma onun ideyalarını məhv edə bilməzsiniz" - bu sözlər insanların hər il onu yad etmək üçün toplaşdığı məzarının başdaşının üzərinə həkk olunub.

Parislə Numea arasındakı qarşıdurmaya son qoyan razılaşma 1998-ci ildə əldə olunub. Razılaşmada 20 illik planda ictimai müzakirə əsasında adanın taleyi həll olunmalı olsa da, müstəqillik qəbul edilməyib. 2021-ci ildə keçirilmiş üçüncü referendum isə müstəqillik tərəfdarları tərəfindən pandemiyadan ölənlərə yas tutduqları səbəbi ilə boykot edilmiş, ancaq səsvermə baş tutmuş və Fransa tərəfdarlarının qələbəsi ilə yekunlaşmışdı.

Bu gün Fransadan ayrılmaq ümidi ilə təkrar səsvermə tələb edən kanaklarla Fransanın tərkibində qalmaq istəyən ağdərili köçkünlər - kaldoşlar arasında həmişəkindən daha dərin parçalanma var.

Metyu Kempbell məşhur futbolçunun əcdadının aqibətinə də toxunub: "O, heyvanxanın digər "eksponatları" ilə birlikdə timsah kolleksiyası müqabilində 1931-ci ildə zooloji bağda oxşar sərgi üçün Almaniyaya göndərilib. Sonda kanaklara vətənlərinə qayıtmasına icazə verilib".

Lifu adasında anadan olan, küçələrdə ayaqyalın futbol oynayaraq böyüyüb "Real Madrid" və "Midlsbro" kimi klubların şərəfini qoruyan və Avropada şöhrət qazanan Kristian Karambö deyir: "Mənim ailəm də bir çox kanak ailələri kimi dəhşətli hadisələr yaşayıb. Mən Fransanın dövlət himnini oxuya bilmirəm, çünki xalqımın tarixini bilirəm".

Son məlumata görə, dünən Bakı vaxtı ilə saat 22:00-da Yeni Kaledoniyada fövqəladə vəziyyət ləğv edilib.

Qeyd edək ki, Yeni Kaledoniyanın bəzi yerlərində vəziyyət gərgin olaraq qalır.

Bölgədəki ölkələr, o cümlədən Yeni Zelandiya və Avstraliya vətəndaşlarının təxliyəsini davam etdirirlər. Hərbi təyyarələr də Fransa vətəndaşlarını adadan təxliyə etməyə başlayıb.

Rizvan CƏFƏROV,
"Azərbaycan"

İlham Əliyevdən gələcək nəsillərə dövlətçilik əmanəti

Xalq Cümhuriyyətinin yadigarı olan bayrağımız bu gün bütün ərazilərimizdə dalğalanır

"Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 106-cı ildönümüdür. 1918-ci il mayın 28-də yeni qurulan Azərbaycan Xalq Cümhuriyyəti milli tariximizin qızıl səhifələrindən biridir. Çünki bu tarix Azərbaycanın öz ərazisinə sahib çıxdığı, dünya dövlətləri sırasına qoşulduğu bir gündür".

Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Kamran Bayramov deyib. Deputat bildirib ki, 1918-ci il mayın 28-də Azərbaycan xalqı özünün və Şərqin ilk demokratik, hüquqi, dünyəvi və parlamentli respublikasını yaradıb. Yeni qurulan cümhuriyyət öz üzərinə götürdüyü çətin tarixi vəzifəni imkanlarının ən son həddində çalışaraq şərəflə yerinə yetirdi. Azərbaycanın ilk parlamenti, hökuməti və dövlət aparatı təşkil edildi, ölkənin sərhədləri müəyyənləşdirildi, bayrağı, himni və gerbi yaradıldı, ana dili dövlət dili elan edildi, dövlət quruculuğu sahəsində ciddi tədbirlər həyata keçirildi. Ölkənin ərazi bütövlüyü və milli təhlükəsizliyi təmin edildi, qısa müddətdə yüksək döyüş qabiliyyətli hərbi hissələr yaradıldı, milli tələblərə və demokratik prinsiplərə uyğun dövlət orqanları quruldu, maarifin və mədəniyyətin inkişafına xüsusi diqqət yetirildi. Məlum səbəblərdən qısa ömür sürən Azərbaycan Xalq Cümhuriyyəti süquta uğrasa da, onun şüurlarda bərqərar etdiyi müstəqillik ideyası unudulmadı.

K.Bayramov qeyd edib ki, Azərbaycan Xalq Cümhuriyyəti demokratik ənənələrə söykənərək, vicdan azadlığının qorunmasına xüsusi önəm verib, azsaylı xalqların nümayəndələrinin 1918-ci ilin dekabrın 7-də açılan parlamentdə yer almalarına şərait yaradıb: "Tarixən müxtəlif mədəni təbəqələrə malik olan ölkədə dövlət-vətəndaş münasibətlərinin sivil modeli yaradılmışdı. Şərqə demokratiyanın ilk işığını gətirən Azərbaycan Xalq Cümhuriyyəti de-fakto və de-yure olaraq iri dövlətlər tərəfindən tanınmış beynəlxalq hüququn subyektinə çevrilmişdi. Müstəqilliyi böyük dövlətlər tərəfindən tanınmış Azərbaycan Xalq Cümhuriyyətinin beynəlxalq münasibətlər sistemində iştirakı Sovet Rusiyasının birbaşa hərbi müdaxiləsi ilə sona çatmışdı. Milli dövlət süqut etsə də, milli dövlətçilik duyğuları qəlblərdən silinməmişdi. Milli yaddaş məhv olmamışdı".

XX yüz ilin sonlarında Azərbaycanın yenidən istiqlala qovuşduğunu, cümhuriyyət ənənələrinə sadiqliyini bəyan etdiyini xatırladan deputat deyib ki, ölkəmiz bu gün dünyanın siyasi və iqtisadi dairələrində diqqət mərkəzində olan müstəqil və regionun lider dövlətidir. Müstəqilliyinə yenidən qovuşan Azərbaycan suverenliyini qoruyub saxlamağı bacardı. Çətin siyasi-iqtisadi dövrdə hakimiyyətə qayıdan Ulu Öndər Heydər Əliyev Azərbaycan dövlətçiliyinin qorunması üçün qətiyyətli tədbirlər gördü, ölkədə davamlı ictimai-siyasi sabitliyi bərqərar etdi. Həmin dövrdə Ermənistanın Azərbaycan torpaqlarına təcavüzü, daxili münaqişələr ölkəmizi çətin vəziyyətə salmışdı. Məhz belə şəraitdə xalqın təkidi ilə hakimiyyətə gələn Ulu Öndər dövlətimizin və dövlətçiliyimizin xilaskarı oldu. Bu gün müstəqil olan Azərbaycan 1918-1920-ci illərdə mövcud olmuş Xalq Cümhuriyyətinin layiqli varisidir. Ümummilli Lider bugünkü Azərbaycan Respublikasını Xalq Cümhuriyyətinin varisi hesab edərək demişdi: "Bu dövlət, bu quruluş 1918-ci ildə yaradılmış Xalq Cümhuriyyətinin varisidir. Bütün dövlət onun varisidir, bütün xalq onun varisidir. Müstəqilliyi və qanı bahasına alınmış azadlığı qorumaq yolunda xalqımız nə qədər təzyiqlərə məruz qaldı, torpaqlarımız qəsb olundu, taleyimizdən didərginliyin, əlilliyin, şəhidliyin qara naxışları keçib getdi. Lakin azadlıq aşiqlərinin gərgin əməyi və mübarizəsi sayəsində əsrin sonunda Azərbaycanın müstəqilliyini qoruyub saxlamaq mümkün oldu".

K.Bayramov diqqətə çatdırıb ki, ötən illər ərzində atılmış hər bir addım və qəbul olunmuş hər bir qərar doğma Azərbaycan torpaqlarının işğaldan azad olunmasına xidmət edib. "Bu gün Ulu Öndərin layiqli davamçısı, Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Respublikasında demokratik, hüquqi, dünyəvi dövlət, vətəndaş cəmiyyəti quruculuğu prosesi uğurla davam etdirilir. Bu sahədə qazanılmış nailiyyətlər qürur verir. Yeni əsrin yeni lideri İlham Əliyev 20 ildə Azərbaycanı həm siyasi-iqtisadi, həm də hərbi cəhətdən qüdrətli, dünyada sözü keçən dövlətə çevirib. Məhz bu güc sayəsində Qarabağın 30 il davam edən işğalına 44 gündə son qoymaq mümkün olub. Azərbaycan tarixi ədaləti bərpa edib. Ölkəmiz dünyaya öz siyasi və hərbi gücünü nümayiş etdirdi", - deyə o əlavə edib.

Deputat vurğulayıb ki, Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı kimi Azərbaycan bayrağının bu gün artıq işğaldan azad olunmuş Şuşada dalğalanması Prezident İlham Əliyevin gələcək nəsillərə unudulmaz dövlətçilik əmanətidir. Xalqımız 28 May Müstəqillik Gününü torpaqlarımızın işğaldan azad edilməsinin sevinci, Vətən müharibəsi Zəfərinin qüruru ilə yaşayır. Artıq azadlığına qovuşmuş torpaqlarımızda şəhər və kəndlərimiz yenidən qurulur, yeni yollar çəkilir, Böyük qayıdış mərhələli şəkildə həyata keçirilir.

Xankəndidə Zəfər Günü münasibətilə hərbi paradın keçirilməsi hər bir azərbaycanlıda sözlə ifadə olunmayacaq qədər böyük qürur hissi yaşatdı.

Bir sözlə, ərazi bütövlüyümüzün bərpası, suverenliyimizin təmin olunması Prezident İlham Əliyevin tam müstəqil siyasətinin şah əsəridir.

Əsmər QARDAŞXANOVA,
"Azərbaycan"

Türk dövlətləri birliyinin ilk simvolu - "Made in Turan"

Dünya yenidən qütbləşir. Baş verən müharibələr, ölkələr arasında olan gərginliklər bununla bağlıdır. Hələlik dünya Qərb, Şərq deyilən iki bloka bölünüb. Ancaq bu birləşmələrin xaricində də yeni güc mərkəzləri formalaşır. Bunlardan biri də türk dünyasıdır.

Hələ ötən yüzilliyin sonlarında "XXI əsr türk əsri olacaq" deyən bir çox siyasətçilər və politoloqlar meydana çıxmışdı. Bəziləri üçün bu, reallıq kimi görünməsə də, inkar da edilmirdi... Prezident İlham Əliyevin dediyi kimi, türk dünyası geniş coğrafiya, təbii sərvətlər, dünyanın ən önəmli nəqliyyat yolu, böyük nüfuz, gənc əhali və qüdrətli hərbi imkanlar olduğu üçün. Çünki bu reallıq türk dünyasına siyasi, iqtisadi və hərbi güc olmaq imkanı verir. Çünki bu coğrafiyada yerləşən ölkələr təbii sərvətləri ilə nəinki özlərini təmin edə bilər, hətta dünyanın müxtəlif coğrafiyasında yaşayan xalqların ehtiyaclarını da qarşılaya bilər. Fransa Prezidenti E.Makronun ölkəsində fəaliyyət göstərən 51 atom-elektrik stansiyası üçün yanacaq kimi uran almağa uzaq Qazaxıstana getməsi buna bariz misaldır.

Məlumdur ki, indiki dünya düzənində gedən müharibə və mübarizənin mərkəzində qlobal ticarət yollarına nəzarət etmək istəyi durur. Qərb bloku dünyadakı enerji resurslarının böyük hissəsinə nəzarəti ələ keçirib, qalır beynəlxalq ticarət dəhlizlərini öz təsiri altına almaq. İndi bu məsələ ətrafında sözün həqiqi mənasında ölüm-dirim mübarizəsi gedir. Rusiya-Ukrayna müharibəsi ilə şimal qonşumuzun Avropaya gedən yolu bağlanıb. O üzdən Rusiya nəyin bahasına olursa olsun "Şimal-Cənub" nəqliyyat dəhlizinin tranzit imkanlarını genişləndirmək istəyir. Məqsədinə çatmaq üçün İran ərazisində Fars körfəzinədək uzanan dəmir yolunun bir hissəsinin tikintisinin xərcini öz üzərinə götürüb, üstəlik, qalan hissəsinin modernləşməsinə yardımçı olmaq istəyir. Təbii ki, bu işdə Azərbaycanın razılığı əsas şərtdir. O üzdən Prezident İlham Əliyevin son Moskva səfərində Prezident Vladimir Putinlə müzakirə etdiyi məsələlərin mərkəzində "Şimal-Cənub" dəhlizinin fəaliyyətinin genişləndirilməsi durmuşdur.

Çinin "Bir kəmər, bir yol" layihəsinin də önəmli ölkəsi Azərbaycan və Orta Asiyadakı türk dövlətləridir. Bu yol Orta dəhliz adlandırılsa da, əslində, qlobal türk ticarət marşrutudur. Son dayanacağı Türkiyə olan bu marşrut onu göstərir ki, dünyanın bizə, daha dəqiq desək, türk dünyasına ehtiyacı getdikcə artacaq.

Son günlər baş verən proseslər onu göstərir ki, Qərbdə Azərbaycanın və türk dünyasının əhəmiyyətini anlamağa başlayıblar. Artıq hətta ABŞ bizimlə yumşaq dillə danışmağa üstünlük verir. Bu hegemon ölkə Ermənistan tərəfindən 4 kəndin qaytarılmasını alqışlayır, daha Qarabağa ermənilərin qeyd-şərtsiz qayıtması barədə amiranə tələblər səsləndirmir, iki ölkə arasında tezliklə sülh müqaviləsinin imzalanmasını istədiyini açıq bəyan edir. Digər maraqlı fakt isə son günlər Fransa tərəfindən neqativ çağırışlara fasilə verilməsidir. Bu onu göstərir ki, fransızlar da anlamağa başlayıblar ki, qətiyyətli Azərbaycanla və güclü türk dünyası ilə ehtiyatlı davranmaq lazımdır.

Türkiyə "İnkişaf yolu" ilə yanaşı, Orta dəhlizdə də önəmli ölkədir, yəni Şərq-Qərb ticarət yolunda Avropaya keçiddir. Zəngəzur dəhlizinin açılması onun tranzit ölkə kimi əhəmiyyətini daha da artıracaq. Çünki Zəngəzur dəhlizindən daşınan yüklər "İnkişaf yolu" ilə qovuşacaq və yükdaşımanın həcmi əlavə milyon tonlarla artacaq. Türkiyənin nəqliyyat naziri Abdulkadir Uraloğlunun dediyi kimi, İraqın cənubundakı Bəsrə bölgəsi Londona qədər uzanan Avropa nəqliyyat qovşağı ilə birləşəcək. Üstəlik, bu yola Zəngəzur dəhlizinin qoşulması həm İraq istiqamətinə, həm də Avropaya yüklərin daşınmasını asanlaşdırmaqla yanaşı, onun həcminin bir neçə dəfə artmasına imkan yaradacaq. Türkiyənin İraqla artıq "İnkişaf yolu" layihəsi türk dünyasının önəmini də artıracaq. Bu layihənin gerçəkləşməsi ilə dünya ticarətinin xeyli hissəsi, daha doğrusu, ildə 600 milyardlıq bir ticarət dövriyyəsinin qardaş ölkə üzərindən aparılması deməkdir.

Türk dünyasının birləşməsinə, vahid siyasi, iqtisadi və hərbi güc mərkəzinə çevrilməsinə əhəmiyyət verən Azərbaycan Prezidenti İlham Əliyevdir. Onun "Bizim yerimiz türk dünyasıdır" deməsi təsadüfi deyil. Bu, Azərbaycanın Türk Dövlətləri Təşkilatı ilə bağlı ciddi layihələri olduğundan xəbər verir. Azərbaycan Prezidentinin təşəbbüsü ilə türk dünyasının markalarını birləşdirən "Made in Turan" brendinin yaradılması bunun ilk müjdəsidir. Bu, Türk Dövlətləri Təşkilatının (TDT) üzv ölkələrinin istehsal etdiyi məhsulların dünya bazarına ixracını xeyli asanlaşdıracaq.

İqtisadçı-ekspertlər bunu türk dünyası markalarının yeni dövrə keçid etməsi ilə yanaşı, qlobal marka olma yolunda əmin addımlarla irəliləməsi kimi qiymətləndirirlər. "Təşəbbüs həddindən artıq maraqlıdır. Məlum olduğu kimi, türk dünyası və türk ölkələri birgə investisiya fondu da yaradıblar. İlkin mərhələdə bu fonddakı vəsaitin 10 milyard dollar təşkil etməsi, sonrakı mərhələdə isə məbləğin 2-3 dəfə artırılmasına dair qərarlar var. Fondun türk dövlətlərinə yatırımları olacaq. Onların istehsal etdikləri məhsulların eyni brend adı altında dünya bazarlarına çıxarılması daha rahat şəkildə müştəri qazanılmasına xidmət edə bilər. Ona görə də bu təşəbbüs kifayət qədər maraqlıdır. Nəticə etibarilə bu təşəbbüs ölkələrarası korporasiyanı da yüksəldə bilər", - deyə onlar bildirirlər.

Yaxın vaxtlarda türk dünyası milli valyutalarla və ya avro kimi regional valyuta ilə ticarət aparılması barədə ortaq qərar qəbul etsə, təəccüblənməməliyik, çünki proseslər bu istiqamətə doğru gedir. Bu, türk dünyasına dollar basqısından qurtulmağa imkan verəcək. İndi dünyada baş verən proseslər onu göstərir ki, hər bir ölkəni və ya birliyi qorumaq üçün birləşmiş hərbi gücə də ehtiyac var. Bunun üçün yaxın vaxtlar türk dünyasının NATO tipində bir hərbi alyansın yaranmasının şahidi ola bilərik.

Hələlik uzun bir yolun başlanğıcındayıq. Qarşıda görüləcək işlər çoxdur. Hər sözünü tutan, qətiyyəti ilə hamıya nümunə olan Prezident İlham Əliyev türk dünyasının təməl daşlarının qoyulması siyasətini uğurla aparır. Dövlətimizin başçısı bundan sonra da qardaş ölkələrin prezidentləri ilə birlikdə türk dünyasının inkişafına böyük töhfələr verəcək.

Rüstəm KAMAL,
"Azərbaycan"

Azərbaycan XİN: "Fransanın həyata keçirdiyi kampaniya və təxribatlar cavabsız qalmayacaq"

Fransa tərəfi bu kimi məsuliyyətsiz və qəbuledilməz açıqlamalara görə nəinki üzrxahlıq diləməyib, hətta Le Point və digər bu kimi yerli Fransa mətbuatında Azərbaycana qarşı qarayaxma kampaniyasını daha da genişləndirib.

AZƏRTAC xəbər verir ki, bunu Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəhbəri Ayxan Hacızadə Fransa tərəfinin Azərbaycanı "diktatura" adlandırması məsələsi ilə bağlı yerli medianın sualına cavabında deyib. Onun sözlərinə görə, bu ölkənin "demokratiya" pərdəsinə bürünərək Azərbaycana qarşı həyata keçirdiyi kampaniya Fransanın xarici siyasətinin uğursuzluğunun ört-basdır edilməsi cəhdidir.

"Bununla yanaşı, dünyaya "demokratiya dərsi" keçməyə çalışan Fransanın beynəlxalq hüquqi pozuntuları, neokolonial siyasəti, irqçilik, diskriminasiya, islamofobiya, insan hüquqlarının məhdudlaşdırılması kimi fəaliyyəti hər kəsə məlumdur. Buna görə də, Azərbaycanı "diktatura" adlandırmazdan əvvəl, Fransanın bu fəaliyyətindən dərs çıxarması faydalı olardı. Fransa tərəfi əmin olmalıdır ki, ölkəmizə qarşı həyata keçirdiyi kampaniya, səsləndirilən nalayiq ifadələr və təxribatlar cavabsız qalmayacaq", - deyə Ayxan Hacızadə vurğulayıb.

Hərbi vəzifəlilər təlim toplanışında şərti düşmən hədəflərinin məhv edilməsi tapşırıqlarını yerinə yetirirlər

Müdafiə Nazirliyinin 2024-cü il üçün hazırlıq planına əsasən, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti ilə birgə tədbirlər çərçivəsində "N" hərbi hissəsində hərbi vəzifəlilərlə növbəti təlim toplanışı keçirilir.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, toplanışda hərbi vəzifəlilərə Azərbaycan Ordusunun arsenalındakı müasir silah və hərbi texnikaların taktiki-texniki xüsusiyyətləri, istifadə qaydaları, həmçinin sıra hazırlığının elementləri öyrədilir.

Bundan başqa, iştirakçılar atış sahəsində atəş mövqeyinin tutulması və şərti düşmən hədəflərinin məhv edilməsi üzrə tapşırıqları müvəffəqiyyətlə yerinə yetirirlər.

Toplanışın əsas məqsədi hərbi vəzifəlilərin döyüş hazırlığı səviyyəsinin, bilik və bacarıqlarının artırılması, o cümlədən praktiki vərdişlərinin təkmilləşdirilməsidir.

«AZƏRBAYCAN» qəzetinin 1919-cu il 6 mart (Cümə axşamı günü) tarixli 130-cu nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

AZƏRBAYCAN

Pəncşənbə, 3 cəmadiyəlaxir sənə 1337.
6 mart sənə 1919.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə:
Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi.

Telefon nömrə: 39-60.

Tək nüsxəsi 80 qəpik.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalatın mükafatını idarə təyin edir.

Abunə şəraiti:
Bakı üçün 1 aylığı 18 rublə,
2 aylığı 32 rublə, 3 aylığı 45 rublə.
Qeyri şəhərlər üçün 1 aylığı 20 rublə,
2 aylığı 35 rublə, 3 aylığı 50 rublədir.

Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.

İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Ağa Musa Nağıyevin baş kantoru kamali-yəs və təhəssürlə [böyük bir matəm və kədərlə] **Ağa Musa Nağıyevin** martın 4-ündə gündüz saat 10-da vəfat etdiyini xəbər verir.

Mərhumun cənazəsi bu gün öz evindən (Tarqovı və Mariinski küçənin küncündə) saat 10-da Hacı İmaməli məscidinə aparılacaq.

İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Ağa Əli Nağıyev, bacısı və uşaqları ilə **Ağa Musa Nağıyevin** vəfat etdiyini kamali-hüzn və təhəssürlə öz qövm-əqrəba və dost-aşnalarına xəbər verirlər.

Mərhumun cənazəsi bu gün öz evindən (Tarqovı və Mariinski küçənin küncündə) saat 10-da Hacı İmaməli məscidinə aparılacaq.

İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Tağı, Xədicə xanım, Sadıq və Murad Nağıyevlər **Ağa Musa Nağıyevin** vəfat etdiyini kamali-hüzn və təhəssürlə öz qövm-əqrəba və dost-aşnalarına xəbər verirlər.

Mərhumun cənazəsi bu gün öz evindən (Tarqovı və Mariinski küçənin küncündə) saat 10-da Hacı İmaməli məscidinə aparılacaq.

İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Mirzə Əsədullayev, öz övrəti və uşaqları ilə **Ağa Musa Nağıyevin** vəfat etdiyini kamali-hüzn və təhəssürlə öz qövm-əqrəba və dost-aşnalarına xəbər verirlər.

Mərhumun cənazəsi bu gün öz evindən (Tarqovı və Mariinski küçənin küncündə) saat 10-da Hacı İmaməli məscidinə aparılacaqdır.

İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Yelizaveta Qriqoryevna Nağıyeva **Ağa Musa Nağıyevin** vəfat etdiyini kamali-hüzn və təhəssürlə öz qövm-əqrəba və dost-aşnalarına xəbər verir.

Mərhumun cənazəsi bu gün öz evindən (Tarqovı və Mariinski küçənin küncündə) saat 10-da Hacı İmaməli məscidinə aparılacaq.

İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Mirzə Məhəmməd və Kövsər xanım Həsənovlar **Ağa Musa Nağıyevin** vəfat etdiyini kamali-hüzn və təhəssürlə öz qövm-əqrəba və dost-aşnalarına xəbər verir.

Mərhumun cənazəsi bu gün öz evindən (Tarqovı və Mariinski küçənin küncündə) saat 10-da Hacı İmaməli məscidinə aparılacaq.

İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Ümmüsəlimə xanım Nağıyeva **Ağa Musa Nağıyevin** vəfat etdiyini kamali-hüzn və təhəssürlə öz qövm-əqrəba və dost-aşnalarına xəbər verir.

Mərhumun cənazəsi bu gün öz evindən (Tarqovı və Mariinski küçənin küncündə) saat 10-da Hacı İmaməli məscidinə aparılacaq.

İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Fətulla bəy Rüstəmbəyov **Ağa Musa Nağıyevin** vəfat etdiyini kamali-hüzn və təhəssürlə öz qövm-əqrəba və dost-aşnalarına xəbər verir.

Mərhumun cənazəsi bu gün öz evindən (Tarqovı və Mariinski küçənin küncündə) saat 10-da Hacı İmaməli məscidinə aparılacaq.

İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Bakı Tacirlər Bankı Şurası sədri Hacı Zeynalabdin Tağıyev İdarə sədri **Ağa Musa Nağıyevin** vəfat etdiyini kamali-hüzn və təhəssürlə öz qövm-əqrəba və dost-aşnalarına xəbər verir.

Mərhumun cənazəsi bu gün öz evindən (Tarqovı və Mariinski küçənin küncündə) saat 10-da Hacı İmaməli məscidinə aparılacaq.

İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Səlim və Rüqiyyə xanım Sadıqovlar **Ağa Musa Nağıyevin** vəfat etdiyini kamali-hüzn və təhəssürlə öz qövm-əqrəba və dost-aşnalarına xəbər verirlər.

Mərhumun cənazəsi bu gün öz evindən (Tarqovı və Mariinski küçənin küncündə) saat 10-da Hacı İmaməli məscidinə aparılacaq.

ELAN

Bu gün cümə axşamı saat 11-də Azərbaycan Məclisi-Məbusanının [Parlamentinin] növbəti iclası təyin edilmiş olduğu məbus əfəndilərə elan edilir.

T-52

HAZIRLANAN TƏTİLƏ DAİR

Azərbaycan istiqlalı yolunda ən böyük iqdamatdan [təşəbbüslərdən] olmaq üzrə Könüllü ordunun paytaxtımızdan çıxarılması və dava gəmilərinin tərk-silah etdirilməsi, vətənimizin aşkar və gizli düşmənlərinin xoşuna getməmişdir. Ona görə də bunlar əmələ-fəhlə sinfini həyəcana gətirərək ümumi bir siyasi tətil çıxarmaq istəyirlər. Burada türk-islam fəhlə və əmələsi böyük bir rol oynaya biləcəyindən, Türk Ədəmi-Mərkəziyyət "Müsavat" firqəsi müsəlman qardaşlara xitabən bir müraciətnamə nəşr etmişdir. Vətənin səlaməti və millətin istiqlalı üçün camaatı anlatmaq niyyətilə bu müraciətnaməni eynilə qəzetəmizdə dərc ediriz. İştə müraciətnamə:

Millətdaşlar və yoldaşlar!

Şəhərimizdə axırıncı günlərdə bir neçə mühüm məsələlər oldu. "Dobrovolçeski otryad" adı ilə toplanan saldatlar şəhərimizdən getdilər. Dənizdə olan voyennı flot [hərbi donanma] ingilislərə təslim oldu. Oradakı matrosları da Batuma göndərirlər.

Bu məsələlər ətrafında xalq arasında, ələlxüsus əmələlər arasında min cürə xəbərlər çıxarırlar.

"Dobrovolçeski otryad" da, "voyennı flot" da əvvəlcə hamınıza məlum olan Biçeraxovun komandasında idi. Sonra Biçeraxov komandanlığından çıxdı. Bunun yerini Prjevalski tutdu. Biçeraxov da, Prjevalski də Azərbaycan Hökumətinə dost deyil, ikisi də düşmən idi. Biçeraxovun müsəlmanlar əleyhinə nə qədər müharibələr etdiyini kim bilməyir? Prjevalski dəxi Rusiya tərəfdarı və monarxist bir adamdır, Denikinin adamıdır.

Bakıda bulunan rus əmələləri və bu əmələnin yol göstərəni olan Rusiya sosialistləri vaxtilə Biçeraxovun, bu "demokrat" generalın qulluqdan xaric olduğuna çox təəssüf eylədilər. O zaman biz Biçeraxov otryadının paytaxtımızdan çıxmalarını tələb eylədiyimiz zaman onlar buna zidd gedir, Biçeraxov adı ilə toplanan şübhəli adamların, bir taqım amazasplar əli ilə toplanan halları məlum könüllülərin buradan getmələrində "demokratiya"nın təkyə etdiyi [söykəndiyi] sütunun laxlamasını görürlərdi.

Doğrudur, Prjevalskini bunlar Biçeraxov kimi qəbul etmədilər, fəqət Azərbaycan Hökuməti və xalqının dobrovolçeski otryadın hər nə cür olsa da buradan çıxarılmalarını dəxi o şiddətlə istəmədilər.

Otryad Prjevalskiyə tabe olmuş, fəqət "voyennı flot" olmamışdı. Flotda olan matroslar nə Prjevalskini, nə ingilisi, nə də Azərbaycanı tanımayırdılar. Halbuki pul almaq lazım idi. Pulu kimdən alsınlar? Bu, bir məsələ idi.

Təklif edən olmuşdu ki, pulu Azərbaycandan alsınlar, amma onun qulluğuna getməyib rahat və sakit qalsınlar. Bu təklifi guya Azərbaycan tərəfdarı olan Rusiya sosial-demokratları edirdilər. Deyirdilər, çünki Azərbaycan zəifdir, ona görə də flot onun əlində olsa, zərəri az olar. Çünki onların nəzərində Denikin "böyük bəla", Azərbaycan isə "kiçik bəla"dır. Bunun azını qəbul etmək ağıl işidir.

İngilis komandanlığı Azərbaycan millətinin və dövlətinin israrla eylədiyi tələbinə görə Prjevalski otryadını buradan çıxartdırdı. Halbuki dənizdə kimsəyə tabe olmaq istəməyən, hətta sosial-demokratların "kiçik bəla" deyə tövsiyə eylədikləri Azərbaycana surətən də olsa təhəmmül göstərməyən [dözməyən] silahlı gəmilərin Bakı bəndərində [limanında] durmalarına təbii yad qala bilməzdi. Çünki şəhərin general-qubernatorluğunu öhdəsinə çəkmiş olan Tomson xalqın əmniyyətindən məsuldur. Həm xalqa qarşı, həm də Azərbaycan Hökuməti ilə Avropa əfkari-ümumiyyəsi [ictimaiyyəti] və öz hökuməti qarşısında cavabdehdir. Edə bilməzdi ki, Bakı bəndərində heç kəsi tanımayan və heç bir iş görmək istəməyən dava gəmilərinin durmasına soyuq baxsın. Bunun üçün şəhəri təhdid edən gəmiləri zərərsiz bir hala qoymaq lazım idi. Bu iş dəxi görüldü.

Qurudan və sudan bizi qorxutmaqda olan iki qüvvət həman rədd oldu.

Bunların rəddi üzərinə politika çevirən bəzi adamlar şəhərə, bilxassə [xüsusilə] əmələlərin arasına bir xəbər çıxardılar:

"İngilislər Denikin adamlarını qovdular, flotu təslim etdirdilər, bir azdan sonra Azərbaycana deyəcəklər qalx Gəncəyə get, Bakını beynəlmiləl bir şəhər qayıracağız" - deyə aralığa fitnə salmaq istədilər.

Ortaya bir "avtokaloniya" məsələsi çıxdı. Məlum olduğu üzrə, sentyabrda Biçeraxov ordusu Bakıdan çəkilərkən özü ilə bərabər Bakıda olan bütün avtomobilləri də aparmışdı. Təkrar ingilislərlə bərabər buraya dönərkən bu avtomobillər də gəlmiş idi. Bu avtomobillərin hamısına onun təmirinə baxan masterskoyla bir yerdə "avtokaloniya" deyirlər ki, burada bir qədər əmələ çalışır. Prjevalski gedərkən bu avtomobillərin Bakıda qalmalarını tələb eyləmiş, tələbləri üstündə israr etmişlərsə, bunun qabağını saxlaya bilməmişlər. Avtomobillərdən bir qismi dəmiryolu ilə deyil, dəniz ilə gəmilərə yüklənib aparılmışdır. Təbii idi ki, bu avtomobillərin Bakıda qalması şəhərin, Azərbaycanın mənfəətindən idi. Bu avtomobillərin tamamilə burada qalması üçün hamımız çalışmalı idik. İştə, bir tərəfdən bizi həqiqətən də əndişəyə salan bir xəbər çıxarılır, digər bir tərəfdən bizim həqiqətən xoşumuza gələn bir avtomobil tələbi ortaya qoyulur. Nəticədə Bakı demokratiyasının adı ilə hərəkət edən ağalar ingilis komandanlığına bir taqım tələblər qoyur, yoxsa zabastovka elan eyləyəcəkləri ilə təhdid edirlər. Tələb təqribən bundan ibarətdir:

1- Təslim olan gəmi matroslarının (ki səkkiz yüzə yaxındırlar) "vıxodnoy"larını versinlər və özlərini başqa yana göndərməyib şəhərdə qoysunlar.

2- Bayıldakı elektrik stansiyasındakı ingilis əsgərlərini çıxarsınlar.

3- Burada və Krasnovodskda tutulan məhbusları, əzcümlə [o cümlədən] Bakı bolşeviklərinin arvad-uşaqlarını buraxsınlar.

4- "Avtokaloniya"nın şeylərini Bakıdan aparmasınlar.

5- İngilis qoşununu Bakıda azaltsınlar.

Baxalım bu tələblərin bizə nə dərəcədə faydası var və onlardan ötrü zabastovka eyləmək lazımmı?

1- Bu heç kimə tabe olmaq istəməyib müftə pul yeməyə öyrənmiş matrosların Bakıda qalmalarından nə fayda gözlənə bilər. Şəhərimizdə onsuz da Azərbaycan Hökuməti və istiqlalı əleyhində bollu olan qüvvətlərə səkkiz yüz də canı acımış, sərkeşliyə [özbaşınalığa] öyrənmiş matros əlavə olacaq.

2- Bayıldakı elektrik stansiyasının ingilislərdən boşadılması tələbinin səbəbi aşkardır. Stansiya əldə olunca şəhəri qaranlıqda saxlamaq asandır. Bundan da Bakını Rusiyanın bir hissəsi hesab edən ağalar fayda apara bilərlər.

3- Tutulan məhbusların, bilxassə arvad və uşaqların buraxılması tələbi əlbəttə nəzərə xoş və ürəyə sinən bir tələbdir. Fəqət o qədər böyük bir mə-sələmidir ki, ondan ötrü paytaxtın həyatı durdurulsun?

4- Avtokolonna şeylərinin məsələsi öz-özlüyündə doğru və haqlı bir tələb olsa da, ondan ötrü böyük bir məsələ çıxarılammaz və bu da "vəznişeir" üçün qoyulmuşdur.

5- İngilis qoşununun azalmasına gəlincə, bunu istəyən ağalar görək bizi Denikin ordusu və yaxud başqa bir hücuma qarşı hangi qüvvətlə müdafiə edəcəklərdir?

Yuxarıda biz söyləmişdik ki, Prjevalskinin getməsi ilə flotun təslimi rusiyaçı sosialistləri rahat buraxmayır. Görünür ki, yanılmamışıq. İştə Rusiya sosial-demokrat firqəsinin naşiri-əfkarı [fikirlərini yayan orqanı] "İskra" qəzetəsi nə yazır? O deyir ki:

"İngilis komandanlığı tərəfindən Kaspi voyennı flotu əleyhinə, hətta Prjevalski otryadı əleyhinə görülən tədbirlərin əsl işə baxanda Rusiya demokratiyası əleyhində bir iş olduğu haqqında iki rəy olammaz."

Deməк ki, Prjevalski Rusiya demokratiyasının sütunu imiş. Demək ki, hər nə Rusiya naminə hərəkət edən qüvvət varsa, nəticədə həman demokratiya qüvvəti imiş. Yalnız Azərbaycan tərəfindəki qüvvətlər, türklərin mənafeyini gözləyən təşəbbüslərdir ki, demokratiyanın əleyhinə imiş.

Böylə ikiüzlü olduqları üçündür ki, bu ağalar bu məsələlərdən ötrü fövqəladə konfrans çağırdıqda yalnız sosialist firqələrini çağırmaq bəhanəsilə "Müsavat"ı işdən xəbərdar eyləməmişlərdir. Əlbəttə, təqdir edərsiniz ki, bununla onlar bilərək müsəlman əmələsini kənarda qoymaq istəmişlərdir. Çünki bilirlər onların bu macərapərəstliklərinə müsəlman əmələsi uymaz, öz əli ilə düşmənlərini qüvvətləndirməz. Qalxıb istəməz ki, bizə top atmış olan və hər zaman da atmağa hazır olan matroslar burada saxlansın və yainki dallarınca bir daş göndərdiyimiz "Dobrovolçeski otryad" üçün heyflənsin.

Kimsənin yadından çıxmamışdır ki, imdi ingilisləri demokratiyanın düşməni deyə əleyhlərinə çıxan ağalar özləri onları buraya çağırdılar. O zaman ingilis, ağalar üçün yaxşı idi, çünki Bakını sahiblərinə verməyirdilər. İmdi isə yamandırlar, çünki rus qüvvətlərini zəiflədir, rus saldatlarını buradan çıxarır, rus flotunun da silahını alır, matroslarını da şəhərdən qovurlar. Arada fitnəli xəbər də çıxarır, deyirlər ki, guya bunların bütün təşviqi onun üçün imiş ki, ingilislər Bakını Azərbaycanın da əlindən almaq istəyirlərmiş.

Fəqət əsl məqsəd bu deyilmiş. Mətləb budur ki, ingilis Bakını sahiblərinin əlindən alıb ruslara verməyir.

Bakı Azərbaycanın paytaxtıdır.

Burada Azərbaycanı tanımayan rus əsgəri, rus flotu dura bilməz. Bu haqqımızı müdafiə edən ingilis komandanlığı bizim hər zaman dostumuzdur. İngilis komandalığı bizim bu haqqımızı feilən qəbul eyləmişdir. Rəsmən qəbul etməyəcəyini göstərəcək bir dəlil olsa da əldə yoxdur. Halbuki utanmadan Bakı demokratiyası adı ilə hərəkət edən əfəndilər bizə "bəla" kimi baxırlar. Halbuki bizim başımızın bəlası onların özləridir.

Bunun üçün ey vətənini, hürriyyətini, istiqlalını sevən türk və müsəlman əmələsi, sərvaxt [ayıq-sayıq] ol. Bəzi şirin sözlərə, aldadıcı mətləblərə qulaq vermə. Sədaqətinə inandığın bir firqədən məlumat almayınca, məbada zabastovka eyləmə!

Bugünlərdə olunacaq zabastovka, bil ki, müşkülat içində olan vətənimizə böyük əngəl çıxara bilər. Qara düşmən Denikin qüvvəti şimaldadır. Hökumət istefa halındadır. Böylə bir zamanda zabastovka eyləmək, dəmiryollarını saxlatmaq, işıqları durdurmaq, işləri saxlatmaq məmləkətin diriliyini fəlc [iflic] bir hala qoymaq deməkdir ki, vətənə xəyanətdir.

Azərbaycanı özləri üçün vətən hesab etməyən, Bakını əllərindən çıxan bir dövlət kimi görən adamlar ortanı şuluğa verib də zabastovkadan bəhs edə bilər, on avtomobil üçün minlərlə əmələni işdən-gücdən saxlaya bilərlər, amma bizlər bu macəranın qətiyyən [qətiyyətlə] əleyhində olmalıyız.

Demokratlıq adı ilə fəqət rusluq məqsədi ilə elan edilmək istənilən zabastovkada biz yoxuz deməli, zabastovkaya qoşulmamalıdır.

Türk Ədəmi-Mərkəziyyət
"Müsavat" firqəsi Mərkəzi Komitəsi

GETSİNLƏR, GƏLMƏSİNLƏR!

Şəhərimizdə rus-erməni könüllü ordusu təşkili kimi istiqlalımıza, şərəf və heysiyyətimizə toxunan və gələcəyimiz üçün böyük bir təhlükə təşkil edən qeyri-normal hadisəyə qəzetəmiz çoxdan bəri idi ki, hökumətimizin diqqətini cəlb edib bu cürə şeylərin tezliklə önü alınmasını tələb edirdi. Hökumətimiz bu hadisəyə lazım olan dərəcədə diqqət yetirib əhvalatı ingilis komandasına bildirdi və bu könüllü qoşununun paytaxtımızdan tezliklə rədd edilməsini tələb etdi və "Əks surətdə biz özümüz əlimizdən gələn vasitə ilə iş görməyə məcbur olacağıq" – deyə müstəqil hökumətə yaraşan bir dil ilə danışdı.

General Tomson həzrətləri dəxi bu hadisənin qeyri-normallığı haqqında bizimlə şərik olduğunu bildirib, könüllülərin çıxıb getmələrinə razı oldu. İngilis komandası rəisinin bu razılığı məhz hökumətimizin təhdidi nəticəsi olaraq vüqu buldu deyib də fəxr etsək, əlbəttə özümüzü bir dərəcəyə qədər aldatmış olarıq. Çünki, əgər ingilis hökumətinin indiki politikası Könüllü ordusunun Bakıda qalmasını iqtiza etsəydi [lazım bilsəydi], o halda "qan tökülə bilər" ehtimalı – qərini-həqiqət [həqiqətə yaxın] olsa da – nəzərə alınmazdı və bu iş o tərəf və ya bu tərəfin zərbi-dəsti [qol gücü] ilə həll olunmağa münhəsir [bağlı] olaraq qalardı. Halbuki denikinlər üçün hazırlanan ordunun Azərbaycan paytaxtında saxlanılmasından ingilis hökumətinin bugünkü politikası heç bir şey udmazdı. Bəlkə nəticədə uduzardı ki, o uduzduğu şey də azərbaycanlıların ingilislərə qarşı ibraz etdiyi [göstərdiyi] etimad və hüsn-rəğbətdən ibarət olardı.

Mətləbi bir az daha aydın etmək üçün ingilis politikasının nazik nöqtə və nüktələrini [incəliklərini] şərh etmək niyyəti ilə lovğa-lovğa meydana atılmayıb da ancaq bir qəzetəçi sifətilə aşkara dərk etdiyimiz yerlərindən bəhs etmək istərik. İş bundadır ki, ingilislər bolşevikliyin istər Rusiyada, istər Almaniyada, istər sair bir məmləkətdə olsun, əleyhinə qarşı politika yeridib mübarizə etməkdədirlər. Bu nöqteyi-nəzərdən, hər kəs bolşevikliyə ziddir və bolşeviklik ilə mübarizəyə girişir, ingilislər tərəfindən hüsn-təvəccöh qazanır. Ona görədir ki, bu gün ingilislər rus bolşeviklərinə qarşı müharibə açmaqda olan denikinlərə də hüsn-təvəccöhdən başqa mühimmat və ləvazimat sarıdan dəxi əl tutub kömək göstərməkdədir. Deməli ingilislərin denikinlilərlə olan əlaqəsinin isti və soyuqluğunu bu axırkıların bolşeviklərə qarşı açmaqda olduğu mübarizənin mizanı dərəcəsi ilə ölçmək olar. Qoy "Vahid Rusiya" tərəfdarları bu zümdə [zəndə, gümanda] olsunlar ki, ingilislər denikinlərə kömək edib də Rusiyanı yenidən diriltmək və 1914-cü sənə hüdudu daxilində bərqərar etmək istəyirlər. Biz isə heç vaxt buna inana bilmərik ki, ingilislərin İran daireyinüfuzuna qarşı şərik çıxan və bir gözü daima Hindistan sərvətlərində olan "Rus çarlığını" yenidən diriltmək istəyən kim olsun? İngilislər! Halbuki bu cahanşümul müharibədə qalib çıxan ingilislərin ələlümum politikası, təbiidir, bu yolda olacaqdır ki, qələbəsindən istifadə edib də müharibədə itirmiş olduğu zərərləri təzmin etməkdən başqa, bir də özünü nəinki yalnız Almaniya kimi təzə düşmənlərinin, bəlkə Rusiya kimi qədim düşməninin də gələcək hiylə və dəsisələrindən [intriqalarından] məsun və məhfuz [toxunulmaz və qorunmuş] qılsın.

Ona görədir ki, denikinlər ingilislərin sevmədiyi bolşeviklərə qarşı mübarizə işini kənara qoyub da "Rusiyanı diriltmək" kimi başqa avantüralara iqdam [təşəbbüs] edərlərsə, ingilislərin hüsn-təvəccöhü ilə köməklərindən də məhrum olarlar. Denikin qoşununun "Soçi" bəhanəsi ilə Gürcüstana qarşı qəsd etmiş olduğu hücumi-xəyalpərəstanəsini dayandıran ingilislər oldu ki, bu "fakt" yuxarıdakı sözlərimiz üçün sübutikafi və dəlili-şafi [qənaətləndirici dəlil] ola bilər. Denikin və Dağıstan Cümhuriyyəti müsadiməsi [toqquşması] məsələsi isə genə əgər dağıstanlılar müttəhidülqövl [yekdil, həmrəy] olsalar, ingilislər əli ilə toxdadılacaqdır. İndiyə qədər toxdadılmamasının səbəbi isə başqadır ki, o barədə bildiyimizi mövqeyi gələn vaxtında söylərik. Bu səbəbdəndir ki, məhz bolşeviklərlə mübarizə etmələri lazım gələn könüllüləri, bolşeviklik qorxusu olmayan və biləks [əksinə] bolşevikliyə müxalif surətdə təşəkkül etmiş olan bir hökumət paytaxtında saxlamaqda ingilislərin heç bir qəsd və qərəzi ola bilməzdi. O idi ki, hökumətimizin bir kərə müraciət etməklə general Tomson həzrətləri Azərbaycan türklərinin xoşuna gəlməyən könüllüləri şəhərimizdən çıxartmağa razı oldu və razı olub da sözünə əməl etdi. Könüllülər getdilər və getmək üzrədirlər. Müdəbbir [tədbirli, uzaqgörən] Tomson bu işdən istifadə edib də vəziyyətləri şübhəli görünən flot gəmilərini də kamali-ustadi ilə [ustalıqla] ələ gətirib əslihələrini [silahlarını] boşaltdı. Bu tədbirlərin sayəsində Azərbaycan paytaxtı şimalın sağ və sol qorxularından qurtardı. Böylə ki, "Yedinaya Rosiya" kimi sağ "Vahid Rusiya"lıların ümidgahı olan könüllülər rədd edildiyi bir anda, "Znamya truda" kimi sol "Vahid Rusiya"lıların da istinadgahı olan flot silahsız qalıb "zərərsizləndi".

Nəql edildiyi üzrə, könüllülər gedərkən "Bir zaman keçməz Azərbaycan üzərinə hücumla gələrik və Azərbaycanın axırına yetərik" deyə təhdidatda bulunurmuşlar. Əlbəttə qovulmaq acılığını dərk edən adam ağzına gələni danışacaqdır. Hər halda biz, könüllülər getdi və flotun silahı alındı deyə rahat olub da Fətəli xan həzrətləri demişkən, başımızı yastığa qoyub da yatmamalıyıq. Biz hər bir hadisə vüququna [baş verməsinə] hazır olmalıyıq. Özümüzü o dərəcədə müdafiə halına gətirməliyik ki, çağrılmamış qonaqlar bir də üzərimizə "qonaq" gəlmək istəsələr, mehman-nəvazlığımızın [qonaqpərvərliyimizin] hər bir surətindən xəbərdar olub da "xörək"lərimizin dadı damaqlarından çıxmasın.

Keçək flot məsələsinə.

Prjevalski ilə könüllülərin Bakıdan rədd edilmələri sağ "Vahid Rusiya"lılar üçün gicəlləndirici bir zərbə olan kimi, flot təslimi hadisəsinin də sol "vahidli"lər üçün eyni dərəcədə bir zərbə olduğunu anlamaq üçün Roxlinin bu münasibətlə yığılmış fövqəladə fəhlə konfransında söyləmiş olduğu bəyanatını oxumalıdır. Bu bəyanatdan əzcümlə məlum olur ki, "milyoner" Biçeraxovun pul və mal köməyindən məhrum qalmış olan flot əmələcatını [işçilərini] bir növ dolandırmaq və flotu sağ "vahidli"lər əlinə salmamaq üçün "iki şər"dən ən kiçiyinə razı olub da flotu Azərbaycana satmaq istəyirmişlər və hesabları da böylə imiş ki, pul Azərbaycandan çıxacaq amma mal öz əllərində qalacaq. Yəni Azərbaycan Hökuməti flotu olub da "matrosları olmadığına görə" həman mövcud matrosları da məvaciblə saxlayacaqdır və nəticə də bu olacaqdır ki, roxlinlər məvacibsizlik üzündən zabastovka edən avtokalonlar kimi matroslar zabastovkasından azad olub da Azərbaycan yolu ilə flotu öz əllərində saxlayacaqdırlar ki, lazım olan vaxtında topların ağzını Azərbaycan paytaxtına tərəf çevirsinlər.

Roxlinlərin alış-veriş işində müştərini aldatmaq məharətləri bütün aləmcə məşhur bir keyfiyyətdir. Lakin biz Azərbaycan türklərinin aldadılacaq dərəcədə safdərun [sadəlövh] müştəri olmadığına qail olanlardanıq [inananlardanıq]. Şübhəsiz, Azərbaycan dövləti flotu başqa üsullardan vaz keçib də pul ilə almaq istəsəydi alardı və aldıqdan sonra mövcud matrosların hesabını verib də azad edərdi. Flotun bu halda bizim əlimizdə olmadığına təəssüflər etməklə bərabər, əlimizdə olmasa da "ziyansız" bir hala düşməsindən dolayı məmnun olduğumuzu gizlətməyirik və ümidvarıq ki, bu flot axırdan-axıra genə bizim olacaqdır, nəinki Roxlin arzusuna görə "raboçi"lərin, ki bunların flot saxlamaq kimi işlərlə gərək heç bir əlaqələri olmasın.

Qərəz, solların istinadgahı zərərsizlənən kimi, sağların ümidgahı da çıxıb getdi.

Çox gözəl...

Bunların bir kərə "yerli-dibli" çıxıb getmələri arzu və intizarında olub da son söz olmaq üzrə dallarına bunu deyə bilərik ki:

- Getsinlər, gəlməsinlər!

Hacıbəyli Üzeyir

AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

12-ci iclas axırı

Aşurov - O sistem ki, bəyani-ərz etdim, düz deyil, biri də tarifəni artırmaqdır. Deyirlər tarifəni artıraq, bu sistem düz deyildir. Tarifəni artırmaq özü-özündən sərbəst bir məsələ deyil. Bu bir başqa funksiyadan asılıdır ki, tarifəni nə vaxt və nə qədər artırmaq olar. Bunu nəzərə almalıdır.

Tarifənin artırılması heç vaxt mənfəət verməyibdir. Necə ki, qabaqda zərər vermişdir, ayrı cür ola da bilməz. Tarifəni o vaxt artırarlar ki, məxaric çox ola, mədaxili də artırmaq mümkün olmaya. Onu da öylə artırmalıdır ki, rəqib sənə qalib gəlməsin və zərər çıxmasın. Bunun da müəyyən bir sərhədi var. Bundan ziyadə artıranda daha möhtəkirlik olur. Deyirlər ki, dəmiryolu zərər etdiyinə görə artırmağa məcburuz. Bu ona oxşar ki, bir az çox pul kəsmək üçün maşının xodunu artıraq. Heç mədaxilin artırılması barəsində bir söz yoxdur. Bu barədə görək mədaxili artıran, məxarici azaldan şeylərin hangi birisi nəzərə alınmışdır. Mən zənn edirəm ki, xayır, bunların heç birisi nəzərə alınmamışdır. Məsələn, dəmiryolu ilə gedirsən, qatar həmişə təxirə düşür vəhalonki [halbuki] vaxt – puldur. Burada neft sərf olunur. Hər saatın qiyməti var. Bunu hələ bir qaydaya salmayıblar. Halbuki biz biliriz opazdaniyanın [gecikmənin] azalmasının nə qədər əhəmiyyəti var. Hələ bir də biletsiz adamlar gedirlər. Bu da bizim mədaxilimizdən gedir. Nə biliriz ki, tarifəni artırsaq, bunlar olmayacaqdır. Bunlara diqqət edilsə, bəlkə heç tarifəni artırmağa lüzum görülməz. Bir də baxaq görək yolumuz nə qədər yük apara bilər. Mən bunun nəzərə alındığını görməyirəm. İşlər hələ qabaqkı kimi gedir. Əlbəttə istibdad zamanı kimi yox. Öylə getsəydi xoşbəxt olardıq. Mən təklif edərdim ki, bu sistemdən əl çəkək, tarifəni artırmayaq. Əgər məxarici azaldacaq bir yol olmasa, mədaxili artıracaq bir mənbə bulunmasa, zərər də eyləmiş olsaq, biz tarifəni artırmamalıyız. Tarifəni artırmaq sağlam bir sistem deyildir, bu daha da mədaxilin azalmasına səbəb olar. Yazın ki, dəmiryolu 60 milyon zərər edir. Bu daha sağlam sistemdir, nəinki həm tarifəni artıraq, həm də zərər çəkək. Məsələn, mən teleqrafda gördüm, orada gündə 3 min manat mədaxil var idi. Sonra teleqraf qiyməti bahalandığına görə, indi çox adam teleqraf vura bilməyir. Ona görə də mədaxil azalır. Madam ki, tarifəni artırdıqca, mədaxilin azalacağını biliriz, biz nə üçün təzədən artırırız? Mən demokratiyanı [xalqı] da nəzərə alaraq təklif edirəm ki, tarifəni artırmayaq, mədaxilin artmasına, məxaricin azalmasına çalışaq və nə qədər zərər olsa, hamısını hökumət öz ayağına götürsün.

Yusif Əhmədzadə (bitərəf) - Dəmiryol tarifələrinin barəsində çox danışıq oldu. Hərgah mən bilsəydim ki, bu tarifə daimi olacaqdır, natiqlərin etirazına şərik olardım. Təkrar ərz edirəm ki, hər hökumətdə olduğu kimi, bizdə də bu xərclər müvəqqətidir. Yoxsa daimi olsa, buna heç hökumət davam edə bilməz. Çünki qüvvədən xaric xərclərdir, başqa çarəsi də yoxdur. Əminəm ki, işlər sərəncam alandan sonra bu xərclər də olmaz. Əhali bu məmləkətin birər üzvüdür. Onlardan artıq almaq özü-özümüzdən artıq almaq kimidir. Amma əlac yoxdur. Ona görə, məvaciblərin artırılması müqabilində tarifələr də müvəqqət artırılmalıdırlar. Bu qatarlarla gedən sərnişinlərin əksəri tacirlərdəndir. Çünki tacir olduğuma görə işlərə bir qədər balədəm. Hərgah fəhlə qismi gedirsə, onlar da şəxsi işlərindən ötrü məcbur olub gedirlər. Onlar üçün də 3 və 4-üncü sinif qatarları var. Bir də 18 qəpiklik ətə 18 manat verən fəhlə bir manatlıq biletə 2 manat versə, bir şey itirməz. Bir bileti əksiltməklə füqəra və fəhlənin işi düzəlməz. Dübarə ərz edirəm ki, bu da müvəqqətdir. İşlər ümumi qaydaya düşənə qədər bu layihə qəbul olunsun. Ticarətə qalanda zənn edirəm ki, tacir üçün şey bahadır; bilet bahadır, teleqraf bahadır – bunlar bir şey deyildir. Tacirlər çalışırlar ki, mal tez gəlsin, tez mümkün olsun, vəssalam. Şey tez gələndə təbiidir ki, bazarda mal çox olar, arada bir rəqabət düşər ki, bu da şeylərin ucuzlanmasına səbəb olar. Bunun üçün də yolların nizama salınmasına fikir verməк lazımdır. Böylə olmasa, dövlət xəzinəsi zərər edəcək, biz də əmri-vaqe [fakt] qarşısında qalıb məcburən tarifələri artıracağız. Mən deyərdim Türüq və Məabir [Nəqliyyat və Rabitə] nazirindən xahiş olunsun, gələcək üçün mədaxillərin artmasından ötrü tədbirlər görüb yollar göstərsin. İndilikdə təklif edirəm bu layihə olduğu kimi qəbul edilsin.

[Heybətqulu] Məhəmmədbəyov (İttihad) - Mən tarifə haqqında danışmaq istəməyirəm, ancaq burası var ki, o hökumətdə ki ordu var, onun Hilali-Əhmər [Qızıl Aypara] təşkilatı da olmalıdır. Mən fraksiya namından təklif edirəm ki, bu layihə qəbul olunsa da, olunmasa da Hilali-Əhmər nəf'inə [xeyrinə] hər manata yarım qəpik vergi təyin edilsin.

Məlikaslanov (Türüq və Məabir naziri) - Möhtərəm məbuslar! Sizə məlumdur ki, dəmiryolu nə halda idi və indi nə haldadır. Biz bir tövr ilə bu yolu düzəltmişik. İndi bu yolda hərəkət davam edir. Dəmiryolu barəsində danışanda sülh vaxtındakı halı nəzərə almamalıdır, indiki hal nəzərdə tutulmalıdır. Bir zamanlar dəmiryolunda gediş-gəliş bilmərrə mümkün deyildi. Amma şimdi bu günlərdə dəmiryol hərəkatı yoluna salınmışdır. Mən yenə ərz edirəm ki, Türüq və Məabir Nəzarəti [Nəqliyyat və Rabitə Nazirliyi] yolların düzəlməsi barəsində hər dürlü fikir işlədibdir. Dəmiryolunu islah etmək üçün Nəzarətdə bulunan texniklər və ukladçiklər [rels döşəyənlər] çox çalışırlar. Amma nə qədər düzəlsə də, yenə çox zərər çəkəcəyiz. Keçən dəfə də ərz etmişdim ki, dekabr hesabı ilə ayda 8 milyon zərər çəkiriz. Möhtərəm Əhməd bəy [Pepinov] buyurdu ki, yanvar hesabı bizə məlum deyildir, bəlkə yanvarda mədaxil artmışdır. Bu suala cavabən mən qabaqda demişdim ki, hələ yanvar hesabı mənə məlum deyildir, sonra olacaqdır. Şimdi bu xüsusda bir qədər məlumat verəyim:

Yanvarda mədaxil həqiqətən bir qədər artmışdır. Gürcüstandakı vaqonların bir qismi əlimizə çatmışdır. Bir qismi də ingilislər əlində Batuma və İrəvana getmişdir. Qaytarılan vaqonların bir qismi fəna bir haldadır. İndi mümkün olduqca onları düzəldirik. Əvvəlki aylara nisbətən yanvarda mədaxil bir milyon 500 min manat artıq olmuşdur. Məxaric haqqında sərih [dəqiq] məlumat yoxdur, amma deyirlər o da artmışdır.

Dekabr ayı barəsində smeta hazırlanmışdır. Mədaxil və məxaric bu qərar iləddir. *(Oxuyur)* Bu hesabla dəmiryolu ildə 180 milyon manat zərər edir. Heç vaxt bu zərəri ümum camaat boynuna qoymaq olmaz. Demokratik nəzərlə də bunu edə bilmərik ki, möhtəkirlərin xərcini kəndçilərin boynuna qoyaq.

Məlumunuzdur ki, o biri Nəzarətlər də zərər verirlər. Məsələn, Ədliyyə, Daxiliyyə və qeyrə. Bir-iki Nəzarət var ki, mənfəət verir. Onlardan biri də Türüq və Məabir Nəzarətidir. Pepinov cənabları bəzi suallar verir ki, məsələn, vaqonlar təmir olunsun, paravoz böylə olsun. Bu barədə biz həmişə fikirdəyiz və iş də görülür. Aşurovun buyurduğunu qəbul etmək olmaz. Məsələn, o buyurur ki, dinclik vaxtında tarifə artanda mədaxil əskilər, şimdi bunu etmək olmaz. Zira tarifə o qədər artırılmayır ki, mədaxilə böyük təfavüt etsin. Nəzərə alınsın ki, sülh vaxtı 20 manat məvacib alan bir xidmətçi şimdi 800 manat alır. Dəmir-yolu üçün qabaqda bir manata alınan şey, indi 150 manata alınır. Amma sərnişin biletləri artırılır birə 15 dəfə, həm də bu qanun müvəqqətidir. Bir komisyon təşkil edilib, necə ki lazımdır, işlərə baxacaqdır, özgə tarifələr hazırlanaraq Parlamana idxal ediləcəkdir.

Bir də Aşurov deyir ki, vaqon təxirlə gedir, biletsiz gedən çoxdur. Keçən dəfə ərz etmişəm, yenə deyirəm ki, bu fənalıqlar olmuşdur. Fəqət şimdi bunları bir qədər düzəldiriz. İndi daha mal aylarla növbə gözləməyir. Qabaqlarda gündə 5 vaqon gəlirdi, indi 60 vaqon gəlir. Amma bununla bərabər yolun zərərlərini ödəmək başqa cür mümkün deyil, gərək tarifəni artıraq. Tarifə layihəsinin təsdiqini bir neçə gün də saxladıq, bir qədər də artıq zərər oldu. İndi təvəqqe edirəm bu gün qəbul edəsiniz.

[Abuzər bəy] Rzayev (məruzəçi) - Tarifələrin artırılması qanununa hamıdan artıq soldan etiraz olunur. Onlar deyirlər ki, tarifələrin artırılması ilə ərzaq şeyləri bahalanacaqdır. Amma mən sübut edərəm ki, böylə deyildir. Məsələn, Poyludan Bakıya qabaqca bir manat isə, şimdi iki manat olsa, şeyin qiymətinə təfavüt etməz. Deyirlər ki, dəmiryolu ilə gəlib-getmək kasıb əhali üçün baha olacaq. Amma mən deyirəm ki, bunlar üçün 4-üncü klas var. O da Əhməd Cövdət [Pepinov] əfəndinin təsvir etdiyi kimi deyildir. Bunlar sərnişin qatarı ilə gedirlər, skamyalı və rahatdırlar. Burada demokratik əsası da nəzərə alınmışdır. Bir də dedilər ki, biletlər artmayıb, yük tarifəsi artırılsın. Gərək sərnişin və yük tarifəsi, hər ikisi artırılsın. Dəmiryolu həmişə mənfəət verirdi. Amma indi vaxtın təqazasına [ehtiyacına] görə zərər verir. Bunu da nəzərə almalıdır ki, layihə qəbul edilsə, yenə zərər tamamilə qapanmayaraq, 8 əvəzinə 5 milyon olacaqdır. Bunu qəbul etməsək, kağız pulları artırmağa məcbur olacağız ki, bununla da pulun qiyməti düşüb, şeylər bahalanır. Kağız pul nə qədər az olsa, şey də o qədər ucuz olar. Gərək hökumət və Parlaman camaat içində kağız pulları azaltsın. Maliyyə-büdcə komisyonu bunları nəzərdə tutaraq tarifə layihəsinin qəbulunu təklif edir.

Səsə qonulduqda qanun layihəsi komissiyanın göstərdiyi kimi qəbul olunur.

QƏZETƏLƏRDƏN

Vladiqafqazda

Könüllü ordu komandanlığı tərəfindən Tersk və Dağıstan oblastlarına baş məmur təyin edilən general Lyaxov çeçen idarəsini general [Erisxan] Əliyevə tapşırıb ona müavin, istibdad zamanında Nalçik nahiyəsi naçalniki polkovnik Klijbiyevi təyin etmişdir. Kabarda idarəsi general Bekoviç-Çerkasskiyə həvalə edilmişdir. İnquşistanı idarə etmək üçün general Malsaqovu təyin etmək istəmişlərsə də, qəbul etməmişdir. İnquşlar general Fyodorovun təyin edilməsini xahiş etmişlərsə də, onların bu xahişi rədd edilmişdir. Lyaxov demişdir ki, Fyodorov Pyatiqorska qayıtmalıdır. Dağıstan idarəsinin knyaz Nuhbəy Tarkovskiyə həvalə olacağı təsəvvür olunur.

- İki gündür ki, Vladiqafqazda "Svoboda" meydanında üç nəfər boğazdan asılı qalmışdır. Bunlar qarətgərlik üstə asılmışlardır.

«AZƏRBAYCAN» qəzetinin 1919-cu il 6 mart (Cümə axşamı günü) tarixli 130-cu nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

Erməni-yunan münasibatı [əlaqələri]

Bu axır vaxtlarda erməni-yunan dairələrində hər iki millətin sıxı münasibatı nəf'inə [xeyrinə] hərəkat müşahidə olunmaqdadır. Bu hərəkat təbii olaraq erməni-yunan mənafeyinin, o cümlədən Ermənistan və Ponti sərhədlərinin həll edilməsi məsələsindən nəşət etmişdir [əmələ gəlmişdir]. Bu hərəkat geniş bir surət alıb bir çox erməni, yunan komitələri təşkil edilmişdir. Ermənistan və Ponti sərhədləri məsələsi haqqında təsəvvürata görə Ermənistan Sivas vilayətindən Qara dənizə qədər yerə malik olacaqdır.

Türküstanda

Türküstanda nəşr olan "Q. S. A." qəzetəsi yazır ki: Keçən gün teleqraf dəhşətli bir xəbər gətirmişdir. Çarcodan qaçıb gələnlərin rəvayətinə görə orada tədhiş [terror] davam edir. Rus və madyar [macar] əsgərləri gedib, onların əvəzinə çinlilər və qırğızlar gəlmişlərdir. İndiyə qədər qarət olunmayan şeylər qarət edilməkdədir. Arvadların irz-namusuna təcavüz olunur. Kişiləri güllələyirlər. 15 nəfər maşinist tutulub güllələnmişdir. Bundan əlavə, bir çox adamlar güllələnmişdir.

Bolşeviklərin məğlubiyyəti

"Tayms" qəzetəsinin müxbiri xəbər verir ki, Mərvdən 50 mil şimal-şərqə tərəf Anenkov yanında müttəhid [birləşmiş] ingilis-hind-rus-türkman əsgərləri bolşeviklərin hücumunu dayandırmışlardır. Hava duman olduğundan düşmən sol cinahda hərəkatda buluna bilməyib, yenə də Mərv yaxınlığında dəmiryolunu kəsməyə müvəffəq olmuşdur. Lakin bundan istifadə edə bilməyib dəmiryol xətti tezliklə düzəlib hind qüvvəsi gətirilmişdir. Rus topxanasının köməyi ilə bolşeviklərin hücumu dəf edilmişdir. Bolşeviklərdən 560 adam tələf olmuşdur. Düşmənin ümdə qüvvəsi Avstriya hərbi əsirlərindən ibarət imiş.

Çində

Bu ayda Xitada [Çində] Xitanın şimali və cənubi qitələri [bölgələri] nümayəndələrinin sülh konfransı dəvət ediləcəkdir. Bunlar Xita müqəddəratı barəsində bu vaxtadək öz aralarında uzlaşa bilməmişlərdir. Konfrans Şanxayda vaqe olacaqdır [baş tutacaqdır].

Banklar

Türkiyədə olan banklar Müttəfiqlərin kontrolu altındadır. Banklarda olan məbləğ diqqətlə təhqiq edilib, qızıl mövcudunun Türkiyədən çıxarılmaması üçün tədbirlər görülmüşdür. Bu yaxınlarda bu banklar təsviyə [ləğv] ediləcəkdir.

DAĞISTAN HÖKUMƏTİNİN NOTASI

Dağıstan Cümhuriyyətinin Azərbaycan Hökuməti nəzdindəki diplomasi nümayəndəsi Ə. Xan Kantemirov general Tomson cənablarına bu məzmunda nota göndərmişdir:

"Alişan ingilis qoşunlarının komandanı və Müttəfiqlərin Bakı nümayəndəsi həzrətləri!

Həmin nota ilə bərabər 3 fevral 1919-uncu sənə 216 nömrə ilə Dağıstan Rəisi-vükəlası [Baş naziri] namına göndərilmiş general-mayor [Vladimir Pavloviç] Şatilovun təqdim olunan məktubundan və Könüllü ordunun verdiyi elamnaməsindən [bəyanatından] görürsünüz ki, Könüllü ordusu qətiyyən nə Dağıstan Hökumətini, nə də Dağıstan Cümhuriyyətini tanımayır. Dağıstan Hökumətinə təklif edir ki, öz xahişi ilə hökumətdən əl çəksin və həman ordu kəndisi öz mülahizəsilə hökumət təşkil etmək istəyir. Könüllü ordu tərəfindən Dağıstan işlərinə müdaxilə edildiyi təqdirdə zati-aliləriniz tərəfindən bu cür işlərin dəf edilməsinə verdiyiniz vədəyə nəzərinizi cəlb edərək məlum edirəm ki, həmin məktubda göstərilən sənədlər nəinki könüllülərin Dağıstan işlərinə müdaxilə edilməsini göstərir, bəlkə büsbütün Dağıstan istiqlaliyyətini qəbul etməyirlər. Dağıstanlıların öz xahişləri ilə könüllülərə müti olacaqları şayiatı [itaət edəcəkləri şayiələri] əbədən [əsla] doğru deyildir. İstilakaranə təcavüz nəticəsi olaraq dağıstanlıların onlara müti olacağı barəsində danışmaq belə lazım deyildir.

Kamali-ehtiramla hökumətim namından zati-alilərinizdən rica edirəm ki, bilatəxir [dərhal] Tersk oblastından Veden, Qroznı, Nazranovski, Vladiqafqazski və Nalçikdən Könüllü ordunu çıxarıb Könüllü ordunu bizim işlərimizə müdaxilə etməyə yol verdirməyəsiniz. Bu da məxfi qalmasın ki, hərgah Könüllü ordunun tutduğu vəziyyətinə qarşı qəti tədbirlər ittixaz edilməzsə [tədbirlər görülməzsə], Könüllü ordu ilə dağıstanlılar arasında qanlı müharibə vaqe olacaqdır.

Kantemirov"

Dağıstan Hökumətinin diplomasi nümayəndəsinin məktubu

Təhti-idarənizdə müntəşir [idarəniz altında nəşr olunan] qəzetənin 45-inci nömrəsində və digər bəzi məhəlli [yerli] qəzetələrdə Tiflisdə olan ingilis heyətinin böylə məlumatı dərc edilmişdi:

"Bu gün mövsuq [etibarlı] mənbələrdən verilən xəbərlərə nəzərən osetin və inquşlar general Denikin ordusuna bolşeviklərlə mübarizə etməkdən ötrü mülhəq olmuşlardır [birləşmişlər]."

Bu məlumat münasibətilə özümə borc bilirəm məlum edim ki, Könüllü ordu nəinki yalnız bolşeviklər əleyhinə, hətta Dağıstan Hökumətini qəbul edən dinc Dağıstan əhali[si] qarşısına da müharibə açmışlardır.

Osetiya ilə İnquşistanda Denikin ordusu tərəfinə bir neçə nəfər monarxistlər [keçmişdir] ki, bunlar da mülkədar və çarizm düşdükdən sonra rütbələrini qeyb etmiş olan afiserlərdir [zabitlərdir]. Osetin və İnquşistan əhalisi əllərində silah olaraq Könüllü ordu qarşısına özlərini və hüquqlarını mühafizə üçün mübarizə və yalnız Dağıstan Parlamanına müti olacaqlarını bəyan edirlər. Tiflisdə olan ingilis heyəti Şimali Qafqaziyadakı həqiqi əhvaldan bixəbər olduğuna görə asan surətdə şəkkə düşə bilər. Ona görə də həqiqəti açmaq məqsədilə işbu məktubun qəzetələrdə dərc edilməsini arzu edirəm.

Kamali-ehtiramla:
Dağıstan Cümhuriyyətinin Azərbaycan Hökuməti
nəzdindəki diplomasi nümayəndəsi
Ə. X. Kantemirov

İRAN İŞLƏRİ

Sipəhdarın təyini

"Rə'd" qəzetəsinin verdiyi xəbərlərə görə, məşhur irticapərəst və böyük mülkədar Sipəhdari-ə'zəm Şimali İran general-qubernatorluğuna təyin edilmişdir. Məhəlli-iqaməti [oturacağı yer] Təbriz şəhəri müəyyən olunub və müşarü-nileyh [adı çəkilən şəxs] bugünlərdə Tehrandan oraya əzimət edəcəkdir [gedəcək].

Şiraz üzərində aeroplan

Yenə həman qəzetənin yazdığına görə, bugünlərdə Şiraz şəhəri üzərində naməlum bir aeroplan görünmüşdür. Aeroplan bir qədər teyr etdikdən [uçduqdan] sonra şəhərin yaxınlığında yerə enmişdir.

Hərc-mərclik

İranın hər tərəfində hərc-mərclik davam etməsi barəsində məlumat alınmaqdadır. Bir çox quldur dəstələri dinc əhalini qətl-qarət etməkdədirlər. Böylə cinayətlər əksəriyyən Astrabad və Şimali İran həvalisindədir [tərəflərindədir].

ŞƏKİ ŞƏHƏRİNİN SON TƏNƏZZÜLÜ

Şəki nə olduğunu bilən varmı? Əvət! Marsel, Beyrut, Moskva və başqa bir neçə Rusiya şəhərləri, bir qədər də Tiflis bilirdi ki, Şəki nədir.

Şəkinin güclü ipəyi, fındığı və dərisi Moskvada işə keçirdi. Lastısı Marseldə satılırdı. Beyrutdan Şəkiyə barama toxumu gəlirdi. Tiflisdə Şəkinin gönü və başqa məhsulatı satılırdı və hakəza [həmçinin] iyirmi beş sənə bundan əqdəm [qabaq] Şəki tədricən tənəzzülə üz qoymağa başlamışdı. O vaxta kimi bütün Dağıstanın şal məhsulu, Buxaranın dərisi orada satılırdı. Burası böyük bir yarmarka idi, birinci ticarət mərkəzi idi. Bir çox yerlərə sənətkarlar və oxucular buradan dəvət olunurdu. Şəki xüsusi və milli mədəniyyətə malik bir mərkəz idi. Maarif tərəfə burada hər yerdən qabaq qədəm qoyulubdur. Milli zükur [oğlanlar] və ünas [qızlar] məktəblərinin əvvəlinci binası Şəkidə qoyulubdur. Müəllimi-şəhir [tanınmış müəllim] Şeyxzadə cənabları, ədibi-möhtərəm Faiq əfəndi, Yusif Kənan bəy və bir çox başqa müəllimlər və ədiblər müddətlərcə Şəkini özlərinə məskən ittixaz etmişlərdir [seçmişlər].

Keçmişdə Şəki bir tərəfdən Gürcüstan-Bakı-Türküstan və İran ticarət yolunun, digər tərəfdən Zaqafqaz-Dağıstan ticarət yolunun üzərlərində ən zəngin bir şəhər idi. O zaman Bakı və Gəncə şəhərləri ticarətdən hələ bir şey dadmamışdılar. Zaqafqaz dəmiryolu müruri-zaman ilə [vaxt ötdükcə] Şəkinin birinci yolunu əhəmiyyəttdən saldı, Vladiqafqaz dəmiryolu isə ikinci yolunu xarabazara döndərdi. Yavaş-yavaş Şəki qəzası nahiyələrindən Qəbələ mahalında (alma-armudun, şahbalutun, qoz-fındığın və düyünün mədəni) bütün alverini dəmiryola yavuq olan Ağdaşa və Göyçaya köçürdü. Bundan əlavə, qəzanın Nic, Padar, Cəfərabad və Göynük kimi mərkəzi qəsəbələrində həftə bazarları açıldı; alver büsbütün Şəkidən daşındı. Şəhərin əlaqəsi öz qəzasından mürurla [tədricən] kəsilməyə başladı. Böylə ki, bu halda ticarət nöqteyi-nəzərindən qəzanın şəhərə mənfəəti yoxdur.

Bu minval, zavallı şəhərin hər cəhətdən alveri kəsilib yalnız ipəkçilik peşəsi üzərinə atıldı. Bu iş get-gedə böyüməyə başladı. Fabrikaların sayı gün-gündən artdı. İpək işi böyük bir tərəqqiyə üz qoydu. Coğrafiyalarda yazıldığı kimi Şəki doğrudan da bütün Qafqaziyanın və sabiq qoca Rusiyanın ipək mərkəzi, ipək mədəni idi. Bir zaman firəng tacirləri Nuxunu ticarət üçün mərkəz ittixaz etmişdilər. Hətta iki sənə bundan əqdəm [əvvəl] ipək öylə bir tərəqqi etmişdi ki, bütün Zaqatala, Ağdaş, Tiflis və Bakı xəzinələri Şəki üçün işləyirlərdi. Yalnız Şəki xəzinəsinin gündəlik mədaxil və məxarici 180.000-200.000 manata yetişmişdi. Rus hökuməti-müstəbidəsi belə öz nəf'ini [xeyrini] gözəl düşündüyündən buraya böyük əhəmiyyət verib Шелководственная станція [İpəkçilik stansiyası] adında ipək işini genişlətmək üçün əsaslı bir ipək təşkilatı düzəltmişdi və get-gedə işi böyüdürdü. Fabriklərə son sistem makinalar gətirilib İtaliya fabrikləri ilə mübarizəyə girişildi. Daha on sənə bundan əqdəm Şəki ilə Tiflisin alver əlaqəsi ol qədər zorlaşmışdı [güclənmişdi, yaxşılaşmışdı] ki, bu iki şəhərin arasında ikinci teleqraf xətti çəkilməyə səbəb oldu.

Yenə həman hökuməti-sabiqə bir daha ziraət, maldarlıq və bağbanlıq işini yaxşılaşdırmaq üçün Огрономическое отдѣленіе [Aqronomluq şöbəsi] adında bir təşkilat düzəltmişdi ki, bu təşkilat az da olsa kəndçilərin və bağbanların imdadına yetişirdi. Sənaye işinə də yavaş-yavaş girişilməkdə idi. Orta Qafqaz dəmiryolu projesində ən birinci əhəmiyyət qazanan Şəki idi. Burada elektrik işığı, elektrik hərarəti və tramvay binası üçün imtiyazlar alınırdı. Fəqət müharibə başlanar-başlanmaz hər şey unuduldu. Marsel ticarəti bağlandı. Neçə sənə sonra Moskva da əldən çıxdı. Alver tədriclə dayandı. Zavodlar batdı. On minlərlə fəhlələr küçə-bazara töküldü. İşsizlik, aclıq və bunların həmrahları [yoldaşları] olan müsri [yoluxucu] xəstəlik əhalini ot kimi biçib tökür. Gələcəyə azacıq ümid yolu qalsaydı, işin böylə bir dəhşətli uçurumlara sarı yürüməsi ol qədəri insanı acındırmazdı .... Bu tənəzzül Şəki şəhərinin son tənəzzülüdür. İki dəfə olub .... Şəkinin həyati-xüsusiyyəsindən müxbir [xəbərdar] olmamaq deməkdir. Moskva kimi geniş bir bazar əldən çıxandan sonra Şəkiyə milyardlar çəkib gətirən bazarı nerədən bulacaqsan? Moskva bir daha diriləcəkmi? Diriləcəksə, əvvəlki bazara malik olacaqmı? Olacaqsa, yapon və İtaliya ipəyi ilə Şəki ipəyi rəqabət edə biləcəkmi? Şəkinin səbəbi-həyatı olan ipək mətasını satmağa başqa bir bazar bulunacaqmı? Türküstandan, Gürcüstandan və Türkiyədən bilaaram [fasiləsiz] axıb gələn barama və qeyri ipək ləvazimatı bir daha geriyə dönəcəkmi? Bu gün başqa alverə girişmiş və asan vəchlərlə [asan surətdə] para qazanan fabrikçilər bir daha fabrik müşkülatına, əmələ tələbatına boyun əyəcəkmi? Şəkinin yolları və başqa pozğunluğu tez bir zaman içərisində düzəlib, ərzaq müşkülatının önü bir dərəcəyə qədər alına biləcəkmi?

Budur hal-hazırda Şəkinin son fəlakətini təşkil edən lövheyi-tarixiyyəsi üzərində qeyd edilmiş acı suallar. Mən bunların əksərinə "Yox!" sözünü qəti bir cavab olaraq söyləməkdən çəkinməyirəm. Mabaqisinin [qalanının] qarşısında "Ümid azdır" deyirəm. Daha bu gündən sonra insafa yerləşməz ki, hər yerdən əlaqəsi kəsilmiş və gələcəyə ümidi olmayan altmış min əhalini iki dərənin içərisində acından qırasan. Belə bir fəlakətə, böylə bir zülmə heç kəsin vicdanı təhəmmül etməz [dözməz] zənnindəyəm. Laziməsi budur ki, işi bir an təxirə buraxmayıb, Şəkinin üzərində yerli fəal adamlardan mütəşəkkil şəhər idarəsi müavinəti [köməyi] ilə bir Komitə əmələ gətirilsin. Bu komitəyə varlılar və hökumət maddi və mənəvi müavinətdə bulunsun. Komitənin əsas proqramı həmin bu maddələrdən ibarət olsun:

1) Fəqir əhali və işsizlər üçün məccani [pulsuz] aşxanalar və müalicəxanalar açmalı.

2) Əhalini leksiya vasitəsilə düşündürməli ki, ipək zavodlarında vücudunuz zəhərlənib sill [vərəm] naxoşluğu qazanmaqdansa, doğma anadan artıq sizə ruzi verə bilən müqəddəs vətən torpağına azacıq zəhmət sərf etsəniz, həm maaşınız [dolanışığınız] təmin və həm canınız salamat olar. Zavod əmələsini [işçisini] inandırmalıdır ki, daha ipək işi tənəzzül etmişdir, gələcəyinə də ümid yoxdur. Əkinçilik deyilsə, sizi möhtəkirlər caynağından qurtaracaq başqa bir şey yoxdur.

3) Fəqir əhalidən xahiş edənlər[i] [istəyənləri], "Daşyüz" və "Bozdağ" deyilən gözəl havalı xali [boş] yerlərdə sakin etməlidir. Orada onlara indidən yazlıq taxıl əkməyə kömək verməlidir. Hümmət camaat tərəfindən olarsa, hökumət də müavinəti müzayiqə etməyəcəkdir [köməyi əsirgəməyəcəkdir].

4) Cəfərabad düzündə şəhər zindəganlığından [yaşayışından] əl çəkmək istəməyənlər üçün bir şəhər binası tərtib etməlidir. Şəki dərəsindən daha şəhər olmayacaqdır. Çünki, axırıncı tənəzzülə üz qoyubdur. Çünki bircə tərəfdən yolu vardır ki, o da Qarasudan başlamış dağa doğru getdikcə yüksəlir. Çünki, Cəfərabadda olan tərəddüd [gediş-gəliş] və alver Şəkinin özündə yoxdur və daha sonra olan tərəddüd də kəsiləcəkdir. Şəhərin içərisində küçələri yox, məccani müalicəsi yox, xəstəxanası yox, sağlam suyu, səhiyyəsi, müntəzəm idarəsi və başqa təşkilati-mədəniyyəsi dəxi yoxdur. Bunların ola biləcəyinə bu ana kimi az-çox ümid var idisə də, şimdi quru ümid də qalmadı. Şəkidə gözəl-gözəl bağ-bağçalar, müntəzəm daçalar və sanatoriyalar əmələ gələ bilər. Bunlar üçün də gözəl tikililər az deyildir və bir də Cəfərabada "Yeni Şəki" binası qoymaq kimsəni qorxutmamalı. Orası həm Şəkiyə yavuqdur, həm də istəyən gedəcəkdir. Və bir də şəhər köçürmək işinə təcili olaraq əncam vermək lüzumu da bu halda yoxdur. Bircə füqərayi-kasibəni təmin edəcək vəsilələrin əncamı üçün əcələ etməli. Hər halda "Yeni Şəki"nin binası indidən qoyularsa, şəhərin gələcəyi təmin edilmiş olar.

5) Şişədə [Şuşada] Azad bəy Əmirov cənabları bir neçə ziyalılarla ittifaqən [birgə] az məxariclə əmələ gətirdiyi mahut şal və başqa gözəl toxunmalar təşkilatı kimi, Şamaxıda olan ipək toxunmalar fabrikləri kimi müəssisələr tərtib etməli; sabun fabriki açmalı, tənbəki işini və bağ peşəsini daha da vüsətləndirməli, ikmal etməli [kamilləşdirməli]. Sənətlərdə bağbanlığa və ziraətə böyük əhəmiyyət və həqiqi bir rövnəq verməli. İpək fabriklərindən vətənimizə yetişəcək miqdarda bir-iki fabrik saxlayıb, mabaqisini [qalanını] yuxarıda göstərilən təşkilatlarla doldurmalı və bu işlərin tez bir zaman içərisində əncam bulmasına lazım gələn hümməti, qeyrəti və hərəkəti müzayiqə etməməlidir.

Parlaman üzvlərindən:
Abdulla Əfəndizadə

MUSA NAĞIYEV

Çoxdan bəri xəstə bulunan Bakı neftçi və milyonerlərindən Musa Nağıyev cənabları mart ayının dördündə vəfat eyləmişdir.

Əvvəli kasıb və ömrünün axırınadək savadsız olan bu mərhumun sərvətcə bu dərəcəyə yetməsi ticarət aləmində nə qədər istedada malik olduğunu göstərir.

Mərhumun ən dəyərli yadigarı özünün sevgili oğlu mərhum İsmayıl namına tikdirib də Müsəlman Cəmiyyəti-Xeyriyyəsinə bəxş etdiyi möhtəşəm "İsmailiyyə" binası idi ki, keçən Mart hadiseyi-əliməsində vəhşi əllər tərəfindən yandırılıb bu anadək o halda qalmaqda və bütün Azərbaycan türklərinin qəlbini cərihədar etməkdədir [yaralamaqdadır].

Biz ümid ediriz ki, mərhumun vərəsələri həmi Musa Nağıyevin, həmi də mərhum İsmayılın təbidi-namları [adlarını əbədiləşdirmək] üçün həman imarətin inşasına yenidən şüru edərlər [başlayarlar].

Mərhum Musa Nağıyev müsəlmanların maarif işlərinə dəxi biganə qalmayıb, Realnı məktəbinin 3-üncü mərtəbəsini öz xərci ilə inşa etdirərək orada müsəlmanlara məxsus əlifba şöbəsi açdırmışdı. Mərhum Musa Nağıyev sonsuz olaraq 90 yaşlarında ikən vəfat eyləmişdir. Allahtaala mərhumu qəriqi-rəhmət eyləsin [rəhmətinə qərq eyləsin].

H. Ə.

HÜSEYN ƏRƏBLİNSKİ

Hüseyn Ərəblinski

İki gün əvvəl sağ idi, salamat idi. Bədənində ölmək, yox olmaq əlaməti yox idi. Ruhu isə öz qəlibində qalmaq və qalmaqla sahibi-qəlibi yaşatmaq və ümidlərlə pərvaz etdirmək [qanadlandırmaq] həvəsi ilə səhneyi-həyatda dolandırırdı. Bu gün isə qanına bələşmiş olan bu bədən, qəlibi-biruh [cansız qəlib] olaraq yıxılıb dil ilə deyil, zəbani-hal [hal dili] ilə: "Ey xalq, mənim zülmümə şahid olun!" deyir. Qəddar, cahil və zalım bir əl, bir güllə ilə bu bədəni yerə yıxmaqla onun o həvəsli ruhu bədəndən fariğ olub [bədənini tərk edib], qatilə qarşı nifrin və lənət edə-edə uçdu və övci-səmada napədid oldu [səmanın ən uca nöqtəsində gözdən itdi].

Ey tamaşaçılar! Zülüm və sitəm səhnəsi üzərində yıxılmış olan bu qanlı bədən, bu ruhsuz qəlib Nadirin, Ağa Məhəmməd Şah Qacarın qətlini təmsil edən diri ölü deyildir. Bu, Hüseyn Ərəblinskinin öz facieyi-həyatını axan qanı və yıxılmış canı ilə təsvir edən nəşidir ki, son rolu öz ömrünün faciəsində axırıncı dəfə oynalmaqla sizə həqiqi bir faciə tamaşası göstərib də əlvida edir... Lakin nahaq yerə əl çalmayın! Bu bədən təkrar durmaz. Durub da sizin alqışlarınıza qarşı qana bələşmiş başını əyməz. Facieyi-həyatının son pərdəsi bir də açılmamaq üzrə əbədi olaraq qapandı. Lakin bu məzlumun, bu zərərsiz insanın, bu kimsəsiz və arxasız cavanın qətli-fəcianəsi əsrarını [faciəli qətlinin sirrini] örtən pərdəni qaldırmaq və bu sirri faş etmək hər kəsin mənəvi borcu olduğu kimi, ən əvvəlcə cavan dövlətimiz Azərbaycan Hökumətinin müqəddəs vəzifəsidir.

Mizrab

İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Qafqaziya səhnəsi daha bir xadimini qeyb etdi – Hüseyn Ərəblini. Fəqət səhnəmiz bu vaxtadək nə qədər dəyərli xadim qeyb etmişsə, böylə böyük bir zərbə yeməmişdir. Bu zıya [itki] Qafqaziya türk səhnəsi üçün bir ordunun baş komandanını qeyb etməsi kimidir.

Hüseyn Ərəbli, yəni ömrünü, səhhətini, rahatını, hətta adını, sanını səhnəyə qurban etmiş, Qafqaziya səhnəsi üçün bu gün gördüyümüz artistləri yetirmiş Hüseyn Ərəbli qətl edilmişdir.

Kərratla [dəfələrlə] yoldaşlarının "Balam, at bu artistliyi, müsəlman səhnəsindən çörək çıxmaz, gəl kasıbçılıq et" deyə məsləhət görməsinə qarşı: – "Yox, mən gərək öz zəhmətim, öz çalışmağımla sübut edim ki, müsəlman səhnəsi də artist yarada bilər, bizim səhnəmiz də sənətkar hasil edər və bu sənətdən çörək çıxar" – deyən Ərəbli öldü. Fəqət bəhəqq [həqiqətən] isbat etdi ki, səhnəmiz dirilər, sənət tərəqqi edər və xadimlərini maddətən yaşada bilər.

Bu gün canfəşanlıqla səhnəyə xidmət etmiş dəyərli, mahir bir sənətkarımızın qətli türk səhnəsi, türk ədəbiyyatı və türk sənayeyi-nəfisəsini [incəsənətini] sevən hər bir türkü bir hüzün və ələm dəryasına qərq edir.

Mərhumun mahir bir sənətkar olduğunu təqdirlə, səhnə xadimləri təşkilatının ən mükəmməli olan Hacıbəyov Qardaşları Müdiriyyəti iki ildən bəri onu rejissor dəvət etmişdi. Hüseyn 17 il zəhmətdən sonra indi ancaq həm maddətən rahat yaşamağa, həm mənən nəşvünümə etməyə [böyüməyə, çiçəklənməyə] imkan tapmışdı ki, qəddar bir əl sanki "Sən murada çatmamalısan" deyə o zavallı cavanı əlimizdən aldı.

Allah rəhmət eyləsin.

X. İ.

BAKI XƏBƏRLƏRİ

Balaxanı mədənlər mərkəzi "Müsavat" idarəsi Sabunçu-Balaxanı dairələrində çalışan bütün müsəlman işçilərinə elan edir ki, lazımlı məsələlər müzakirə edilmək üçün şənbə günü 8 mart saat 2-də mədənlər mərkəzi "Müsavat" idarəsində işçilər müşavirə iclası təşkil ediləcək. Binaənileyh [ona görə], hər mədən öz nümayəndəsini təyin edilmiş vaxtda göndərməsi rica olunur. Məsələlər olduqca mühüm olduğundan, iclasa gələcək qardaşlar dəf'ülvəqt etməməlidirlər [gecikməməlidirlər, təxirə salmamalıdırlar].

Katib: Yusifəli [Əliyev]

"Müsavat"ın müraciəti

Əmələlər, sərvaxt [ayıq-sayıq] olun!

Yoldaşlar, millətdaşlar!

Təzədən zabastovka məsələsi çıxarmaq istəyirlər. Siyasi zabastovka etmək istəyirlər. Bizim istiqlalımızı, hürriyyətimizi qorxu altında saxlayan rus saldatlarının buradan çıxarılmaları ilə bizi tanımayan rus flotunun təslim edilməsi, onları rahat buraxmayır, güclərini kimə isə göstərmək istəyirlər. Bu gün bu məqsəd üçün konfrans çağırmışlar. Ancaq bu xüsusda "Müsavat"a xəbər verməməklə, müsəlman əmələlərini keçəndə olduğu kimi qəflətdə qoymaq istəmişlərdir. Əlbəttə sərvaxt olun, inandığınız firqələrdən lazım gələn xəbər verilməyincə, ara sözlərinə qulaq verməyin, qətiyyən zabastovkaya qoşulmayın! Bu zabastovka çətinlik içində olan vətənimizi müşkülatda qoyacaq, ailələrə də zərrəcə faydası olmayacaqdır.

Məsələnin təfsilini ikinci vərəqədə və türkcə qəzetələrdə oxuyunuz!

Türk Ədəmi-Mərkəziyyət
"Müsavat" firqəsi Bakı Komitəsi
Bakı, 5 mart 1919

AZƏRBAYCANDA

Lənkərandan

Astara mahalını nizama salmaq üçün ingilis əsakirinin [əsgərlərinin] oraya varid olmaları [gəlmələri] "Azərbaycan" ruznaməsinin [qəzetinin] 102-ci sayında yazılmışdısa da, lakin Lənkəran müsəlmanları kamali-vəcd ilə [böyük bir ruh yüksəkliyi ilə] ingilis yolunu gözləyirdilər. Onların gəlmələrindən bəlkə şəhərdəki nizamsızlıq və yollardakı qətl və qarətin önünü alalar!

Bunlar olmadı. Yol ilə gedən şəxslərin halı gün-gündən fənalaşır, tərəddüd [gediş-gəliş] kəsilir. Astara-Lənkəran yolu ilə gedən şəxsləri də qarət edəndən sonra qətl edirlər.

Kanuni-saninin [yanvarın] 28-ində bir arabaçı, beş nəfər lənkəranlı; Məhəmməd Kərbəlayi İsmayıl oğlu, Səfər və Şirəli Məşhədi Məmi oğlanları (iki qardaş), Hüsü Hacıağa oğlu və Əlibala Feyzulla oğlu Astaradan arşın malı alıb Lənkərana gətirmək istəyirlər. Yolda Vel kəndindən bir az keçmiş Vel əsgərləri tərəfindən altı nəfəri də qətl edilmiş, yüz əlli min manata qədər arşın malını və dörd araba atını aparıblar. Üç gündən sonra bir araba və iki meyit tapılmış, qalanlarından xəbər yoxdur.

T. Bayraməlibəyzadə

GÜRCÜSTANDA

Amerika heyətinin vürudu

İyirmi nəfər zabitdən ibarət Amerika heyəti bugünlərdə Tiflisə varid olacaqdır [gələcəkdir]. Bu heyətin qəsdi Zaqafqaziya əhvalı ilə məhəllində [yerində] aşina [tanış] olmaqdır. Sonradan heyət Sülh Konfransına əzimət edəcəkdir [gedəcəkdir].

Tersk oblastında gürcülərin əsgərliyə dəvəti

Gürcüstan Hökuməti iclas[ın]da Tersk oblastında olan gürcülər əhvalı müzakirə edilmişdir. Maçabelidən alınan teleqrafa görə general Denikin əsgərliyə düşməməkdən ötrü vətənlərinə getmək istəyən bütün gürcülərin əsgərliyə alınmaları haqqında əmr vermişdir. On beş min nəfər gürcü əsgərliyə düşməməkdən ötrü vətənlərinə getmək istəyirlər. Hökumət qərar qoymuşdur ki, İngiltərə heyətindən xahiş etsin ki, gürcülərin Tersk oblastında əsgərliyə alınmamaları üçün Denikinə icrayi-təsir edilsin. Əks surətdə Gürcüstan Hökuməti də Gürcüstanda yaşayan rusları əsgərliyə dəvət edəcəkdir. Tersk oblastından gürcüləri Gürcüstana gətirməkdən ötrü yarım milyon manat təxsis edilmişdir [ayrılmışdır].

Azərbaycan üçün daş kömür

Gürcüstan Hökuməti Tkibuli daş kömür mədənləri müdirinə icazə vermişdir ki, Azərbaycana daş kömür aparılsın.

İDARƏYƏ MƏKTUB

Möhtərəm müdir əfəndi!

İşbu məktubumun qəzetənizə dərc olunmasını xahiş edirəm.

"Azərbaycan" qəzetəsinin 109-uncu nömrəsində Məclisi-Məbusanda Quba haqqında söylənən bir para fitnəəngiz [fitnə salan] sözlərdən dolayı artıq dərəcədə məyus olduq. Neçə min illərdən bəri bizim bu pak və əziz olan vətənimiz – ki Azərbaycan ola – əğyarların [düşmənlərin] əsarət zəncirinin altında min illərlə yaşayıb qalmaqda idi. Sonra bir tövfiqi-qeybi [ilahi kömək] vasitəsilə zənciri-əsarətdən nicat tapıb istiqlala nail olmaqla haqq öz mərkəzində qərar tapdı. Məclisi-Məbusan parlaq surətdə qiyam etməyə [qalxmağa, yüksəlməyə] başladı. Vətən vüzərasın[ı] [nazirlərini] iş başında görüb ruhumuz təcəlla etməkdə [qanadlanmaqda] və ancaq xaricdən əmin deyildik ki, bəlkə Azərbaycana bir tərəfdən düşmən çıxıb rəxnə vuralar. Biz bu xəyalda ikən daxildən düşmən görünməyə başladı, nəinki Azərbaycana bəlkə cəmi milləti-islama tarixi bir zərbə vurmaq istədi. Parlamanda danışılan sözlərdən böylə məlum oldu ki, guya bizim Nəzarət məmurları öz sui-istemallarından [sui-istifadələrindən] qorxaraq camaat arasında min cür intriqalar çıxardırlar. Quldurlardan və qoçulardan dəstə düzəldib əhalini bir-birlərinin üzünə salışdırıb əhali arasında dəstəbazlıq salır və məzhəb davası törədirlər və sairə. Nə bir böyük iftiradır. Qubada bir belə söz, yəni sünni və şiə məsələsi ortada görünməkdə deyildir! Məgərinki bir nəfər Qubada keçənlərdə bu rolu oynayıb öz mənafeyi-şəxsiyyəsindən ötrü hər bir vaxtda camaatdan bir təmənnası olan zamanda sünni və şiə məsələsi ortaya atıb öz məqsuduna nail olurdu. Parlaman üzvləri bu cür müfəttinlərin [fitnəkarların] firibinə [hiyləsinə] uyub bizim haqqımızda böylə bir çirkin olan şeyləri rəva görməkdə böyük xəta edirlər. Qubada bu vaxtadək böylə məsələ ortada olmayıb və olmayacaqdır!

Möhtərəm Parlaman əzalarımız [üzvlərimiz] bu cürə fitnəəngiz sözlərə etina etməsinlər, bəlkə bu fitnəni salmaq istəyənləri tutub məhkəməyə cəlb ilə cəzalarına yetişdirsinlər. Quba camaatı isə, əlhamdülillah, bu gün o qədər huşyar [ayıq] və durbindir [uzaqgörəndir] ki, müfəttinlərin sözlərinə etibar etməyib...

Bir qubalı

Diş həkimi
İ. S. Tarşteynbaum

Qəbul edir saat 9-2, saat 4-7.

Dişlərə müalicə edir, ağrısız çıxarır, sadə və qızıl süni dişlər qayırır.

Sisyanovski küçədə 41 nömrəli evdə (Çadrovı küçənin küncündə, Quba meydanı yanında). Telefon nömrə 22-07.

2669

Arvad diş həkimləri
Z. A. Şexter və xanım

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün iş tezliklə görülür. Qiymətlət münasibdir. Qəbul olunur 9 - 2-yə və axşam 4 - 7-yə kimi. Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

215

Axşam tamaşası
Təzə opera

Azərbaycan Hökuməti Teatrosunda Zülfüqar bəy və
Üzeyir bəy Hacıbəyli Qardaşları müdiriyyəti tərəfindən
cümə günü cəmadiyəlaxir ayının
4-ündə martın 7-sində
1919-uncu sənəsi
Müdiriyyətin dirijoru musiqişünas və bəstəkar
Müslüm bəy Maqomayev və məşhur artist
Hüseynqulu Sarablının şərəfinə (benefisinə)
Müslüm bəyin təzə yazmış olduğu
"Şah İsmayıl"
operası birinci dəfə olaraq
mövqeyi-tamaşaya qoyulacaqdır.
6 pərdədə
Bəstəkarı Müslüm bəy Maqomayev,
sözləri Mirzə Qədir İsmayılovundur.
Bu tamaşada bir ildən ziyadə
səhnəmizdə iştirak etməyən
məşhur artistka Y. N. Olenskaya,
böyük xor və balet dəstəsi
iştirak edəcəkdir.
Biletlər teatrın kassasında
indidən satılmaqdadır.
Tamaşa başlanacaqdır
axşam saat 8-in yarısında.
Möhtərəm tamaşaçılardan
xahiş olunur ki, biletləri indidən
alsınlar ki, tamaşa günü bilet almaqda
müşkülata düşməsinlər.

T-50 3-1

Doktor Musa bəy Rəfiyev

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

b-37

Diş həkimi S. M. Hamburq

Nikolayevski küçədə nömrə 29, Parlaman qarşısında. Telefon 5-96.

Dişlərə və ağıza müalicə edir. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Dişləri və tükləri ağrısız çıxarır. Qızıl iş işləyir.

Qəbul edir səhər saat 9-dan 2-yə kimi; axşam saat 4-dən 7-yə kimi.

Агентурно-комиссионно-торговая
Контора "И. Фани и Ко."
Баку, Церковная 70.
Телеф. N 22-28. Почт. ящ. N 13.
Agent, komissiyalar və ticarət kantoru "Fani və kompaniya", Bakı.
Telefon nömrəsi 22-28.
Potça qutusu nömrə 13.

Ucuz qiymət ilən qeyri şəhərlərə mal göndərmək vəzifəsini, hər cürə vağzal işlərini öz öhdəmizə götürürük. Kimə nə mal lazımsa və kimin satılacaq nə malı varsa bizim kantorumuza müraciət etmələri təvəqqe olunur. Satılır: məftul, sabun, matorlar, remenlər, sarı kağız və qeyri mallar külli miqdarda. Kantor açıqdır: səhər saat 8-1, axşam saat 4-7.

5792 6-4

Müvəqqəti müdir:
Hacıbəyli Üzeyir

TRANSLİTERASİYA İLƏ BAĞLI QEYD VƏ ŞƏRHLƏR

Hazırlanan tətilə dair

"amazasplar": dinc azərbaycanlı əhaliyə xüsusi qəddarlıqla divan tutmuş, minlərlə dinc sakinin qatili erməni terroristi Hamazasp Srvandzyan nəzərdə tutulur.

"vəzni-şeir üçün qoyulmuşdur": əslində xüsusi bir ehtiyac olmayan və şeirin mənasına təsir etməyən, sırf vəzni tamamlamaq məqsədi ilə artırılan söz kimi mənasız, "olmasa da olar" söz, tələb, maddə və s.

Qəzetələrdən

"Ponti" (yaxud Pontus, Pont): Kiçik Asiyanın (Anadolunun) şimal-şərqində tarixi bölgə.

"Q. S. A.": Asxabadda (indiki Aşqabadda) nəşr edilən və ağqvardiyaçıların orqanı olan "Qolos Sredney Azii" qəzeti nəzərdə tutulur.

"Rus topxanasının köməyi ilə bolşeviklərin hücumu dəf edilmişdir.": qəzetdə "dəf" yerinə "rəf" yazılmışdır.

Dağıstan hökumətinin notası

"…könüllülərin Dağıstan işlərinə müdaxilə…": qəzetdə "müdaxilə" yerinə "müdafiə" getmişdir.

Şəki şəhərinin son tənəzzülü

"lastı": güman ki, atlas toxumalı pambıq parça olan "lastik" nəzərdə tutulur.

"Müəllimi-şəhir Şeyxzadə cənabları": pedaqoq, dərs kitabları müəllifi Məhəmmədəmin Şeyxzadə nəzərdə tutulur.

"ədibi-möhtərəm Faiq əfəndi": Ömər Faiq Nemanzadə nəzərdə tutulur.

"Yusif Kənan bəy": güman ki, Yusif Kənan Rəhimov nəzərdə tutulur.

"insanı acındırmazdı…": silinmiş, oxunmur.

"iki dəfə olub…": silinmiş, oxunmur.

Hüseyn Ərəblinski

"Mizrab": "Azərbaycan" qəzetində bu imza Üzeyir Hacıbəyliyə məxsusdur.

İnna lillahi və inna ileyhi raciun

"X. İ.": bu imza Xəlil İbrahimə məxsusdur.

İdarəyə məktub

"etibar etməyib…": silinmiş, oxunmur.

Gənclik



Sağlam nəsil, sağlam gələcək

Gənclərimiz xalqımızın və dövlətimizin xoş rifahı naminə çalışırlar

Gənc nəslin sağlam, vətənpərvərlik ruhunda tərbiyəsi, layiqli vətəndaş kimi formalaşması dövlət gənclər siyasətinin əsas istiqamətlərindəndir. Gənclərimizdə Vətənə sevgi hissinin, vətəndaşlıq məsuliyyətinin formalaşması, hər an ölkəsinin və xalqının müdafiəsinə qalxmağa hazır olması çox vacib xüsusiyyətdir.

Ölkəmizdə vətənpərvərlik tərbiyəsinin düzgün qurulmasının, bu sahədə uğurlu islahatların həyata keçirilməsinin nəticəsidir ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin bir çağırışı ilə yüz minlərlə gənc 27 sentyabr 2020-ci ildə silaha sarılaraq torpaqlarımızın müdafiəsinə atıldı, 44 gün davam edən Vətən müharibəsində 30 ilə yaxın işğal altında qalmış ərazilərimizi ermənilərdən azad etdi.

Azərbaycan gənclərinin vətənə sədaqət ruhunda tərbiyə edilməsi Ulu Öndər Heydər Əliyevin azərbaycançılıq ideologiyasının mühüm istiqamətlərindən biri idi. Ümummilli Lider hər bir gəncin Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi, inkişaf etdirilməsi üçün çalışmalı və öz xidmətlərini göstərməli olduğunu dönə-dönə vurğulayırdı. Nadir şəxsiyyət Heydər Əliyev demişdir: "Hər bir xalqın, hər bir millətin, hər bir ölkənin gəncləri onun həm bu günüdür, həm də sabahıdır, ümididir". Azərbaycanı gənclər ölkəsi, gəncləri isə Azərbaycanın gələcəyi adlandıran Ulu Öndər böyüməkdə olan gənc nəslə qayğı və diqqəti daim önə çəkirdi. Hüquqi və dünyəvi dövlət quruculuğu prosesində, çoxşaxəli islahatların reallaşdırıldığı bir vaxtda gənclik enerjisinə ehtiyac duyulduğunu düzgün və zamanında qiymətləndirən Ümummilli Lider müxtəlif illərdə gənclər siyasətinin ayrı-ayrı istiqamətləri üzrə onlarla müvafiq fərman və sərəncamlar imzalamışdı.

Ulu Öndər Heydər Əliyevin müəllifi olduğu dövlət gənclər siyasəti hazırda böyük tarixi şəxsiyyətin layiqli davamçısı, Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir və keyfiyyətcə yeni mərhələyə qədəm qoyur. Bu gün dövlətimizin başçısı tərəfindən uğurla davam etdirilən gənclər siyasəti Azərbaycanda həyata keçirilən və bütün digər sahələri də əhatə edən inkişaf strategiyasının və bazasının mühüm tərkib hissəsidir. Əgər hazırda Azərbaycan gəncliyi ölkənin ictimai həyatının bütün sahələrində çoxşaxəli fəaliyyəti ilə diqqəti cəlb edirsə, siyasi, iqtisadi, humanitar, sosial layihələrin həyata keçirilməsində ön sıralarda addımlayırsa, bu, birbaşa dövlət gənclər siyasətinin uğurla həyata keçirilməsinin bariz nümunəsidir.

Dövlətimizin yaratdığı hərtərəfli imkan və şərait nəticəsində gənclərimiz indi cəmiyyətin aparıcı qüvvəsinə çevriliblər. Onlar ölkəmizin işıqlı gələcəyi naminə inamlı addımlar atmaqları ilə xalqımızı sevindirirlər. Prezident İlham Əliyevin gənclərin potensialının reallaşmasına, onların vətənpərvər ruhda, savadlı kadr kimi formalaşmasına, gənc ailələrin sosial təminatına yönələn əhatəli və irimiqyaslı tədbirlər proqramı dövlətin məhz sabaha, gələcəyə hesablanmış siyasətinin göstəricisidir. Hərtərəfli düşünülmüş və gələcəyə ünvanlanan bu siyasət gənc nəslin ictimai-siyasi həyatındakı rolunun artmasına, ölkənin aparıcı qüvvəsinə çevrilməsinə, bütövlükdə istedadlı gəncliyin formalaşmasına şərait yaradır. Dövlətin gənclərə daim dəstək və diqqət göstərməsinin nəticəsidir ki, bu gün Azərbaycan gəncliyində özünə, gücünə, istedadına böyük inam hissi yaranıb. Ölkəmizin gəncləri dövlətimizin dəyərli vətəndaşları olduqlarını səmərəli və bacarıqlı fəaliyyətləri ilə bütün sahələrdə sübut edirlər. Sevindirici haldır ki, gənclərimiz bütün sahələrdə xalqımızın və dövlətimizin xoş rifahı naminə çalışırlar. Çalışqanlıqları ilə təhsillərində, işlərində uğurlar qazanırlar. Qazanılan bu uğurlar onların başını həmişə uca edir. Ucalıqlar və zirvələr isə gənclərimizə çox yaraşır.

Azərbaycan Prezidenti İlham Əliyev gənclərə olan münasibətini belə vurğulamışdır: "Mənim gənclərə xüsusi münasibətim var, mənim ürəyim sizinlədir. Siz bütün işlərdə mənə arxalana bilərsiniz. Mən də sizə arxalanıram". Dövlət başçısının gənclərin potensialının gerçəkləşməsinə, onların vətənpərvər, savadlı kadr kimi formalaşmasına, gənc ailələrin sosial təminatına yönələn məqsədyönlü addımları dövlətin uzaqgörən siyasətinin göstəricisi kimi qiymətləndirilir. Gündən-günə təkmilləşdirilən, yeniləşdirilən dövlət gənclər siyasəti böyüməkdə olan nəslin ictimai-siyasi həyatdakı rolunun artmasına, ölkənin aparıcı qüvvəsinə çevrilməsinə, sağlamruhlu gəncliyin formalaşmasına əlverişli zəmin hazırlayır. Dövlətin gənclərə daim dəstək və diqqət göstərməsinin nəticəsidir ki, Azərbaycan gəncliyində istedadına və uğurlu gələcəyinə inam artıb.

Gənclik daim cəmiyyətin önündə addımlamaqla yanaşı, həm də həmişə axtarışda olan, yeniliyə can atan əvəzsiz və yenilməz qüvvədir. Sağlam gənclik sağlam nəsil, sağlam gələcək deməkdir. Bu gün Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərliyi altında ölkə gənclərinin sağlam ruhda tərbiyə edilməsi, dövlət qayğısı ilə əhatə olunması istiqamətində uğurlara hesablanmış səmərəli və məqsədyönlü islahatlar həyata keçirilir. Uğurlu islahatlar gənclərimizi işıqlı gələcəyə, xoşbəxt həyata qovuşduracaq.

Vahid MƏHƏRRƏMOV,
"Azərbaycan"

İstedadlar

"Məqsədim vətənimə layiqli xidmət etməkdir"

Düşündük ki, onu necə təqdim edək - üç dəfə fizika üzrə Respublika Olimpiadasında gümüş medal qazanan gənc fizik, yaxud da iki dəfə Milli Astronomiya Olimpiadasında qızıl medal qazanan astronom kimi... Bəlkə onu Beynəlxalq Fizika Olimpiadasında iştirak edən ilk qadın azərbaycanlı kimi tanıdaq. Qəndab həm də ABŞ-nin Rice Universitetinin Texasda keçirilən Qlobal Kopernik Olimpiadasında birinci yerə sahiblənib vətənə qızıl medalla qayıdan ilk azərbaycanlı fizikdir...

19 yaşlı gəncin uğurları o qədər çoxdur ki, saymaqla qurtaran deyil. Bircə bizə qalır "uğurlar arzulayıb, davamlı olsun", - demək. Haqqında söhbət açdığımız gənc Qəndab Şaiq qızı Məmmədova 2005-ci il aprelin 2-də Bakı şəhərində dünyaya göz açıb. Bakıdakı 279 saylı tam orta məktəbi qızıl medalla başa vuraraq Harvard Universitetinə tam təqaüdlə qəbul olunub.

Qəndab deyir ki, qazandığım uğurlara görə valideynlərimə və müəllimlərimə minnətdaram. Hələ məktəbə getməmişdən valideynlərim hərfləri və rəqəmləri öyrədər, elmlə məşğul olan insanların həyatı haqqında maraqlı söhbətlər edərdilər. Bu da mənim daha çox elmə maraq göstərməyimə səbəb oldu. Məktəbdə isə fizika müəllimi mənə xüsusi qayğı və diqqət göstərdi. Fizika olimpiadalarına hazırlaşmağım üçün hərtərəfli şərait yaratdı. Hətta mənəvi dəstək bir yana, maddi kömək də göstərdi. Bir sözlə, müəllimlərim mənə ilk növbədə özümə inanmağı, potensialımı tam şəkildə ortaya qoymağı, çox çalışmağı aşıladılar. Fürsətdən istifadə edib akademik Fuad Hacızadəyə, Namiq Süleymanova, Rəşadət Qədiməliyevə, Xıdır, Famil və Abdullah müəllimlərə minnətdarlığımı bildirmək istəyirəm. Müvəffəqiyyətlərinə görə əvəzsis xidmətləri olan Mirzə müəllimə borcum var.

Qəndab Məmmədova orta məktəbi başa vurduqdan sonra qarşıya qoyduğu hədəfə çatmaq üçün bir il xarici dil imtahanlarına hazırlaşdı. Polşada keçirilən Beynəlxalq Astronomiya və Astrofizika Olimpiadasında (İOAA 2023) (6) iştirak etdi. Universitetlər üçün esselər hazırladı.

Qəndab deyir ki, universitetlərə esselər yazıb göndərmək dönəmində bərk xəstələnmişdim. Esselərin qənaətbəxş olacağına inamım az idi. Buna görə çox narahat idim. Lakin esselərim universitet tərəfindən yaxşı qiymətləndirildi. Hətta universitet tərəfindən müsahibəyə də dəvət olundum. Bu il martın 29-da səhər saat 3-də Harvardın vebsaytını açdığım zaman böyük "Congratulations!" (Təbriklər!) sözünü, eyni zamanda arxa fonda musiqi səslərini eşitdikdə bunun qəbul xəbəri olduğunu anladım. Dərhal bu şad xəbəri valideynlərimə, müəllimlərimə və bu prosesdə mənə dəstək olan yaxın dostlarıma çatdırmaq üçün tələsdim.

Sonra sənədlərimi təqdim edən üzvlərdən birindən məktub aldım. Bu emaili oxuduqda Harvardın insanı təkcə akademik nəticələri ilə deyil, eyni zamanda daxili xüsusiyyətlərinə görə də qiymətləndirməyi məni çox heyrətləndirdi. Emaildə yazılanlara görə həmin üzvün sənədlərimə baxış keçirməsinin əsas səbəbi esselərimdən mehriban, fədakar təbiətim olduğunu düşünmələri və topluma qatqılarım idi.

Harvardda astrofizika sahəsi üzrə təhsilimi davam etdirmək istəyirəm və bunun əsl səbəbi kainata olan marağımdır. Hədəflərim tam aydın olmasa da, vətənimə və dünyaya yararlı işlər görmək, yaşadığımız dünyanın inkişafında payımın olmasını çox istəyirəm. Lakin bunun üçün öncə öz üzərimdə işləyib sahəmdə kamil yetişməyimin əsas olduğunu düşünürəm. Buna görə də saysız-hesabsız fürsətlərlə dolu təhsil ocağının bizə təqdim etdiyi bütün imkanlardan maksimum dərəcədə yararlanmağa çalışacağam. Əminliklə demək istəyirəm ki, ən böyük arzum elmimlə, biliyim və bacarığımla vətənim Azərbaycana xidmət etməkdir. Qazandığım uğurları vətənimə ittihaf edirəm.

Elşən QƏNİYEV,
"Azərbaycan"

Uğura imza atanlar

Azərbaycanlı alim Türkiyədə "İlin gənc elm adamı" seçildi

Bu günlərdə qardaş ölkədən gələn xoş xəbər hamımızı sevindirdi. Türkiyənin nüfuzlu Boğaziçi Universitetinin Fizika departamentinin azərbaycanlı əməkdaşı, fizika elmləri namizədi İlmar Qəhrəmanov Türkiyənin mötəbər Bilim Akademiyası tərəfindən "Gənc elm adamı" (BAGEP) mükafatına layiq görülüb.

Alim barəsində internet resurslarında axtarışlar apardıq. İlk qısa sorğu öz bəhrəsini verdi: adıçəkilən gənc alim 2003-cü ildə ali məktəbə daxil olarkən ən yüksək bal topladığına görə Prezident təqaüdünə layiq görülmüşdü. Doğrudan da həqiqi elmdə, təhsildə məqsədə çatmaq üçün təsadüflər, kiminsə himayədarlığı, kəsə yollar yoxdur. Qazanılan hər bir uğur sərrast idraka, ağır zəhmətə, yuxusuz gecələrə, usanılmaz təcrübələrə bağlıdır.

O da məhz həmin yolu seçdi. Başqa cür ola da bilməzdi, çünki gözünü açandan evdə, ailədə hamını çalışqan, halal əməklə məşğul olan, Vətənə, xalqa gərəkli vətəndaş kimi görüb. Qarabağ müharibələri qazisi olan atasından isə iki möhtəşəm məqamı əxz edib - vətənpərvərlik və fizika sevgisi. Uzun illər Sərhəd Qoşunlarının aviasiya xidmətində hərbi xidmətdə olan polkovnik Balaxan Qəhrəmanov qırıcı təyyarəçidir. Savaş zamanı düşmənin torpaqlarımızda qazdığı səngərlər üzərində çoxsaylı uçuşlar həyata keçirib, hədəfləri zərərsizləşdirib, təltifləri var. Şəxsi kitabxanasındakı fizikaya aid kitablar və digər mənbələr övladının da bu elmə meyil salması ilə nəticələnib.

İlmar da səma şahininin şərəfli yolunu davam etdirməyi qərara alıb, amma elmdə - qələmlə, zehinlə, kəşflərlə... Əslən Salyan rayonundan olsalar da, valideynlərinin xidməti işi ilə əlaqədar 1985-ci ildə Hacıqabulda doğulub. Orta təhsilini Bakıda 289 saylı "Zəngi" liseyində alıb. Böyük müvəffəqiyyətlə Bakı Dövlət Universitetinin Fizika fakültəsinə daxil olub. Bilik və bacarığına görə dünyanın daha nüfuzlu tədris-tədqiqat ocaqlarının qapıları üzünə açılıb. 2005-2009-cu illərdə Moskva Milli Tədqiqat və Texnologiya Universitetində MISiS bakalavr, daha sonra maqistratura (fizika) üzrə təhsilini davam etdirib. 2012-ci ildə Almaniyanın Hamburq Universitetnin Riyaziyyat fakültəsində riyazi fizika üzrə maqistr dərəcəsinə yiyələnib. 2012-2015-ci illərdə Berlin Humboldt Universitetində PhD (aspirantura) oxuyaraq, orada nəzəri fizika üzrə elmlər namizədi elmi dərəcəsi alıb. 2015-2017-ci illərdə Maks Plank Cəmiyyətinin Albert Eynşteyn adına Qravitasiya Fizikası İnstitutunun (Potsdam, Almaniya) doktorantı olub. 2019-cu ilə qədər İstanbulda Mimar Sinan Güzel Sanatlar Universitetinin Fizika fakültəsində çalışıb. Son beş ildə isə Boğaziçi Universiteti Fizika bölümünün əməkdaşıdır. Həmçinin Bakıda Xəzər Universitetində Riyaziyyat departamentində fəaliyyət göstərən "Riyaziyyat və onun tətbiqləri" elmi-tədqiqat mərkəzinin üzvüdür.

İlmar Balaxan oğlu Qəhrəmanov riyazi və nəzəri fizikanın yüksək enerji fizikası, supersimmetriya, SİM nəzəriyyəsi və inteqrallanan sistemlər kimi sahələr üzrə tanınmış mütəxəssisdir.

Türkiyə Cümhuriyyətinin Bilim Akademiyasının Ödül komitəsi isə ölkədə fəaliyyət göstərən gənc elm adamları arasından ən parlaq və beynəlxalq nüfuza sahib olanları, eləcə də gələcək fəaliyyətində uğur qazanacağına inamlıları seçməyi hədəfləyir. Qaliblərə elmi tədqiqatlarında kömək məqsədilə təqaüd və digər pul mükafatlarının verilməsi də nəzərdə tutulur.

Qurban MƏMMƏDOV

Füzuli könüllüləri ilk dəfə olaraq ərazidə fəaliyyətə başlayıblar

İşğaldan azad olunmuş Füzuli şəhərində Füzuli könüllülərinin təqdimatı keçirilib. "Böyük Qayıdış" Gənclər Təşkilatından bildirilib ki, Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin Xüsusi Nümayəndəliyinin, Gənclər Fondunun və Gənclər və İdman Nazirliyinin dəstəyi ilə "Böyük Qayıdış" Gənclər Təşkilatı tərəfindən formalaşdırılan "Qayıdış Könüllüləri" Proqramının "Füzuli Könüllüləri" qrupu ilk dəfə olaraq ərazidə fəaliyyətə başlayıb.

Prezident İlham Əliyevin işğaldan azad edilmiş ərazilərimizdə aparılan işlərə gənc nəslin, xüsusilə də kökləri bu torpaqlara bağlı olan gənclərin daha geniş cəlb edilməsi çağırışına uyğun olaraq həyata keçirilən "Qayıdış Könüllüləri" proqramının əsas məqsədi azad olunmuş ərazilərdə könüllülük fəaliyyətini dəstəkləmək, əslən oradan olan gənclərin doğma torpaqlarında yenidənqurma və bərpa işlərində, eləcə də bölgənin zəngin tarixi-mədəni irsinin təbliğində iştirakını təşviq etmək və Böyük qayıdış prosesinə töhfə verməkdir.

Füzuli könüllülərinin şəhərə təşkil olunan səfəri zamanı Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov könüllülərlə görüşərək, şəhərdə aparılan bərpa-quruculuq işləri ilə bağlı məlumat verib. Emin Hüseynov onlara bu nəcib işdə, gələcək fəaliyyətlərində uğurlar arzulayıb, yeni təcrübə, dünyagörüşü, sosiallaşma, uğurlu karyera yolu baxımından bu proqramın könüllülər üçün faydalı olacağını qeyd edib. Həmçinin görüşdə tərəfdaş qurumların nümayəndələri könüllülərə işğaldan azad olunmuş ərazilərdə, eləcə də Füzuli rayonunda könüllü fəaliyyətinin təşkili və onların iştirakı ilə həyata keçiriləcək fəaliyyət haqqında ətraflı məlumat verib. Bildirilib ki, Füzuli könüllülərinin belə səfərlərinin tez-tez təşkili, eyni zamanda nümayəndəliklə birlikdə Füzuli rayonunda müxtəlif məzmunlu, maraqlı tədbirlərin keçirilməsi nəzərdə tutulub.

Səfər zamanı könüllülər işğaldan azad olunmuş və yenidən qurulan, həyatın canlandığı Füzuli şəhəri ilə yaxından tanış olub, görülən işlər haqqında ətraflı məlumat əldə ediblər. Həmçinin kənddə məskunlaşan uşaq, yeniyetmə və gənclərlə görüşüblər.

Qeyd edək ki, könüllülər növbəti mərhələlərdə Füzuli rayonunda fəaliyyət göstərəcək, o cümlədən tədbirlərin təşkilində iştirak edəcəklər. Eləcə də bölgəyə səfər edən yerli və xarici qonaqlarla işləyəcək, bərpa və yenidənqurma işlərinə, qayıdışa hazırlıq və məskunlaşmaya könüllü dəstəyin göstərilməsinə cəlb olunacaqlar.

Azərbaycan sumoçuları Avropa çempionatını 11 medalla başa vurublar

Azərbaycanın sumo üzrə milli komandaları Yunanıstanın Lutraki şəhərində keçirilmiş Avropa çempionatında uğurla çıxış ediblər.

Gənclər və İdman Nazirliyinin Mətbuat xidmətindən verilən məlumata görə, 21 yaşlılar arasında Abdullah Şərif (85 kiloqram) qızıl, Cavidan Nəhmətov (77 kiloqram) və Fərid Əhmədov (92 kiloqram) isə bürünc medala sahib olublar. U-23 yaş kateqoriyası üzrə Abdullah Şərif (85 kiloqram) gümüş, Xasay Yusif (115 kiloqram və mütləq çəki) 2 bürünc medal əldə ediblər.

Böyüklər arasında Çingiz Səmədov (100 kiloqram) gümüş, Abdullah Şərif (85 kiloqram) və Rəsul Məmmədzadə (77 kiloqram) bürünc medal qazanıblar. Bu nəticə ilə böyüklərdən ibarət yığma, komanda hesabında üçüncü olub.

Tələbə və magistrantlar mükafatlandırılıblar

Azərbaycan Memarlıq və İnşaat Universitetinin (AzMİU) Əcnəbi dillər kafedrasının təşkilatçılığı ilə Ulu Öndər Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə həsr edilmiş tələbə və magistrantların 46-cı elmi konfransında iştirak etmiş tələbələrlə görüş keçirilib.

AzMİU-dan bildirilib ki, görüşdə kafedranın müdiri Aygün Məmmədova və Tələbə Elmi Cəmiyyətinin sədri Günel İmamquliyeva konfransda iştirak etmiş tələbə və magistrantların fəallığını yüksək qiymətləndirib, gəncləri elmi yaradıcılığa diqqət göstərməyə, elmi nailiyyətləri ilə seçilməyə səsləyib.

Sonda konfransda I, II, III yerləri tutan tələbələrə diplom və digər iştirakçılara sertifikatlar təqdim olunub.

Paytaxtda hava niyə tozludur?

Mütəxəssislər diqqətli olmağı tövsiyə edirlər

Ölkə ərazisində bir neçə gündür ki tozlu hava şəraiti davam edir. Meteoroloji stansiyalardan əldə olunan məlumata görə, mayın 27-də Bakı və Abşeron yarımadasında havada tozun miqdarı normadan 2.8-3.2 dəfə çox olub.

Mayın 26-da isə havada tozun miqdarının normadan 3-3.5 dəfə yüksək olduğu qeydə alınmışdır. Milli Hidrometeorologiya Xidmətinin rəsmisi Gülnarə Abbasova bildirib ki, havada müşahidə olunan toz meteoroloji şəraitlə əlaqədar transsərhəd xarakterlidir. Sinoptik şəraitlə əlaqədar olaraq şimal-qərb istiqamətli küləyin təsiri nəticəsində gün ərzində tozun miqdarının tədricən azalacağının gözlənildiyini söyləyib.

Bu, havanın zəhərlənməsinə gətirib çıxarır

Transsərhəd xarakterli hava çirkləndirilməsi zamanı zərərli maddələr bilavasitə və dolayı yolla hava mühitinə daxil olur. Hava çirkləndiriciləri böyük məsafələrə keçir, insanların sağlamlığı üçün təhlükə törədərək, canlılara və ekosistemə zərər vurur. Toz hissəcikləri yerin cazibə qüvvəsi nəticəsində atmosferə daxil olur. Lakin o, həmin ölkənin səmasında uzun müddət qalmır, öz yerini tədricən dəyişir. Ona görə də havanın tərkibini və tullantı mənbələrini təyin etmək qeyri-mümkündür.

Mütəxəssislər bildirirlər ki, hər hansı səbəbdən havanın tərkibinin dəyişməsi havanın zəhərlənməsinə gətirib çıxarır. Toz hissəcikləri havadakı karbon qazının miqdarını artıraraq bəzi xəstəliklərin yaranmasına da səbəb olur. Tozun tərkibində hansısa radioaktiv elementlərin, yaxud digər konserogen maddələrin olub-olmadığı müəyyən edilməli, radiasiya fonu öyrənilməlidir. Həmin konserogen effekti olan maddələr bronx tellərini mexaniki qıcıqlandırıb ciddi dəyişikliklər törədə bilər. Belə hava şəraiti immuniteti zəif olan insanlara, hamilələrə və uşaqlara daha pis təsir edir.

Toz ilk olaraq tənəffüs yollarına çökdüyü üçün insanlarda ağciyər xərçənginin yaranmasına səbəb ola bilər. Təbii ki, yalnız bir amil xərçəng yaratmaq üçün yetərli deyil, amma tozun tərkibində elə radiasion fon ola bilər ki, tənəffüs yollarında qıcıqlanma yaradaraq, gələcəkdə xərçəng törəməsinin inkişafı üçün əsas ola bilər. Bundan başqa, gipsmənşəli müxtəlif toz hissəciklərinin nəfəs yollarına düşməsi bronxları ciddi şəkildə narahat edir. Toz-duman qatı xüsusilə astma xəstəliyi və allergiyası olan insanlara problemlər yaradır.

Psixoloqlar tozlu havanın əsəb sisteminə təsir etdiyini də bildirirlər. Belə hava şəraiti insanların əhvali-ruhiyyəsinə ciddi təsir göstərir. Xüsusən də meteohəssas insanlar bunun daha çox əziyyətini çəkirlər. İnsanlar belə hava proqnozları ilə qarşılaşdıqda xoşagəlməz nəsə baş verəcəyi ilə bağlı özlərini mənfi emosiyalarla yükləyirlər.

Tozlu havada tibbi maskadan istifadə etmək lazımdır

Mütəxəssislərin fikrincə, tozlu havalarda insanların maarifləndirilməsi olduqca vacibdir. Toz hissəciklərinin artdığı açıq havada uzun müddət dayanmaq olmaz. Bu cür havada mütləq maskadan istifadə edilməlidir. Həmçinin qapı-pəncərələrin bağlı saxlanılmasına diqqət etmək lazımdır. Toz nümunələrinin tənəffüs yollarına daxil olmasının qarşısı alınmalıdır. Bu dövrdə orqanizmin tozla təması nə qədər az olsa, onun zərərverici təsiri də az olar.

Ülkər XASPOLADOVA,
"Azərbaycan"

Hava əsasən yağmursuz keçəcək

Azərbaycanda mayın 28-nə gözlənilən hava proqnozu açıqlanıb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraitinin yağmursuz keçəcəyi gözlənilir. Şimal-qərb küləyi əsəcək, gündüz şimal-şərq küləyi ilə əvəzlənəcək. Havanın temperaturu gecə 13-18°, gündüz 23-28° isti olacaq. Atmosfer təzyiqi normadan yüksək - 763 millimetr civə sütunu, nisbi rütubət gecə 60-70, gündüz 45-55 faiz təşkil edəcək.

Azərbaycanın əksər rayonlarında havanın əsasən yağmursuz keçəcəyi, lakin gündüz bəzi dağlıq və dağətəyi rayonlarda arabir yağış yağacağı gözlənilir. Qısamüddətli leysan xarakterli olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 13-17°, gündüz 23-28° isti, dağlarda gecə 5-10°, gündüz 13-18° isti olacağı ehtimal edilir.

Naxçıvan şəhərində, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Qısamüddətli şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 9-14°, gündüz 22-27° isti olacağı proqnozlaşdırılır.

Xankəndi şəhərində, Şuşa, Xocalı, Xocavənd, Ağdam, həmçinin Daşkəsən, Gədəbəy, Göygöl rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Qısamüddətli leysan xarakterli olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 5-10°, gündüz 17-22° isti olacağı bildirilir.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz əsasən dağlıq ərazilərdə arabir yağış yağacağı gözlənilir. Qısamüddətli leysan xarakterli olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, sulu qara keçəcəyi ehtimalı var. Bəzi yerlərdə arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 5-10°, gündüz 13-18° isti, bəzi yerlərdə 22-24° isti olacağı ehtimal edilir.

Gəncə şəhərində, Qazax, Samux, Goranboy, Tərtər, Şəmkir, Tovuz, Naftalan, Füzuli rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz dağlıq ərazilərdə arabir yağış yağacağı gözlənilir. Qısamüddətli şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 11-16°, gündüz 21-26° isti olacağı ehtimalı var.

Mingəçevir şəhərində, Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Ağdaş, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz dağlıq ərazilərdə arabir yağış yağacağı gözlənilir. Qısamüddətli leysan xarakterli olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var.

Bəzi yerlərdə arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 10-15°, gündüz 20-25° isti, dağlarda gecə 7-12°, gündüz 16-21° isti olacağı gözlənilir.

Şirvan şəhərində, Yevlax, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Bərdə, Beyləqan, Sabirabad, Saatlı, Göyçay, Ucar, Hacıqabul, Zərdab, Salyan, Neftçala rayonlarında hava əsasən yağmursuz keçəcək. Bəzi yerlərdə arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 13-17°, gündüz 23-28° isti olacaq.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara, Biləsuvar, Cəlilabad rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz dağlıq ərazilərdə arabir yağış yağacağı gözlənilir. Qısamüddətli şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə arabir duman olacaq. Şərq küləyi əsəcək.

Havanın temperaturu gecə 14-17°, gündüz 21-26° isti, dağlarda gecə 11-14°, gündüz 17-22° isti olacağı proqnozlaşdırılır.

OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

"AZƏRBAYCAN" qəzetinə 2024-cü il üçün abunə yazılışı davam edir!

Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:

"Azərpoçt" MMC	(012) 598-49-55, (051) 225-02-13
"Azərmətbuatyayımı" ASC	(012) 441-19-91, (050) 322-33-17
"Qaya" firması	(012) 566-77-80, (050) 214-40-53
"Region Press" MMC	(055) 316-79-01, (050) 316-79-01
"Səma-M" MMC	(012) 594-09-59
"Ziya" LTD	(012) 497-76-96, (050) 306-77-22
"Pressinform" MMC	(012) 598-49-52, (070) 340-01-00
"City press" MMC	(055) 819-09-26

1 illik -187,20 (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
6 aylıq - 93,60 (doxsan üç manat altmış qəpik) **manat**
3 aylıq - 46,80 (qırx altı manat səksən qəpik) **manat**
1 aylıq - 15,60 (on beş manat altmış qəpik) **manat**

Hörmətli oxucular!

Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (Tel.: (012) 539-59-33) zəng vura bilərsiniz.

Azercell abunəçilərinin nəzərinə!

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 29.05.24-cü il tarixi saat 23:00-dan etibarən 30.05.24-cü il tarixi gecə saatları ərzində bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür.

"Səba" ASC-nin səhmdarlarının nəzərinə!

28 iyun 2024-cü il tarixinə saat 15:00-a təyin edilmiş Abşeron rayonu, Xırdalan şəhəri, Heydər Əliyev prospekti, 1 ünvanında keçiriləcək "Səba" Açıq Səhmdar Cəmiyyətinin səhmdarlarının növbəti ümumi yığıncağının gündəliyinə dəyişikliklər edilmişdir.

Ümumi yığıncağın gündəliyinə aşağıdakı məsələlərin müzakirəsi daxil edilmişdir:

1. "Səba" Açıq Səhmdar Cəmiyyətinin 2023-cü il üçün illik (maliyyə) hesabatları barədə.

2. "Səba" ASC-nin törəmə cəmiyyətlərində iştirak payları, törəmə cəmiyyətlərin nizamnamə kapitalının artırılması və törəmə cəmiyyətlərin ümumi yığıncaqlarında təmsil edilmə barədə.

Ümumi yığıncağa gələn səhmdarlar şəxsiyyəti təsdiq edən sənəd, səhmdarların nümayəndələri isə şəxsiyyəti təsdiq edən sənəd və nümayəndənin səlahiyyətini təsdiq edən etibarnamə təqdim etməlidirlər.

Əlaqə telefonu: +994124044441
Ünvan: Z0100, Abşeron rayonu, Xırdalan şəhəri, Heydər Əliyev prospekti, 1

"Səba" ASC-nin İdarə Heyəti

Düzəliş

"Azərbaycan" qəzetinin 26 may 2024-cü il tarixli sayında dərc edilmiş "Səba" ASC-yə elanın giriş hissəsi aşağıdakı kimi oxunmalıdır: "2022-ci maliyyə ili üzrə "Səba" ASC-nin kənar auditoru olmuş "Nexia EA" QSC tərəfindən audit edilmiş maliyyə hesabatları daha öncə dərc edilmiş hesabatın əvəzinə təqdim edilir. Bununla da "Səba" ASC üçün 2022-ci maliyyə ili üzrə "Nexia EA" QSC tərəfindən audit edilmiş maliyyə hesabatları əsas götürülərək nəzərə alınsın".

"Səba" ASC-nin İdarə Heyəti

Bağlı qalmış daha bir xüsusilə ağır cinayətin üstü açılıb

Baş Prokurorluq və Daxili İşlər Nazirliyi əməkdaşlarının birgə fəaliyyəti nəticəsində bağlı qalmış daha bir xüsusilə ağır cinayətin üstü açılıb.

AZƏRTAC xəbər verir ki, bu barədə Baş Prokurorluğun və Daxili İşlər Nazirliyinin birgə yaydığı məlumatda bildirilib.

Belə ki, həyata keçirilmiş çoxsaylı istintaq və əməliyyat-axtarış tədbirləri nəticəsində 2024-cü ilin yanvar ayında Fəqan Fərəcovun İmişli rayonunda yaşayan atasının qəsdən öldürülməsini tanışı İlkin Hüseynova sifariş verməsi, İlkin Hüseynovun isə cinayəti icra etmək üçün qabaqcadan əlbir olduğu Fariz İsmayılovla birlikdə İmişli rayonuna getməsi, lakin öz iradələrindən asılı olmayan səbəblərdən törədilməsinə hazırlıq gördükləri sifarişlə qəsdən adam öldürmə cinayətini başa çatdıra bilməmələrinə əsaslı şübhələr müəyyən edilib.

Baş Prokurorluğun İstintaq idarəsində istintaqı aparılan iş üzrə toplanmış sübutlar əsasında Fəqan Fərəcov Cinayət Məcəlləsinin 32.3 (cinayətin təşkilatçısı), 28, 120.2.1 (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən adam öldürməyə hazırlıq), 32.3, 28, 120.2.5 (sifarişlə adam öldürməyə hazırlıq) və digər maddələri, İlkin Hüseynov və Fariz İsmayılov isə həmin məcəllənin 28, 120.2.1, 28, 120.2.5 və digər maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilərək barələrində müstəntiqin vəsatətləri və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatları əsasında məhkəmə qərarları ilə həbs qətimkan tədbiri seçilib.

Cinayət işi üzrə təqsiri olan bütün şəxslərin müəyyən edilərək məsuliyyətə cəlb olunması təmin olunacaq.

"Bağlı qalmış cinayət işlərinin açılması daim diqqət mərkəzində saxlanılmaqla, cinayət əməlini törədən şəxslərin ifşa olunaraq məsuliyyətə cəlb olunması istiqamətində aidiyyəti dövlət qurumları tərəfindən mütəmadi olaraq birgə tədbirlər davam etdirilir", - deyə birgə açıqlamada bildirilib.

Qəzetin daim yenilənən rəsmi internet ünvanı:
www.azerbaijan-news.az

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti
539-49-20

ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Memarlar İttifaqının İdarə Heyəti üzvləri tanınmış alim, memarlıq üzrə fəlsəfə doktoru, Azərbaycan Memarlar İttifaqının qocaman üzvü

ŞƏNƏR NİYAZİ OĞLU RZAYEVİN

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

Qəbul otağı	- 539-68-71,	Beynəlxalq həyat, idman	
Baş redaktor müavinləri	- 538-86-86, 434-63-30, 539-72-39	və informasiya şöbəsi	- 539-63-82, 432-37-68
		Humanitar siyasət şöbəsi	- 538-56-60
Məsul katib	- 539-43-23,	İctimai əlaqələr şöbəsi	- 539-49-20, 538-31-11,
Məsul katib müavinləri	- 539-44-91,	Fotoillüstrasiya şöbəsi	- 538-84-73,
Parlament və siyasət şöbəsi	- 539-84-41, 539-21-00,	Kompüter mərkəzi	- 538-20-87,
İqtisadiyyat şöbəsi	- 538-42-32, 538-35-55,	Mühasibatlıq	- 539-59-33

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə

contact@azerbaijan-news.az
az.reklam@mail.ru

www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti
Tiraj 4410
Sifariş 1175
Qiyməti 60 qəpik